# MÜNDƏRİCAT




3 | İBRAHİM ƏLİYEV:
1980-ci İLLƏRDƏ SSRİ-də Y.ANDROPOV HAKİMİYYƏTİ VƏ ONUN İSLAHATLARI

7 | HİKMƏT BABAOĞLU: DAVAMLI İNKİŞAFIN İNSAN RESURSLARI VƏ İNFORMASİYA TƏMİNATI

11 | TOFİQ NƏCƏFLİ: AZƏRBAYCAN SƏFƏVİ DÖVLƏTİNİN BAYRAQLARINA DAİR

17 | ИРАДА НУРИЕВА: АРМЯНСКАЯ ВОЕННАЯ АГРЕССИЯ – НАРУШЕНИЕ ТЕРРИТОРИАЛЬНОЙ ЦЕЛОСТНОСТИ АЗЕРБАЙДЖАНСКОГО ГОСУДАРСТВА НА ПРИМЕРЕ НАГОРНОГО КАРАБАХА






21 | PƏRVANƏ İBRAHİMOVA, KÖNÜL NIFTƏLIYEVA: “AZƏRBAYCANIN GEOSİYASƏTİ” ƏSƏRİNİN TİPOLOJİ-KONTENT ANALİZİ

25 | ÜLVİYYƏ HAQVERDİ: “AZƏRBAYCANIN İNNOVATİV İNKİŞAFINDA ÇOXPARTİYALILIĞIN FUNKSİYA VƏ MEXANİZMLƏRİNİN POLİTOLOJİ TƏHLİLİ”

29 | VAQİF ABIŞOV: AZƏRBAYCANDA BOLŞEVİK REJİMİNİN QURULMASI MİLLİ TARİXŞÜNASLIQDA (1940-1950-ci illər)





33 | ŞƏHLA GÜLMƏMMƏDOVA: BEYNƏLXALQ TƏHLÜKƏSİZLİYİN MAHİYYƏTİ

36 | MÜSLÜM NƏZƏROV: TƏHSİL MENTALİTETİ METODOLOJİ PARADİQMA KİMİ

39 | ELVİN PAŞAYEV: AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ ENERJİ SİYASƏTİNDƏ GÜNƏŞ ENERJİSİNİN YERİ

43 | LƏMAN QOCAYEVA: CƏNUBİ QAFQAZ RUSİYA FEDERASİYASININ GEOSİYASİ MARAQLARINDA

ictimai - siyasi, elmi - populyar jurnal

48 | MƏHƏRRƏM ZÜLFÜQARLI: XX ƏSRIN OĞUZ DASTANI, “TOPXANA HARAYI” (17 NOYABR-5 DEKABR 1988)

52 | GÜNAY FEYZİYEVA: DÜNYADA MÖVCUD OLAN QLOBAL ENERJİ BÖHRANI



55 | ГЮНЕЛЬ МУСАЕВА: АЗЕРБАЙДЖАН-ВЕЛИКОБРИТАНИЯ: ПЕРВЫЕ ШАГИ СОТРУДНИЧЕСТВА

61 | ATA BABAYEV: QLOBAL TƏHLÜKƏLƏİRN ARTDIĞI ŞƏRAİTDƏ EKOLOJİ-İQTİSADİ SİSTEMİN DAYANIQLI İNKİŞAFININ MÜASİR ASPEKTLƏRİ

65 | ŞƏFƏQ MUSTAFAYEVA: AVROPA İTTİFAQI ÇƏRÇİVƏSİNDƏ FRANSANIN GÜRCÜSTAN DAXİLİ MÜNAQİŞƏNİN TƏNZİMLƏNMƏSİNDƏ ROLU

69 | GÜLBƏS RÜSTƏMOVA: MÜƏSSİSƏNİN MARKETİNQ FƏALİYYƏTİNİN METODOLOJİ YANAŞMALARININ SƏMƏRƏLİLİYİ MƏSƏLƏLƏRİ

73 | GÜNEL MUSAYEVA: AVROPA İTTİFAQININ “ŞƏRQ TƏRƏFDAŞLIĞI” PROQRAMI. BU PROQRAMIN ZƏIFLƏMƏSİNİN SƏBƏB VƏ NƏTİCƏLƏRİ

58 | ŞƏLALƏ MƏMMƏDOVA: SƏNAYE MÜƏSSİSƏSİNİN İSTEHSAL PLANININ OPTİMALLIĞINDA STRATEJİ ANALİZ VƏ PLANLAŞDIRMANIN MÜASİR ASPEKTLƏRİ




*“GEOSTRATEGİYA”* jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən Azərbaycan Respublikasının dissertasiyaların

***Tarix, Antropologiya, Siyasi elmlər, Fəlsəfə, Sosiologiya və İqtisadi elmlər***

üzrə əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına salınmışdır.

GEO STRATEGİYA

Təsisçi:
“Kaspi” Geosiyasi Araşdırmalar Mərkəzi

Baş redaktor:
Əli Həsənov
Redaktor:
İbrahim Əliyev
Redaktor müavini:
İsmayıl Qasımov

Korrektor:
Leyla Binyatova

Dizayner:
İman Hüseynov

Redaksiya heyəti:

Əli Həsənov
Mübariz Qurbanlı
Səlahəddin Xəlilov
Rüstəm Məmmədov
Rasim Musabəyov
Çingiz İsmayılov
Musa Qasımlı
İbrahim Əliyev
Ərəstun Mehdiyev
Cəfər Cəfərov
Elman Nəsirov
Hikmət Məmmədov
Elçin Əhmədov

Ünvan:
Mətbuat pr. 23M. Beynəlxalq Mətbuat Mərkəzinin 4-cü mərtəbəsi.
Tel: (+994 12) 537 16 05
Faks: (+994 12) 537 16 05
E-poçt:
geostrategiya.az@mail.ru
strategiya.az@mail.ru

“Azərbaycan” nəşriyyatının mətbəəsində çap olunmuşdur.

Sifariş № 2567

Redaksiyanın icazəsi olmadan dərgidəki materiallardan istifadə etmək qadağandır.

# Tarix



İBRAHİM ƏLİYEV
Tarix üzrə fəlsəfə doktoru

## 1980-ci İLLƏRDƏ SSRİ-də Y.ANDROPOV HAKİMİYYƏTİ VƏ ONUN İSLAHATLARI



Cəmi 70 ildən bir qədər artıq mövcud olmuş sovet dövlətinin tarixi bu gün də böyük maraq kəsb edir. Onun hər bir dövrünə, konkret məsələlərinə, partiya və dövlətin yeritdiyi xəttə, söykəndiyi prinsiplərə və onların nəzəri əsaslarına tədqiqatçılar və mütəxəssislər, bütövlükdə dünya ictimaiyyəti arasında münasibət birmənalı deyildir. Son yüz ilin ən maraqlı və ziddiyyətli hadisə və proseslərini özündə birləşdirən Sovet dövləti tarix səhnəsindən çıxsa da, hazırkı dövrdə də bu və ya digər formada öz təsirini göstərməkdə davam edir, bəşəriyyətin bundan sonrakı durumunda özünəməxsus izini qoyur. Bu mənada sovet dövlətinin müxtəlif mərhələlərinin araşdırılmasının aktuallığı şübhə doğurmur.

Sovet sisteminin tarixinin ən maraqlı və əhəmiyyətli məsələlərdən biri onun mövcudluğunun son onilliyində baş verən hadisələr və gedən proseslər, həyata keçirilən siyasi xətt, aparılan islahatlardır. Bu məqalədə əsas diqqət 1980-ci illərdə hakimiyyətə gəlmiş Y.Vladimiroviç Andropov və onun komandasının son dərəcə çətin bir ictimai-iqtisadi, siyasi-ideoloji durumda sovet cəmiyyətini və onu əhatə edən sosializm dünyasını iflasdan xilas etmək, onda gedən neqativ proseslərin qarşısını almaq, cəmiyyəti sağlamlaşdırmaq uğrunda apardığı fəaliyyətə yönəlmişdir.

SSRİ-nin siyasi hakimiyyətində əsaslı dəyişikliklərin baş verməsi ilə ciddi islahatların başlamasının eyni vaxta düşməsi təsadüfi deyildi. L.İ.Brejnevin rəhbərliyi dövründə problemlərin qabardılması, onların açıq şəkildə etiqaf edilməsi real deyildi. İctimai-iqtisadi böhranın tədricən kök saldığı şəraitdə problemlər daha çox ört-basdır edilir, ciddi tədbir görülmürdü. Lakin son illərdə artıq bu reallıqları gizlətmək qeyri-mümkün oldu.

L.Brejnevin ölümü ilə ani olaraq vəziyyət dəyişir. Problemləri indiki halda ört-basdır eləmək nəinki heç kimə sərf eləmirdi, eyni zamanda hakimiyyətə yeni gələnlər də bu ağır yüklə ölkənin idarəçiliyini davam etdirməyin mümkünsüzlüyünü başa düşür, bu vaxta qədərki günahların və səhvlərin altına girmək istəməzdilər. Bir sözlə, həm cəmiyyət səviyyəsində, həm də ali hakimiyyətdə ciddi islahatların aparılmasına olan ehtiyac kəskin şəkildə hiss olunurdu. Həm də hakimiyyətin ağırlığını öz üzərinə götürən yeni komanda köhnə siyasətin davam etdirilməsinə, zahiri komfort şəraitini saxlamağa ümid edə bilməzdi. "Durğunluq dövrü" adını almış bir mərhələnin doğurduğu çətinlikləri aradan qaldırmadan davam etmək qeyri-mümkün idi.

Yaranmış vəziyyətin mahiyyətinin cəmiyyət və yeni rəhbərlik tərəfindən dərk edilməsi, onun səbəblərinin araşdırılması və müvafiq qərarların verilməsi mühüm əhəmiyyətə malik idi. Bu mənada yeni hakimiyyət komandasının məsələlərə baxışının



nəzərdən keçirilməsi bir sıra mətləblərə aydınlıq gətirilməsi üçün faydalı olardı. [1]

Əvvəlcədən qeyd etmək lazımdır ki, Y.Andropovun rəhbərliyi altında başlanmış islahatlar sosializmin nəzəri-ideoloji bazasına heç bir təhlükə yaratmırdı. Onlar mövcud kommunist ideologiyasının prinsiplərinə sadiq qalmaqla cəmiyyətin inkişafına təkan verə biləcək tədbirlər həyata keçirməyə çalışırdılar.

Qeyd edək ki, həmin dövr üçün SSRİ-nin potensialı zəifləməmişdi. Onun maddi imkanları, əmək resursları müqayisəyəgəlməz dərəcədə böyük idi. Başlıca problem idarəetmədə, cəmiyyətin ictimai münasibətlər sisteminin inkişafın artan tələblərinə uyğun gəlməməsində, günbəgün daha böyük vüsət alan neqativ proseslərdə ifadə olunurdu. Obyektiv və subyektiv amillərin təsiri altında uzun illər boyu tədricən toplanaraq cəmiyyətin inkişafının tormozuna çevrilmiş ictimai-iqtisadi böhran XX əsrin 80-ci illərində ölkənin varlığını təhlükə altına alan vəziyyətə gətirib çıxarmışdı. [4, s. 9-10]

Əslində sovet rejiminin yarandığı gündən ictimai həyatın bütün sahələrində bəyan edilmiş prinsiplər və nəzəri platforma ilə praktik reallıqlar arasında ziddiyyətlər az və ya çox dərəcədə həmişə mövcud olmuşdur. Uzun illər bu ziddiyyətlər nəinki dəf edilməmiş, zaman keçdikcə daha da dərinləşmiş, mövcud problemlərin kök salmasına, güclənməsinə səbəb olmuşdur. Sovet dövlətinin bütün tarixi ərzində bir neçə dəfə onların həlli üçün cəhdlər edilsə də, dərinə gedilməmiş, o cəhdlər nəticəsiz olmuşdur. 1980-ci illərdə keçirilməsi zəruri olan islahatlar dövlətin öz əsas prinsiplərinə uyğunlaşdırılması, kommunist təbliğatı ilə pərdələndirilən pozuntuların qarşısının alınması, nəzəriyyədə nəzərdə tutulmuş quruluşun normalarının təmin edilməsi vasitəsilə sovet dövlətini, sosializm dünyasını vəd etdiyi standartlara qaytarmaqla xilas etməli idi. Y.Andropovun başladığı islahatlar həmin cəhdin yalnız başlanğıcı idi. Onun əsaslı nəticə verməsi üçün o davam etdirilməli və qətiyyətlə başa çatdırılmalı idi.

Özünün 1982-ci ilin noyabr plenumundakı çıxışında Baş katib diqqəti təsərrüfatın intensiv inkişaf relsinə keçirilməsinin, onun səmərəliliyinin artırılmasının vacibliyinə yönəldir. [2. s.12; 3, s.8] Hakimiyyətinin ilk günlərində deyilən bu fikirlər onun islahatlarının niyyətlərindən xəbər verirdi. Lakin daha konkret planlar və onların istiqamətləri bir qədər sonra daha dəqiq formada ortaya qoyulur və praktik addımlar atılırdı. 1983-cü ilin əvvəllərindən hazırlanan iqtisadi islahatlara start verilmişdi. 28 iyun 1983-cü ildə Nazirlər Sovetinin qəbul etdiyi "Sosialist əmək intizamını möhkəmləndirmək işinin gücləndirilməsi haqqında" qətnamə ilə əmək intizamını möhkəmləndirmək üçün ölkə miqyasında reydlər və kampaniyalara başlanıldı.

İslahatlarda bir neçə istiqaməti aydın şəkildə müşahidə etmək mümkün idi. Fundamental xətt ölkədə zamanın tələblərinə cavab verməyən təsərrüfat mexanizminin təkmilləşdirilməsi, onun dinamizminin artırılması, bu yolla təsərrüfatın ritmik inkişafına nail olunmasına yönəlmişdi. İctimai mülkiyyətin toxunulmazlığının tərəfdarı olan yeni hakimiyyət eyni zamanda bu mülkiyyət çərçivəsində müxtəlif maraqların ön plana çəkilməsinin vacibliyini vurğulayırdı, xüsusən fərdi maraqların diqqət mərkəzinə gətirilməsini vacib hesab edirdilər. "Bizim xalq təsərrüfatının mexanizminin təkmilləşdirilməsinin vacib vəzifələrindən biri maraqların dəqiq uçotunu təmin etmək, onların ümumxalq maraqları ilə optimal dərəcədə uyğunlaşdırılmasına nail olmaq və beləliklə, onları sovet iqtisadiyyatının artmasının hərəkətverici qüvvəsi kimi istifadə etmək, onun səmərəliliyini, əmək məhsuldarlığını yüksəltmək, sovet dövlətinin iqtisadi və müdafiə qüdrətini möhkəmləndirməkdir"- məqalədə qeyd olunurdu. [1. s.237]

Konkret olaraq islahatların ilk addımları kimi iqtisadiyyatda yeni münasibətlər sistemini yaratmaq, zəhmətkeşlərin müəssisələrin həyatında, gəlirlərinin bölüşdürülməsində, işlərinin planlaşdırılmasında maraqlarının artırılması, səlahiyyətlərinin və məsuliyyətlərinin artırılması üçün yeni qaydalar tətbiq edilməyə başlandı. 14 iyul 1983-cü ildə hökumətin "İstehsalat birliklərinin (müəssisələrin) planlaşdırmada və təsərrüfat fəaliyyətində hüquqlarının genişləndirilməsi və işin nəticələrinə görə onların məsuliyyətinin artırılması üzrə əlavə tədbirlər haqqında" qərarı qəbul edilir.

Başlanan işi ardıcıl, məqsədyönlü şəkildə aparmaq, onlarının səmərəliliyini təmin etmək üçün ciddi iqtisadi eksperimentlərin əsası qoyuldu. Bunun üçün ilk növbədə eksperimental qaydada müəssisələr seçilir, onlar təsərrüfat hesablı fəaliyyət qaydasına keçirilir, həmin müəssisələrin kollektivi onun idarəedilməsinə, o cümlədən maliyyə məsələlərinin həllinə, gəlirlərin xərclənməsinin istiqamətlərinin müəyyənləşdirilməsinə bu və ya digər dərəcədə cəlb olunurdular. Elə həmin vaxt eksperimentə rəhbərlik etmək üçün xüsusi komissiya təşkil edilir. 1984-cü ilin yanvarından ittifaq sənaye və energetika nazirliklərinin əksəriyyəti, habelə bir sıra müttəfiq respublika nazirlikləri yeni eksperimentin tələblərinə uyğun iş şəraitinə keçirildilər. Sonrakı bir neçə ildə eksperimentin əhatə dairəsi xeyli genişləndirilirdi. Eksperiment 1986-87-cı illərə qədər davam etdirilmişdi. Nəzərdə tutulan səviyyədə olmasa da müəyyən irəliləyişlər əldə edilmişdi.

Y.Andropov 1983-cü ilin dekabr plenumuna ünvanladığı çıxışında qeyd edirdi ki, idarəetmənin və planlaşdırmanın vacib əlaməti onun mövcud duruma uyğun gəlməsində, zamanın tələbi ilə dəyişərək hər bir mərhələnin şəraitinə uzlaşmasındadır. Lakin o, hesab edirdi ki, istənilən halda partiya və dövlətin bu mexanizm üzərində nəzarəti – demokratik mərkəziyyət prinsipi qorunub saxlanmalıdır. Bununla da o, düşünülmüş islahatın sovet dövlətinin təməl prinsiplərinə zidd olmadığını və onun başlıca prinsiplərinə əməl etdiyini bir daha göstərirdi. [4, s.9-10;5. s.21]

Y.Andropov hesab edirdi ki, yaranmış böhranlı vəziyyətin başlıca səbəblərindən biri bu vaxta qədər aparılan iqtisadi siyasətdə onun təməl prinsiplərindən uzaqlaşılması, ona yad olan metodlarla idarə olunmasına cəhdlər olmuşdur. Buna görə də iqtisadiyyatın idarəedilməsində müxtəlif maraqların nəzərə alınmasının zəruriliyi vurğulanırdı. [1, s.236; 6, s.9]

Real praktikada isə müəssisələrin özünüidarə hüquqlarının

artırılması, hər bir işçinin hüquqlarının tanınmasının təmin edilməsindən danışılsa da, islahatların gedişində əmək kollektivinə prinsipial məsələlərin, o cümlədən maliyyə məsələlərinin həllində fikir söyləmək, müzakirə edərək təkliflər vermək hüququndan irəli gedilmirdi. Düzdür, islahatlar nəzərdə tutulduğu kimi davam etdirilsəydi, ola bilər ki, bu məsələdə irəliləyiş mümkün olardı. Lakin reallıqda islahatın gedişinin zəifləməsi və qətiyyətinin azalması növbəti dərinləşmələrə də imkan vermədi. Qeyd edək ki, söhbət sovet dövlətinin bütün varlığı dövründə vaxtaşırı ortaya çıxan və çoxsaylı iqtisadi problemlərin əksəriyyətinin səbəbləri sırasına çıxan maddi maraq prinsipinin nəzərə alınmasından gedirdi.

İslahatların vacib istiqamətlərindən biri partiya və dövlət orqanlarında aparılan kadr dəyişikliklərini, onların öz vəzifələrində buraxdıqları səhvlərin və cinayət əməllərinin aşkar edilməsini, hakimiyyət və idarəetmə sistemində yaranmış ətaləti, durğunluğu və süründürməçiliyi aradan qaldırmağa, idarəetmə sistemini canlandırmağa və təmizləməyə yönəlmişdi. İlk növbədə partiya, dövlət hakimiyyəti strukturlarında böyük “təmizləmə” işlərinə başlanıldı. Möhtəkirliyə, qanunsuz gəlir mənbələrinə, korrupsiya və rüşvətxorluğa qarşı mübarizə gücləndirildi. Yeni tələblərə uyğun gəlməyən rəhbər işçilər vəzifələrindən uzaqlaşdırıldı. Y.Andropovun hakimiyyətdə olduğu 15 ay ərzində təkcə SSRİ–nin ittifaq hökumətinin 18 naziri, 37 vilayət partiya komitələrinin Birinci katibləri dəyişdirilmişdi. Mərkəzi Komitəyə və Siyasi Büroya yeni qüvvələr cəlb olunmuşdu. [7. s.418]

Hakimiyyət eşalonunda qısa müddət ərzində bu qədər radikal dəyişikliklər vəziyyətin ciddiliyindən və aparılan islahatların qətiyyətindən xəbər verirdi. Eyni proses müttəfiq respublikaların partiya və hökumət strukturlarında da daha geniş miqyasda davam edirdi. Kadr siyasətində atılan radikal addımlar qısa müddətdə olsa da, neqativ prosesləri ləngitməyə, müxtəlif sahələrdə irəliləyişlərə gətirib çıxarırdı. Lakin iqtisadi islahatlarda olduğu kimi, kadr siyasətində də radikal dəyişikliklərin ömrü çox uzun olmadı.

Yuri Andropov əsrində SSRİ-nin xarici siyasətində xarici dövlətlərlə münasibətlərin yaxşılaşdırılmasına cəhdlər edilsə də, bu sahədə vəziyyət daha da gərginləşdi. Bunun başlıca səbəblərindən biri də SSRİ-də böhranın kəskinləşdirilməsinə yönəlmiş siyasətin gücləndirilməsi idi. Bu siyasət təkcə haqqında danışılan illərin törəməsi deyildi, ABŞ başda olmaqla Qərb dövlətlərinin SSRİ və dünya sosializm dünyası ilə uzun illər boyu apardığı məqsədyönlü siyasətin yekun mərhələsinə daxil olması ilə bağlı idi. Əslində Qərbin SSRİ-dəki sosial-iqtisadi böhranın dərinləşməsi və mövcud vəziyyətə gətirib çıxmasında aparılan “soyuq müharibənin” rolu kifayət qədər böyük idi.

Qısa müddətdə aparılan işlərin ilkin nəticələri özünü çox gözlətmədi. Cəmiyyətdə əhali arasında böyük bir canlanma müşahidə edilirdi. İnsanlar bu vaxta qədər yığılıb qalmış problemlərin aradan qaldırılmasına, korrupsiyaya və rüşvətxorluğa, məmur özbaşınalığına son qoyulmasına, dövlət əmlakının talan edilməsinin qarşısının alınmasına böyük ümidlər edir, başlanmış islahatları həvəslə müdafiə edirdilər. Ölkənin əksər əhalisi tədbirlər zamanı qoyulan məhdudiyyətlərin zəruriliyini başa düşür və müdafiə edirdilər. Ölkənin təsərrüfat həyatında baş verən canlanma onun nəticələrində də dərhal müşahidə olundu. Lakin bu yüksəlişin müddəti uzun olmadı. Baş katibin səhhətində olan problemlər bu işləri eyni intensivliklə və ardıcıllıqla aparmağa imkan vermədi. İslahatlar çərçivəsində atılan ilk addımlar dərinləşdirilməyi, sürətləndirilməyi və qətiyyətlə davam etdirilməyi tələb edirdi. Lakin ölkədə yaranmış vəziyyət nəticəsində, xüsusən Baş katibin ölümü və yeni təyinatlar, hakimiyyət davası başlanmış işi enmə, zəifləmə istiqamətinə yönəldirdi. Belə bir vəziyyətdə hakimiyyət uğrunda gedən mübarizə cəmiyyət üçün son dərəcə böyük əhəmiyyət kəsb edən işləri arxa plana sıxışdırdı. Baxmayaraq ki, islahatlar davam edirdi, amma zaman keçdikcə o öz effektini tədricən itirirdi.

Bu anda diqqəti bir qədər Andropov islahatlarının əsasında duran fundamental məqamların üzərində dayanmaq istərdik. Hər şeydən öncə bir daha qeyd etmək istərdik ki, haqqında danışılan islahatlar bir sıra obyektiv və subyektiv səbəblər üzündən gözlənilən nəticəni vermədi. Müasir dövrdə müxtəlif tədqiqatlarda Andropov islahatlarının iflası səbəblərinə münasibət fərqlidir. Bir sıra müəlliflər islahatların iflasının səbəbini Y.Andropovun xəstələnərək tam gücü ilə işləyə bilməməsində və hakimiyyətinin ömrünün qısa olmasında görürlər. Hətta belə hesab edirlər ki, o, hakimiyyətdə daha çox müddətdə olsa idi, qoyduğu məqsədlərinə nail olardı və SSRİ-ni və sosializm dünyasını iflasdan xilas edə bilərdi. Bu, nə dərəcədə həqiqətə uyğun idi?

Y.Andropovun islahatlarının gözlənilən nəticələrə gətirib çıxarmamasının səbəbləri kifayət qədər çoxdur. Hər şeydən öncə onu qeyd etmək vacibdir ki, ilk baxışda vəziyyətin ciddiliyi olduğu kimi təsəvvür edilməsə də, ölkədəki böhran çox dərinə getmişdi və onu qısa müddətdə yalnız kiçik bir komandanın gücü ilə aradan qaldırmaq mümkün deyildi. Buna görə də islahatların iflasından danışarkən də, ilk diqqəti cəlb edən amil onun başlandığı işlərin ömrünün qısamüddətli olması, Baş katibin özünün səhhətində yaranmış problemlər üzündən tədbirlərin qətiyyətlə aparıla bilməməsi olur. Belə bir qlobal dəyişiklik gündəlik gərgin iş, cəmiyyətin tam səfərbər edilməsini tələb edirdi. Lakin cəmiyyət həmin vaxt üçün artıq, təsəvvür edildiyi kimi birtipli deyildi. Uzun illər davam edən neqativ proseslər cəmiyyətin içində fərqli mövqedə duran, hətta sovet quruluşuna və dəyərlər sisteminə düşmən münasibət bəsləyən qüvvələrin formalaşmasına səbəb olmuşdu.

İqtisadiyyatda onun inkişaf qanunlarına zidd olan idarəçilik cəhdləri onun bürokratik əngəllərlə buxovlamış, o dövrün sözləri ilə desək, totalitar sistemin kök salmasına gətirib çıxarmışdı. Onu dəyişmək üçün isə məsələyə fərqli yanaşma, cəsarətli addımlar tələb olunurd. Lakin Y.Andropovun və onun ətrafının çıxışlarından göründüyü kimi, onlar sovet sisteminin əsas prinsiplərinə hər hansı dəyişiklik etməkdən, ondan bir addım belə çəkinməkdən qorxurdular. Ciddi dəyişikliklərin zəruriliyindən rəsmi məclislərdə qeyd olunsa da, onun tətbiqində sözdən qabağa gedilmədi. “Marksın təlimi və SSRİ-də sosializm quruculuğunun bəzi məsələləri” məqaləsində Y.Andropov vurğulayırdı ki, iqtisadi qanunların obyektiv xarakteri iqtisadiyyatın ona yad olan metodlarla idarə edilməsi cəhdlərindən uzaqlaşmaq tələb olunur. [1. s..236] Lakin islahatın gedişində bu məsələ demək olar ki, həll olunmamış qaldı. Eyni zamanda idarəetmədə belə fundamental dəyişiklikləri qısa müddətdə həyata keçirmək mümkün deyildi.




Sovet dövlətinin başlıca problemlərinin biri milli münasibətlər sistemində yaranmış ənənəvi siyasət idi. Kommunist ideologiyasının səyləri ilə həll olunmuş məsələ kimi təqdim edilən milli məsələ özündə gizli narazılıq potensialını qoruyub saxlayırdı. Təsadüfi deyildi ki, bir qədər sonra SSRİ-nin iflasında bu amil geniş şəkildə öz rolunu oynadı.

Xüsusi olaraq xarici təsir amilini qeyd etmək istərdik. Məlumdur ki, yarandığı gündən kapitalizm dünyası ilə ölüm-dirim müharibəsi aparan sovet dövləti fasiləsiz olaraq müxtəlif xarakterli təzyiqlərə məruz qalır, bu qarşıdurmaya öz potensialının böyük hissəsini sərf edirdi. Bütün bunlarla yanaşı iflas ərəfəsində sovet dövlətində ictimai həyatının bütün sahələrində yaranan problemlər, zəifləmələr Qərb təsirinin dağıdıcı təsirinə daha geniş yol açır, onun zərbələrinin gücünü daha da artırırdı. Sosializm dünyasına günbəgün daha çox nüfuz edən Qərb ilk "uğurlarını" digər sosialist ölkələrində əldə edir, bütövlükdə sosializm dünyasını zəiflədirdi. Bu cəhdlərə Qərbin dağıdıcı təsirinin digər formalarını da əlavə etsək, iflas ərəfəsində sosializ dünyası və onun başlıca qalası olan SSRİ-nin vəziyyətinin ciddiliyini daha aydın təsəvvür etmək olar.

Bütün bu amillər fonunda belə bir nəticəyə gəlmək olar ki, 1980-ci illərin əvvəllərində Y.Andropovun başlamış olduğu islahatlar ölkənin və sosializm dünyasının iflasdan qurtarılması üçün əhəmiyyətli olsa da, onun uzunmüddətli davamını və qətiyyəti tələb edirdi. Lakin onun qısamüddətli olması məsələnin taleyini həll etmiş oldu.

İslahatlarda sovet adamları dövlətdə kök salmış neqativ tendensiyaların aradan qaldırılmasına, ədalətin bərqərar olmasına, ümumxalq mülkiyyətinin talan edilməsinə son qoyulmasına, millətlərin hüquqlarının həqiqətən təmin edilməsinə ümid edirdilər. Buna görə də insanlar həmin islahatları ürəkdən müdafiə edir, onun reallaşmasını arzulayırdılar. Lakin Y.Andropovun başlamış olduğu bu islahatla onun ölümündən sonra öz qətiliyini itirdi və cəmiyyətin geriləməsinə yenidən yol açdı. İslahatlar ola bilərdi ki, gözlənilən nəticələri versin. Bu isə ən azı sovet rejiminin daha sivil yolla dəyişməsinə, millətlərin öz suverenliyinə daha sivil yolla qovuşmasına şərait yaradardı. Lakin islahatların yarımçıq qalması sonradan baş vermiş faciəli proseslər üçün yol açdı.

## ƏDƏBİYYAT

*1. Андропов Ю. В. Избранные речи и статьи. М., 1983*

*2. Андропов Ю. В. Шестьдесят лет СССР: доклад на совместном торжеств, заседании Центрального Комитета КПСС, Верховного Совета СССР и Верховного Совета РСФСР в Кремлевском Дворце съездов 21 декабря 1982 г. М., 1982.*

*3. Материалы Пленума Центрального Комитета КПСС, 22 ноября 1982 г. М., 1982*

*4. Материалы Пленума Центрального Комитета КПСС, 14-15 июня 1983 г. М, 1983*

*5. Материалы Пленума Центрального Комитета КПСС, 26-27 декабря 1983 г. М, 1984*

*6. Всегда в строю! Встреча в ЦК КПСС с ветеранами партии 15 августа 1983 г. М., 1983*

*7. На пороге кризиса: нарастание застойных явлений в партии и обществе. М., 1990.*

***Açar sözlər:*** *Yuri Adropovun islahatları; SSRİ-nin iflası; sovet cəmiyyəti; sosializm dünyası; 1980-cı illər*

***Ключевые слова:*** *Юрий Андропов; распад СССР; советское общество; мировой социалистический лагер; 1980 гг.*

***Key words:*** *Yuri Andropov; the collapse of the USSR; Soviet society; the world socialist camp; 1980*

**РЕЗЮМЕ**

**Ибрагим Алиев**

**Правление Ю.Андропова и еро реформы в 1980 гг.**

В статье рассматривается один из важнейших вопросов истории советского государства. Кратковременный период правления Юрия Андропова и осуществляемая им реформа всех сфер жизни общества с целбю вывода страны из глубокого кризиса представляет большой интерес на современном этапе. Освещается основные этапы, цели и задачи, послествия проводимых реформ, анализируерся причины его провала.

**SUMMARY**

**Ibrahim Aliyev**

**The rule of Y. Andropov and the reforms in the 1980s**

The article considers one of the most important issues in the history of the Soviet state. Short-term period of the reign of Yuri Andropov and the reform he has implemented, all spheres of society's life from the goal of the country's withdrawal from a deep crisis is of great interest at the present stage. The main stages, goals and objectives, the consequences of the ongoing reforms are discussed, and the reasons for its failure are analyzed.

# Cəmiyyət

# DAVAMLI İNKİŞAFIN İNSAN RESURSLARI VƏ İNFORMASİYA TƏMİNATI

HİKMƏT BABAOĞLU
Milli Məclisin deputatı,
siyasi elmlər doktoru, professor



## DAVAMLI İNKİŞAFIN MƏQSƏDİ VƏ ƏSAS PRİNSİPLƏRİ

"Davamlı inkişaf" termini ötən əsrin 80-ci illərindən başlayaraq iqtisadi, sosial leksikona daxil oldu. Davamlı inkişafla bağlı BMT tərəfindən 1992-ci ildə Rio de Janeyro şəhərində keçirilən konfransda bu konsepsiyanın əsas istiqamətləri müəyyənləşdirildi, XXI əsrdə dünya ölkələrinin iqtisadi, sosial və ekoloji aspektlərini əhatə edən davamlı inkişaf konsepsiyasının hazırlanması zərurəti dilə gətirildi. Sonrakı mərhələdə müxtəlif dövlətlər tərəfindən ayrılıqda, o cümlədən ayrı-ayrı beynəlxalq tədbirlərdə bu konsepsiyanın başlıca istiqamətləri diskussiya predmetinə çevrilməklə insanların qlobal kontekstdə öz gələcəklərini müəyyənləşdirməsi üçün yeni müzakirə platforması yaratmış oldu. Hazırda bunu zəruri edən çoxsaylı şərtlər mövcuddur. Çünki dünyada sosial, iqtisadi inkişaf qeyri-proporsional şəkildə mövcuddur və fərqli mədəni-siyasi coğrafiyalarda müxtəlif kəmiyyət və keyfiyyət göstəricilərinə sahibdir. Ancaq buna baxmayaraq, hər nə qədər siyasi-coğrafi fərqlilik olsa belə, problemin mövcudluğu qloballaşan dünyada ümumi problem yaradır. Bu, həm sosial, həm də iqtisadi müstəvidə müşahidə edilir və müəyyən inkişaf mərhələsindən sonra qlobal ekoloji müstəviyə transfer olunur. Bu səbəbdən bütün bəşəriyyət üçün aktual olan davamlı inkişaf konsepsiyası ümumi məqsədlərə xidmət edən qlobal konsepsiya səciyyəsi daşımalıdır. Bu kontekstdə əsas məqsədlər sırasında yoxsulluğun azaldılması, ərzaq təhlükəsizliyinin təmin edilməsi, eyni zamanda, bu prosesdə əsas qayələrdən biri də insanların texniki və texnoloji vasitələrlə təminatına nail olnması və ekoloji problemlərin birgə həll edilməsidir. Burada başlıca məqam növbəti nəsillərin də inkişafını təmin etmək üçün ciddi sosial, iqtisadi və ekoloji zəmin hazırlamaqdır.

## İNSAN RESURSLARI DAVAMLI İNKİŞAFI TƏMİN EDƏN BAŞLICA FAKTOR KİMİ

Əlbəttə, davamlı inkişafın təmin olunmasında insan resursları özünəməxsus əhəmiyyətə malikdir. Çünki iqtisadi, sosial və texnoloji resursları yaradan məhz insan faktorudur. Paralel olaraq isə iqtisadi, sosial və ekoloji inkişafı təmin edən amil müxtəlif etno-siyasi coğrafiyaları əhatə edən fiziki resurslardır. Amma fiziki resurslar potensialdır, yəni onların istismarı və bu resurslardan səmərəli istifadə məhz insan faktoru ilə bilavasitə bağlıdır. Doğrudur, bəzi hallarda bu resurslardan istifadə forması sosial bərabərliyə yox, məhz sosial fərqliliyə xidmət edir. Məsələn, neft, qaz kimi karbohidrogen ehtiyatları ilə, uran,

almaz, qızıl yataqları kimi yeraltı sərvətlərlə zəngin olan ayrı-ayrı etno-siyasi coğrafiyalarda bu resurslar sosial bərabərlik və davamlı inkişaf yaratmaq əvəzinə bəzi hallarda sosial fərqlilik inkişafa mane olan digər neqativ hallara gətirib çıxarır. Hətta davamlı inkişafı təmin edən amillərdən biri olan ekoloji tarazlıq və təhlükəsizliyi də pozur.

Beləliklə, davamlı inkişafı təmin edən başlıca amil kimi insan resursları çıxış edir. İnsan resursları vasitəsilə mövcud ehtiyatlardan səmərəli istifadə olunması sosial, iqtisadi və ekoloji ahəngdarlığı təmin etməklə davamlı inkişafı şərtləndirməlidir (3).

## SOSİAL, İQTİSADİ VƏ EKOLOJİ PROBLEMLƏRİN HƏLLİNDƏ İNFORMASİYA MÜBADİLƏSİ VƏ TƏMİNATI



Davamlı inkişafın təmin olunmasında insan resursları və onun keyfiyyətindən danışarkən maarifləndirmə və informasiya mübadiləsi məsələsinə də nəzər salmaq lazımdır. Hazırda elmi, iqtisadi, texniki, texnoloji informasiyaların qarşılıqlı çatdırılması – paylaşılması məsələsi olduqca aktualdır. Media vasitəsilə informasiya mübadiləsi və təminatı olmadan insan resurslarının inkişafına nail olmaq olmaz, bu isə öz növbəsində davamlı inkişafa ciddi maneələr yaradar.

Postmodernist cəmiyyətlərdə media əlahiddə statuslu – xüsusi institut kimi çıxış etməklə müxtəlif funksiyalar yerinə yetirir. Bu sırada başlıca funksiya kimi marrifləndirmə göstərilir. Maarifləndirmə isə öz növbəsində informasiya təminatına və ya məlumat ehtiyacını ödəməyə xidmət edir. Bu funksiya, eyni zamanda, davamlı inkişafın qarşıya qoyduğu məqsədləri təmin etmək üçün insani resurslarda yeni ideya – fikir istehsalı yaradan vasitə kimi çıxış edir. Bunlarla yanaşı, media platformasının genişlənməsi – internetdən, sosial şəbəkələrdən istifadənin sürətlə artması, transmilli medianın fəaliyyətinin güclənməsi informasiyanı daha asan əldə etməyə imkan yaradır (2, 26). Bu müstəvidə informasiya mübadiləsini asanlaşdıran ümumi dil platforması da mövcuddur. Yəni aparıcı informasiya vasitəsilə xüsusi tərcümə proqramlarından istifadə etməklə məlumat mübadiləsi, informasiya əldə etmək, onu yaymaq kimi məsələləri daha da asanlaşdırır. Bu isə davamlı inkişaf prosesində informasiya resurslarından səmərəli istifadəyə, o cümlədən informasiya mübadiləsinə təkan verir.

Beləliklə, həm media institutu, həm də informasiya resursları davamlı inkişaf prosesində mövcud olması zəruri olan başlıca şərtlər sırasında yer alır.

## QLOBALLAŞMA ŞƏRAİTİNDƏ DAVAMLI İNKİŞAFIN PERSPEKTİVLƏRİ VƏ MEDİA

Qloballaşma və davamlı inkişaf bir-birini qidalandıran iki başlıca amil kimi çıxış edir. Yəni qloballaşma prosesi öz növbəsində davamlı inkişafı zəruri edir, davamlı inkişaf isə qloballaşmanı şərtləndirir. Ona görə də qloballaşmanın meydana çıxardığı problemlərin davamlı inkişafa təsiri ayrıca öyrənilməlidir. Qloballaşma tərəfdarları və bu prosesi diqtə edən Qərb sosial, iqtisadi və ekoloji məsələlərin həllində səmimi olmalıdır, əks təqdirdə, bəhs olunan sahələrdə ortaya çıxacaq problemlər həm qlobal miqyasda, həm də Qərb ölkələrinin özü üçün ciddi təhlükələr yaradacaq, üstəlik, bu, davamlı inkişaf prosesinə ciddi zərbə vuracaqdır (1, 214). Bir çox hallarda Qərbin "rifah istehsal edən" iqtisadi institutları ayrı-ayrı milli dövlətlərə qarşı istismarçı mövqe tutmaqla onların resurslarından daha çox gəlir əldə edirlər. Bu prosesdə texniki, texnoloji və ekoloji tələblər yerinə yetirilmədiyi üçün meydana çıxan iqtisadi və ekoloji problemlər nəinki resursları istismar edilən həmin ölkələrə, eləcə də Qərbin özünə ciddi təhlükələr yaradır. Ona görə də ABŞ başda olmaqla bir sıra inkişaf etmiş Qərb dövlətləri, həmçinin Çin ekoloji problemləri yaradan əsas sənaye bölgələri kimi çıxış edirlər. Dolayısıyla, ekoloji problemlər davamlı inkişaf üçün zəruri olan sosial və iqtisadi faktorların da deqradasiyasına səbəb olur.

Əlbəttə, bu prosesdə media institutunun üzərinə böyük məsuliyyət düşür. Belə ki, media problemləri yaradan səbəbləri obyektiv şəkildə ortaya qoymaqla maarifləndirmə funksiyasını yerinə yetirməli və qlobal miqyasda davamlı inkişaf prosesinə təkan verməlidir. Amma bir çox hallarda biz bunun əksini müşahidə edirik: transmilli media qurumları məsələyə şəffaf və obyektiv yanaşmır. Çünki həmin media qurumları bu problemləri yaradan Qərbin nəzarətindədirlər və adekvat yanaşma – ədalətli mövqe sərgiləyə bilmirlər.

## POSTMODERNİST CƏMİYYƏTDƏ DAVAMLI İNKİŞAF: AZƏRBAYCAN TƏCRÜBƏSİ

Azərbaycan davamlı inkişaf konsepsiyasını mənimsəyən və bu kontekstdə milli platformada xüsusi proqram qəbul edən ölkələrdəndir. Davamlı inkişafı zəruri edən üç əsas prinsiplə bağlı (iqtisadi, siyasi və ekoloji) özünəməxsus proqram və konsepsiyası var. Bundan başqa, davamlı inkişaf siyasəti daha çox insan resurslarının inkişaf etdirilməsi, yoxsulluğun azaldılması və digər sosial, iqtisadi və ekoloji xarakterli istiqamətləri ehtiva edir. Ölkədə reallaşdırılan dövlət proqramları, müxtəlif layihələr, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası Azərbaycanda sosial prioritetlərin əsas tutulduğu rasional və innovativ inkişaf strategiyasının seçilməsinin göstəricisidir (4). Məhz bu konseptual yanaşma davamlı inkişaf siyasəti kontekstində ardıcıl nailiyyətlərin əldə edilməsini




şərtləndirib. Təsadüfi deyil ki, 2015-ci ilin qiymətləndirməsinə əsasən, Azərbaycan Qlobal Enerji Səmərəlilik İndeksinə görə bir sıra inkişaf etmiş ölkələri üstələyərək 33-cü yerdə qərarlaşıb. Bu nəticə Dünya İqtisadi Forumunun dərc edilmiş məlumatları əsasında hazırlanan beynəlxalq hesabatda öz əksini tapıb. Hesabatda Azərbaycan Yaponiya ilə eyni göstəricilərə malikdir. Cədvələ görə, ABŞ 37, Avstraliya 38, Rusiya 39, Sinqapur 44-cü yerdədir. Qiymətləndirmə davamlı inkişaf üçün əhəmiyyətli olan 18 meyar əsasında aparılıb. Bu göstəricilər üç qrupa aiddir: iqtisadi artım və inkişaf, ətraf mühitin və onun keyfiyyətinin idarə edilməsi, enerji mənbələrinə çıxış və onların təhlükəsizliyi. Davamlı inkişaf üçün önəmli olan bu tədqiqat 125 ölkədə enerjidən istifadənin səmərəliliyini qiymətləndirmək üçün həyata keçirilib (6).

Azərbaycanda davamlı inkişaf konseppsiyası çərçivəsində diqqət mərkəzində saxlanılan məsələlərdən biri də insan resurslarının inkişaf etdirilməsidir. Bu siyasətin əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Bu istiqamətdə həyata keçirilən tədbirlər çox zaman dünyada gedən prosesləri qabaqlayır, bir çox hallarda inkişaf etmiş ölkələr üçün nümunə göstərilirdi. Məsələn, Ümummilli lider Heydər Əliyev tərəfindən təsdiq edilmiş təhsil strategiyasına görə, Azərbaycan Respublikasında davamlı insan inkişafı fənninin orta ümumtəhsil məktəblərinin proqramlarına daxil edilməsi prosesinə 2001-ci ildə başlanıb və bu, Təhsil Nazirliyinin 2001-ci il 14 sentyabr tarixli 964 nömrəli əmrində öz əksini tapıb. 2003-cü ildə Azərbaycanda orta məktəblər üçün davamlı insan inkişafına dair dünyada ilk tədris proqramı və dərs vəsaiti dərc edilib. Bu sahədə Azərbaycanın birinciliyi barədə məlumat BMT-nin Nyu-Yorkda yerləşən Baş Qərargahı tərəfindən dünyaya "innovativ ideya və fəaliyyət" kimi yayılıb. Qlobal miqyasda isə bu prosesə 4 il sonra - 2005-ci il martın 1-də BMT-nin baş katibi Kofi Annan və UNESCO-nun baş direktoru Koişiro Matsuura arasında imzalanan sənədlə təkan verilib. Bu sənədlə 2005–2014-cü illər dünya üzrə davamlı inkişaf sahəsində tədris onilliyi elan edilib (4).

Beynəlxalq standartlara əsasən innovativ tərəqqinin əsas və həlledici amili olan insan potensialının inkişaf səviyyəsini qiymətləndirmək, insan inkişafı əmsalını hesablamaq üçün sağlamlıq, təhsil və adambaşına düşən ümumi daxili məhsul (ÜDM) əsas götürülür. Bu baxımdan qeyd edə bilərik ki, Azərbaycanda müasir idman və səhiyyə ocaqlarının yaradılması, tədris şəbəkəsi və təhsil sisteminin modernləşdirilməsi, ÜDM-in artması, yoxsulluğun azaldılması və digər amillər davamlı inkişaf sahəsində həyata keçirilən uğurlu siyasətin səmərəliliyindən xəbər verir. Təsadüfi deyil ki, BMT-nin rəsmi hesabatlarında Azərbaycan hazırda insan potensialının inkişafı sahəsində yüksək nəticələr əldə etmiş ölkələr qrupuna aid edilir. Xüsusilə də Azərbaycanda həyata keçirilən uğurlu sosial-iqtisadi kurs sayəsində yoxsulluğun azaldılması davamlı inkişaf baxımından beynəlxalq miqyasda yüksək qiymətləndirilir. Əlbəttə, Azərbaycanda 2004-cü ildən indiyə qədər yoxsulluğun 49 faizdən 5 faizə enməsi olduqca təqdirəlayiqdir (5).

Bununla yanaşı, Azərbaycanın ekoloji təhlükəsizlik

konsepsiyası da davamlı inkişafa hədəflənmiş yeni yanaşmaları özündə ehtiva edir. Başqa sözlə, Azərbaycanda davamlı inkişaf konsepsiyasının müddəalarına uyğun olaraq iqtisadi inkişafın ekoloji tarazlıqla vəhdət təşkil etməsi diqqət mərkəzindədir. Bu istiqamətdə qəbul edilmiş proqramların əsas məqsədi ölkə iqtisadiyyatının, xüsusilə qeyri-neft sektorunun dinamik inkişafına, əhalinin iqtisadi və sosial tələbatının daha dolğun təmin olunmasına, regionların inkişafına, ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsinə, ətraf mühitin mühafizəsinə yönəldilmiş investisiya layihələrinin həyata keçirilməsindən ibarətdir (7).

Beləliklə, davamlı inkişaf siyasəti sahəsində Azərbaycan təcrübəsi həm universal, həm də unikal səciyyə daşıyır, bu istiqamətdə əldə edilən nəticə və nailiyyətlər beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. Yekun qənaət budur ki, Azərbaycan təcrübəsi bu sahədə mütərəqqi nümunələrdən biri olmaqla qlobal çağırışlar və tələblərə cavab verir.

## HİBRİD MÜHARİBƏLƏR VƏ İMPERİALİST SİYASƏT DAVAMLI İNKİŞAFA BAŞLICA TƏHDİD KİMİ



Davamlı inkişafı təhdid edən əsas məsələlərdən biri müharibələrdir. Ötən əsrin 80-ci illərinin sonunda davamlı inkişaf aktual müzakirə predmetinə çevrilsə də, 2001-ci ildən başlayaraq bu prosesə neqativ təsir göstərən başqa bir amil – müharibə faktoru ortaya çıxdı. İmperialist Qərbin Şərqdə apardığı müharibələr davamlı inkişaf prosesi çərçivəsində əldə edilmiş nailiyyətlərə ciddi zərər yetirdi, hətta ayrı-ayrı sahələrdə davamlı inkişaf dinamikasının zəifləməsinə səbəb oldu. Bundan başqa, XX əsrin 90-cı illərinin əvvəlindən postsovet məkanında meydana çıxan münaqişələr də davamlı inkişaf prosesinə çox ciddi şəkildə neqativ təsir göstərdi. Bu münaqişələrə rəğmən, yoxsulluğu aradan qaldırmaq, insanların sosial rifahını yaxşılaşdırmaq və digər məsələlər asan deyil. Ərazisinin 20 faizi Ermənistan tərəfindən işğal edilmiş, 1 milyondan çox qaçqın və məcburi köçkünü olan Azərbaycan da bu problemlə qarşı-qarşıyadır. Azərbaycan hökuməti erməni işğalı nəticəsində qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş vətəndaşlarımızın problemlərinin həlli istiqamətində davamlı tədbirlər görür, amma Azərbaycanın davamlı inkişafa zəmin yaradacaq çox ciddi iqtisadi resursları hələ də işğal altındadır. Eyni zamanda, Ermənistanda mövcud olan “Metsamor” AES təkcə Azərbaycan üçün yox, həm də regional və qlobal təhlükəsizlik üçün təhdiddir. Lakin təəssüflər olsun ki, müvafiq beynəlxalq təşkilatlar Ermənistana təzyiq göstərmir.

Bütövlükdə, Qərb imperializminin Yaxın Şərq və Şimali Afrikada həyata keçirdiyi hibrid müharibə layihəsi və onun yaratdığı dağıntılar, sosial-iqtisadi problemlər, köçkün və məcburi miqrasiya problemi davam etdikcə davamlı inkişaf naminə ciddi nailiyyətlər əldə edilə bilməyəcəkdir. Ona görə də indiki mərhələdə həyəcan təbili çalmaq lazımdır ki, müharibələr dayandırılsın, işğala son qoyulsun və mövcud resurslardan səmərəli istifadə etmək üçün davamlı inkişafı təmin etmək üzrə zəruri şərt olan sabitlik yaradılsın. Əks təqdirdə, mövcud vəziyyət bütün dünyanı təhdid etməkdə davam edəcək.

## NƏTİCƏ

Göründüyü kimi, davamlı inkişaf prosesi, bu kontekstdə insan resurslarından və medianın gücündən səmərəli istifadə olunmasl problemi bütün bəşəriyyət üçün aktuallıq kəsb edir. Ona görə də həm ayrı-ayrı beynəlxalq təşkilatlar, həm milli dövlətlər, həm də transmilli media orqanları bu problemə münasibətdə obyektiv yanaşma ortaya qoymalıdır. Buna mavfiq olaraq doğru addımlar atılmalı, davamlı inkişafı təmin edən məqsədyönlü fəaliyyət və bu kontekstdə gələcək nəsilllər üçün zəmin formalaşdırmalıdır.

Davamlı inkişafın təmin olunması üçün sosial, iqtisadi və ekoloji sahələrdə mövcud problemlərin aradan qaldırılması istiqamətində adekvat tədbirlər görülməlidir. Hər üç sahədə paralel inkişaf göstəricilərinin qeydə alınması sayəsində davamlı inkişafa nail oluna bilər.

## ƏDƏBİYYAT


*1. Hikmət Babaoğlu, Dünya siyasəti və beynəlxalq münasibətlər (2-ci nəşr). Dərslik. “MSA” nəşriyyatı. 690 səh. Bakı:2014, 214 s.*

*2. Hikmət Babaoğlu, İnfoimperializm və Media. Monoqrafiya. “MSA” nəşriyyatı. 191 səh. Bakı:2013, 26 s.*

*3. http://www.anl.az/down/meqale/ses/2012/may/249759.htm (Milli iqtisadi inkişafdan postsənaye erasına doğru)*

*4. http://azertag.az/xeber/Davamli_inkisaf_ve_ekoloji_sivilizasiyanin_esaslari-48838 (“Davamlı inkişaf və ekoloji sivilizasiyanın əsasları”)*

*5. http://w1.economy.gov.az/index.php?option=com_content&view=article&id=34 ("2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı" haqqında. Dövlət Proqramının icrasına dair arayış)*

*6. http://www.xalqqazeti.com/az/news/education/41760 (İnsan inkişafı və ekoloji sivilizasiya)*

*7. http://yeniazerbaycan.com/Axtarish_e28896_az.html (Azərbaycanın ekoloji təhlükəsizlik konsepsiyası davamlı inkişafa hədəflənmiş yeni yanaşmaları özündə ehtiva edir)*

# Tarix



TOFİQ NƏCƏFLİ
Tarix üzrə fəlsəfə doktoru, dosent

## AZƏRBAYCAN SƏFƏVİ DÖVLƏTİNİN BAYRAQLARINA DAİR



*Azərbaycan Səfəvi dövlətinin bayrağı (Nyu-York, Metropoliten Muzeyi)*

XV əsrin sonlarında şimalda Qafqaz dağları, qərbdə Göycə gölü hövzəsi də daxil olmaqla Alagöz dağ silsiləsi və Şərqi Anadolu, şərqdə Xəzər dənizi, cənubda isə Sultaniyyə-Zəncan-Həmədan hüdudları ilə əhatə olunan tarixi Azərbaycan torpaqlarının [21,5-6] birləşdirilməsi uğrunda mübarizə əsas özəyini Azərbaycan türk tayfaları təşkil edən Səfəvi dövlətinin yaradılması ilə başa çatdı.

XVI əsrin başlanğıcında Azərbaycan dövlətçiliyi özünün tarixi təkamülündə yeni mərhələyə qədəm qoydu. Uzun Həsənin nəvəsi görkəmli dövlət xadimi Şah İsmayıl Xətayi (1501-1524) babasının başladığı işi başa çatdırdı, şimallı-cənublu bütün Azərbaycan torpaqlarını öz hakimiyyəti altında birləşdirə bildi. Paytaxtı Təbriz şəhəri olan vahid, mərkəzləşdirilmiş Azərbaycan Səfəvi dövləti meydana gəldi [21,30].

Digər Azərbaycan dövlətləri kimi, Səfəvi dövlətində də dövlət və hakimiyyət simvolları olan və dövlətin əsas atributlarından biri hesab olunan bayraqları mövcud olmuşdur.

Bayraq sözü, qədim türk dilinə aid “batrak” sözünün deformasiya olmuş formasıdır. “Batrak” sözü də “batırmaq” sözündən yaranmışdır. Mahmud Kaşğari “Divan-i Lüğət-it Türk” əsərində “torpağa sancılan mizraq” (nizə) mənasını verən batraq (bayraq) kəliməsi işlənmişdir [9,205]. Görünür müxtəlif ipək parçalardan hazırlanmış bayraqlar nizələrin ucuna bərkidildiyinə görə dövlətçiliyin əsas atributlarından biri kimi “dalğalanan milli simvol”a çevrilmişdir.

Hələ İslama qədərki dövrdə yazılmış və XIV əsr əlyazması ilə dövrümüzə qədər gəlib çatmış olan möhtəşəm “Kitabi-Dədə Qorqud” eposunda “Qılıncla məhv edərək, düşmənin tuğ və bayrağını endirin” ifadəsinin qeyd edilməsi [13,50; 2,45] bir daha göstərir ki, o dövrdə hakimiyyət simvolu kimi bayraqlara xüsusi önəm verilmişdir.

Azərbaycanda tarixi ənənələr üzərində qurulan və sırf milli məfkurəyə, azərbaycançılığa, türkçülüyə və islami prinsiplərə söykənən dövlət kimi tarixə düşən Azərbaycan Səfəvi dövlətinin bayraqları ayrı-ayrı hökmdarlar dövründə fərqlənmişdir. Azərbaycan Səfəvi dövlətinə məxsus arxiv sənədləri dövrümüzə qədər saxlanmadığı kimi, Səfəvilər dövründən qalma əşyalar da müxtəlif ölkələrdəki şəxsi və ya dövlət muzeylərində saxlanılır. Azərbaycan Səfəvi dövlətinin rəmzləri ilə bağlı məlumatları dövrün salnamələrindəki qeydlərdən, Səfəvi şahlarının fərmanlarındakı möhürlərdən, Səfəvilər dövründə yazılmış səyahətnamələrdən və Qərbi Avropa səyyahlarının gündəliklərindən əldə etmək mümkündür. J.Şardenin verdiyi məlumata görə, Səfəvilərin bayrağı fransızların hərbi bayraqları kimi üçbucaq şəklində müxtəlif bahalı parçalardan hazırlanmışdır. Bu bayraq həm süvarilər, həm də piyadalar üçün eyni cürdür. Onun üzərində “Quran-ı Kərim”dən ayələr, kəlime-i şəhadət, Hz. Əlinin Zülfüqar qılıncı və “aslan və günəş” rəsmləri təsvir olunurdu. Orduda ən mühüm vəzifələrdən biri böyük bayrağın qorunmasıdır. Bu vəzifəni yerinə yetirən şəxs ələmdarbaşı adlanır [6,113; 4,53].

Aslan motivinin günəşlə birlikdə istifadə olunması qədim Mesopotamiya mədəniyyətinə qədər gedib çıxan astroloji mahiyyət kəsb edir. Mesopotamiya və Misirdən Yunanıstan və Romaya qədər yayılan və orta əsrlərdə bütün İslam dünyasında hakim olan astroloji ənənəyə görə, günəş, ay və günəş sisteminə daxil olan ulduzlar on iki bürcə daxil olan heyvanlardan biri ilə əlaqələndirilir. Günəşin aslan bürcü ilə əlaqəli olması bu iki motivin birlikdə istifadə olunmasına səbəb olmuşdur. Qədim Misirdə də aslan bürcü günəşin evi kimi tanınmışdır [16,606].

F.M.Köprülünün verdiyi məlumata görə, Anadolu Səlcuq

sultanı Qiyasəddin Keyxosrovun (1236-1246) zərb etdirdiyi gümüş sikkələr üzərində aslan və günəş təsvirləri öz əksini tapmışdır. Hətta, Elxani hökmdarı Məhəmməd Olcaytu və Əbu Səidin zərb etdirdiyi mis pullar üzərində də aslan və günəş təsvirləri vardır [16,607].

Rui Qonsales de Klavixo Əmir Teymurun Keş şəhərindəki "Ağ saray"ını təsvir edərkən onun giriş qapısının üzərində günəşin fonunda aslan təsvirinin olduğunu qeyd edir. Onun fikrincə, aslan və günəş motivi Teymurun Səmərqənddə hakimiyyətdən uzaqlaşdırdığı şahzadənin gerbi olmuşdur [14,103]. 1627-ci ildə Səmərqənddə inşa olunan dövrümüzə qədər gəlib çatan Sərdar mədrəsəsinin giriş qapısının portalında da aslan və günəş təsviri vardır [30,19]. F.M.Küprülünün fikrincə, görünür İranı fəth edən Əmir Teymur, Elxanilərin varisi olduğunu göstərmək üçün aslan və günəş motivini qəbul etmişdir [16,607]. Hətta Teymurilərdən sonra Ərzincanı idarə edən Ağqoyunlu Qara Osmanın qardaşı Əhmədin oğlu Qılınç Arslanın zərb etdirdiyi sikkələr üzərində də aslan və günəş təsviri vardır [16,607].

Qeyd etmək lazımdır ki, Ağqoyunlu hökmdarları rəsmi məktublara, zərb etdirdikləri sikkələrə və bayraqlara Oğuzların Bayandur boyunun damğasını qoymuşlar. Görünür ki, aslan və günəş təsviri hüquqi bir əlamət deyil, yalnız astroloji motiv kimi istifadə edilmişdir [17,414]. Bu bir daha göstərir ki, hələ Səfəvilərin aslan və günəş astroloji motivindən istifadə etməsinə qədər bu təsvir Səlcuqlar, Elxanilər, Teymurilər və Ağqoyunlular tərəfindən istifadə edilmişdir.

Şah İsmayıl (1501-1524) dövründə Azərbaycan Səfəvi dövlətinin bayraqlarında aslan və günəş astroloji motivindən istifadə edilməmişdir. Qeyd etmək lazımdır ki, dövrün qaynaqlarında, eləcə də miniatürlərdə Şah İsmayıl və Şah Təhmasib dövründə mövcud olmuş bayraqlar arasında üzərində aslan və günəş təsviri olan bayraqlara rast gəlinmir. Hətta, 1514-cü ilin avqustun 23-də Çaldıran döyüşündə Səfəvi ordusu üzərində qələbədən sonra ələ keçirilən və hazırda Topqapı Sarayı Muzeyində saxlanılan Səfəvi bayraqları arasında da üzərində aslan və günəş təsvirləri olan bayraq-ların olmaması fikrimizi bir daha təsdiq edir.

İran tədqiqatçısı Nayyer Nuri Qasimi Günabadinin "Şahnamə"sində verdiyi məlumatlara əsaslanaraq yazır ki, Şah İsmayıl dövründə üzərində ay təsviri olan yaşıl bayraqlar mövcud olmuşdur [26,52]. Bu fikri Amerika tarixçisi A.Ş.Şahbazi də təsdiq edir. O, "İran bayraqları" adlı məqaləsində Şah İsmayıl dövründə üzərində ay təsviri olan yaşıl bayraqların mövcud olduğunu qeyd edir [30,20]. Həqiqətən də I Şah Təhmasibin saray şairi Mirzə Qasimi Günabadinin 1533-cü ildə başa çatdıraraq Şah Təhmasibə təqdim etdiyi "Şahnamə" adlı tarixi poemasının "Şah İsmayıl-namə" adlı birinci hissəsində Şah İsmayıl dövründə üzərində ay və günəş təsviri olan yaşıl bayraqların mövcud olduğu qeyd edilir [22,116,184]. F.Köprülünün fikrincə, Peyğəmbər nəslindən olduğunu iddia edən və şiəliyi rəsmi məzhəb kimi qəbul edən Səfəvi hökmdarının yaşıl rəngli bayraqlarının olması təbiidir. Çünki o dövrdə yaşıl rəng bütün Yaxın Şərqdə Peyğəmbər ailəsinin rəmzi kimi qəbul edildiyi üçün İslam dünyasındakı seyyidlər yaşıl sarıq və cübbələri ilə xalq arasında seçilirdilər [17,415].

Qazi Əhməd Quminin "Xülasət ət-təvarix" adlı əsərində də I Şah İsmayıl dövründə Səfəvi yaşıl bayraqlarının olduğu qeyd edilmişdir [18,199].

"Tarix-i aləmara-yi Şah İsmayıl" əsərində Səfəvi bayrağı ilə bağlı verilən məlumatdan aydın olur ki, Şah İsmayılın bayraqlarından biri də ağ qumaşdan hazırlanmış, üzərində "Quran-ı Kərim"in 61-ci ("Səf") surəsinin 13-cü ayəsində qeyd olunmuş "nəsrun-minəllahi və fəthun qərib" ("Allahdan kömək və yaxın bir zəfər vardır") və onun qısaca forması olan "nəsrum-minəllahi" ("Allahdan kömək") ifadəsi öz əksini tapmışdır [22,482]. Müin Müsəvvirin "Tarix-i aləmaray-i Şah İsmayıl" əsərinə çəkdiyi miniatürlərdən görünür ki, Səfəvilərin döyüş bayraqları arasında da üzərində "ya Əli mədəd" yazılmış qəhvəyi haşiyəli üçbucaq formalı ağ bayraq da mövcud olmuşdur [23,322].

Qeyd etmək lazımdır ki, Müin Müsəvvirin "Tarix-i aləmaray-i Şah İsmayıl" əsərinə çəkdiyi miniatürlər arasında Səfəvi hökmdarı Şah İsmayılın Əbülxeyir xanla döyüşünü əks etdirən miniatürdə üzərində "ya Əli vəli Allah mədəd" ifadəsi yazılmış üç bucaq formalı ağ bayraqları da mövcud olmuşdur [3, şək.3].

Ağ rəngli Səfəvi bayraqları nəinki Şah İsmayıl dövründə, eləcə də XVII və XVIII əsrin əvvəllərində də mövcud olmuşdur. Maraqlıdır ki, II Şah Abbas tərəfindən 1647-1650-ci illərdə tanınmış rəssamlara çəkdirilən İsfahandakı Çehelsütun sarayının divar rəsmləri arasında, xüsusən də Çaldıran döyüşünü əks etdirən miniatürdə də beş bucaqlı formalı Səfəvi ağ bayrağı öz əksini tapmışdır.



*Şah İsmayılın Əbülxeyir xanla döyüşü.*
*Muin Müsəvvir. "Tarix-i aləmaray-i Şah İsmayıl".*

1590-cı ilin mart ayında İstanbulda Səfəvi-Osmanlı sülhünün bağlanması ilə I Şah Abbas qardaşı oğlu Heydər Mirzəni İstanbula göndərmişdir. Nyu-York Metropoliten Muzeyində saxlanılan Osmanlı şairi Mahmud Əbdülbakinin (Baki) əsərinə çəkilmiş miniatürdə Heydər Mirzənin İstanbulda qarşılanma səhnəsi öz əksini tapmışdır. Həmin miniatürdə də Azərbaycan Səfəvi dövlətinin qırmızı haşiyəli ağ qumaşdan olan və üzərində Hz. Əlinin Zülfüqar qılıncının təsviri olan beş bucaqlı formalı bayrağı vardır [38, invertar: 45.174.5].

1677-ci ildə Azərbaycan Səfəvi hökmdarı Şah Süleymanın (1666-1694) sarayında olmuş ingilis Con Frayer Səfəvi bayrağını öz gözləri ilə görmüş və "Şərqi Hindistan və İran haqqında yeni hesabat" adlı əsərində onun təsvirini vermişdir. O, yazır: "Şah Süleyman düşmənlərinə qarşı səfərə çıxmaq əvəzinə, ağ qumaşın üzərində iki uclu qanlı bir qılınc təsviri olan bayraq altında yaşamağı üstün tutmuşdur" [10,356; 27,20; 4,54]. Heç şübhə yoxdur ki, səyyahın təsvir etdiyi qılınc Hz. Əlinin Zülfüqar qılıncı olmuşdur. O, əsərinin 358-ci səhifəsində həqiqətən də qılıncın Hz. Əliyə məxsus Zülfüqar qılıncı olduğunu qeyd etmişdir [10,358].

Bu, bir daha təsdiq edir ki, Azərbaycan Səfəvi dövlətinin bayraqları arasında ağ qumaş üzərində Quran ayələri ilə yanaşı, Hz. Əlinin Zülfüqar qılıncının təsvir edildiyi bayraqlar da mövcud olmuşdur.

Qeyd etmək lazımdır ki, Səfəvilər dövründə çəkilmiş miniatürlərdən və İsfahandakı Çehelsütün sarayının divar rəsmləri arasında da üzərində ay və ulduz təsvirləri olan qırmızı və bənövşəyi rəngli bayraq təsvirlərinin olması bir daha təsdiq edir ki, Azərbaycan Səfəvi dövlətinin bayraqları arasında üzərində aypara və səkkizguşəli böyük ulduz (Günəş) təsviri olan parlaq rəngli bayraqlar da mövcud olmuşdur [26,fiq. 566]. Mirzə Abbaslı "Cahanarayi-Şah İsmayıl Səfəvi" salnaməsinə istinad edərək yazır ki, 1508-ci ildə "Şah İsmayıl ay-ulduz bayrağı altında Bağdada yaxınlaşdı... İraq əhalisi sürətli addımlarla onu qarşılamağa çıxdılar" [1,26].

Qiyasəddin Xandəmirin "Həbibüs-siyər" adlı əsərindəki I Şah İsmayılın Ağqoyunlular üzə-rində əldə etdiyi qələbəni əks etdirən miniatürdə də Səfəvi ordusunda qırmızı rəngli döyüş bay-raqlarının olduğu öz əksini tapmışdır [7,16].

Səfəvi ordusunun Kür çayını keçməsini əks etdirən "Qoyunölümü keçidi" miniatüründə də üzərində Ay və səkkizguşəli ulduz (Günəş) təsviri olan qırmızı Səfəvi bayrağı öz əksini tapmışdır [31,21; 1,58; 39,114]. Müin Müsəvvirin "Tarix-i aləmaray-i Şah İsmayıl" əsərinə çəkdiyi minia-türlərdən də görünür ki, Səfəvilərin döyüş bayraqları arasında qızılbaşlıq rəmzi olan qırmızı rəngli üçbucaq formalı bayraqlar da mövcud olmuşdur [23,322].

Şah İsmayıl Xətayi şeirlərinin birində bayrağ üzərindəki Günəş və Ay rəmzinin daşıdığı mənanı belə açıqlayır:

Xətayi der: rəhm etməzəm yalana,
Özün təslim edər özü gələnə,
Ay Əlidir, Gün Mühəmməd bilənə,
Bax, nəzər eylə də, həmən arif ol [34,352].

Əslində, bu şeir parçasını Səfəvilərin dövlət bayrağındakı rəmzin «poetik obrazlarla kodlaşdırılmış təsviri» də adlandırmaq olar. Yəni Şah İsmayılın təbirincə desək, «Həqiqət bir gizli sirdir, açə bilirsən gəl bəri». Yuxarıdakı şeir parçası bir tərəfdən orta əsr Azərbaycanında «Ay-ulduz» təsvirindən istifadə olunmasını bir daha təsdiqləyir, digər tərəfdən isə psevdodini hərəkatlara yarınmaq istəyən bəzi üzdəniraq tarixçilərin və siyasətçilərin din amilini qabardaraq, guya Şah İsmayılın «İslam qaydalarına zidd məzhəb xanədanı», «teokratik dövlət» qurması barədə əsassız iddialarını heçə endirir [20,147]. A.Qurbanovun fikrincə, həmin artefaktın islam müstəvisində poetik yozumuna diqqət yetirsək, Səfəvi bayrağındakı Ay-Günəş təsviri və qızılbaşların ideologiyasının dini əsasları arasında bağlılıq haqqında da müəyyən qənaətə gələ bilərik. Belə ki, Şah İsmayılın şeirin sonunda onu «dini-islam yolunu azmaqda» ittiham edən opponentlərinə cavab olaraq ünvanladığı «Bax, nəzər eylə də, həmən arif ol» deməsi heç də təsadüf xarakteri daşımır. Xətayi bu ifadə ilə bay-raqdakı Ay-Günəş rəmzinə verdiyi dini yozumu önə çəkməklə antisəfəvi mövqeyində dayanan, Qızılbaş ideologiyasını məqsədli şəkildə təhrif edən, onların Həzrət Əlini (ə.s.) Məhəmməd peyğəmbərdən (s.ə.s.) üstün tutmaları barədə mənasız fikirlərini puça çıxarır. Şah İsmayıl Rəsuli-əkrəmi Günəş, İmam Əlini isə Ay obrazı ilə təcəssüm etdirməklə nəinki onları eyniləşdirmir, əksinə İslam peyğəmbərinin hər hansı bir müqayisədən kənar, daha uca məqamda olduğunu xüsusi vurğulayır. Belə nəticəyə gəlmək olar ki, Səfəvi dövlətinin qırmızı və yaşıl bayraqları üzərindəki Ay və Günəş obrazları islam dininin, sufi təsəvvürlərinin iyearxiyasına uyğun şəkildə – Peyğəmbər üstün, ali mövqedə təsvir edilmişdir [20,148].

Dövrün qaynaqlarının təsdiq etdiyinə görə, I Şah Təhmasib dövründə (1524-1576) də Səfəvi qırmızı bayraqları mövcud olmuşdur. 1539-cu ildə Təbrizdə Səfəvi sarayında olmuş Venesiya diplomatı Mikele Membre də bunu təsdiq edir. Səfəvi ordusunun Mərənddən Marağaya hərəkətini müşayiət etmiş M.Membre yazır: "Şah atla gedən zaman şatır adlanan 10 nəfər piyada onun önündə gedir. Onların hər biri dizlərinə qədər ağ mahud tuman geyinir və başlarına lələk, kəmərlərinin önünə zınqırov taxırlar. Belə adamlar həmişə onun vəziri Qazi Cahanı, Üskü seyidlərini, Qorçibaşını, bəzən də onun qardaşı Bəhram Mirzəni müşayiət edirlər. Öndə onların "ələm" adlandırdıqları, nizəyə iki ucdan bağlanmış qırmızı, enli parça və nizənin ucunda yerləşən, içərisində misdən kəsilmiş zərli hərflərlə "Əli vəli Allah, la ilah illa Allah; Əli vəli Allah və Allahu əkbər" sözləri yazılmış dairənin ol-duğu bayraqlar aparırlar" [40,44; 19,149]. M.Membrenin fikrincə, orduda nə qədər bayraqlar aparı-lırsa, orada o qədər krallıq iştirak edir, onların iki uclu qırmızı ipək parçadan bayraqları vardır [40,45].

İsgəndər bəy Münşi Səfəvilərin "günəş parıltılı bayraqlarını" xüsusi olaraq vəsf edir. Onun verdiyi məlumata görə, I Şah Təhmasibin müzəffər bayraqları arasında üzərində aypara təsviri olan "çapmaq, basqın etmək" mənasındakı "yüyürük" adlı şəxsi parlaq bayrağı da mövcud olmuşdu. 1535-ci ildə Osmanlı ordusunu təqib edən Şah Təhmasib Van qalasına yaxınlaşan zaman Üləma bəy Səfəvi şahının üzərində aypara olan parlaq bayrağını uzaqdan tanıdığı üçün Məhəmməd paşaya I Şah Təhmasibin öz ordusu ilə yaxınlaşdığını xəbər verərək döyüşə girməyin əlverişsiz olduğunu bildir-mişdir [25,164].

1695-ci ildə İsmayıl Kaşani tərəfindən hazırlanmış, üzərində Quran ayələrinin yazıldığı qırmızı-bənövşəyi rəngli ipək parçadan hazırlanmış, uzunluğu 179,1, eni 88,9 sm ölçüdə olan Səfəvi bayrağı hazırda Nyu-York Metropoliten Muzeyində saxlanılır. Üçbucaq formasında olan bayrağın mərkəzindəki iri fiqurun içərisində Quranın 110-cu "Nasr" surəsinin, yuxarıda sağdakı fiqurun içərisində Quranın 37-ci "Saffat" surəsinin 172-173-cü ayələri, balaca sarı rəngli fiqurun içərisində ərəbcə "Ey qapıları

açan", iki rəngli fiqurun mərkəzində və kənar hissəsində ərəbcə "Zəfər bayrağı, işin başlanğıc tarixi" və "Allahın verdiyi zəfər bayrağı, işin bitmə tarixi 1107, farsca İsmayıl Kaşaninin şagirdinin işi" və aşağıdakı fiqurun içərisində isə ərəbcə "Ey əzəmətli" ifadələri yazılmışdır [38, invertar: 38.167]. Qırmızı rəngli Səfəvi bayrağı görünür ordu və mərasim bayrağı kimi istifadə olunmuşdur.

Bütün bunlar bir daha təsdiq edir ki, Azərbaycan Səfəvi dövlətində ağ və yaşıl rəngli bayraqlarla yanaşı, qırmızı rəngli bayraqlar da mövcud olmuşdur.

Azərbaycan Səfəvi ordusunda qırmızı döyüş bayraqlarının olması faktını Şah İsmayıl Xətayi "Divanı"ndakı məlumatlar da təsdiq edir:

*"Qızıl ələm, qızıl bayraq, qızıl tac,*
*Geyinsə qazilər, ol gün həzərdir" [33,81; 23,322].*

Oruc bəy Bayat Səfəvi bayraqları barədə yazır: *"İran (yəni Səfəvi – T.N.) şahı şəxsən yürüşə gedəndə, həmişə onun bayrağı qaldırılır və müşayiətçilər dəstəsi tərəfindən onun önündə aparılır. Bundan başqa, at belində olan şahın başı üzərində çətir tuturlar. Bu çətir qiymətli daşlarla bəzədilmişdir və günəş kimi parlayır. Ordudakı döyüşçülərin sayını qaldırılmış bayraqları diqqətlə saymaqla müəyyən etmək olar. Hər bayraq min nəfərə işarədir... şahın qoşunu o qədər çoxdur ki, asanlıqla 200 min nəfər səfərbər edə bilər. Mən özüm keçmişdə qatıldığım döyüşlərdə asanlıqla 200 bayraq saymışam. Burada qayda belədir ki, min nəfər atlı və piyada hazır olmamış bayraq qaldırılmaz" [15,34-35].*

Qeyd etmək lazımdır ki, I Şah Təhmasib (1524-1576) dövründə zərb olunmuş sikkələr üzərində və bayraqlarda günəş və qızıl qoç təsvirləri də öz əksini tapmışdır. "Tarix-i cahan-ara"nın verdiyi məlumata görə bu, bilavasitə günəşin qoç bürcü ilə bağlı olmuşdur. Bu bir daha təsdiq edir ki, bu motiv astroloji mahiyyət daşımış, hökmdarın ulduzlar cədvəli ilə bilavasitə bağlı olmuşdur.

I Şah Abbas (1587-1629) dövründə Səfəvi bayraqlarında aslan və günəş astroloji motivi öz əksini tapmışdır. Hətta, I Şah Abbasın verdiyi fərmanlarından birinin üzərinə vurulan rəsmi möhürdə aslan və günəş təsviri öz əksini tapmışdır [24,154]. F.M.Köprülünün fikrincə, görünür I Şah Abbas aslan və günəş astroloji motivini qədim ənənənin davamı kimi qəbul etmişdir. Buna görə də, zərb olunmuş sikkələrə və bayrağa aslan və günəş təsviri qoyulmuşdur [16,608].

1599-cu ildə I Şah Abbas tərəfindən Avropa ölkələrinə göndərilmiş böyük elçi heyətinin rəhbəri Hüseynəli bəy Bayatın 1601-ci ildə flamand rəssamı tərəfindən çəkilmiş portretində də aslan və doğan günəş təsviri öz əksini tapmışdır [30,21].

İngiltərə kralı I Karlın Londonda Səfəvi elçiləri Robert Şerli və Nağdəli bəylə bağlı yaranmış gərginliyi aradan qaldırmaq məqsədilə 1627-ci ildə Səfəvi sarayına göndərdiyi elçisi Dörmer Kottonu müşayiət etmiş Tomas Herbet "1627-1629-cu illərdə İrana səyahət" adlı əsərində qeyd edir ki, "mənə verilən məlumata görə, Şah İsmayılın babası Şeyx Cüneyd üzərində ulduz və üstünə günəş şəfəqləri düşən uzanmış aslan təsviri olan yeni bayraq hazırlatmışdı" [9,239; 30,20]. A.Ş.Şahbazinin fikrincə, Tomas Herbetin bu iddiası, görünür üzərində aslan və günəş təsviri olan Səfəvi simvolunun tarixini qədimləşdirməkdən başqa bir şey deyildir. Çünki, Şah İsmayıl dövründə üzərində aslan və günəş təsviri olan bayraqların mövcud olduğunu təsdiq edən heç bir dəlil-sübut yoxdur [30,20].

1636-cı ildə Azərbaycan Səfəvi dövlətinə səyahət etmiş alman alimi və səyyahı Adam Oleari öz səyahətnaməsində Səfəvi ordusu haqda məlumat verərkən onların bayraqlarında aslan və günəş təsvirlərindən istifadə edildiyi barədə məlumat veririr. O, yazır: "Qədimdən hilal (ay) farsların və günəş yunanların idi. İndi isə türklər (Osmanlılar) hilalı aldılar, Səfəvilər isə önündə aslan olan günəşi" [4,53]. Fransız səyyahı J.B.Tavernye də öz səyahətnaməsində Səfəvi mis pullarını təsvir edərkən onların bir üzündə kürəyində günəşi daşıyan aslan, o biri üzündə isə onun zərb olunduğu şəhərin adının qeyd edildiyini bildirir [35,157; 4,53-54]. Digər Fransa səyyahı J.Şardenin verdiyi məlumata görə, Səfəvi dövlətində döyüş bayraqları ilə yanaşı dini bayramlar zamanı istifadə olunun mərasim bayraqları da mövcud olmuşdur. Üçbucaq formalı müxtəlif rəngli qiymətli parçalardan hazırlanan bu bayraqlar üzərində Hz. Əlinin Zülfüqar qılıncı, aslan və günəş təsvirləri əks olunurdu. Bayraqları ələmdarbaşı aparırdı. Şardenin fikrincə, Səfəvi mis sikkələrinin üzərində də aslan və doğan günəş təsviri öz əksini tapmışdır [29,287].

Fransa tarixçisi M.Herbet "İran səfiri XIV Lüdovikin qəbulunda" adlı əsərində 1714-ildə Səfəvi hökmdarı Şah Sultan Hüseyn tərəfindən danışıqlar aparmaq üçün Fransa kralı XIV Lüdovikin sarayına göndərilən Səfəvi elçisi, İrəvan şəhər kələntəri Məhəmməd Rza bəyin elçi heyəti ilə bağlı sənədləri və rəsmləri toplayaraq öz əsərində vermişdir. Bunlar arasında Məhəmməd Rza bəyin elçi heyətinin Versal sarayına yaxınlaşdığını əks etdirən bir neçə rəsmdə elçi heyətinin üzvlərindən birinin əlində tutduğu ağ bayraq üzərində aslan və doğan günəş təsviri öz əksini tap-mışdır [7,138/1,154/1; 17,415].

C.Aydoğmuşoğlunun qənaətinə görə, Səfəvilərin istifadə etdiyi və sonralar Qacarlarında faydalandığı aslan və günəş motivli bayraqlarda günəş motivi İranın əfsanəvi hökmdarlarından Cəmşidi təmsil etdiyi kimi, aslan motivi şiə dünyası üçün mühüm önəm daşıyan Hz. Əlini təmsil etmişdir. Bununla da, Səfəvi şahları özlərinin xarakterində iki önəmli kimliyi birləşdirməyə çalışmışdılar [4,54]. B.B.Tekinin fikrincə, aslan motivi Şah İsmayıl dövründə ədəbi həyata son dərəcə güclü nüfuz etmiş, I Şah İsmayıl tərəfindən yazılan miracla bağlı şeirlərə və dövrün miniatürlərinə daxil olmuşdur [36,102-103].

Şübhəsiz ki, aslan motivi güc və qüdrəti təmsil etmişdir. F.Sümerin fikrincə, Arslan kəlməsi türklərdə Ağ Arslan, Qara Arslan, Göy Arslan, Qızıl Arslan, Arslan Apa, Arslan Boğa, Arslan Şah şəxs adları kimi işlənmişdir [32,604,613-614].

Səfəvilər dövlətini əvəz edən Nadir şah Əfşar imperiyasında, eləcə də Səfəvi ənənələri üzərində qurulan Qacarlar dövlətində də aslan və günəş motivli bayraqlardan istifadə edilmişdir. Nadir Şahın fərmanlarında aslan və günəş motivi Səfəvilərdə olduğu kimi rəsmi möhür kimi istifadə edilmişdir [bax: 24,151-153]. Fətəli şah (1797-1834) dövründə Qacarların bayrağında Səfəvi şahlarının istifadə etdiyi aslan və günəş motivi rəsmən qəbul edilmişdir. Fətəli şah 1810-cu ildə Ost-Hind şirkətinin nümayəndəsi kimi İrana gələn general Cohn Malkolma yeni dövlət nişanını dizayn etməsini tapşırdı, bu nişanda arxa planda parlayan günəş və önündə oturan aslan fiquru öz əksini tapmışdır [bax: 41,135-141]. Yalnız XIX əsrin II yarısında Nəsrəddin şah (1848-1896) dövründə Qacarların bayrağı üzərində təsvir olunan aslanın əlinə qılınc verilmişdir. Qacarların əlində qılınc tutan aslan-günəş motivli bayrağı Osmanlılarla Qacarlar arasında 1867-ci ildə imzalanan sülh müqaviləsində qorunub saxlanmışdır [bax:




*Səfəvi elçisi Məhəmməd Rza bəy Parisdə.*

27,168-171].

Göründüyü kimi, Səfəvilərin siyasətini davam etdirən Qacarlar, Səfəvi dövrü ənənələrinə sadiq qalaraq bayraqlarında da Səfəvi bayraqlarında olan təsvirləri təkrar canlandırmaq istəmişdilər. Azərbaycan Səfəvi dövlətinin süqutundan sonra Nadir şahın yaratdığı Əfşarlar imperiyası onun öldürülməsindən sonra dağılmış və ölkə uzun müddət daxili mübarizə meydanına çevrilmişdir. Buna görə də Qacarlar xalqın hafizəsində dərin izlər buraxan Səfəvi dövrünün siyasi və dini simvollarından istifadə edərək İran xalqlarını vahid bayraq altında birləşdirməyə çalışmışdılar. Maraqlıdır ki, Azərbaycanın Qacarlar sülaləsi tərəfindən yaradılan İrəvan xanlığının rəsmi bay-rağında da əlində qılınc tutmuş aslan və günəş motivi öz əksini tapmışdır [11,8].

Qeyd etmək lazımdır ki, Böyük Moğol imperiyasında da aslan və günəş motivli bayraqlar mövcud olmuşdur. 1617-ci ildə Moğol hökmdarı Cahangirin sarayında olan ingilis səyyahı keşiş Edvard Terri (1590-1660) öz səyahətnaməsində Moğol hökmdarının bayrağını və möhürünü təsvir etmişdir. Onun məlumatına görə, Sultan Cahangirin bayrağında arxa planda böyük bir günəş, onun önündə diz çökmüş və sağ tərəfə baxan aslan motivi təsvir olunmuşdur [38,346-347; 4,57]. Qəndəhar uğrunda müxtəlif vaxtlarda aralarında mübarizə getməsinə baxmayaraq, Səfəvi və Moğol dövlətləri arasında sıx münasibətlər mövcud olmuşdur. Hətta, Babur şah dövləti yaradan zaman Səfəvilərdən lazımi köməklik almışdır. Səfəvi hökmdarı Şah Abbas Əkbər şaha "Şah babam", Moğol hökmdarı Cahangir də Şah Abbasa "qardaşım" deyə müraciət etmişdir [5,150,188]. Buna görə də, Səfəvilərin yardımı ilə yaranmış Moğol dövlətində Səfəvilərin istifadə etdiyi bayrağın oxşarının istifadə olunması təbii qarşılanmalıdır. Çünki Moğol hökmdarları Səfəvi şahlarının fəaliyyətindən daima mütəəssir olmuşdular. İki dövlət arasında hər zaman siyasi, iqtisadi və sosial-mədəni əlaqələr mövcud olmuşdur.

Dövrün qaynaqlarından və səyyah gündəliklərindən gətirdiyimiz faktlar bir daha göstərir ki, Azərbaycan Səfəvi dövlətində öncə hökmdarı, sonra isə dövləti təmsil edən və qiymətli parçalardan hazırlanmış müxtəlif ölçülü bayraqlar mövcud olmuşdur. XVI əsrin sonlarından Azərbaycan Səfəvi dövlətinin süqutuna kimi mövcud olan bu bayraqlar arasında üzərində aslan və günəş təsviri olan bayraqlar üstünlük təşkil etmişdir.

## ƏDƏBİYYAT


*1. Abbaslı M. Şah İsmayıl Xətayinin ömür yolu miniatürlərdə. Bakı, 1981.*

*2. Ahmedov S. Türk halklarında devlet ve hakimiyet sembolleri – "bayrak", "sancak" ve "tug". //İrs, 2 (14), Yaz, 2015, s. 42-48.*

*3. Атыгаев Н.А. Об одной интересной миниатюре в рукописи Сефевидского периода из музея Реза Аббаси (ИРИ, Тегеран). //Электронный научный журнал «edu.e-history.kz» №4 (8), 01 октября 2016.*

*4. Aydoğmuşoğlu C. Safevi, Kaçar ve Babür bayrakları üzerine bir degerlendirme. //Türk Dün-yası İncelemeleri Dergisi, XIII/2 (Kış 2013), s. 51-59.*

*5. Bayur H.Y. Hindistan tarihi. c. 2. Türk Tarih Kurumu Basımevi, Ankara, 1987.*

*6. Bəyani X. Tarix-i nizam-i İran (Dovre-i Səfəviyyə). İntişarat-ı Sitad-ı Bozorg-i Erteşaran, Tehran, 1335 hş.*

*7. Court Paintings from Persia and India 1500–1900. / Francesca Galloway 31 Dover Street, London w1s 4nd t 0207 499 6844. www.francescagalloway.com*

*8. Herbetta M. Une ambassade persane sous Louis XIV. Paris, 1907.*

*9. Herbert T. Travels in Persia 1627-1629, ed. and abridged, W.Foster, London, 1928.*

*10. John Fryer. A new account of East India and Persia. London, 1698.*

*11. İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı, Çaşıoğlu, 2009.*

*12. Kaşğarlı M. Divan-ü Lügat-it Türk. c.2. Çev: Besim Atalay, Ankara, 2006.*

*13. Kitabi- Dədə Qorqud. Tərtibçilər: Zeynalov F., Əlizadə S., qeydler Əliyarov S. Bakı, 1988.*

*14. Клавихо Р.Г. Дневник путишествия в Самарканд ко двору Тимуру (1403-1406). Перевод, предисловие и комментарий И.С.Мироновой. М., 1990.*

*15. Книга Орудж – бека Байата Дон-Жуана Персидского. Перевод с английского, введение и комментарии д.и.н. Огтая Эфендиева, к.и.н. Акифа Фарзалиева. Баку, Язычы, 1988.*

*16. Köprülü F.M. Arslan. //İslam Ansiklopedisi, c. 1. MEB, İstanbul, 1978, s. 598-609.*

*17. Köprülü F.M. Bayrak. //İslam Ansiklopedisi, c. 2. MEB, İstanbul, 1978, s. 401-421.*

*18. Qazi Əhməd Qumi. Xülasət ət-təvarix. Cildi əvvəl. Tehran, daneşgahi Tehran, 1383 h.ş., s. 199.*

*19. Quliyev Ə.S. XVI əsrin ortalarında Azərbaycanda Səfəviləri dövlətinin ictima-siyasi vəziyyəti. Bakı, Şərq-Qərb, 2011.*

*20. Qurbanov A. Damğalar, rəmzlər, mənimsəmələr. Bakı, 2013.*

*21. Mahmudov Y.M. Azərbaycan: qısa dövlətçilik tarixi. Bakı, Təhsil, 2005.*

*22. Mirzə Qasimi Günabadi. Şah İsmayıl-name. Şeir və tarix. Naşiri dicitali: Mərkəzi təhqiqate rayani qayimeyi İsfahan. WWW. ghaemiyeh.com*

*23. Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmaray-i Şah İsmayıl" əsəri əsasında). Bakı, Elm və təhsil, 2011.*

*24. Musəvi T.M. Orta əsr Azərbaycan tarixinə dair farsdilli sənədlər (XVI-XVIII əsrlər). Bakı, Elm, 1977.*

*25. Münşi İsgəndər bəy. Tarix-i aləmaray-i Abbasi (Abbasın dünyanı bəzəyən tarixi). farscadan tərcümənin, ön sözün, şərhlərin və göztəricilərin müəllifi AMEA-nın müxbir üzvü, t.e.d., prof. Oqtay Əfəndiyev, t.e.n. Namiq Musalı. Bakı, Təhsil, 2009.*

*26. Nuri H.N. "Beyraq-e şir o xorşid". // İranşehr, II. Tehran, 1343 h.ş., s. 946-955.*

*27. Osmanlı Arşivinde Bulunan Muahedenamelerden Örnekler. Devlet Arşivleri Genel Müdürlü-gü yayınları, Ankara, 2000.*

*28. Papadopoulo A. Islam and Muslim Art, tr. R.E. Wolf. New -York, 1979.*

*29. Sir John Chardin. Travels in Persia. University Press, Cambridge, 1927.*

*30. Shahbazi A.Sh. «Flags of Persia». //Encyclopedia Iranica, X/1, 1999, p. 12-27.*

*31. Sümer F. Safevi devletinin kuruluşu ve gelişmesinde Anadolu türklerini rolu. Tark Tarih Kurumu Basımevi, Ankara, 1999.*

*32. Sümer F. Türk devletlerinde şahıs adları, c. 2. Türk dünyası Araştırmaları Vakfı, İstanbul, 1999.*

*33. Şah İsmayıl Xətai. Əsərləri, I c. Bakı, 1975.*

*34. Şah İsmayıl Xətayi. Əsərləri. Bakı, Şərq-Qərb, 2005.*

*35. Tavarnier J.B. Tavernier Seyahatnamesi. Çeviren Teoman Tunçdoğan. Kitab Yayınevi, İstanbul, 2006.*

*36. Tekin B.B. Safevi Dönemi 16. Yüzyıl Aslan tasvirli Mirac minyatürleri: Şah İsmayıl Hatainin Yaklaşımı Açısından Degerlendirme. //Türk Kültürü ve Hacı Bektaş Veli Araştırma Dergisi, sayı 64, 2012, s. 102-103.*

*37. Terry E. A Voyage to East India. London, 1677.*

*38. The Metropolitan Museum of Art, Accession Number: 38.167 – Metmuseum.org*

*39. Titley N.M. Persian Miniature Painting and Its Influence on the Art of Turkey and India, London, 1983.*

*40. Venesiyalılar Şah Təhmasibin sarayında. (Mikele Membre və Vinçenso Alessandri). İngilis dilindən tərcümə, ön söz, giriş və şərhlər AMEA-nın müxbir üzvü Oqtay Əfəndiyevindir. Bakı, Təhsil, 2005.*

*41. Wright Denis. Sir John Malcolm and the Order of the Lion and Sun. //Iran, the British Institute of Persian Studies. Vol. 17. London, 1979, p. 135-141.*

**Açar sözlər:** *Azərbaycan Səfəvi dövləti, tuğ, bayraq, I Şah İsmayıl, I Şah Abbas.*

**Ключевые слова:** *Азербайджанское государство Сефевидов, хоругви, флаг, шах Исмаил I, шах Аббас I.*

**Key words:** *the Azerbaijan Safavi state, tug, flag, Shah Ismail I, Shah Abbas I.*

**РЕЗЮМЕ**

**Тофиг Наджафли**

**О знаменах Азербайджанского государства Сефевидов**

В начале XVI века азербайджанская государственность вступила на новый этап своего развития. Внук Узун Гасана шах Исмаил I, завершил дело, начатое его дедом - объединил под своей властью все земли Азербайджана, заложив основу Азербайджанского государства Сефевидов со столицей в городе Тебризе.

Как и у других государств Азербайджана, Сефевидское государство обладала всеми государственными символами и одним из его основных атрибутов –знаменами.

Вошедшая в историю как государство, основанная на принципах азербайджанизма, тюркизма и ислама, знамена Азербайджанского государства Сефевидов отличались в период правления различных его правителей. В статье автор, опираясь на источники того времени, дневники западноевропейских путешественников и миниатюры, вошедшие в различные произведения XVI-XVII веков, пытается привнести ясность в вопрос о знаменах Азербайджанского государства Сефевидов.

**SUMMARY**

**Tofig Najafli**

**On the flags of the Azerbaijani Safavi state**

At the beginning of the 16th century, Azerbaijani statehood entered a new phase in its historical evolution. The grandson of Uzun Hassan, the prominent statesman Shah Ismail Khatai (1501-1524) completed the work begun by his grandfather, united the northern and southern lands of Azerbaijan under his rule and created a single, the centralized Azerbaijani Safavi state the capital city being Tabriz.

Like other Azerbaijani states, the Safavi state also had flags which considered as the symbols of the state and government and one of the main attributes of the state.

Flags of the Azerbaijani Safavi state which was created in Azerbaijan, on the historical traditions and pure national ideology, as a state based on Azerbaijanism, Turkism and Islamic principles, distinguished under reign of the separate Safavi rulers. In the article, through using the sources of the time, diaries of Western European travelers, miniatures painted for separate works in the XVI-XVII centuries the author tried to illuminate flags of the Azerbaijani Safavi state.

# Политика

ИРАДА НУРИЕВА
Доктор политических наук, доцент

## АРМЯНСКАЯ ВОЕННАЯ АГРЕССИЯ – НАРУШЕНИЕ ТЕРРИТОРИАЛЬНОЙ ЦЕЛОСТНОСТИ АЗЕРБАЙДЖАНСКОГО ГОСУДАРСТВА НА ПРИМЕРЕ НАГОРНОГО КАРАБАХА



Сторонники идеи создания Великого Армянского государства – “от моря до моря” – выбрали разные пути достижения этой цели. Армянские сепаратисты сравнивают свои террористические действия с революционной войной, освободительными движениями, обосновывая это тем, что и там неизбежны людские жертвы во имя достижения конечной цели.

Армянские организации поставили перед собой задачу очищать эти земли от турок, азербайджанцев, грузин и иных коренных народов, и наций во имя достижения великодержавного шовинизма.

Армяне научились с относительной легкостью дезинформировать или подкупать разных политиков, вызывать у них сочувствие к себе, тем самым получать их поддержку для воплощения в жизнь общеармянскую мечту – “Великая Армения – от моря до моря”.

Бывший Первый секретарь ЦК КПСС Л.И.Брежнев под сильным влиянием А.Микояна правой рукой террориста Амазаспа и под усердным настоянием своей дочери – Галины Брежневой дал разрешение на сооружение в г. Ереван “памятника жертвам геноцида”. Таким образом, в 1965 г. придуманный армянами “геноцид армянского народа”, впервые был как бы признан. Армяне выдумали даже ужасающую цифру погибших: более 2 миллионов. Хочется задать вопрос политикам, поддерживающим эти армянские бредни: если в 1915 – 1923 гг. убито свыше двух миллионов армян в Турции и в Азербайджане, то какое же было количество всех армян, проживающих в этом регионе?

Н.Соколски в своей книге “Очерки о современной Турции”, изданной в 1923 г. в Тбилиси, сообщает, что к 1915 году численность армян в Турции составляло около 1 миллиона 285 тыс. После спровоцированных лидерами партий “Гнчак” и “Дашнакцутюн” армяно – турецких, армяно – грузинских и армяно – азербайджанских войн на территории Турции, осталось около 380 тыс. армян. По армянским же источникам: 600 тыс. человек эмигрировали в Египет и Сирию, Индию и Пакистан, Англию и во Францию, США и Канаду, Австралию и Индонезию, Эфиопию и Мексику, Кипр, Италию, Румынию и во многие другие страны. Около 100 тыс. армян переселилось из прифронтовой полосы во внутрь Месопотамии. Остальные погибли в выше указанных воинах [5, с. 119]. Нетрудный подсчет указывает на цифру 205 тысяч.

Историк, член коор. Академии Наук Армянской ССР Алексей Карпович Дживелегов пишет: “С 1892 г. по 1912 г. из армянских жителей так называемой “Великой Армении” из территории Турции 612 тысяч человек переселились в сопредельные страны” [5, с. 120].

Участники Парижской конференции, рассматривая проблему безопасности национальных меньшинств, указали данные о количестве армян, проживающих в Стамбуле, Измире, в странах Малой Азии и Сирии. Оказалось, что их около 950 тысяч. Эти данные вызвали большой переполох. Ведь, по утверждению армянских соратников, из 1 млн. 285 тыс. армян в Турции не должно было остаться никого.

В седьмой главе книги “Младотурки перед судом истории” Джона Киракосяна пишется о событиях 1918 года: “Турецкая армия на пути в г. Баку вместе с местной мусульманской чернью “ограбила и вырезала” почти все армянское население Нухинского, Аранского и Геокчайского уездов количеством несколько десятков тысяч человек…”. Далее пишется, что командование младотурецкой армии после сражения 17 августа на отказ Армянского национального Совета на ультиматум турок о сдаче Баку ответил особой жестокостью… Три дня и три ночи группы турецких аскеров убивали армян. В Баку всего было вырезано около 30 тыс. армян” [29].

Неслыханная наглость! По какому праву Армянский Национальный Совет распоряжался судьбою столицы Азербайджана – Баку? Отметим, что с мая 1918 г. действовало правительство Азербайджанской Демократической Республики. Архивные данные тех лет о количестве армян показывает, что в Бакинской губернии вместе с Бакинским градоначальством в 1916 г. проживало 119,885 человек, т.е. 9,4%, в 1920 г. – 120,087 человек, т.е. 9,3% от общего числа населения [30]. Стоит взглянуть на цифры и убедиться в том, что численность армян в Бакинской губернии за 4 года осталось неизменённой. Тогда кого же убивали турки и азербайджанцы?

Наряду с фальсификацией исторических фактов,



манипуляцией правом на самоопределение, они вечно пользуются терроризмом, называя террористов – героями национально – освободительной войны, народными мстителями. Армянские террористы добивались отторжение чужих земель, вытеснения истребления иных наций (геноцид) и даже инакомыслящих армян, вызывали страх у тех, кто их не поддерживает в гнусных делах.

За три года (1890 – 1892) армянская организация "Гнчак" устраивала кровавые беспорядки в Зейтуне и Сасуне (Турция), в итоге которых были убиты 65 тыс. безоружных турков и курдов [5, с. 101]. В ноябре 1894 г. эта организация устраивала резню мирных мусульманских жителей в городе Адана (Турция) и близлежащих к нему селениях [16], в г. Мараш (Турция) и в его пригородах [12, 5, 23]. Одновременно г. Кайсечи (Турция) и окружающие его селения подверглись террору со стороны армянской террористической организации "Гнчак" [16, 17]. Воодушевленный "Гнчак" расширяет ареал своих деяний с октября 1895 г. по январь 1896 г. в г. Зейтун (Турция). 2000 вооруженные сподвижники "Гнчака" под руководством Кавафяна, Амбарцум Волджана и Мигран Дамадяна насильно изгоняли со своих домов курдов и турков [20, 18, 31]. По подсчетам армянского ученого Дж. Либаридьяна, за три года (1904 – 1906) армянские террористы совершали 105 "политических убийств": из них 56 против армян, 32 против русских, турецких, азербайджанских чиновников и офицеров. Как видно из этих цифр, каждая вторая жертва армянского террора была представителем армянского народа, за интересы которого "на устах" боролись эти организации [25, 5, 22].

По сохранившимся архивным документам Михайловской городской больницы г. Баку, лишь только 6 февраля 1905 г. в этом заведении находились 18 человек убитых, 33 раненых, в том числе: 34 азербайджанцев, 6 русских, 6 армян, 5 представителей других наций. Следующие дни число жертв исчислялось уже сотнями [25, 5].

Армяне взялись за воплощение своей программы в другом городе Западного Азербайджана в г. Иреване, в котором были зверски убиты сотни азербайджанцев, несколько тысяч из них под страхом смерти вынуждены были покинуть город. Это сильно повлияло на демографический фон города, что позволило армянам назвать его в будущем своим и сделать его столицей будущей Армении.

Как известно, армяне считают весь Кавказ частью территории "Великой Армении", которые согласно общеармянской программе, взялись за очищение всех городов и селений от иных наций для армян. После г. Баку и г. Иревана устраивается террор в городах: Тифлис (21 ноября 1905), г. Гянджа (15 – 18 ноября 1905), Нахичеван (май 1905), Зангезур, Шуша и т.д. За 1905 – 1906 гг. лишь в Карабахе были уничтожены сотни азербайджанских деревень [25, 3, 20].

Политика этнических чисток, проводимая армянскими террористическими организациями в Турции, поражала своим масштабом [26, 27]. По подсчетам Д.Малевила до 1915 г. число убитых армянами мирных мусульманских жителей Северной Анатолии достигало 1 млн. 600 тыс. человек [23]. А по исследованиям Дж. и К.Маккартли в ходе кровавых событий начала XX века были убиты 2,5 млн. мусульман [19, 9]. Если к этому добавить еще 400 тыс. убитых армянами мусульман в Азербайджане и несколько десятков тысяч в Грузии, то цифра получится по истине ужасающая.

Этими убийствами наводили страх среди мусульман и заставляли турков и курдов покидать свои дома. До начала I Мировой войны в 5 вилайетах Турции – Трабзон, Эрзурум, Эрзиджан, Ван и Битлисе проживало 3 млн. турков. После войны на этих землях оставалось лишь 600 тыс. человек [13, с. 26]. Остальные были убиты армянами или спаслись бегством из своих домов.

Армянское зверство насыщено чувством инстинкта опасного животного. Этим чувством совершенное зверство партией "Дашнакцутюн" в селе Катранлы (Карс, Турция) в январе 1918 г. затуманивают мысли. Дашнаки собрали из всех соседних деревень 1400 детей и сожгли заживо. О судьбах их родителей до сих пор ничего не известно [24, 4]. Ареал армянского террора был очень широк и повсеместно направлялся, в основном, против тюркских народов. Так, 17 марта 1918 г. в Урмии (Иран) в течение одного дня армяне перерезали 10 тысяч мирных азербайджанцев [15].

Весной 1918 г. продолжаются массовые изгнания и убийства азербайджанцев в Иреванской губернии, в Гекче, Эчмиадзине, Ведибасаре, Шаруре и в других густонаселенных территориях. За короткое время в Иреванской губернии было обожжено 211 мусульманских селений, большинство азербайджанского населения истреблено, больше 80 тыс. человек бежали [28]. 1918 год был кровавым в самом Азербайджане. Так называемый Армянский революционный комитет под руководством С.Шаумяна и партия "Дашнакцутюн" устраивают геноцид в г. Баку, Шемаха, Куба, Нуха (Шеки). В мартовской битве 1918 года армяне убили 12 тысяч азербайджанцев. В 3-х дневной мартовской битве, помимо дашнакских военных группировок, Каспийский Военно-Морской Флот разгромил все мусульманские кварталы. В архивных материалах отмечается, что армяне вламывались в дома мусульман, закалывали детей штыками и бросали их в горящие дома [1, с. 70]. Впервые инициатором разоблачения факта геноцида азербайджанцев в 1918 году был общенациональный лидер Г.Алиев. В его указе "О геноциде азербайджанцев" от 26 марта 1998 года впервые выявлена подлинная сущность сфальсифицированных в свое время фактов данного геноцида [21].

Геноцид, неоднократно осуществленный против азербайджанского народа и не получивший в течение длительного времени должной политико-правовой оценки, является одной из таких нераскрытых страниц истории.

Воодушевленные иллюзиями о создании "Великой Армении", армянские захватчики, не скрывая своих намерений, в 1905-1907 годах провели ряд широкомасштабных кровавых акций против азербайджанцев. Зверства армян, начавшиеся в Баку, охватили весь Азербайджан и азербайджанские села на территории нынешней

Армении. Были разрушены и стерты с лица земли сотни населенных пунктов, варварски убиты тысячи азербайджанцев. Организаторы этих событий, препятствуя раскрытию сущности происшедшего, его должной политической и правовой оценке, прикрывая свои авантюристические территориальные притязания, создавали отрицательный образ азербайджанцев.

С особой жестокостью геноцид азербайджанцев осуществлялся в Бакинском, Шамахинском, Кубинском уездах, в Карабахе, Зангезуре, Нахычеване, Лянкаране и других регионах Азербайджана. На этих землях в массовом порядке было истреблено мирное население, сожжены деревни, разрушены и уничтожены национальные памятники культуры. В память об этих событиях указом от 26 марта 1998 года 31 марта было объявлено Днем геноцида азербайджанского народа [11.

В связи с Карабахской войной за последние 15 лет армянские террористические организации еще более активизировались. Лишь в Азербайджане совершено более тридцати террористических актов, в которых было убито более двух тысячи азербайджанцев. 11 декабря 1988 г. в Ленинакане самолет, направленный из Азербайджана с целью оказания помощи пострадавшим от разрушительного землетрясения в армянском городе Спитак, в результате преднамеренно неверного сообщения координата диспетчерской службой аэропорта врезался в гору. Погибло 72 азербайджанца, еще один получил тяжелые увечья и остался инвалидом на всю жизнь. Этот факт хорошо отражает противоположные характерные черты азербайджанского и армянского народов. Напомним, что, несмотря на то, что с начала года продолжались незаконные действия Армении против Азербайджана и массовое изгнание азербайджанцев из республики, Азербайджан протягивал руку помощи армянскому народу, который, в свою очередь, ответил на милосердие свойственным армянам поступком.

20 ноября 1991 г. вблизи села Гаракенда Нагорного Карабаха Азербайджанской Республики армянскими боевиками был сбит азербайджанский гражданский вертолет. Погибли видные государственные деятели, направлявшиеся в регион для ознакомления с ситуацией в зоне конфликта-Госсекретарь Азербайджанской Республики Тофик Исмайлов, генпрокурор Исмет Гаибов, министр внутренних дел Мамед Асадов, журналисты Осман Мирзоев, Алы Мустафаев, Фахраддин Шахбазов, Ариф Гусейнзаде, трое русских генералов, экипаж вертолета и несколько граждан. Всего 21 человек [14, с.21-22].

В 1988 г., по четко скорректированному плану, под руководством своих политических деятелей армяне одновременно начали изгонять оставшихся азербайджанцев из Армении и устраивать несанкционированные митинги в бывшем Степанакерте с требованием передачи НКАО из Азербайджанской ССР в состав Армянской ССР. Итак, 25 января 1988 г. в Азербайджан стали прибывать первые сотни беженцев – азербайджанцев, изгнанных из Кафанского и Мегринского районов Армянской ССР. Через две недели в Ханкенди состоялся первый митинг армян, участники которого потребовали присоединить НКАО к Армении.

24 февраля на дороге Степанакерт – Агдам в ходе стихийной демонстрации состоялось столкновение жителей Агдам и бывшего Степанакерта, в котором было убито два азербайджанца – первые жертвы армянского сепаратизма.

Армяне начали свою незаконную борьбу за отделение Нагорного Карабаха от Азербайджана неспонтанно. Под поручительство и с санкции армянских властей за короткий срок в течение одного года со своих исторических земель на территории нынешнего армянского государства были изгнаны последние 40897 семей азербайджанцев (207 тыс. человек). Во время этих изгнания были убиты 216 азербайджанцев. Большинство убитых составили дети, женщины и люди пожилого возраста. Одновременно нарастает обстрел азербайджанских поселений со стороны Армянской территории. Чтобы полностью вычеркнуть из истории факт исторического проживания азербайджанцев на территории нынешней Армении, были изменены названия около 2 тыс. населенных пунктов, ранее носивших азербайджанские названия, в том числе 465 сел в 1935 – 1973 гг., 97 – в апреле 1991 г.

В ночь с 25 на 26 февраля 1992 г. армянские фашисты с участием частей 366 полка и войсковых частей № 81 Министерства Обороны бывшего Советского Союза совершили чудовищные преступления против азербайджанского народа: уничтожали сотен ни в чем не повинных жителей города Ходжалы в Нагорно – Карабахском регионе Азербайджана. Вооруженные части Армении и наемники уничтожали целые семьи, сдирали кожу людей, отрезали уши, скальпировали или просто расстреливали в упор. Сам город, в котором жил 10 тыс. человек был варварски разрушен [2]. В итоге были убиты 613 азербайджанцев, из которых 106 женщин и 83 ребенка, 487 инвалидов, 1275 человек взяты в плен, 150 человек пропали без вести [3, с. 32; 8, с. 246]. Действие армянских сил (при поддержке российских вооруженных сил) по уничтожению мирного населения в Ходжалы приобретали характер геноцида [7, с. 27].

По характеру этот акт можно сравнить с фашистскими деяниями в Белорусской деревне Хатынь вовремя II Мировой войны. Сами же "лжеармянские патриоты" называют это актом возмездия за Сумгаит. Эта трагическая акция впервые получила политическую оценку от 24 февраля 1994 года в указе общенационального лидера Г.Алиева. В указе Президента отмечалось, что геноцид в Ходжалы был совершен как идеологический предлог для всеобщей оккупации всего Карабахского региона [10]. Этот зловещий, антигуманный акт до сих пор не нашел своей должной оценки перед мировым сообществом.

С мая 1992 г. вооруженные действия вышли за пределы бывшей НКАО и распространились на другие районы Азербайджана. В последствие, за короткое время, в течение полтора года со стороны армянских сепаратистов оккупируются вся нагорная часть Карабаха и близлежащие к нему 7 районов. В результате этой агрессии Армении на территориях самой Армении и Карабаха более 1 миллиона азербайджанцев стали беженцами. Разграблено и разрушено более 900 населенных пунктов – 113 тыс. жилых строений с общей площадью более 9 млн. кв. метров. Более 18 тыс. человек погибло, 50 тыс. человек ранено, несколько тысяч человек пропали без вести [8, с. 246].

Эти цифры являются итогом так называемого "национально - освободительного движения народа Нагорного Карабаха за право на самоопределение и национальную независимость".

Республика Армения, называющая себя правовым государством, всегда игнорировала и игнорирует по сей день все международные правовые нормы. В том числе три резолюции Совета Безопасности ООН, принятые 30 апреля 1993 г. (822), 29 июля 1993 г. (853) и 14 октября 1993 г. (874) осудившие оккупацию территории Азербайджанской Республики, которые подтвердили

суверенитет, территориальную целостность, нерушимость границ Азербайджанской Республики [6, с. 20].

Есть неоспоримый факт: Армения, грубо нарушая вышеуказанные принципы, незаконно аннексируя Карабах, уже оккупировала территорию Азербайджана и остается не наказанной.

Перечисляя эти факты, еще раз убеждаемся, что Армения никогда не хотела, не хочет и, как видно, не захочет в будущем решать конфликт мирным путем, к чему обязывают Декларации ООН и Европейского Союза.

## ЛИТЕРАТУРА


*1.Azərbaycan Xalq Cümhuriyyəti. 1918-1920. Bakı: Gənclik, 1998, 73 s.*

*2. "Azərbaycan", 1996, 27 fevral.*

*3. Abdullayev E. Dağlıq Qarabağ problemi beynəlxalq hüquq müstəvisində. Bakı: Təhsil, 2004, 216 s.*

*4. Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri-Departasiya, Soyqırım, Qaçqınlıq. Bakı: Qartal, 1998, 279 s.*

*5. Mansurov A.A. Tarixin ağ ləkələri və yenidənqurma. Bakı: Yazıçı, 1991, 224 s.*

*6. Ermənistan. Terrorçu-"xristian" ölkəsi gizlinləri. I cild. Bakı: OKA ofset, 2004, 386 s.*

*7. Rəcəbli A.Ə., Əliyev O. Ermənistan-Azərbaycan münaqişəsi. Bakı: "Kitab aləmi", 2004, 118 s.*

*8. Sultanov Z. Qarabağ müharibəsi: faktlar... hadisələr... düşüncələr... Bakı: Maarif, 2003, 772 s.*

*9. Алиев И. Шуша. Баку: Возрождение-XXI век, № 31, 2000, с. 277.*

*10. "Бакинский рабочий", 1994, 28 февраля.*

*11. "Бакинский рабочий", 1998, 26 марта.*

*12. Величко В.Л. Кавказ. Русское дело и междуплеменные вопросы (Полное собрание публицистических сочинений). Т.I. СПб, 1904. Переиздан: Баку, Элм, 1990, 224 с.*

*13. Гулиев А. Истинный геноцид и его жертвы // Возрождение-XXI век, № 4 (26), 2000.*

*14.Джапаридзе И. Загадки гибели вертолёта МИ-8 №72 и не только об этом. Б., Гятджлик, 1996,120 с.*

*15. "Зеркало", 17 марта 2001.*

*16. История – эта причина армянского терроризма. Список Л.Микучадзе. «Эхо», 23 октября 2002.*

*17. Качазнуни О. Дашнакцутюн больше нечего делать! Бухарест, 1923. Баку: Элм, 1990, 89 с.*

*18. Малевиль Дж. Армянская трагедия 1915 года. Баку: Элм, 1990, 128 с.*

*19. Маккартли ДЖ. и К. Турки и армяне. Баку: Азернешр, 1996, 158 с.*

*20. Файгль Е. Правда о терроре. Армянский терроризм-истоки и причины. 2000, изд. "Хисторама", №16.*

*21. Указ Г.Алиева «о геноциде азербайджанцев от 26 марта 1998 г. // Бакинский рабочий, 1998, 26 марта.*

*22. Armenian allegations: Myth and Reality. A handbook of facts and Documents, 1987, 479 p.*

*23. Georges de Maleville La Tragedie Armenienne de 1915. 1988, 117 p.*

*24. Kirzioğlu Fahrettin. Kars ili ve çevresinde ermeni mezalini, 1970.*

*25. Swietochowski T. Russian Azerbaijan 1905 – 1920. 1985.*

*26. Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики (АПД УДП АР), f. 276, op. 8, d. 498, ll. 14, 15.*

*27. Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики (АПД УДП АР), ф. 276, оп. 8, д. 513, л. 8.*

*28. СГА Аз. ССР, ф. 970, д.1, л. 29.*

*29. Джон Киракосян. Младотурки перед судом истории. [http://Armenian house. orq./kirakosyan/youngturks-ru/charter 07. html]*

*30. Календарь Азербайджанской Республики. Баку, типография газеты «Азербайджан», 1920 г. [http://www. birlik. ru/frm/index. php/showto pic.-1310.]*

*31. Salaxi R. Sanyel. Оттоманские армяне 1977. [http://www. karabakh.gen.az/contents. page 65.]*



***Açar sözlər:*** *erməni separatizmi, terrorizm, genosid, etnik təmizləmə.*
***Ключевые слова:*** *армянский сепаратизм, терроризм, геноцид, этническая чистка.*
***Key words:*** *Armenian separatism, terrorism, genocide, ethnic cleansing.*



## XÜLASƏ

"Erməni hərbi təcavüzü Dağlıq Qarabağın timsalında Azərbaycan dövlətinin ərazi bütövlüyünün pozulmasıdır" – adlı məqalədə azərbaycanlıların, türklərin, gürcülərin, hətta dünyanın bir çox günahsız insanlarının artq yüz illərdir ki, erməni zülmünə məruz qalmaları ətraflı işıqlandırılmışdır. Özünəməxsus qəddarlıqları ilə seçilən erməni terror qrupları "Dənizdən-dənizə - Böyük Ermənistan" ümumerməni xülyasının reallaşdırılması üçün bütün manеələri məhv edirdilər. Onlar tərəfindən Türkiyə və Azərbaycan ərazilərində törədilən kütləvi soyqırımların nəticəsində qurbanların sayı Türkiyədə 2,5 mln., Azərbaycanda 400 min, Gürcüstan və İranda bir neçə min təşkil edirdi. Bu qətllər özünəməxsus vəhşiliyi və kütləviliyi ilə fərqlənirdi. Bütün bu faktları bir-bir sadalayaraq sual olunur: bu, ermənilərin uydurduqları "erməni xalqının soyqırımı"dır, yoxsa ermənilərin azərbaycan və türk xalqlarına qarşı törətdikləri genosiddir? Ermənistan beynəlxalq norma və prinsipləri kobudcasına pozaraq Azərbaycan ərazinin 20 % -ni işğal etsə də hələ də cəzasız qalmışdır.



## SUMMARY

The article "Armenian military aggression is the violation of the territorial integrity of the Azerbaijan State on the example of Nagorno-Karabakh" – describes the evil, from which has been suffered not by Azerbaijanis, Turks, Georgians, but also by many other innocent people around the world for hundreds of years. Armenian terrorist groups, distinguished by their cruelty, destroyed all those who prevented the realization of the pan-Armenian myth "Great Armenia - from sea to sea".

They arranged mass massacres in the territories of Turkey and Azerbaijan, 2.5 million Muslims in Turkey, 400 thousand people in Azerbaijan, and several tens of thousands in Georgia and Iran became victims of their actions. These murders were notable for their mass volume and special fanaticism.

Listing all these facts, it is asked: does the Armenians or the genocide of the Azerbaijani and Turkish peoples carried out by the Armenians invent it the «genocide of the Armenian people»?

By grossly violating international laws and principles, Armenia, occupied 20 % of the territory of Azerbaijan and remains unpunished.

# Geosiyasət

## “AZƏRBAYCANIN GEOSİYASƏTİ” ƏSƏRİNİN TİPOLOJİ-KONTENT ANALİZİ

PƏRVANƏ İBRAHİMOVA
Siyasi elmlər üzrə fəlsəfə doktoru

KÖNÜL NIFTƏLIYEVA
Filologiya üzrə fəlsəfə doktoru




Müasir dünyanın geosiyasi mənzərəsi, dünya siyasətində qüvvələr balansı, böyük və kiçik dövlətlərin dünyanın geosiyasi mənzərəsinin formalaşmasında yeri və əhəmiyyəti, dünya siyasətinə təsir göstərən amillər, beynəlxalq qaydanın elmi-nəzəri və siyasi aspektlərinin araşdırılması mövcud tədqiqatların və KİV-in gündəmindən düşməyən məsələlərin sırasındadır. İçərisində olduğumuz əsrin ilk onilliyi ərzində beynəlxalq aləmdə elə qlobal dəyişikliklər baş vermişdir ki, bunların nəticəsində bipolyar dünya nizamının ancaq adı qalmış, dünyanın geosiyasi mozaikası əsaslı şəkildə dəyişilmiş və beynəlxalq münasibətlər daha anarxiyalı və xaotik xatakter almışdır. Beynəlxalq aləmdə baş vermiş əsaslı dəyişikliklərin mühüm nəticələrindən biri də XX yüzillikdə Azərbaycan Respublikasının ikinci dəfə dövlət müstəqilliyi əldə edərək dünya birliyinin sıralarına qoşulması, özünü dünyaya tanıtmaq və qəbul etdirmək üçün geosiyasi mübarizə meydanına çıxması olmuşdur.

Ümummilli lider H.Əliyev Azərbaycan Respublikasının xarici siyasət prioritetlərindən bəhs edərək qeyd edirdi ki, “dəyişən dünyamızda Azərbaycanın siyasi missiyası dost və tərəfdaş axtarışına, blok və İttifaqların çoxvariantlılığına yönəlmişdir. Bu, Azərbaycanın dünya dövlətləri ailəsində statusunu, suverenliyini möhkəmləndirəcək, həm də müxtəlif dövlətlərlə yaxınlaşmasına kömək edəcəkdir”(2, 31). Məhz bununla da Azərbaycan dünya birliyinin sıralarına inteqrasiya olunmağa, regional və beynəlxalq təhlükəsizlik sisteminin fəal iştirakçılarından birinə çevrilməyə başlamışdı.

Dünya siyasətində baş verənlərin araşdırılması və qiymətləndirilməsi, ümumiləşdirmələrin aparılması mövcud elmi-siyasi fikrin, o cümlədən də milli siyasətşünaslığın daima diqqət mərkəzindədir. Bu baxımdan Ə.M.Həsənovun 4 bölmə, 15 fəsil, 60 alt fəsildən ibarət min səhifəlik “Azərbaycanın geosiyasəti” kitabı Azərbaycan siyasi fikrinə mühüm töhfədir. Bu sahədə indiyə qədərki tədqiqatlardan fərqli olaraq bu kitabın tipoloji xarakteri ayrıca maraq doğurur. Əsər müasir dövrdə dünyanın geosiyasi reallıqları, dünya güclərinin Avrasiya siyasətinin gerçəklikləri, regionda nüfuz üstünlüyü uğrunda mübarizənin görünən və görünməyən tərəfləri nəzərə alınmaqla ərsəyə gətirilmişdir. Hazırda dünyanın geosiyasi mozaikası elə dəyişikliklərə uğramışdır ki, cərəyan etməkdə olan hadisə və prosesləri digər geosiyasi epoxalara tətbiq edilən tədqiqat üsul və vasitələri ilə araşdırmaq mümkün deyildir. Təsadüfi deyil ki, müəllif məhz bu amildən çıxış edərək kitabın elə ilk səhifələrində müasir geosiyasi konfiqurasiyanın xarakteristikasını verir: “Hazırda təzahüretmə miqyasından və məkan amilindən asılı olaraq beynəlxalq münasibətlər sistemi və planetar maraqların arxitekturası əvvəlki dövrdə olduğu kimi sosializm və kapitalizm düşərgələrinin ideoloji qarşıdurması çərçivəsində” nə dərk oluna, nə də izah edilə bilməz (3, 11). Məlum olduğu kimi, hazırda geosiyasət müstəqil elm sahəsi və dünyada baş verənlərin qavranılması üsulu olaraq dövlətlərin, regionların, bütövlükdə beynəlxalq münasibətlərin inkişaf yolları və proesseslərini araşdırmaq, onların hansı qanunauyğunluqlar əsasında fəaliyyət göstərdiyini öyrənmək baxımından xüsusi elm sahəsidir, elə elm sahəsidir ki, burada buraxılan səhv və ya yanlışlıq dövlətçiliyin itirilməsi bahasına başa gələ bilər. Təsadüfi deyildi ki, müasir elmi-siyasi fikirin nümayəndələri geosiyasətin planetar xarakter daşıdığını, dünyada baş verən münaqişə və müharibələrin, qarşıdurma və çəkişmələrin səbəbi olduğunu, habelə yeni dünya qaydasının formalaşmasında rolunu xüsusi qeyd edirlər (9, 12-14).

“Azərbaycan geosiyasəti” yeni geosiyasi reallıqların dərk edilməsi əsasında, ilk növbədə Cənubi Qafqazın dünyanın bir-birinə qarşı duran güc mərkəzlər arasında nüfuz dairələrinə bölündüyü çox

məsuliyyətli zamanda meydana gəlmişdir. Azərbaycan və Cənubi Qafqaz üçün zamanın incəliyi ondadır ki, "xalqlar müzeyinin" nüfuz dairələrinə bölgüsü hələ başa çatmayıb, dünya siyasətinin nəbzini ən zərif yerdən tutan ümummilli lider Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyini gələcək uzun illər üçün təmin etmək məqsədilə nəinki respublikamız, bütövlükdə regionumuz üçün taleyüklü "balans geosiyasətini" bu siyasətlə geosiyasi "super oyunçuların" razılaşacağı dövrdə işləyib hazırlamış və qəbul etdirmişdi. Fikrimizcə, təkcə müəlliflərinin H.Əliyev və Gürcüstan lideri E.Şevarnadze olduğu və Cənubi Qafqazın təhlükəsizliyinə köklənmiş Tbilisi (1996) və Kislovodsk (1997) bəyannamələrini xatırlamağa dəyər. Ə.Həsənov kamil tədqiqatçı və formalaşmış siyasətçi kimi, Azərbaycanın yürütdüyü milli, regional və beynəlxalq siyasətin mahiyyətinə aydınlıq gətirir: "Bu siyasətin əsas istiqamətlərindən biri ölkənin regionda gedən əksər geosiyasi və geoiqtisadi proseslərdə fəal iştirakının təmin edilməsi və bütün sahələr üzrə milli maraqlarının qorunmasıdır"(3, 14).

Müasir geosiyasət elminin məlum həqiqətlərindən biri siyasi institutlar, xüsusilə dövlətlər və dövlətlərin ittifaqları tərəfindən konkret məkanın idarə olunması imkanlarının, mexanizm və formalarının öyrənilməsidir. Dövlətin və ya onların ittifaqlarının nəzarət etdiyi və ya nəzarət etməyə can atdığı ərazi əgər rəqabətsizdirsə, orada sabitliyin mövcudluğu birmənalıdır. Təsadüfi deyildir ki, hazırda Cənubi Qafqaz metasahəyə, yəni, eyni zamanda bir neçə dövlətin nəzarəti altında olan ərazi çevrilmişdir ki, burada «yeni dünya nizamı»nın formalaşması prosesi xaos və kataklizmlərin mövcud olduğu şəraitdə gedir. Bu mənada dərslikdə müəllifin regionda üç geosiyasi aktorun – Rusiya, ABŞ və Avropa Birliyinin öz milli maraqlarını maksimum formada reallaşdırmağa çalışması fikri (3, 14) obyektiv reallıqla səsləşir.

Avrasiyanın olduqca əhəmiyyətli Xəzər-Qara dəniz hövzəsində yerləşən Azərbaycan SSRI-nin varlığı dövründə dünya üçün qapalı idi, lakin onun süqutu və Qərb - Şərq qarşıdurmasında yaranmış fasilə kontinental dünyanın enerji ehtiyatlarının toplandığı bu məkana sahiblənmə uğrunda rəqabətin yeni fazasının başlanmasına start verməklə göstərdi ki, qarşıdurma erası nəinki başa çatmamışdır, əksinə, yeni forma və məzmun almaqla daha böyük müstəviyə yayılmışdır. Bunu XX əsrin son onilliyində dünyada cərəyan edən hadisə və proseslər əyani şəkildə göstərirdi. İlk növbədə geosiyasi nüfuz dairələrinin ələ keçirilməsi uğrunda rəqabət və regionun enerji resurslarına sahiblənmək uğrunda mübarizə tədricən vüsət götürməyə başladı ki, nəticədə regionda Rusiya ilə yanaşı, ABŞ-ın, Avropa İttifaqının, Türkiyənin, İranın və s. dövlətlərin simasında Cənubi Qafqazda "yeni oyunçular" peyda oldular. Milli politoloji fikrin baş verənləri dərk etməsi, analizi və sistemləşdirməsi regionun geosiyasi mozaikasının aydınlaşdırılmasında mühüm rol oynadı. Qərb və rus geosiyasətçilərinin regionu necə görmək istəmələri ilə bağlı tədqiqatlarından fərqli olaraq milli siyasətşünaslıq daha obyektiv qiymətləndirmə bacarığı nümayiş etdirirdi. Tədqiqatçılardan M.Haqverdiyev yazırdı ki, "Avropa evinin Şərq sütunlarının çökməsi (QİYŞ-ın və Varşava Müqaviləsi Təşkilatının buraxılması) nəticəsində yaranmış boşluğun doldurulması Avropa strukturlarından, ilk növbədə Avropa İttifaqı, NATO və ATƏT-dən sürətli yeni strateji kurs götürməyi tələb edirdi. Məhz bu zəmində Aİ-nin və NATO-nun start verdiyi genişlənmə siyasəti ilk növbədə təhlükəsizlik məkanının genişlənməsi idi ki, bu prosesə Cənubi Qafqaz respublikalarından dərhal qatılan Azərbaycan və Gürcüstan respublikaları oldu (1, 2).

Minilliklərin qovşağında baş verənlər - "məxməri inqilablar" və onların ardınca başlanmış Balkan müharibəsi, ABŞ-Rusiya qarşıdurmasinin konturlarının görünməsi, Yaxın Şərqdə beynəlxalq vəziyyətin kəskin şəkildə pisləşməsi və İraqda hərbi əməliyyatlar, 2001-ci il 11 sentyabr faciəsindən sonra beynəlxalq terrorizmə qarşı ABŞ-ın başçılığı altında genişlənən antiterror əməliyyatları, beynəlxalq terrorizmin qlobal miqyas alması, Əfqanıstanda Taliban rejiminə qarşı müharibə, NATO-nun Şərqə doğru genişlənməsi ilə Rusiyanın açıq şəkildə sıxışdırılmağa başlanması, davamlı iqtisadi böhranlar və enerji mənbələrinin ələ keçirilməsi uğrunda mübarizənin həddindən artıq kəskinləşməsi, "ərəb baharı" nəticəsində Yaxın Şərq regionu ölkələrində ciddi sistem dəyişiklikləri, Rusiya ilə Gürcüstan arasında "beşgünlük müharibə", Rusiya-Ukrayna qarşıdurmasının nəticəsi görünməyən perspektivləri – bütün bunlar Avrasiyanın geosiyasi mozaikasını müəyyənləşdirirdi və bunların arxasında dünyanı qlobal şəkildə dəyişmək və «yeni dünya nizamı»na tabe etmək istəyinin durduğu tədricən özünü aydın şəkildə göstərirdi. Dərslikdə aparılan çoxşaxəli təhlillərdən sonra belə qənaətə gəlinirdi ki, "Avrasiya XXI əsrin əsas alternativ enerji və digər transmilli layihələrinin həyata keçirildiyi region hesab olunduğuna görə" "üçüncü" minilliyin başlanğıcından həm də beynəlxalq sülh və təhlükəsizlik üçün kəsb etdiyi hərbi-geostrateji əhəmiyyət, regionda dünya güclərinin və böyük dövlətlərin geoiqtisadi, geosiyasi və hərbi-strateji maraq dairələrinin kəsişməsi, fərqli dillərin, dinlərin və sivilizasiyaların intensiv təmas nöqtəsinə çevrilməsi, tolerantlığın səviyyəsi və s. üstünlükləri Avrasiyanı sözün həqiqi mənasinda dünya geosiyasətinin əsas mərkəzlərindən birinə çevirmişdir"(3, 210-211).

Müasir dövrdə Avrasiya elə bir geosiyasi məkana çevrilmişdir ki, bu məkanda həm çoxlu "oyunçular" var, həm də regional problemlərin nizamlanması zamanı hərbi gücdən istifadə olunur ki, bunu Rusiya-Gürcüstan "beşgünlük müharibəsi" və Rusiya-Ukrayna qarşıdurması aydın şəkildə göstərir, habelə baş verməkdə olan "lokal müharibələr" burada nüfuz dairələri uğrunda mübarizənin hələ başa çatmadığına işarədir, bu isə hərbi gücün dualist xarakterini: real və potensial statusunu müəyyənləşdirir. Qeyd etməyə dəyər ki, enerji ehtiyatlarının azalmağa doğru getdiyi yaxın gələcəkdə dünya düzəni, xammal mənbələri və satış bazarları uğrunda mübarizə, habelə iqtisadi qarşıdurmalar bu regionda hərbi gücün daha tez-tez tətbiqini proqnozlaşdırmağa imkan verir. Müəllifin Avrasiyanın dünya siyasətində yeri və əhəmiyyətinə verdiyi qiymət obyektivliyi ilə seçilir: "Avrasiya... dünyanın gələcək geosiyasi taleyinin müəyyənləşdiyi və beynəlxalq münasibətlərin dinamik cərəyan etdiyi əhəmiyyətli bir məkan rolunu oynayır"(3, 212).

Dərsliyin II fəsli bütünlüklə postsovet məkanının ümumi geosiyasi səciyyəsinin verilməsinə həsr olunmuşdur. Müəllif Rusiyanın maraqları kontekstində dünyanın 1/6-ni əhatə edən bu nəhəng məkanın dünya siyasətində yerinə aydınlıq gətirir, toqquşan və kəsişən maraqların kombinasiyasını yaradır və əsas inkişaf meyllərinin mahiyyətini açıb göstərməyə müvəffəq olur. Bütün metod və vasitələrlə ABŞ, Avropa İttifaqı və NATO-nun hərbi-geostrateji sahədə Şərqə - postsovet məkanına doğru genişlənməsinin qarşısını almaq istəyən Rusiya müəllifin qənaətinə görə, "itirilmiş onillikdən" sonra Prezident postunu əldə edən V.Putinin hakimiyyəti illərində qeyd edilən məqsədlərə əsasən nail olur, çünki Rusiya "Orta Asiya, Xəzər hövzəsi, Qara dəniz ətrafı və Cənubi Qafqazı itirməklə bütün Avrasiyanı, o cümlədən dünyanın enerji, nəqliyyat-kommunikasiya sistemindəki mövcud təsirini itirəcəyi" müasir politoloji fikirdə

birmənalı şəkildə dəyərləndirilmişdir (3, 226-227).

Təsadüfi deyildi ki, amerikan politoloqu Z.Bjezinski 90-cı illər Rusiyasını və Çinini "region dövləti", kiçik Yaponiyanı isə "dünya dövləti" kimi təqdim edirdi (7). Halbuki İraqda Səddam Hüseyn rejimini "bir zərbə" ilə çökdürən ABŞ Rusiyanın müdafiə etdiyi Suriyada illərlədir ki, ilişib qalmışdır və görünür ki, buranı "üzü sulu ikən tərk etmək" vaxtı artıq keçmişdir. Analoji vəziyyətin simptomları Qərbin qızışdırdığı Ukrayna-Rusiya müharibəsində də özünü göstərməkdədir. Avropa öz sərhədlərindəki bu münaqişənin uzağagedən nəticələrini dərk etməkdə və etiraz səsini ucaltmaqdadır.

Beynəlxalq aləmdə yaranmış vəziyyətin təhlilini verərkən istər-istəməz müasir dövrün geosiyasi nəzəriyyəçilərindən olan Y.Lohouzenin «Körfəzdə müharibə Avropaya qarşı müharibədir» adlı əsərindən götürülmüş aşağıdakı fikrə diqqət yetirmək lazım gəlir: «ABŞ neftli torpaqlara sahib çıxmaqla, bütün dünyanı, xüsusilə də Avropa və Yaponiyanı həmişə özündən asılı vəziyyətdə saxlamaq istəyir». Bu deyim ABŞ-ın Yaxın Şərqdəki "oyunlarının" izahı üçün kifayətdir və əlavə şərhə yer qoymur. Bir qədər əvvələ qayıtsaq, "soyuq müharibə" illərinin dünya nizamındakı qaydalarının müasir qaydasızlıqlardan nə qədər üstün olduğunu aydın görərik. Həmin dünya nizamını isə SSRİ-ABŞ pariteti müəyyənləşdirmişdi. Müəllif SSRİ-nin dağılması nəticəsində Rusiyanın itirdiyi mövqeləri tədricən bərpa etməsinə diqqəti cəlb edir: "Rusiya hazırda bütün mümkün vasitələrlə Qərbin Cənubi Qafqaza, Xəzər-Qara dəniz hövzəsinə və Mərkəzi Asiyaya geosiyasi, geoiqtisadi və hərbi-geostrateji müdaxiləsinin, AB-nin iqtisadi tərəfdaşına çevrilməsinin, NATO-nun Şərqə doğru genişlənmə təhlükəsinin və bölgə ölkələrinin müxtəlif sahələrdə bu qurumlara meyllənməsinin qarşısını almaq istiqamətində fəaliyyət göstərir"(3, 235). Hazırda baş verməkdə, cərəyan etməkdə olan hadisə və proseslərin analizi göstərir ki, Rusiya addım-addım qeyd edilənləri gerçəkləşdirməkdədir.

Müasir Rusiyanın xarici siyasətində Cənubi Qafqazın əhəmiyyəti olduqca böyükdür. Rus geosiyasətçilərindən İ.Panarin, N.A.Nartov və başqaları dəfələrlə Rusiya Prezidenti V.Putinin səsləndirdiyi "biz Qafqazı ona görə fəth etməmişik ki, onu belə asanlıqla tərk edək" deyimini diqqətə çatdırmaqla Cənubi Qafqaz dövlətlərinin şimal qonşusunun regionla bağlı niyyətlərini açıq şəkildə ortaya qoymuşdu (11, 138; 10, 26-31; 8, 23-27). Məsələ burasında idi ki, Cənubi Qafqazı Avrasiyanın "qəlbi" hesab edənlər yanılmırdılar. Qərb geosiyasi fikrinin bir çox nümayəndələri, müxtəlif geosiyasi məktəblər XX yüzilliyin əvvəllərindən etibarən öngörücülük edərək Avrasiyanı "gələcək imperiya və müstəmləkə müharibələrinin əsas hədəfi" adlandırmışdılar. Bu gün XXI əsr geosiyasətinin əsas hədəfinin Avrasiya qitəsi olduğu heç kəsdə şübhə doğurmur. Təsadüfi deyildi ki, ABŞ politoloqu Z.Bjezinski də sələfləri kimi, «kim Avrasiyaya sahib olacaqsa, o bundan sonra dünyaya sahib olacaqdır» fikrini səsləndirmişdi(6, 51). Dərslikdə klassik şəkildə müasir dövrdə Avrasiyanın ümumi geosiyasi səciyyəsi verilir, onun hüdudları göstərilir, yeri gəldikcə müxtəlif fikir və nəzəriyyələrə aydınlıq gətirilir, habelə təzahür etməkdə olan hadisələrin inkişaf perspektivləri proqnozlaşdırılırdı. Məlum olduğu kimi, hal-hazırda dünya əhalisinin 75 %-dən çoxu Avrasiyada yaşayır, dünya ümumi daxili məhsulunun 60 %-i Avrasiyaya məxsusdur (12, 79-81), üstəlik bu regionun konturlarının genişlənməsi və onu əldə etmək uğrunda mübarizənin necə kəskinləşməsi gözlərimiz önündə baş verir.

Müasir dövrdə yaranmış beynəlxalq şərait təkqütblüyün uzun müddət davam etməyəcəyini göstərir. Halbuki dərslikdə qeyd olunduğu kimi, ABŞ və onun müttəfiqləri təkqutbluyə əsaslanan yeni dünya qaydasının bərqərar edilməsinə çalışırlar, baxmayaraq ki, buna ilk növbədə «avroatlantizm» blokundakı daxili ziddiyyətlər imkan vermir. Avrasiyanın yeni güc mərkəzinə çevirməyə çalışan Rusiya, Fransa, Hindistan kimi ölkələr Çinin də buraya daxil edilməsi yolu ilə alternativ kontinental blokun formalaşdırılması uğrunda mübarizə aparırlar. Müəllifin qənaətinə görə, XXI yüzilliyin əvvəllərindən etibarən formalaşmaqda olan dünya nizamının gələcəyi bu iki qütb arasındakı ziddiyyətlərdən asılı olaraq transformasiya proseslərini yaşayacaqdır, bu Qərb politoloji fikrinin ehtiyatlandığı başlıca məqamdır.

Beynəlxalq münasibətlərin inkişafı gedişində toplanmış təcrübənin analizi birmənalı olaraq aşağıdakı nəticəyə gəlməyə imkan verir: yeni dünya qaydasının yaradılması üçün vacib şərtlərdən biri kimi "xaos" müxtəlif səviyyələrdə hələ xeyli müddət davam etdiriləcəkdir. Tətbiqi metodların köməyi ilə hazırda dünya siyasətin təsir göstərməkdə olan lokal konfliktlərdən olan İsrail - Fələstin, Dağlıq Qarabağ, Yuqoslaviya, İraq, Əfqanıstan və s. kimi konfliktlərin ssenariləşdirildiyini, məhz yeni dünya qaydasının yaradılmasına xidmət edəcək xaosu şərtləndirmək üçün həll edilmədiyi və "konservləşdirildiyi" nəticəsini almış oluruq. Müəllif obyektiv olaraq qeyd edirdi ki, müasir dövrün xarakterik xüsusiyyəti geosiyasi vəziyyətin daha az davamlı olmasında təzahür edir, çünki yaranmış vəziyyətin başlıca səbəbi əvvəllərdə olduğundan fərqli olaraq dünya nizamına indi daha çox aktorun təsir gücünə malik olmasını nəzərə almaq və bununla hesablaşmaq lazımdır.

Avrasiyada dominatlığa iddialı dövlətlərin sırasında Rusiya ilə yanaşı, region dövlətlərindən Türkiyə və İran, regiondankənar dövlətlərdən ABŞ, Çin və bir sıra Avropa dövlətləri iddialıdır ki, bunların sayı şəraitdən asılı olaraq artır. Dərslikdə bu dövlətlərdən hər birinin maraqları, niyyətləri, əldə etməyə çalışdıqları və itirdikləri elmi-praktiki təhlil süzgəcindən keçirilir. Ümumiyyətlə, fikrimizcə, XXI yüzilliyin əvvəllərinin geosiyasəti heç də bir sıra müəlliflərin iddia etdiyi kimi, mahiyyətcə terrorizmə qarşı mübarizədən ibarət deyildir, dərindən diqqət yetirdikdə bunun hadisələrin görünən tərəfi olduğuna şübhə yeri qalmır. Hazırda mübarizənin başlıca geosiyasi konturları ABŞ başda olmaqla «atlantizm bloku» ilə Avrasiyanı güc mərkəzi kimi görmək istəyən «kontinental blok» arasından keçir. Bu mübarizənin nəticəsi dünyaya nəzarəti ələ almaqdan ibarətdir, bunu hadisələrin inkişaf meylləri aydın şəkildə göstərir. Müəllifin ümumi geosiyasi fonla yanaşı, region uğrunda geosiyasi rəqabətdə Türkiyə və İran faktoruna xüsusi yer ayırması yaranmış situasiyanın obyektiv dəyərləndirilməsidir: "Türkiyə... Avrasiyada daha çox türkdilli xalqlar və dövlətlərin dəstəyinə, eyni zamanda, Avropaya ən yaxın və Avropa dəyərlərini daşıyan bit modern dövlət statusu ilə regionun qərbyönlü ölkələrinin etimadına iddia edir"(3, 215). Bu XXI əsrin ilk onilliklərində Türkiyənin izlədiklərinə, gözlədiklərinə, əldə etdiklərinə haqq qazandırmaqla yanaşı, umduqlarının perspektivlərinə nikbinliklə yanaşmağa imkan verir.

Azərbaycan Respublikasının xarici siyasət strategiyasında və fəaliyyətində geosiyasi amillərin əhəmiyyəti, problemin beynəlxalq, regional, hərbi və milli təhlükəsizliklə bağlı aspektləri dərsliyin 4-cü bölməsində nəzərdən keçirilir. Cənubi Qafqazda aktorların çoxluğuna baxmayaraq, buradakı rəqabət meydanında iki supergüc – Rusiya və ABŞ, biri region, digəri qeyri region dövləti qarşı-qarşıya durmuşdur. Məhz bu qarşıdurma regiondakı münaqişə ocaqlarının vaxtdan-vaxta qaynamasını şərtləndirir. Vaxtilə ABŞ hərbi-dəniz nəzəriyyəçisi

A.Mexen Yer planetinin 30-cu və 40-cı paralellər arasındakı zonasını “münaqişələr zonası” adlandıraraq belə vəziyyətin səbəbini həmin zonada dəniz imperiyalarının maraqlarının toqquşması ilə izah etmişdi. Aradan xeyli illər keçdikdən sonra Azərbaycan geosiyasətçisi həmin paralellər arasında yerləşən regionlardakı vəziyyəti aşağıdakı kimi səciyyələndirmişdi: “1990-cı illərdən sonra dünya miqyasında müxtəlif etnik-seperatçı, milli, dini və digər münaqişələrin sayı kəskin şəkildə artdı. Baxmayaraq ki, bu münaqişələrin çoxu daxili, lokal və regional xarakter daşıyırdı, lakin mahiyyət etibarı ilə onların hər birinin arxasında (o cümlədən də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin – müəl.) müxtəlif dövlətlər dayanırdı ki, bu da həmin münaqişələrin regional və beynəlxalq təsirindən xəbər verirdi.”(3, 739) Təsadüfi deyildi ki, amerikalı politoloqlardan Pol Qobl Cənubi Qafqazdakı münaqişələrin hamısının “üçlü təbiətə malik olması” fikrini (yəni arxasında üçüncü dövlətin dayandığını) hələ ötən əsrin 90-cı illərinin əvvəllərində səsləndirmişdi(4, 53) ki, zaman bu ideyanın obyektivliyinə haqq qazandırmış oldu.

Məlum olduğu kimi, müasiri olduğumuz bu günlərədək dünyada iki dünya müharibəsi istisna olunmaqla beynəlxalq aləmdə liderlik və nüfuz dairələri uğrunda mübarizə özünü əsasən lokal müharibələrdə təcəssüm etdirmiş, bu zaman baş verənlər dünya ölkələrinin deyil, konkret regionun həyatı ilə bağlı olmuşdur. Bununla belə, əvvəlki regional və lokal münaqişələrdən fərqli olaraq “yaradılan” müasir konfliktlər uzunmüddətli planlar üzrə ssenariləşdirilmiş və reallaşdırılmışdır. Yaranmış vəziyyət böyük-kiçikliyindən, beynəlxalq mövqelərindən asılı olmayaraq hər bir dövlətdən situasiyanın tələblərinə cavab verən strateji kursun hazırlanmasını və həyata keçirilməsini tələb edirdi. Məhz bu zaman siyasi liderin yeri və rolu gündəmə gəlir, onun nəyə qadir olduğu üzə çıxırdı. Dərsliyin müəllifi yazır: “Azərbaycanın təhlükəsizlik sahəsində praktiki xarici siyasət fəaliyyətinin qurulması və formalaşması, onun əsas vəzifələrinin müəyyənləşdirilməsi Prezident Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun dövründə Azərbaycanın beynəlxalq münasibətlər sistemində iştirakı və özünəməxsus mövqelər qazanması üçün lazımi tədbirlər həyata keçirildi, ölkənin xarici aləm üçün kəsb etdiyi maraqlar dairəsi, geosiyasi və geoiqtisadi əhəmiyyəti düzgün dəyərləndirildi, beynəlxalq aləmin Cənubi Qafqazda, Xəzər regionunda və Azərbaycanda üst-üstə düşən, kəsişən maraq dairələri müəyyənləşdirildi”(3, 751).

XXI yüzilliyin əvvəllərindən etibarən dünya nizamının yeni – daha qlobal modelə keçidi bizi bir sıra reallıqlarla üz-üzə qoymuşdur. Bu nizamın səciyyəvi xüsusiyyəti adaptasiya – uyğunlaşma, eyniləşmə proseslərinin ümumplanet miqyasında baş verməsidir ki, bunun nəticəsində dini və milli spesifiklik tədricən itəcək, adət və ənənələr, coğrafi və mənəvi sərhədlər şəffaflaşacaqdır. Artan templə genişlənməkdə olan bu proseslər dərslik müəllifinin qeyd etdiyi kimi, yüksək elmi potensiala, texnologiya və maliyyə gücünə malik olan kiçik dövlətlərin dünya siyasətidə rolu və əhəmiyyətini artırmaqla bərabər, rəsmi dairələri, dövlət xadimlərini, diplomatları, siyasətçiləri, iqtisadçıları və ictimai fikri bu yönümdə fəaliyyətə istiqamətləndirəcəkdir.

**ƏDƏBİYYAT:**


*1. Haqverdiyev M.B. Müasir dövrdə ümumavropa təhlükəsizliyi və Azərbaycan. B.: Elm və təhsil, 2011, 232 s.*

*2. Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır. B., Azərnəşr, 1994, 176 s.*

*3. Həsənov Ə.M. Azərbaycanın geosiyasəti. B.: Zərdabi LTD MMC, 2015, 1056 s.*

*4. Hüseynova H. Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində. B.: Hərbi nəşr., 1998, 280 s.*

*5. Quliyeva G.M. Azərbaycan yeni geosiyasi münasibətlər sistemində. B.: Elm, 2011, 423 s.*

*6. Бжезинский З. Великая шахматная доска. Господство Америки и его геостратегические импе-ративы. М.: Международные отношения. 1999, 256 с.*

*7. Бжезинский Зб. Геостратегия для Евроазии / Независимая газета, 1997, 14 октября*

*8. Геополитика. Учебник / Под общ. ред. В.А. Михайлова. М.: РАГС, 2007, 476 с.*

*9. Международные отношения: теория, конфликты, организации. Учеб. пособия / Под ред. П.А.Цыганова. М.: Международные отношения, 2004, 286 с.*

*10. Нартов Н. А., Нартов В. Н. Геополитика. Изд. 4-е. М.: Юнити, 2007, 537 с.*

*11. Панарин И.Н. Информационная война и геополитика. М.: Прогресс, 2006, 465 с.*

*12. Южный Кавказ в реалиях меняющегося мира. М.: изд. МГИМО, 2007, т. 8, 132 с.*


***Açar sözlər:*** *Azərbaycan, Cənubi Qafqaz, beynəlxalq münasibətlər, dünya nizamı, geosiyasət, diplomatiya, milli maraqlar, “balans siyasəti”, deosiyasi “oyunçular”, geosiyasi mozaika, inteqrasiya, münaqişə.*

**XÜLASƏ**

Müasir dünya siyasətində baş verənlərin araşdırılması, təhlil edilməsi və qiymətləndirilməsi, ümumiləşdirmələrin aparılması, beynəlxalq münasibətlərin inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi və müvafiq elmi-nəzəri proqnozların verilməsi milli siyasətşünaslığımızın daima diqqət mərkəzindədir, çünki bu xalqımızın taleyi və gələcəyi, dövlət müstəqilliyimizin qorunması məsələsidir. Bu baxımdan Ə.M.Həsənovun 4 bölmə, 15 fəsil, 60 alt fəsildən ibarət min səhifəlik “Azərbaycanın geosiyasəti” kitabı təkcə vaxtında meydana gəlməyib, həm də zamanın tələbidir.

“Azərbaycanın geosiyasəti” müasir dövrdə dünyanın geosiyasi mozaikası və reallıqları, dünya güclərinin Avrasiya siyasətinin gerçəklikləri, regionda nüfuz üstünlüyü uğrunda mübarizənin görünən və görünməyən tərəfləri nəzərə alınmaqla işlənmişdir.

Məqalədə əsərin geniş təhlili əsasında hazırda geosiyasətin dünyada baş verənlərin qavranılması üsulu olaraq dövlətlərin, regionların, bütövlükdə beynəlxalq münasibətlərin inkişaf yolları və proesseslərini araşdırmaq, onların hansı qanunauyğunluqlar əsasında fəaliyyət göstərdiyini öyrənən müstəqil xüsusi elm sahəsi olduğu vurğulanır, həm də elə elm sahəsi olduğu qeyd edilir ki, burada buraxılan səhv və ya yanlışlığın dövlətçiliyin itirilməsi bahasına başa gəldiyi diqqətə çatdırılır.

Məqalədə “Azərbaycanın geosiyasəti” əsərinin yeni geosiyasi reallıqların dərk edilməsi əsasında, ilk növbədə Cənubi Qafqazın dünyanın bir-birinə qarşı duran güc mərkəzlər arasında nüfuz dairələrinə bölündüyü çox məsuliyyətli zamanda meydana gəlməsinin elmi-siyasi əhəmiyyəti xüsusi qeyd edilir.

Məqalə tarix elmləri doktoru, professor Əli Həsənovun “Azərbaycan geosiyasəti” fundamental əsərini müasir dünya düzəni sisteminə elmi baxışını təhlilə cəlb etmişdir.

# Politologiya

## "AZƏRBAYCANIN İNNOVATİV İNKİŞAFINDA ÇOXPARTİYALILIĞIN FUNKSİYA VƏ MEXANİZMLƏRİNİN POLİTOLOJİ TƏHLİLİ"

ÜLVİYYƏ HAQVERDİ
Siyasi elmlər üzrə fəlsəfə doktoru



Azərbaycanda innovasiya əsaslı siyasi sistemin qurulması dövlətimizin apardığı siyasətin əsas prioritetlərindəndir. Müasir dünyamızda baş verən dinamik proseslər özünü müxtəlif sahələrdə və spektrlərdə əks etdirirlər. Bunlardan biri də dünya arenasında bir tərəfdən qloballaşma proseslərinin zəruriliyi və labüdlüyü kontekstində genişlənməsi və inkişaf etməsi, digər tərəfdən isə milli dövlətlərin və onların milli maraqlarının günü-gündən güclənməsi və artması tendensiyalarıdır.

Siyasi partiyalar cəmiyyətdə olan müxtəlif sosial maraqların əsas təmsilçisi hesab olunurlar ki, onlar siyasi sistemin və ümumilikdə cəmiyyətin aparıcı institutlarıdır. Müasir dövrdə siyasi partiyaların inkişafının əsas tendensiyalarını izləmək və üzə çıxarmaq üçün ilk növbədə cəmiyyətin özündə baş verən obyektiv prosesləri izləmək lazımdır.

Bunlardan birincisi cəmiyyətin bütün sahələrini əhatə edən qloballaşmadır ki, o, xüsusilə də siyasi institutların formalaşması və siyasi proseslərin gedişatına əhəmiyyətli dərəcədə təsir edir. Təbii ki, qloballaşma fenomeni elmi dövriyyəyə ciddi formada daxil olmuşdur ki, onunla bağlı çoxsayli elmi əsərlər və yanaşmalar mövcuddur.

Azərbaycanın müasir inkişafını müəyyən edən bir sıra məsələlərdə Azərbaycan cəmiyyətinin total transformasiyası nəzərə alınmaqla vaxtında təshihlər və dəyişikliklər edilməsinə ehtiyac var. Tamamilə aydındır ki, postmodern postsovet məkanındakı keçid cəmiyyətlərinin qapılarını getdikcə intensiv şəkildə döyür və bizim adət etdiyimiz davranış normalarını və stereotipləri tədricən dəyişir. Bu da tamamilə qanunauyğundur ki, həmin dəyişikliklər dövlətin və cəmiyyətin inkişafı prosesində müdafiə və amortizasiya xarakterli ovqat doğura bilər və doğuracaqdır.(2.səh.65)

Müstəqillik illərində Azərbaycanda demokratik cəmiyyətin, şəffaf ictimai münasibətlər sisteminin formalaşdırılması dövlət siyasətinin başlıca istiqaməti olmuş, ölkədə siyasi plüralizm ictimai tərəqqinin zəruri əsası kimi öz yerini tutmuşdur. Hazırda Azərbaycanda siyasi partiyaların sərbəst fəaliyyəti üçün zəruri hüquqi və demokratik siyasi şərait mövcuddur. Bu günədək 55 siyasi partiya dövlət qeydiyyatından keçmişdir ki, onlardan 11-i parlamentdə təmsil olunur. Siyasi partiyalar ölkənin ictimai-siyasi həyatında yaxından iştirak edir, seçkili və digər 16 hakimiyyət orqanlarında təmsil olunurlar. Siyasi partiyaların maddi-texniki bazasının möhkəmləndirilməsi, ölkənin siyasi sisteminin və vətəndaş cəmiyyətinin inkişafında onların rolunun daha da artırılması üçün əlavə imkanlar yaradılmışdır. Demokratik dəyərlərə əsaslanan yeni ictimai münasibətlər sisteminin formalaşması cəmiyyətin strukturunda mühüm dəyişikliyə səbəb olmuş, vətəndaşların ictimai-siyasi proseslərdə daha fəal rol oynamasına şərait yaratmışdır. Hazırda ölkədə vətəndaş cəmiyyəti inkişaf dövrünü yaşayır. Azərbaycanda insan hüquqları, təhsil, səhiyyə, mədəniyyət, iqtisadiyyat, sosial məsələlər, ekologiya, gender və digər sahələrə aid 2700-dən artıq QHT dövlət qeydiyyatından keçmişdir və onların sayı durmadan artır. Son 10 il ərzində QHT-lərin yaradılması və onların imkanlarından səmərəli istifadə edilməsini nəzərdə tutan qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində mühüm addımlar atılmış, QHT-lərin maliyyə mənbələrinə çıxışı üçün zəruri hüquqi mühit təmin edilmişdir. (1,səh. 6)

Siyasi partiyaların mahiyyəti daha çox onun funksiyalarında təzahür edir. Siyasi partiyaların funksiyaları həm konkret şəraitdən, həm də siyasi rejimin xarakterindən asılıdır. Klassik yanaşmaya müvafiq olaraq, partiyalar nümayəndəli sistemdə ən azı dörd funksiyanı yerinə yetirir: məqsədin təyin olunması, ictimai rəyin formalaşdırılması, namizədlərin seçilməsi və deputatların fəaliyyət göstərməsi üçün şəraitin təmin olunması. Bizə elə gəlir ki, bu cür yanaşma son dərəcə məhdudlaşdırılıb.

E.Heyvudun təklif etdiyi siyasi partiyaların yerinə yetirdikləri funksiyaların aşağıdakı təsnifatı daha rasionaldır:

1.Təmsilçilik. Öz üzvlərinin və seçicilərinin maraqlarını ifadə etmək məqsədi ilə yarandığı dövrdən təmsilçilik partiyanın əsas funksiyasıdır ki, onun vasitəsi ilə dövlət sisteminə cəmiyyətin tələbatı, problemi, cəhd və istəkləri ötürülür.

2.Elitanın formalaşdırılması və təmin edilməsi. Bütün siyasi partiyaların əsas funksiyalarından biri dövlətə siyasi liderlərin təqdim olunmasıdır ki, siyasətçilər adətən partiya sıralarından çıxaraq hökumət vəzifələrinə gəlirlər.

3.Məqsədin müəyyən olunması. Siyasi partiyalar elə bir mühit yaratmışdılar ki, cəmiyyət onun vasitəsi ilə öz məqsədlərini dərk




edir, müəyyənləşdirir və reallaşdırır.

4.Maraqların artikulyasiyası və aqreqasiyası. Cəmiyyətdə qrupların çoxluğu və maraqların müxtəlifliyi partiyaları bu maraqları aqreqatlaşdırmaya, yəni onları orta məxrəcə gətirməyə məcbur edir.

5.Sosiallaşma və səfərbərlik. Burada cəmiyyətin siyasi davranışının formalaşması müxtəlif tədbirlər vasitəsi ilə (seçki kampaniyası, seçkilər, müzakirələr, dəyirmi masa və s.) həyata keçirilir və nəticədə cəmiyyətin siyasi mədəniyyəti formalaşdırılır.

6. Hakimiyyətin təşkili. Partiyalar mövcud olmasalar və fəaliyyət göstərməsələr mürəkkəb siyasi cəmiyyətləri idarə etmək çox çətin və mümkünsüz olardı. İlk öncə, ona görə ki, partiya hakimiyyəti formalaşdırmağa kömək edir, parlament sistemlərində hətta "partiya hökuməti" səviyyəsində bu məsələ reallaşır. İkincisi, siyasi partiyalar idarəetmədə sabitllik və daxili birlik yaradırlar. Bu o zaman baş verir ki, hökumət nümayəndələri eyni partiyadandırlar və ümumi əlaqələrə malikdirlər(10,s.314-318).

A. Mirzəzadə bu təsnifatı bir az da dəqiqləşdirərək aşağıdakı kimi qruplaşdırır:

1. Kollektiv rəhbərliyi olan partiyalar, adətən daxilində böyük fraksiyalar olan partiyalardır ki, 70-ci illərdə geniş fəaliyyət göstərən ekoloji partiyalar buraya daxildir.

2. Lider başda olmaqla kollektiv rəhbərliyi olan partiyalar, siyasi partiyaların böyük əksəriyyəti məhz bu kateqoriyaya aiddir.

3. Xarizmatik liderliyi olan partiyalar. Bunu ikinci bölmənin qolu hesab edərək, tədqiqatçı qeyd edir ki, xarizmatik lider əgər siyasətdən gedən zaman onun yerini digər xarizmatik rəhbər tutmazsa partiyalar yenidən ikinci qrupa keçirlər. (5,s.51).

Beləliklə, çoxəsrlik tarixə malik siyasi partiyalar siyasi sistemin baza institutlarından biri olaraq, bir tərəfdən cəmiyyətin müxtəlif maraqlarının aqreqasiyası və təmsilçiliyi, digər tərəfdən siyasi elitanın istehsalı və rotasiyasına təkan verir. Siyasi partiyaların bu cür ikililiyini T.Parsons ədalətli olaraq belə izah edir ki, onlar "idarəçilik prosesi ilə, həmçinin daha çox müyyən fəaliyyəti reallaşdıran kollektivləri təmsil edən müxtəlif növ assosasiyalaşmış maraq qrupları ilə bağlıdır."(6,s.42).

Bildiyimiz kimi, siyasi partiyalar cəmiyyətdə müxtəlif funksiyaları yerinə yetirirlər. Azərbaycan Respublikasında da siyasi partiyalar aşağıdakı funksiyaları reallaşdırırlar:

1.Siyasi partiyaların əsas məqsədləri olan siyasi hakimiyyətin əldə edilməsi üçün hakimiyyət uğrunda mübarizə.

2.Cəmiyyətin siyasi və sosial-iqtisadi funksiyalarını xalq kütlələrinə izah edilməsi və fəaliyyət proqramlarının təklif edilməsi.

3. Cəmiyyətdə maraq və məqsədlərin ümumiliyi əsasında vətəndaş həmrəyliyinə çalışmaq və onların sosial-siyasi cəhətdən maarifləndirilməsi.

4. Parlament seçkilərində iştirak və orada qanunvericilik təşəbbüsünün irəli sürülməsi.

Siyasi partiyaların fəaliyyətlərinin səmərəliliyi əsasən seçkilərin nəticələrinə görə müəyyənləşir , çünki bu zaman onların təbliğat və nüfuzlarının yoxlanılması üçün şərait yaranır.

1995-ci il 12 noyabr parlament seçkiləri zamanı majoritar qaydada deputat mandatı qazanan deputatların əksəriyyəti bitərəflər idi ki, bu da Azərbaycanda siyasi partiyaların bir o qədər də inkişaf etmədiklərinin və geniş elektorat toplaya bilmədiklərinin bariz nümunəsidir.

Bizim fikrimizcə, bunun bir səbəbi də ölkədə siyasi ideologiyaların tam müəyyənləşməməsi ilə əlaqədardır və seçici hansı ideologiyaya deyil, siyasi şəxslərə və fiqurlara daha artıq önəm verərək kimə səs verməsi haqqında düşünür.

5.Hakim partiyanın yeritdiyi siyasət partiya maraqlarını təmsil etdikləri təbəqələri təmin etmədiyi təqdirdə hakimiyyət strukturlarına etiraz etmək və təzyiq göstərmək .

Müxalifətdə olan partiyaların da mövqeləri fərqli olduğundan onları iki əsas qrupa bölmək olar:

1. Lberal və ya normal müxalifət.

2. Radikal müxalifət.

Birinci qrup müxalifətə Qərbi Avropa ölkələrində rast gəlinir. Onlar siyasi partiyaların seçkilərdəki nəticələrini tanıyır, lakin hakimiyyət strukturlarının fəaliyyətinə nəzarət edir, onun nöqsanlarını göstərməklə növbəti seçkilərə hazırlaşırlar.

İkinci radikal və ya "barışmaz" adlandırılan bu müxalifət seçkilərin nəticəsində qurulmuş hakimiyyət strukturlarını tanımır, iqtidar partiyasının bütün hərəkətlərinə "nihilist" münasibət bəsləyir.

6. Dövlət ilə vətəndaş cəmiyyəti arasında vasitəçilik funksiyasını həyata keçirir. Rus politoloqu D.Çijov "Rusiyanın siyasi partiyaları" kitabında bu funksiyanı geniş tədqiq edərək siyasi partiyaların siyasi sistemdəki rolunu onların ikili təbiəti ilə əlaqələndirir: "onlar eyni vaxtda vətəndaş cəmiyyətinin elementləri və dövlət mexanizminin tərkib hissəsi kimi çıxış edirlər." (9,53 s.)

Digər rus alimi K.Xolodovski isə bu təhlili bir az da dəqiqləşdirərək qeyd edir ki, "partiyanın köklərinin qrup maraqlarının doğulduğu və formalaşdığı vətəndaş cəmiyyətinə gedib çıxması faktı və bununla belə özünün rəhbər instansiyalarının vasitəsi ilə dövlət hakimiyyət mexanizminə yüksəlməsi ona vətəndaş cəmiyyəti və dövlətin qarşılıqlı əlaqəsində unikal agent keyfiyyətini verir." (9 , s. 63)

Akademik Ramiz Mehdiyev Azərbaycanda müxalifətin folmalaşması "təşəbbüsünün" həyata keçirilməsinin bir neçə tarixi aspekt və fazasını göstərmişdir:

Birincisi, milli müxalifət AXC–Müsavat iqtidarı dövründə ölkəni didib-dağıdan anarxist meyllərin ziddinə olaraq müəyyənləşməyə başlamış müxalifətdir. Alim 1992-ci il dekabr ayında yaradılan YAP-ı ölkə rəhbərliyinin qanunsuz hərəkətlərinə qarşı çıxan ilk müxalifət partiyası kimi qiymətləndirilir.

İkincisi, 1993-cü ilin oktyabrında Heydər Əliyevin hakimiyyətə gəlməsindən və Ə.Elçibəy öz komandası ilə siyasi səhnədən uzaqlaşandan sonra yaranan radikal müxalifət. "Ümummilli maraqların əslində olmaması və bunların şəxsi maraqlarla əvəzlənməsi müxalif əhval-ruhiyyəli siyasətçilərə hakimiyyət uğrunda mübarizənin proqram və yollarını dəqiq formalaşdırmağa imkan vermirdi. Siyasi mübarizənin son məqsədini yalnız və yalnız hakamiyyətə gəlməkdə görən müxalifət düşərgəsi mövcud iqtadarın simasında siyasi rəqib deyil, "düşmən" obrazı yaratmaq yolu tutdu ki, bu da siyasi meydanı sərt ziddiyyətlər və qarşıdurmalar məkanına çevirdi." (4,s 415)

Üçüncü mərhələdə, Azərbaycan müxalifətinin institusional zəifliyi ona üçüncü dalğa cəmiyyətinin standartlarına uyğun gələn siyasi struktura transformasiya etməyə imkan vermədi. Bu mərhələdə müxalif qrupların 1995-ci ildən etibarən yaratdıqları bloklar və alyanslar müxalif qüvvələrin birliyi kimi təqdim edilsə də son nəticədə onların hamısının çəkişmələr və fikir ayrılılıqlarının mərkəzində olduqları kontekstində müxalifət müstəqil Azərbaycanın muxtar siyasi subyekti ola bilmədi.

Dördüncu, hakim elitanın timsalında düşmən obrazı yaradan müxalifət mövqeyini heç bir konkret fikirə əsaslandırmadan, fəaliyyətini ağına-bozuna baxmadan iqtidarı ittiham etmək üzərində qurdu.

Beşinci, müxalifət düşərgəsində xarizmatik şəxsiyyətin və aydın proqramın olmaması, milli siyasi səhnədə bu və ya digər siyasi qüvvələrin olmasına "ictimai sifarişin" inkar edilməsi müxtalifətin istər lokal, istərsə də milli miqyasda seçkilərdə məğlubiyyətinə səbəb olmuşdur.

Altıncı, milli müxalifət siyasi qüvvələrin ölkənin milli siyasət səhnəsində yetərincə təmsil edilmək üçün vacib olan başlıca atributunu formalaşdıra-özünün ictimai-siyasi zəruriliyini sübut edə bilmədi. Akademik R.Mehdiyev bu 15 il ərzində müxalifət düşərgəsində elə bir baxışlar sisteminin formalaşmadığını qeyd edir ki, bunun əsasında vahid müxalifətin mövcudluğundan danışmaq mümkün olsun.

Yeddinci, müxalifətin kompleksliliyi və dialoqa getmək qabiliyyətinin olmaması. Bu mərhələdə müxalifət liderlərinin dövrün reallıqlarını düzgün başa düşməmələri nəticəsində Azərbaycanın siyasi məkanında iqtidar və müxalifətin sivilizasiyalı rəqabəti sisteminə uğurla transformasiya edə bilmədi (4, s. 415-418).

Tarixçi alim S.Qəndilov da müxalifətin fəaliyyətini qənaətbəxş hesab etməyərəq qeyd edir ki, "müxalifət liderləri arasında nəzəri biliyi, praktiki təcrübəsi, dövlətçilik səriştəsi, idarəçilik qabiliyəti imkan verən elə bir şəxsiyyət yoxdur ki, o , dünyanın belə bir qarışıq və dolaşıq vaxtında, Azərbaycanın qarşısında çox böyük prodlemlər durduğu və onun dünya ilə belə geniş təmasda olduğu bir zamanda ölkəyə rəhbərlik edə biləcək səviyyədə olsun." Tədqiqatçının fikrincə, dövrün tələbəlri ilə ayaqlaşmayan köhnə müxalifəti yeni, sivil mübarizə üsulları ilə fəaliyyət göstərən, yeni tərzdə düşünən, milli maraqları şəxsi maraqlardan üstün tutan demokratik müxalifət əvəz etməlidir(3, s.197).

Bütün bu funksiyaları ilə yanaşı cəmiyyətdə siyasi sabitliyin təmin edilməsi siyasi partiyanın ən vacib funksiyası hesab olunur. Bu da əsasən dövlət ilə vətəndaşlar arasında konsensus və kompromis vasitəsi ilə həyata keçirilir.

Siyasətçilər elmi tədqiqatlarında siyasi sabitliyin əsas göstəricisinin bu və ya digər cəmiyyətdə orta sinifin vəziyyəti ilə əlaqələndirirlər. Yəni orta sinifin geniş olduğu cəmiyyətlərdə siyasi sabitlik daha möhkəm olur. O, demokratik partiyaların yeritdikləri siyasəti dəstəkləyərək sol və sağ təmayüllü ekstremist qrupları marginallaşdırır, bu isə öz növbəsində sosial münaqişələrin neytrallaşdırılmasına səbəb olur.

Postsovet məkanında, o cümlədən Azərbaycanda baş verən transformasiya nəticəsində orta təbəqənin lümperləşməsi baş verdi. Son 5-6 ildə isə bu təbəqənin tədricən bərpası prosesi müşahidə olunur. Bu təbəqəni əsasən kiçik və orta bizneslə məşğul olan şəxslər və muasir Qərb təhsili almış gənclər təşkil edirlər.

Siyasi sabitlik terminindən ilk dəfə ingilis və amerikan siyasi elmində sistemdə baş verən dəyişikliklərıun təhlil edilməsi və onun funksiyalaşmasının optimal mexanizmlərinin axtarılması məqsədi ilə istifadə olunmuşdur.(8, 217).S.Lipset iki ölçüyə görə siyasi sistemləri biri-birilərindən fərqləndirməyi təklif edirdi ki, bunlar da hakimiyyətin legitimliyi və səmərəliliyidir. Məhz hakimiyyətin legitimliyi və səmərəliliyi cəmiyyətin siyasi sabitliyini təmin edən əsas şərtlərdir. Alimin fikrincə, əgər siyasi sistemdə bu ölçünün yalnız biri olarsa o, nisbətən sabit sistem kimi qiymətləndirilər ( 7.126).

Siyasi sabitliyin təmin edilməsi hər bir ölkənin ilk növbədə isə hakimiyyət strukturlarının qarşısında duran vacib məsələdir. Bir şeyi də qeyd etmək lazımdır ki, bu zaman hər hansı bir dövlətin spesifik xüsusiyyətləri, tarixən formalaşmış adət-ənənələri bu zaman həlledici rol ounayır.

Cəmiyyətin siyasi sabitliyinin səviyyəsi bir sıra amillərdən asılıdır:

-cəmiyyətdə konsensusun səviyyəsindən, Azərbaycan kontekstində bu Dağlıq Qarabağ probleminin həlli yolu ilə bağlıdır. Belə ki, müxtəlif təmayüllü siyasi partiyalar aralarında nə kimi ziddiyyətlərin olmasına baxmayaraq bu problemin həllində ümumi milli mənafedən çıxış etməli olurlar.

-hakimiyyət strukturlarının (qanunverici, icraedici və məhkəmə hakimiyyətinin) tam təmin edilməsindən.

- siyasi və iqtisadi sabitliyin qarşılıqlı surətdə əlaqəli olmasıdır. Bu sahələrin birində sabitliyin olması digər sahənin də sabitliyini təmin edir. Diqqət daha çox iqtisadi sabitliyin üzərində cəmləşir. Bu da onunla izah olunur ki, iqtisadi cəhətdən sabitlik olub, iqtisadi inkişafa nə qədər çox nail olunarsa cəmiyyət arasında yuxarıda qeyd etdiyimiz orta təbəqənin genişlənməsinə, bu isə öz növbəsində siyasi sabitliyə səbəb olar.

Cəmiyyətdə siyasi sabitliyin təmin edilməsi əsasən siyasi partiyaların vasitəsi ilə həyata keçirilir. Bunun məntiqi nəticəsi kimi qeyd etmək lazımdır ki, cəmiyyətdə siyasi partiyaların yeri və rolu onun cəmiyyətlə qarşılıqlı əlaqəsindən asılıdır. Bunu bir qədər geniş şərh etməyə çalışaq: bir tərəfdən siyasi partiya cəmiyyətin təsirinə məruz qalır, digər tərəfdən isə özü cəmiyyətə nüfuz edir və onun dəyişdirilməsini təmin edir.

Cəmiyyətin siyasi partiyalara təsir edən amillərini göstərmək olar: özünün maddi və mənəvi dəyərləri ilə; cəmiyyətdə hakim olan ictimai şüur və onun elementləri vasitəsi ilə; cəmiyyətin qruplara, millətlərə, kütlələrə bölgüsü ilə; öz siyasi və sosial fəaliyyət növü, hakim ideya və ona müvafiq təsisatlar vasitəsi ilə.

Bizim fikrimizcə, siyasi partiyaların cəmiyyətə etdiyi təsirə daha genişdir. Belə ki, onlar dövlətin daxili və xarici siyasətinin formalaşması və onun reallaşdırılması prosesində iştirak edirlər. Siyasi partiyalar bir tərəfdən qanunverici orqanunyaradıcılıq fəaliyyətinə təsir edirlər, digər tərəfdən isə hakimiyyət

strukturlarının fəalyyətlərinə nəzarət edirlər.

2015-ci il noyabrın 1-də keçirilmiş parlament seçkilərində seçkilərlə əlaqədar olaraq MSK tərəfindən təqdim olunan elektron xidmətlər artıq MSK-nın 7 elektron xidməti "Elektron hökumət" portalına inteqrasiya edilmişdir.

Son dövrdə xidmətlərin təkmilləşdirilməsi işləri aparılır və yeni-yeni xidmətlər təqdim olunur. 2015-ci il oktyabr ayı ərzində Mədəniyyət və Turizm Nazirliyi tərəfindən 9-dan artıq elektron xidmət "Elektron hökumət" portalına inteqrasiya edilib.

Prezident seçkiləri ərəfəsində MSK-da informasiya kommunikasiya texnologiyaları tətbiqi bu sahədə sıçrayış oldu. Bu gün onun nəticəsidir ki, İKT daha geniş formada tətbiq olunmağa başlanıb. MSK-nın hazırda iki veb-saytı fəaliyyət göstərir və həmin saytlar tamamilə yenidən qurularaq funksional imkanları yaradılıb, elektron xidmətlər həmin saytlarda yerləşdirilib. Və paralel olaraq "Elektron hökumət" portalına 10 elektron xidmət inteqrasiya olunub.

Parlament seçkiləri ərəfəsində MSK-nın elektron xidmətlərindən istifadə sayı iki dəfə artıb. MSK-nın veb səhifələrinə bu il ərzində 95 min İP ünvandan 1 milyon 69 mindən çox baxış olub. MSK rəsmisinin sözlərinə görə, hazırda hər iki veb səhifə bütün istifadəçilərin ixtiyarına verilib.Seçki prosesində ən mühüm sənədlərdən biri seçici siyahılarıdır və təsadüfi hal deyil ki, ikiayda seçici siyahılarına 14 min İP-dən 74 min 442 baxış olub.

Seçki məntəqələrində veb-kameradan istifadə olunması təcrübəsi də dünyada reallaşdırılan və innovativ inkişafı qarşısına vəqsəd qoyan Azərbaycan Respublikasında da geniş tətbiq olunur.

Müxtəlif ölkələrdə seçki prosesində veb-kameralardan istifadə təcrübəsi olasa belə, ilk dəfə heç bir qeydiyyat tələb olunmadan birbaşa internet üzərindən, istənilən internet istifadəçisinə yaradılmış bu imkan, səsvermə günü seçki prosesi başlamazdan əvvəl səsvermə prosesi, səslərin hesablanması, seçki protokollarının doldurulması, nəticələrin müəyyənləşməsi, seçki məntəqəsində bütün işlərin başa çatmasına dək fasiləsiz onlayn rejimdə bütün məntəqələri izləmə imkanı yaradılıb.Əslində seçki məntəqələrinin 20 faizində yaradılmış bu imkan Azərbaycan seçki praktikasında özünü uğurlu göstərdiyi üçün 2008-ci ildən etibarən keçirilən bütün seçkilərdə bu praktika həyata keçirilir. Ölkəmizdə keçirilmiş Milli Məclis 2015 seçkiləri ilə bağlı bu istiqamətdə hazırlıq işləri elektron xidmətlərin siyahısı "Elektron hökumət" bülleteninə yerləşdirilmişdir .

"Elektron Hökumət" portalının operatoru - Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzi tərəfindən ayda bir dəfə "Elektron Hökumət" quruculuğu, elektron xidmətlər, elektron imza, eləcə də İKT sahəsinə aid yerli və beynəlxalq xəbərləri ictimaiyyətə çatdırmaq məqsədilə "Elektron Hökumət" bülleteni dərc olunur. Bülletendə "Elektron Hökumət" portalı, tətbiq olunan yeni elektron xidmətlər, e-sənəd mübadiləsi, e-imza infrastrukturu və xarici ölkələrin "Elektron Hökumət" və İKT sahəsindəki təcrübələri barədə xəbərlər öz əksini tapır.

Beləliklə, siyasi partiyalar vətəndaş cəmiyyəti və dövlət arasında vasitəçilik funksiyası da daxil olmaqla bir sıra əsas funksiyalarını respublikada innovativ inkişafının ümumi tendensiyası çərçivısində reallaşdırırlar. Bunun bariz nümunəsi, 2015-ci il parlament seçkiləri ərəfəsində seçki kampaniyaların aparılması, həmçinin seçki prosesinin həyata keçirilməsində innovativ vasitələrdən istifadə edilməsidir.

**ƏDƏBİYYAT**


*1. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir "AZƏRBAYCAN 2020: GƏLƏCƏYƏ BAXIŞ" İNKİŞAF KONSEPSİYASI*

*2. Ramiz Mehdiyev. ZAMAN HAQQINDA DÜŞÜNƏRKƏN VƏ ELİTANI TRANSFORMASİYA EDƏRKƏN: VARİSLİK VƏ İNNOVASİYALILIQ Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin PREZİDENT KİTABXANASI, Məqalələr toplusu*

*3. Qəndilov S.T. Müstəqillik illərinin düşüncələri.Bakı, "Naksuna" nəşriyyatı, 2006, 500s.*

*4. Mehdiyev R. "Demokratiya yolunda: irs haqqında düşünərkən" , Bakı, 2008, "Şərq-Qərb",791*

*5. Mirzəzadə A.B. Azərbaycan Respublikasında çoxpartiyalı sistemin 3formalaşması xüsusiyyətləri. Bakı, Azərnəşr,2001.267 səh.*

*6. Парсонс Т.Система современных обществ. М,1997.«Наука", 2-ой том, с.270*

*7. Политология. Под ред. А.С. Тургаева, А.Е Хренова. – СПБ.: Питер, 2005, с. 350*

*8. М.А. Василик, В.А.Гуторов и др. Политология:— М.: Гардарики, 2005. — 583 с.*

*9. Чижов Д. В. Российские политические партии: между гражданским обществом. М., Издательство «Российская политическая энциклопедия» (РОССПЭН), 2008, , 221 с.*

*10. Хейвуд Э.Политология. М., «ЮНИТИ-ДАНА», 2005,525 с.*



***Açar sözləri:*** *innovativ inkişaf, vətəndaş cəmiyyəti, siyasi sistem, çoxpartiyalı sistem*

***Ключевые слова:*** *инновативное развитие, гражданское общество, политическая система, многопартийная система*

***Key words:*** *innovative development, citizen society, political system, multi-party system*



**РЕЗЮМЕ**

**Ульвия Ахверди**

**Политологический анализ функций и механизмов многопартийности в инновативном развитии Азербайджана**

В данной статье рассматриваются тенденции функционирования и механизмы деятельности политических партий и их роль в инновативной рвзвитии Азербайджанской Республики . На большом теоретическом и фактическом материале исследуются инновативная государственная политика в области политических партий.



**SUMMARY**

**Ulviya Akhverdi**

**Political analysis of functions and mechanisms of multi-party system in the innovative development of Azerbaijan**

In this article, activeness and working systems of political parties in the innovative growth and there roles of republic of Azerbaijan are researched. In the base of teorethic and factic materials and in the area of political parties, innovative politics of the government is discussed.

# Tarix

## AZƏRBAYCANDA BOLŞEVİK REJİMİNİN QURULMASI MİLLİ TARİXŞÜNASLIQDA (1940-1950-ci illər)

VAQİF ABIŞOV
Tarix üzrə fəlsəfə doktoru



XX əsrin 40-cı illərin ikinci yarısından başlayaraq 1917-1920-ci illərin siyasi və tarixi hadisələri ilə əlaqədar ardıcıl məqalələr yazılmağa başlanmışdır. 1940-cı illərdə ayrı-ayrı elmi jurnalların səhifələrində problemlə əlaqədar olaraq sil-silə məqalələr çap olunmuşdur. Xüsusilə, ikinci dünya müharibəsi dövründə və ondan sonra Azərbaycanın tarix elminə yeni, gənc nəslin (Z.İ.İbrahimov, İ.A.Hüseynov, E.A.Tokarjevski, M.A.Qazıyev, M.S.İsgəndərov və b.) gəlməsi ilə müəyyən canlanma müşayiət etmək mümkündür.

1940-cı illərdə nəşr olunan Azərb.SSR EA Xəbərlərində, Azərbaycan Dövlət Universitetinin, ÜİK(b)P MK yanında MEL İnstitutunun Azərb. filialı və V.Lenin adına APİ adlanan müəssisələrin elmi əsərlərində və b. jurnallada tədqiq olunan mövzusu ilə əlaqədar olaraq on səkkizdən çox elmi məqalə çap olunmuşdur. Məsələn, 1940-cı illərdə ayrı-ayrı elmi jurnallarda Z.İ. İbrahimovun "Qizil Ordunun Azərbaycan xalqına qardaşlıq köməyi" (10, s. 46-71), A.A.Əlizadə və V.N.Leviatovun "Azərbaycan SSR-də tarix elmi" (4, s. 125-135), İ.A.Hüseynovun "1918-ci ildə Bakı ingilis imperialistlərin işğalçılıq planlarında" (8, s. 54-62); "1917-1918-ci illərdə Azərbaycanda Sovet hakimiyyəti uğrunda mübarizə tarixindən" (9, s. 3-18) və Y.Tokarjevskinin "Bakı bolşevikləri 1918-ci ildə Azərbaycanda alman-türk müdaxiləçilərinə qarşı mübarizənin təşkilatçısıdır" adlı məqalələri (14, s. 5-21) çap olunmuşdur. Həmin məqalələrin, demək olar ki, hamısının ideya xətti eyni olduğuna görə 1917-1920-ci illərin tarix hadisələrini şərh edərkən bir çox hallarda bir-birini təkrarlamışdır. Məqalədə, əsasən, 1950-ci illərdə yazılmış elmi-tədqiqat əsərləri təhlil olunub.

Məmməd Qazıyev kiçik həcmli əsərində bir neçə inqilabçının həyatından bəhs etsə də, Bakıda qurulmuş sovet hakimiyyətinə bir-iki cümlə ilə münasibət bildirməyi yaddan çıxartmamışdır. Müəllif Bakıda sovet hakimiyyətinin qurulmasını 1917-ci il noyabrın 2-də deyil, 1918-ci ilin mart ayında baş verdiyini qeyd etmişdir. Bununla bağlı M.Qazıyev yazırdı: "Bakı bolşevik təşkilatının rəhbərliyi altında Bakıda, ancaq 1918-ci ilin mart ayında sovet hakimiyyəti qurulmuşdur" (6, s. 9).

M.C.Bağırovun "Tarixin unudulmaz səhifələri" adlı əsərində 26 Bakı Komussarlarının fəaliyyətindən və 1920-ci ildə Azərbaycanda Sovet hakimiyyətinin qurulmasından bəhs olunur. 1918-ci ilin martında Bakıda baş vermiş hadisəni müsavatın "silahlı qiyam"ı kimi qiymətləndirən M.Bağırov, bu qiyamın Bakı proletariatı tərəfindən yatırıldığını, Azərbaycanda, eləcə də bütün Zaqafqaziyada sovet hakimiyyətinin qurulması uğrunda inqilabi mübarizənin genişlənməsinə kömək etdiyini qeyd etmişdir (5, s. 4-5). Halbuki, mart hadisələrində bolşeviklərin əsas hərbi qüvvəsi proletariat deyil, erməni silahlı dəstələri olmuşdur (1, s. 139). Daha sonra M.Bağırov, 1918-ci il aprelin 25-də bolşeviklər tərəfindən yaradılmış BXKS-nı Zaqafqaziyada sovet hakimiyyətinin birinci hökuməti olduğunu yazmış, BXKS-nın həyata keçirdiyi tədbirlərdən və V.Leninin, xüsusilə İ.Stalinin onlara köməyindən bəhs etmişdir (5, s. 5).

XX əsrin 50-ci illərində Kommunist partiyası tərəfindən İ. Stalinin hakimiyyəti dövründəki şəxsiyyətə pərəstiş və repressiyaları kəskin tənqid edilməsi 1950-ci illərin xarakterik cəhətlərindən biri idi. 1956-cı ildə Sov.İKP-nin XX qurultayında İ. Stalinin şəxsiyyətinə pərəstiş xəttinin kəskin tənqid olunması, başqa sahələrə olduğu kimi, tarix elminə də yanaşmanın müəyyən qədər dəyişməsinə təsir göstərmişdir. Düzdür, bu dəyişmələr əsas ideoloji prinsiplərdən – marksizm-leninizm xəttindən kənara çıxması demək deyildir. Şəxsiyyətə pərəstiş tənqid olunandan sonra 1937-1940-cı illərdə repressesiyaya məruz qalmış minlərlə insan bəraət almış, sosializm cəmiyyəti, sanki avtoritar formada idarə olunmasından müəyyən qədər imtina olunmasına cəhd göstərilməsi kimi görünməyə başlamışdır. Lakin bəhs olunan dövrdə də SSRİ tərkibinə daxil olan xalqlara öz milli tarixlərini geniş və hərətəfli yazmağa imkan verilmirdi. Əgər buna cəhd olunsaydı, onda ən yuxarı səviyyədə, yəni Sov.İKP MK tərəfindən sərt tənqid və təzyiqlə qarşılanırdı. Buna misal olaraq, 1959-cu il iyulun 1-də Sov. İKP MK Rəyasət heyətinin iclsının stenoqrafik hesabatına diqqət etmək kifayətdir. Bu iclasda Azərbaycanın partiya təşkilatının yoxlanılmasının nəticələri müzakirə olunan zaman, başqa sahələr olduğu kimi, Azərbaycan dili (1956-cı ilin avqustunda Azərbaycan KP MK-nın birinci katibi İmam Mustafayev və Respublikanın Ali Soveti Rəyasət heyətinin sədri M.İbrahimovun təşəbbüsü ilə Respublikada Azərbaycan dilinin dövlət dili kimi tətbiq edilməsi haqqında qərar qəbul edilmişdir) və tarixi ilə bağlı (1958-ci ildə

"Azərbaycan kommunist partiyasının tarixi" adlı kitabın birinci hissəsi çap olunmuşdur) ciddi tənqidi fikirlər səsləndirilmişdi. Məsələn, tənqidi fikirlərdən biri ondan ibarət idi ki, guya N.Nərimanovun fəaliyyəti həddindən artıq şişirdilir, S.Şaumyanın fəaliyyəti ikinci planda verilir, azərbaycan millətindən olan inqilabçı nümayəndələr birinci sırada göstərilir və s. (13, s. 380, 384)

Məlumdur ki, Sov.İKP MK Rəyasət heyətinin yuxarıda qeyd olunan iclasından sonra o vaxtlar Azərbaycan KP MK-nın birinci katibi işləmiş (1954-1959-cu illər) İmam Mustafayev vəzifəsindən çıxarılmış, onun yerinə Vəli Axundov (1959-1969-cu illər) təyin edilmişdir.

Y.Tokarjevski 1950-ci ildə yazmış olduğu əsərində 1918-ci ilin mart "döyüşləri"ndən sonra Bakıda Sovet hakimiyyətinin qurulduğunu, bütün hakimiyyət Baki Sovetin əlində cəmləşdiyini və onları Bakı şəhəri və onun rayonlarının əsil sahibi etdiyiyini göstərmişdir. Daha sonra BXKS yaranmasına münasibət bildirən Y.Tokarjevski, 1918-ci il aprelin 25-də Bakı Sovetin iclasında yaradılmış Bakı Xalq Komissarları Sovetini bütün Zaqafqaziyada birinci hökumət orqanı adlandırmış və Azərbaycan xalqının müstəqilliyini, azadlığını və xoşbəxtliyini rus xalqı ilə ittifaqda və oktyabr inqilabının nailiyyətlərini müdafiə etməkdə görmüşdür (15, s. 7). Lakin müəllifin yazdığının əksinə olaraq, Azərbaycan xalqı 1917-1918-ci illərdə apardığı mübarizədə öz müstəqilliyini, azadlığını və xoşbəxtliyini özünün müstəqil dövlətini yaratmaqda və bu işdə özünə yaxın dost və qardaş bildiyi Türkiyə dövlətinin simasında görmüşdü. Azərbaycanın türk-müsəlman əhalisi heç vaxt bolşevikləri müdafiə etməmişdir.

Müstəqil Azərbaycan hökumətini "Azərbaycanın milli müstəqilliyinin ən qəddar düşməni" adlandıran (15, s. 16) Y.Tokarjevski, bu qəddarlığın nədən ibarət olduğunu tarixi faktlarla izah edə bilməmişdir.

Y.Tokarjevskinin "Azərbaycanda vətəndaş müharibəsi və xarici müdaxilə tarixindən" adlı digər bir əsərində 1917-1921-ci illərdə baş vermiş ictimai-siyasi hadisələr şərh olunmuşdur. Ön sözdə kitabın yazılmasına aydınlıq gətirən müəllifin fikrincə, böyük oktyabrın qırxıncı ildönümü ilə əlaqədar olaraq, sovet tarixçilərinin qarşısında daxili əksinqilabçılara və xarici müdaxiləçilərə qarşı ölkəmizin zəhmətkeşlərinin qəhrəmancasına mübarizəsini, sosialist inqilabın tarixinin öyrənilməsini dərinləşdirmək və genişləndirmək məsələsi durmuşdur (16, s. 5). Müəllifin bu əsərində də 1917-1918-ci illərdə hakimiyyətin ələ alınması uğrunda bolşeviklərin apardığı mübarizənin nəticəsi olaraq oktyabrın 31-i və noyabrın 2-də Bakı Sovetin praktik olaraq hakimiyyəti ələ keçirməsi hadisələri təkrarlanmışdır.

Y.Tokarjevskinin Azərbaycanın sovetləşməsinin 70 illiyinin tamam olması ilə əlaqədar yazmış olduğu məqaləsində (17, s. 3-7), 1950-ci illərdə yazdığı əsərlərindən müəyyən qədər fərqlənməsinə baxmayaraq, yenə də 1918-ci ildə Bakıda sovet hakimiyyətinin qurulmasını Bakı proletariatının və Azərbaycanın bütün zəhmətkeşlərinin gərgin mübarizəsinin nəticəsi kimi qiymətləndirmişdir. Halbuki, Bakıda bolşevik-daşnak rejimi, erməni və rus fəhlə sinfinin bir hissəsinin müdafiəsi, eləcə də erməni və rus silahlı dəstələrinin süngülərinin köməyi nəticəsində qurulmuşdur. Bununla belə, Y.Tokarjevski məqaləsində bolşevik rejiminin yeritdiyi siyasəti tənqid etmiş və onun məğlubolma səbəblərini də göstərmişdir. Lakin onun əvvəlki əsərlərində bu cür tənqidi fikirlərə rast gəlinmir. Müəllif BXKS-nın məğlub olmasını milli məsələ üzrə yeritdiyi siyasətdə buraxdığı səhvlər və çatışmamazlıqlarla, Azərbaycanda qurulan sovet hakimiyyətinin RSFSR-in ayrılmaz hissəsi kimi baxmaları ilə (Y.Tokarjevskinin fikrincə həmin vaxt, yəni 1917-1918-ci illərdə "Azərbaycan Sovet Respublikası"nı müstəqil elan etmək lazım idi. Halbuki, müəllif 1950-ci illərdə yazdığı əsərlərdə hadisələrə tamamilə fərqli yanaşmış və Şaumyanın yeritdiyi siyasəti müdafiə etmişdir), Qırmızı Ordunun tərkibinə daşnakların rəhbərlik etdiyi erməni silahlı dəstələrinin daxil edilməsi və onların millətlərarası toqquşma və dağıntılar törətmələri ilə əlaqələndirmişdi. O, məqaləsində AXC-nin yaranmasını, onun həyata keçirdiyi daxili və xarici siyasətinə müsbət yanaşmışdır. Onun fikrincə, AXC-lə bağlı məsələlər uzun müddət Azərbaycan tarixində "ağ ləkələr" olaraq qalmışdır. O, bunun səbəbini lazım olan arxiv fondlarının bağlı olması ilə əlaqələndirmişdir (17, s. 3-4).

XX əsrin 50-ci illərində Zülfəli İbrahimov tərəfindən yazılmış "Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi (1917-1918-ci illər)" adlı əsərdə 1917-1918-ci illər Azərbaycan tarixinin iqtisadi, siyasi və ictimai həyatının bütün sahələri geniş tədqiq olunmuşdur (11). Müəllif "Rus fəhlə sinfi başda olmaqla ölkənin bütün xalqlarının, o cümlədən Azərbaycan xalqının fəal iştirakı və qəhrəmancasına səyi ilə həyata keçirilən Oktyabr inqilabı vətənimizi iqtisadi və milli fəlakət təhlükəsindən xilas etdi" kimi ənənələrinə sovet ideoloji xəttinə sadiq qalmışdır.

C.B.Quliyev "Lenin və Azərbaycanda sovet hakimiyyətinin qələbəsi və möhkəmlənməsi uğrunda mübarizə" adlı əsərində bolşeviklər "1917-ci ilin avqustunda partiya təşkilatların qarşısında silahlı üsyan yolu ilə Azərbaycanda hakimiyyəti ələ almaq vəzifəsi qoymuşdur" (7, s. 20) fikirləri o dövrün real tarixi həqiqətlərini əks etdirmirdi. Çünki müəllifin bəhs etdiyi dövrdə kütlələr arasında Bakı bolşeviklərinin elə də nüfuzu yox idi. Onları təmsil edən bolşeviklər heç vaxt Bakı Sovetində çoxluq təşkil etməmişdilər. Daha sonra Bakıda ermənilərin silahlı dəstələri tərəfindən türk-müsəlman əhaliyə qarşı törətdikləri kütləvi qırğınlardan bir cümlə yazmayan, əvəzində tarixi həqiqətləri təhrif edən C.Quliyev, mart hadisəsini müsavatın "qiymı" kimi qeyd etmişdir. Müəllif "mart qələbəsinin" əhəmiyyətini xüsusi vurğulamış, "bu qələbə nəticəsində bütün hakimiyyət Bakı Sovetinin əlində cəmləşdiyini" və "Bakı Soveti şəhərin və onun rayonlarının yeganə hakimi oldu"ğunu göstərmişdir.

A.Atakişiyev əsərində 1917-1918-ci illərin tarixi hadisələrinə münasibət bildirərkən kommunist partiyasının ideoloji xəttindən kənara çıxmamış və həmin hadisələrə özündən əvvəlki sovet tarixçilərindən fərqli münasibət bildirməmişdir. Müəllifin bütün nifrəti "Müsavat"a, Azərbaycanın müstəqilliyini göz bəbəyi kimi qorumağa çalışan ziyalılara, xalqımızın xilaskarı və ona qardaşlıq yardımı edən türklərə qarşı yönəlmişdir. A.Atakişiyev yalnız sovet tarixçilərinin əsərlərinə istinad edərək müsavatçıları Azərbaycan xalqının "qəddar düşməni" elan etmiş, "fəhlə və zəhmətkeş kəndliləri isə nəcib və xilaskar türklərin ayaqları altında inləməsindən" yazmış, amma bu fikirləri təsdiq edən hər hansı bir "tarixi faktı" göstərməmişdir. Müəllif, hətta ermənilərin Azərbaycan torpaqlarına etdiyi hərbi təcavüzün günahını da müsavatın üstünə ataraq "müsavatçılar fəhlə sinfinin diqqətini burjuaziyaya qarşı mübarizədən çəkindirmək məqsədilə, ermənilərlə azərbaycanlılar




**«Мусульмане, убитые в Баку и консул, прибывший, чтобы увидеть их тела». Почтовая открытка Ирана**

arasında milli qırğın salırdılar" sözlərini yazmaqdan belə çəkinməmişdir (2 s. 29).

M.İsgəndərov 1958-ci ildə yazmış olduğu 538 səhifəlik əsərində (12) 1917-1918-ci illər hadisələrinə münasibət bildirərəkən özündən əvvəlki sələflərindən o qədər də fəqlənməmişdir. Lakin onun əsərində, bəhs olunan dövrdə, daha çox Azərbaycan inqilabçılarının, xüsusilə N.Nərimanovun, "Hümmət" təşkilatının fəaliyyətinə üstünlük verilmişdir.

X.Əlimirzəyev də 1958-ci ildə yazmış olduğu əsərində Petroqradda Müvəqqəti hökumətin devrilməsi və Böyük Oktyabr sosialist inqilabının qələbəsi xəbəri Bakı proletariatına 1917-ci il oktyabrın 26-da çatmasından və bu "şad" xəbər Bakı proletariatı və bütün Azərbaycan zəhmətkeşləri tərəfindən böyük ruh yüksəkliyi və sonsuz sevinclə qarşılanmasından bəhs etmişdir (3, s. 14). Halbuki, 1917-ci ildə Rusiya imperiyasında baş vermiş hadisələrdən, müəllifin yazdığı kimi "Azərbaycan zəhmətkeşləri tərəfindən" deyil, bir qrup erməni və rus bolşeviklərinin sevincinə səbəb olmuşdur.

Beləliklə, XX əsrin 40-50-ci illərində yaranmış Azərbaycan tarixşünaslığını təhlil edərkən aşağıdakı nəticələri əldə etmək mümkündür: 1) "Azərbaycan fəhlə və kəndliləri Bakıda sovet hakimiyyətinin qurulmasında fəal rol oynamışdır". 2) Azərbaycan xalqının milli varlığını qoruyub saxlamaq, öz milli dövlətini yaratmaq uğrunda mübarizə aparan "Müsavat" partiyası, Müsəlman Milli Şurası və 1918-ci ilin mayında yaranmış AXC hökuməti "əksinqilabçı", "xalqın düşməni", "irticaçı", sovet Rusiyasının göndərdiyi direktivlər, silah-sursat və pulun köməyi ilə Bakıda, daha sonra Azərbaycanın başqa qəzalarında türk-müsəlman əhaliyə qarşı kütləvi soyqırımları həyata keçirərək öz mövqelərini möhkəmləndirməyə çalışan bolşeviklər isə inqilabçı adlandırılmışdı; 3) sovet tarixçiləri 1917-ci il 31 oktyabr – 2 noyabr aylarında bolşeviklərin Bakıda sovet hakimiyyəti elan etmələrini Azərbaycanda covet hakimiyyəti qurulmasının birinci mərhələsi kimi qeyd etmişdilər.

## ƏDƏBİYYAT


1. *Abışov V.Ş. Azərbaycanlıların soyqırımı.1917-1920. Bakı: Turxan NPB, 2013, 272 s.*

2. *Atakişiyev A. Oktyabr inqilabı Azərbaycan fəhlə sinfinə nə verdi? Bakı: Azərnəşr,1957, 90 s.*

3. *Əlimirzəyev X. Sovet Azərbaycanı Böyük Oktyabr sosialist inqilabının yetişdirməsidir. Bakı: Azərnəşr, 1958, 232 s.*

4. *Ализаде А.А. и Левиатов В.Н. Историческая наука в Азербайджаенской ССР (к ХХХ-летию Великой Октябрьской социалистической революции). //Изв. АН АзССР, 1947, № 10, с.125-135.*

5. *Багиров М.Д. Незабываемые старинцы истории. Баку: Издание Азерб.Филиала ИМЭЛ при ВКП(б), 1948, 12 с.*

6. *Qazıyev M. Azərbaycanda vətəndaş müharibəsi qəhrəmanları. Bakı: Azərnəşr, 1941, 26 s.*

7. *Quliyev C.B. V.İ. Lenin və Azərbaycanda sovet hakimiyyətinin qələbəsi və möhkəmlənməsi uğrunda mübarizə. Bakı: Azərnəşr, 1957. 74 s.*

8. *Гусейнов И.А. Баку в захватнических планах английских империалистов в 1918 г. (Доклад на сессии Азерб.филиала ИМЭЛ, полв. 30-й годовщине злодейского убийства 26 бакинских комиссаров агентами английского империализма. Сентябрь 1918 г.). //Тр. Азерб. филиала ИМЭЛ при ВКП(б), 1949, т. XIII, с. 54-62.*

9. *Гусейнов И.А. Из истории борьбы за Советскую власть в Азербайджане в 1917-1918 гг. //Тр. Азерб. Филиала ИМЭЛ при ВКП(б), 1947, т. V, с. 3-18.*

10. *İbrahimov Z.İ. Qızıl Ordunun Azərbaycan xalqına qardaşlıq köməyi. //Təbliğatçı, 1949, № 11, s. 46-71.*

11. *İbrahimov Z.İ. Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi (1917-1918-ci illər). Bakı: Azərnəşr, 1957, 585 s.*

12. *М.С.Искендеров. Из истории борьбы коммунистической партии Азербайджана за победу Советской власти. Баку: Азернешр,1958,538 с.*

13. *Президиум ЦК КПСС. 1954-1964. Черновые ротокольные записи заседаний. Стенограммы. М.:РОССПЭН, 2015, 1375 с. С.380, 384.*

14. *Токаржевский Е.А. Бакинские большевики организаторы борьбы против германо-турецких интервентов в Азербайджане в 1918 г. //Тр.Азерб. филиала ИМЭЛ при ВКП(б), 1947, т.VI, с. 5-21.*

15. *Токаржевский Е.А. Очерки из истории Азербайджана 1920-1925 гг. Баку: Изд.-ство Акад.наук Азерб. ССР, 1950, 234 с.*

16. *Токаржевский Е.А. Из истории иностранной интервенции и гражданской войны в Азербайджане. Баку: Изд.-ство Акад.наук Азерб. ССР, 1957, 331 с.*

17. *Токаржевский Е.А. 70-летие Азербайджанской ССР. //Известия Академии наук Азербайджана. Серия истории, философии и права, 1990, № 4, с. 3-7.*



***Açar sözlər:*** *Azərbaycan, Z.İbrahimov, C.Quliyev, Y.Tokarjevski, M.İsgəndərov.*
***Ключевые слова:*** *Азербайджан, З.Ибрагимов, Дж.Кулиев, Е.Токаржевский, М.Искендеров.*
***Keywords:*** *Azerbaijan, Z.Ibrahimov, J.Guliyev, E.Tokarzhevskiy, M. Iskenderov.*


**РЕЗЮМЕ**


Углубленное изучение политических событий, имевших место в Баку 1917-1918 годы, в Азербайджанской историографии началось в 1950-е годы. Подобное внимание к этому периоду было вызвано, прежде всего, проведением в 1957 году сороковой годовщины Великой Октябрьской социалистической революции. В связи с этой датой в Азербайджане было опубликовано большое количество статей и издано ряд монографий, посвященных событиям в Баку 1917-1918 годы.

В представленной статье, на основе анализа содержания данных работ, делается попытка определить степень объективности при освещении событий, имевших место в Баку 1917-1918 годы. На основе проведенного исследования мы пришли к следующим выводам: 1) В советской историографии политические события в Баку 1917-1918 годы освещались предвзято и соответственно выводы авторов носили искаженный характер; 2) При этом авторы пытались представить возглавляемый С.Шаумяном Бакинский Совет и созданный после геноцида азербайджанцев в марте 1918 года Бакинский Совет народных комиссаров как органы власти, стоявшие на «защите интересов народа», а на возглавлявших азербайджанское национальное движение Мусульманский национальный совет и партию «Мусават» вешали ярлыки вроде «прислужники империализма», «буржуазные националисты» и т.д.; 3) В данных работах военная помощь, оказанная турецкой армией правительству Азербайджанской Республики в освобождение Баку, представлялась авторами как «агрессия», в то время, как попытки большевистской Москвы ликвидировать независимое Азербайджанское государство и вновь присоединить Северный Азербайджан к России как “дружественный” акт. Несмотря на все эти издержки, работы написанные в 1950-х годах изобилуют архивными источниками.


**SUMMARY**


Depth study of the political events that took place in Baku in 1917-1918 years began to be researched in the Azerbaijan historiography in the 1950s. Such attention to this period was primarily drawn by celebration the 40th anniversary of the Great October Socialist Revolution in 1957. In connection with this date were published in Azerbaijan numerous articles and were edited a number of monographs on the 1917-1918 years events in Baku.

In this article, based on the analysis of the contents of these works is made an attempt to determine the degree of objectivity in illumination of the events that took place in Baku 1917-1918 years. Based on the research we came to the following conclusions: 1) In Soviet historiography political events of 1917-1918 years in Baku were illuminated biased and therefore the authors' conclusions were distorted; 2) The authors tried to present headed by S.Shaumyan the Baku Soviet and created after the genocide of Azerbaijanis in March 1918, the Baku Soviet of People's Commissars as government bodies which “were protecting the interests of the people”, but labeled Muslim National Council and the party “Musavat” that headed the Azerbaijan national movement as “lackeys of imperialism”, “bourgeois nationalists” and so on; 3) In these works the military assistance provided by the Turkish army to the government of Azerbaijan in release of Baku were presented by the authors as “aggression”, while, the attempts of Bolshevik Moscow to eliminate the independent Azerbaijan state and re-attach the North Azerbaijan to Russia as a ”friendly” act. Despite all of these side-effects, works written in 1950s are rich in archival sources.

# Təhlükəsizlik

## BEYNƏLXALQ TƏHLÜKƏSİZLİYİN MAHİYYƏTİ

ŞƏHLA GÜLMƏMMƏDOVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti,
Tədqiqat və inkişaf şöbəsinin müdiri



Təhlükəsizlik məsələləri beynəlxalq münasibətlərin daimi diqqətdə saxlanılan məsələlərindən, onun təmin olunması isə dövlətlərin, beynəlxalq və regional təşkilatların əsas vəzifələrindən biridir.

"Təhlükəsizlik" sözü etmoloji baxımdan şəxsiyyətə, cəmiyyətə və dövlətə qarşı hər hansı bir təhlükənin və ya təhdidin olmaması və ya onların təhlükələrdən qorunması mənasını verir.

Beynəlxalq təhlükəsizliyin təmin olunması bir sıra faktorlarla – tarixi, siyasi, iqtisadi, sosial, mədəni və s. faktorlarla şərtlənir. Cəmiyyətin və ya dövlətin inkişaf səviyyəsi, iqtisadi imkanları, hərbi gücü, elmi-texniki potensialı və s. amillər təhlükəsizliyin təmin olunmasına bilavasitə təsir göstərir. Bundan başqa, təhlükəsizlik konkret-tarixi məzmuna malikdir.

"Təhlükəsizlik" terminindən ilk dəfə 1190-cı ildə, "özünü istənilən təhlükədən müdafiə olunmuş hesab edən insan ruhunun sakit vəziyyəti" mənasında istifadə olunmuşdur (6, s. 385). Belə yanaşma XVII əsrədək davam etmiş, daha çox maddi sərvətlərin mühafizə olunması, insanların neqativ təsirlərdən qorunması anlamını verirdi.

Qədim və orta əsrlərdə milli-dövlətçilik ənənələri inkişaf etmədiyi səbəbindən siyasi, iqtisadi və mədəni həyat sülalə maraqlarına tabe edilmişdi. Bu dövrdə dövlət təhlükəsizliyi sülalə təhlükəsizliyi ilə identifikasiya olunurdu.

XVII əsrdə kapitalist münasibətlərinin təşəkkülü, burjuaziyanın formalaşması təkcə sosial-iqtisadi deyil, uzaqgedən siyasi nəticələr də doğurmuşdu. Belə ki, milli ideyanın təmsilçisi kimi meydana gələn burjuaziyanın fəaliyyəti nəticəsində dövlətlərin forma və məzmunu dəyişmiş, dövlətçilik ənənələrində yeni mərhələ başlamışdı. Dövlət siyasətində artıq sülalə maraqları deyil, milli maraqlar əsas götürülməyə başlanılmışdı. Avropada Otuzillik müharibənin (1618-1648) sonunda imzalanmış Vestfal sülhü hərbi əməliyyatlara son qoymaqla yanaşı, həm də beynəlxalq münasibətlər sisteminin əsasını qoydu, başqa sözlə, dövlətlərarası münasibətləri bir sistem halına gətirdi, lakin bu sistemin daxilində təhlükəsizliyin təmin olunması

hər bir dövlətin öz öhdəsinə düşürdü və bu səbəbdən də hərbi potensialın, hərbi gücün daimi olaraq artırılması dövlətlərin fəaliyyətinin əsas istiqamətlərindən birinə çevrilmişdi. L.V. Deriqlazovanın qeyd etdiyi kimi "təhlükəsizliyin bu günkü anlamının və onu təmin etmə vasitələrinin əsasları XVII əsrdə, müasir beynəlxalq sistemin yaranması dövründə təşəkkül tapmışdır..." (2, s. 56). "Gücün legitim tətbiqinə inhisar hüququ" əldə edən dövlət vergiləri müəyyənləşdirmək, vətəndaşlardan sədaqət tələb etmək, müharibə zamanı onları səfərbər etmək, təbəələr arasındakı mübahisələrdə hakim funksiyasını yerinə yetirmək və beynəlxalq arenada yeganə təmsilçi kimi çıxış etmək hüquqlarını da mənimsəmişdi (4, s. 358). Bu dövrdə təhlükəsizliyi yalnız suverenliyin qorunması ilə eyniləşdirən, buna nail olmaq üçün istənilən vasitədən istifadəni məqbul hesab edən dövlətin özü bir kulta çevrilmişdi.

XVII-XVIII əsrlərdə "təhlükəsizlik" anlayışının nəzəri cəhətdən işlənməsi istiqamətində addımlar atılmışdı. Bu dövrdə irəli sürülən fikirlər T. Hobbs, C. Lok, J.J. Russo, B. Spinoza və başqalarının fəlsəfi konsepsiyalarına əsaslanırdı. Maraqlı ideyalardan biri avstriyalı hüquqşünas Y. Zonnenfels tərəfindən irəli sürülmüşdü. Ona görə təhlükəsizlik heç kimin heç nədən ehtiyatlanmadığı vəziyyətdir. Konkret şəxs üçün vəziyyət şəxsi təhlükəsizlik, dövlət üçün isə ictimai təhlükəsizlik anlamına gəlir (3, s. 6).

XVII-XIX əsrlərdə də təhlükəsizliyin təmin olunması dövlət suverenliyinin və ərazi bütövlüyünün qorunmasından ibarət idi və buna nail olmaq üçün vasitələr hər bir dövlətin özü tərəfindən müəyyənləşdirilirdi, başqa sözlə, müəyyən mənada bir-birinin daxili işlərinə qarışmamaq prinsipi əsas götürülürdü. Şübhəsiz ki, qeyd olunan dövrdə bir-birinin daxili işlərinə qarışmamaq prinsipi beynəlxalq hüquqdan irəli gələn bir öhdəlik deyildi, bu səbəbdən də onun hər-hansı bir formada pozulması hüquqi məsuliyyət doğurmurdu. Məsələn, Napoleon müharibələrinin nəticəsi olaraq, 1814-1815-ci illərdə keçirilən Vyana konqresində Avstriya, Prussiya və Rusiya monarxları tərəfindən yaradılmış "Müqəddəs İttifaq", Avropa monarxiyalarının hər-hansı birində mövcud siyasi rejim və hakimiyyət üçün təhlükə yarandıqda ora açıq müdaxilə edirdi.

Beynəlxalq münasibətlərin Vyana sistemi üçün Avropa mərkəzçiliyi xarakterik idi ki, bu da öz ifadəsini "Avropa konserti" ideyasında tapırdı. "Avropa konserti" İngiltərə, Fransa, Rusiya, Avstriya, Prussiya kimi Avropa ölkələri arasında balansın mövcudluğuna əsaslanırdı və dünyada təhlükəsizliyin təmin olunması da bu ölkələrin qarşılıqlı münasibətlərindən asılı idi.

Vyana sisteminin əsasında imperiya prinsipi dururdu. Məhz bu sistemin mövcudluğu dövründə Fransa (1852), Britaniya (1876), Almaniya (1871) imperiyaları formalaşdı, 1877-ci ildə Türkiyə sultanı özünü "osmanlıların imperatoru" adlandırdı. Rusiya imperiyası isə bir qədər əvvəl, 1721-ci ildə meydana gəlmişdi. İri dövlət anlayışının yaranması da bu dövrə aiddir (5, s. 48). Dünya faktiki olaraq qeyd olunan imperiyalar arasında bölünmüş və onun taleyi bu imperiyaların qarşılıqlı münasibətlərindən asılı idi.

XX əsrin əvvəllərində ABŞ və Yaponiya kimi qeyri-Avropa ölkələri də beynəlxalq münasibətlərin fəal oyunçuları sırasına daxil oldular və bununla da siyasətdə Avropa mərkəzçiliyinə son qoyuldu. Bu dövrdən başlayaraq, təhlükəsizlik haqqında təsəvvürlərin də transformasiyası baş verdi. Ölkələr arasında qarşılıqlı təsirin, milli maraqlar uğrunda mübarizənin getdikcə genişlənməsi milli təhlükəsizlik problemini meydana gətirdi. "Milli təhlükəsizlik" terminindən ilk dəfə 1904-cü ildə ABŞ prezidenti T. Ruzveltin Konqressə müraciətində istifadə olunmuşdu (6, s. 385). "Milli təhlükəsizlik" termini ingilis dilindəki "national security" termini ilə eynilik təşkil edir və həm milli, həm də dövlət təhlükəsizliyi kimi başa düşülə bilər (3, s. 26). Ümumilikdə, milli təhlükəsizlik transformasiya olunan mürəkkəb, çoxaspektli, çoxsəviyyəli bir hadisədir və həm ictimai hadisə, həm nəzəriyyə, həm də proses kimi nəzərdən keçirilə bilər (3, s. 32).

S. Proskurin "milli təhlükəsizlik" anlayışının etimologiyasını belə izah edir: "Milli təhlükəsizlik" anlayışının etimologiyasının özü göstərir ki, söhbət müəyyən ərazi-dövlət çərçivəsi, sosial-iqtisadi əlaqələr və mədəni ənənələrlə birləşən müəyyən sosial-etnik birlik üçün təhlükənin olmamasından və ya onun aradan qaldırılmasından gedir" (7, s. 18).

Ümumiyyətlə, milli təhlükəsizlik problemi siyasi fikir aləmini ən çox məşğul edən məsələlərdəndir və o, müxtəlif tədqiqatçılar tərəfindən fərqli mövqelərdən izah olunur. Məsələn, Penelopa Hartlend-Sanberq milli təhlükəsizliyi (dövlətin) dünyanın istənilən yerində millətin öz milli maraqlarını uğurla təmin etmək bacarığı kimi müəyyənləşdirir. Cakomo Luçaniyə görə milli təhlükəsizlik xarici təcavüzə qarşı durmaq qabiliyyətidir. Frenk Treqer və Frenk Simoni isə milli təhlükəsizliyi həyati əhəmiyyətli milli dəyərləri mövcud və potensial düşmənlərdən qorumaq üçün hökumətin həyata keçirdiyi siyasətlə eyniləşdirir. Daha bir tədqiqatçı, Henri Kissincerin baxışlarına görə cəmiyyətin öz həyat qabiliyyətini təmin etmək və beynəlxalq aləmdə vəzifələrini yerinə yetirmək bacarığı onun milli təhlükəsizliyini təmin edir (7, s. 18-19).

XX əsrin əvvəllərində polisentrik dünya düzümünün formalaşması milli təhlükəsizliyi fərdi qaydada təmin etmək imkanlarını istisna edirdi, bu da yeni bir prosesə, bloklaşma prosesinə start verdi və nəticədə Birinci dünya müharibəsi (1914-1918) alovlandı.

Birinci dünya müharibəsindən sonra müharibədə qalib gəlmiş dövlətlərin iradəsi ilə beynəlxalq münasibətlərdə Versal-Vaşinqton sistemi formalaşdı. ABŞ, Böyük Britaniya və Fransanın əsas rol oynadıqları antisovet xarakterə malik Versal-Vaşinqton sisteminin əsas tərkib elementlərindən biri Millətlər Cəmiyyəti idi. Hökumətlərarası təşkilat olan Millətlər Cəmiyyətini yaratmaqda məqsəd xalqlar arasında əməkdaşlığa nail olmaqdan, onların təhlükəsizliyini təmin etməkdən ibarət idi. Millətlər Cəmiyyətini yaranması ilə təhlükəsizlik anlayışı da yeni məzmun kəsb etdi və kollektiv təhlükəsizlik ideyası ön plana çıxdı (5, s. 49).

Məlumdur ki, Millətlər Cəmiyyəti qarşıya qoyduğu məqsədə nail ola, kollektiv təhlükəsizlik mühiti yarada, dünyanı yeni müharibə alovundan xilas edə bilmədi. Bəşəriyyət İkinci dünya müharibəsinin (1939-1945) fəlakətlərini yaşamaq məcburiyyətində qaldı.

İkinci dünya müharibəsi Versal-Vaşinqton sisteminin iflası demək idi. Bu müharibə nəticəsində formalaşan Yalta-Potsdam sistemi isə bipolyar xarakterə malik idi, yəni beynəlxalq münasibətlərin iki aparıcı güc mərkəzinin, SSRİ və ABŞ-ın hərbi-siyasi, iqtisadi, ideoloji, elmi-texniki və mədəni qarşıdurmasına, dünyanın onlar arasında təsir dairələrinə bölünməsinə əsaslanırdı. Nüvə silahı isə əsas çəkindirici vasitə rolunu oynayırdı.

"Soyuq müharibə"nin başa çatması dünyada köklü



dəyişikliklərin, beynəlxalq münasibətlərin yeni mərhələsinin başlanğıcı demək idi. Keçən əsrin 90-cı illərinin əvvəllərində start götürmüş mürəkkəb proseslər o dərəcədə dinamik inkişaf edir ki, bəzən tədqiqatçılar, siyasətçilər, təhlilçilər və bu sahə ilə bağlı olan digər mütəxəssislər baş verənlərin mahiyyətini dərk etməkdə, əsaslandırılmış nətəcələrə gəlməkdə, proqnozlar verməkdə çətinlik çəkirlər. Belə bir şəraitdə “təhlükəsizlik” kateqoriyasının dünyada cərəyan edən prosesləri nəzərə alan, tam və əhatəli definisiyasını vermək problemi də ortaya çıxmışdır. Bu sahədə müxtəlif, bəzən bir-biri ilə uzlaşmayan fikirlər meydana gəlir, ideyalar irəli sürülür. ABŞ-ın Corctaun Universitetinin əməkdaşı N. Anderson “soyuq müharibə”dən sonrakı dövrdə tektonik dəyişikliklərin baş verdiyi dünyada təhlükəsizlik haqqında irəli sürülmüş ənənənəvi konsepsiyaların kifayət etmədiyini və bu məsələnin konseptual əsaslarının yenidən nəzərdən keçirmək zərurətinin yarandığını bildirir. O, vətəndaş cəmiyyətinin qlobal səviyyədə inkişaf etdiyi, beynəlxalq iqtisadiyyatın rolunun artdığı müasir dövrdə beynəlxalq təhlükəsizliyə təsir edən dörd fundamental prosesi göstərir: 1) qloballaşma, 2) Fərid Zəkəriyyənin “yerdə qalanların yüksəlişi” (“the rise of the rest”) adlandırdığı, Braziliyadan İndoneziyaya, Cənubi Afrikadan Türkiyəyə qədər bir sıra qeyri-qərb dövlətlərinin iqtisadi inkişafı, 3) hakimiyyətin xarakterinin dəyişməsi, transmilli korporasiyalar, qeyri-hökumət təşkilatları, terrorçu şəbəkələr və s. qeyri-dövlət subyektlərinin rolunun artması, R. Haasın “qütbsüz əsr” adlandırdığı dövrün və çoxlu sayda hakimiyyət mərkəzlərinin olması, 4) dünyanın mürəkkəb siyasi, iqtisadi və sosial qarşılıqlı asılılıqda olması, dövlətlərarası müharibələrə nisbətdə dövlətdaxili silahlı qarşıdurmaların sayının artması və beynəlxalq münasibətlərdə nüvə silahının çəkindirici rolunun azalması (1, s. 28-33).

Bütün deyilənləri ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, təhlükəsizlik problemi tarix boyu insanları düşündürmüş, dövlət siyasətinin əsas elementlərindən biri olmuşdur. Tarixin ümumi inkişaf tendensiyalarını və qanunauyğunluqlarını müəyyənləşdirmək məqsədilə irəli sürülən müxtəlif nəzəriyyələrdə də təhlükəsizlik məsələlərinə kifayət qədər yer ayrılır.

## ƏDƏBİYYAT


1. *Anderson N. “Re-redefining” International Security Bringing intent back in // The Josef Korbel Journal of Advanced International Studies. Summer 2012, Volume 4, pp. 27-47*
2. *Дериглазова Л.В. Проблемы обеспечения международной безопасности после окончания «холодной войны» // Вестник Томского государственного университета, 2005, № 288, с. 56-61*
3. *Зеленков, М. Ю. Теоретико-методологические проблемы теории национальной безопасности Российской Федерации. М.: Юридический институт МИИТа, 2013, 196 с.*
4. *Иноземцев В.Л. Потерянное десятилетие. М.: Московская школа политических исследований, 2013, 600 с.*
5. *Крайнов Г.Н. Эволюция системы международных отношений и ее особенности на современном этапе // Ученые записки Худжандского государственного университета им. академика Б. Гафурова. Гуманитарные науки. / 2015, Выпуск № 1, (42), с. 47-54*
6. *Лисичкин В. А., Шелепин Л. А. Россия под властью плутократии. История черного десятилетия. М., Алгоритм, 2003, 480 с.*
7. *Чугров С. Мир "после холодной войны" в концепциях японских политологов // Мировая экономика и международные отношения, 1999, № 9, с. 98-107*


## SUMMARY


Security issues are at the center piece of international relations, while its provision constitutes one of the major tasks of states, international and regional organizations. Providing international security is stipulated by several factors such as historical, political, social, cultural and other aspects. Development stage, economic resources, military power, scientific-technical potential of the society or the state and other factors directly affect the security provision.


## РЕЗЮМЕ


Вопросы безопасности один из важнейших вопросов в международных отношений, в то время как ее обеспечение является одним из основных задач государств, международных и региональных организаций. Обеспечение безопасности зависит от некоторых факторов, как исторических, политических, экономических, социальных, культурных и других. Уровень развития, экономические возможности, военная сила и научно-технический потенциал общества или государства и другие факторы оказывают непосредственное влияние на безопасность.

# TƏHSİL MENTALİTETİ METODOLOJİ PARADİQMA KİMİ

MÜSLÜM NƏZƏROV
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent



Təhsil müəyyən cəmiyyətin mədəniyyətinin, onun sosiomədəni sisteminin bir hissəsidir. Məhz buna görə də təhsilin hərtərəfli öyrənilməsi tədqiqatçıdan psixoloji metoddan yararlanmağı tələb edir. Bu zaman biz konkret cəmiyyətin psixoloji həyat tərzi kimi "mentalitet" adlanan bir hadisə ilə üzləşmiş oluruq. Bu kontekstdə təhsil dünyasının başqa bir hadisəsinə təhsil mentalitetinə müraciət etmək məqsədə müvafiq olar. Doğrudan da, təhsilə yalnız rasionallıq nöqteyi-nəzərdən yanaşmış olsaq, o, qapalı qalmış olacaq. Rasionallıq nöqteyi-nəzərdən Qərbdə mütərəqqi rol oynamış liberal təhsil ideyalarının müasir Azərbaycanda səmərəliliyi elə də yüksək deyil. Bu, bir daha sübut edir ki, təhsil ideyalarını təhlil edərkən empirik ölçülə bilən sahələrin hüdudlarından kənara çıxıb irrasional, intuitiv sahəyə daxil olub "təhsil mentaliteti" anlayışına müraciət etmək lazım gəlir. "Mentalitet" anlayışı ədəbiyyatda geniş şərh olunub. Bizim vəzifəmiz bu anlayışa verilən çoxlu sayda təriflərin təhlili əsasında onun ən mühüm əlamətlərini üzə çıxarmaq, onların məzmununu açıqlamaq və bu cəhətlərin sintezi əsasında "təhsil mentaliteti" anlayşını ifadə etməkdir. "Mentalitet" anlayışına verilən təriflərin hərtərəfli və kompleks təhlili bizə ilk olaraq belə bir nəticəyə gəlməyə əsas verir ki, mentalitet kollektiv təhtəl şüurla, mentalitet daşıyıcısı olan subyektdə kənar təsirlərə müəyyən reaksiyaları doğuran və bir növ emosional-psixi kod kimi spontan olaraq təsir göstərən milli xarakterlə bağlıdır. İctimai şüurun dərin qatında olan və təhsilin təkamül mərhələlərinin təhsil "arxetiplərini" özündə birləşdirən təhsil mentaliteti bir növ təhsilin mənəvi-psixoloji invariantı, "təhsilin ruhudur". Bizi maraqlandıran ikinci məsələ mentalitetin davamlılığı və ya dəyişkənliyi məsələsidir. F.Brodelin əsərlərindən etibarən belə bir ənənə qərarlaşımışdır ki, mentalitetin bəzi elementləri saysız-hesabsız nəsillər üçün, uzun zamanda dəyişməz qalır. Belə ki, F.Brodelə görə, mentalitetin bəzi elementləri saysız-hesabsız nəsillər üçün davamlı olur: onlar tarixin yolunu kəsir, onun axarına maneə yaradır və mane olmaqla, onu yaradır"[4,s13-14]. Bu, o deməkdir ki, bu və ya digər xalqın payına düşən sosial kataklizmlərə baxmayaraq, onun mentaliteti özünün əsas cəhətlərini qoruyub saxlayır. Məhz mentallıq insanlara öz cəmiyyətinin inkişafında varisliyi dərk etməyə imkan verir. Və məhz biliklərin, ənənələrin, dəyərlərin ötürülməsini təmin edən təhsil bir sosial təsisat olaraq müəyyən mentalitetin zamanda mövcudluğunu təmin edir.

Bu iki müddəadan çıxış edərək, "təhsil mentaliteti" anlayışının təhlilinə keçid edək. Qərarlaşmış elmi ənənə ("siyasi mentalitet", "hüquqi mentalitet","peşə mentaliteti" və s. bu kimi anlayışların meydana gəlməsi) filosofları və təhsilşünasları elmi dövriyyəyə "təhsil mentaliteti" anlayışını daxil etməyə təhrik edir.Təhsil mentalitetinin öyrənilməsi təhsilşünaslıqda konkret cəmiyyətin təhsilinin identifikasiyası ilə sıx bağlı olan əlavə bir istiqamət kimi nəzərdən keçirilə bilər. Burada təhsil mentaliteti metodoloji paradiqma kimi çıxış edir. O, konkret cəmiyyətin təhsil tarixinin bəzən hətta ideoloji olaraq bir-birinə qarşı-qarşıya duran müxtəlif mərhələlərini vahid bir tama gətirmək imkanı verir. Ölkəmizin ictimai elmlərində"mentalitet" anlayışı az-çox öyrənilmişdirsə, təhsil mentaliteti nəzəriyyəsi ümumiyyətlə yoxdur. Bu isə Azərbaycanın

təhsilinin reallıqlarına varmaq imkanı vermir. Nəticədə cəmiyyətin təhsil dəyərləri ilə dövlətin təhsil dəyərləri bir-biri ilə üst-üstə düşməyə də bilir. Çox vaxt dövlət yalnız təhsil prioritetlərini bəyan edir, halbuki cəmiyyət onu bu prioritetləri dəyişməyə də məcbur edə bilir. Deməli, təhsil cəmiyyətə insanların təkcə intellektual deyil, psixoloji xüsusiyyətləri ilə də təsir göstərə bilir.

Təhsil mentalitetində təhsilin ideyaları öz əksini tapır. Deməli, konkret cəmiyyətin sosiomədəni reallığının vahid kulturoloji əsası var. Onun tərkib hissələri bir-biri ilə qarşılıqlı bağlı olub bir-birini qarşılıqlı tamamlayır.Təhsilə bu müstəvidə yanaşdıqda, təhsil sistemlərinin rəngarəngliyini də anlamaq mümkün olur. Təhsilin cəmiyyətin mədəni-tarixi xüsusiyyətlərindən asılılığı onun məzmununun və cəmiyyətdə təzahür formalarının müxtəlifliyini də izah edir. Burada biz aşağıdakı mühüm nəticəyə gəlmiş oluruq: heç bir təhsil sistemi digərlərindən daha səmərəli və ya daha mütərəqqi hesab oluna bilməz, çünki təhsilin forması müəyyən cəmiyyətdə baş verən obyektiv-subyektiv proseslərlə şərtlənir və cəmiyyətin digər sahələri ilə ziddiyyətə girə bilməz. Buna görə də bir xalq üçün səmərəli olan addım başqa xalq üçün faciəvi ola bilər.

Bu kontekstdə son illər ədəbiyyatda geniş yayılmış bir müddəaya diqqəti çəkmək istərdik. Həmin müddəaya görə, istənilən cəmiyyətin təhsil sistemi bir cəmiyyəti digər cəmiyyətdən, bir xalqı digər xalqdan fərqləndirən indikator kimi çıxış edən mədəni irsin ayrılmaz tərkib hissəsidir. Tədricən belə bir fikir qərarlaşmışdır ki, tarixən təşəkkül tapmış təhsil sistemi və xüsusən də təhsil sosiomədəni fenomenlər kimi fəaliyyət göstərir və məzmunu islahatlar zamanı nəzərə alınan (və alınmalı olan) ən mühüm amillərdəndir. Təsadüfi deyil ki, tədqiqatçılar son zamanlar “mədəni-təhsil məkanı” anlayışını işlədir, bununla da təhsili mənəvi-mədəni proses kimi nəzərdən keçirirlər [3].

Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanununda Azərbaycan təhsilinin tarixən təşəkkül tapmış sosiomədəni reallığa, mənəvi dəyər və ideallara uyğun gələn prinsiplər öz əksini tapmışdır. Azərbaycan Respbulikasının “Təhsil haqqında” Qanununun “Təhsil sahəsində dövlət siyasətinin əsas prinsipləri” adlanın 3-cü maddəsində Azərbaycan ərazisində təhsil məkanının formalaşdırılması prinsiplərindən (humanistlik, demokratiklik bərabərlik, millilik və dünyəvilik, keyfiyyətlilik və b.) bəhs edilir [1]. Bu qanuna görə, məhz bu prinsiplər Azərbaycan təhsilini həqiqətən də informasiya dövründə rəqabətə qabil edəcəkdir. Şübhəsiz, bu və bir çox digər prinsiplər təhsil sahəsində qanunvericiliyin formalaşdırılması zamanı böyük əhəmiyyət kəsb edir, çünki onlar təhsil ideyalarına uyğundur, daha dəqiq desək, dünya birliyində obyektiv mövcud olan təhsil prinsiplərinə uyğun olan dəyər və ideyaları əks etdirir, bir qayda olaraq ümumiləşdirilmiş şəkildə ifadə edilir və fərqli sosiomədəni reallıqlarda ümumən eynidir.

Amma bizim əsas vəzifəmiz Azərbaycanın təhsil ideyalarında təhsili bizim cəmiyyətdə legitim edən, Azərbaycan xalqının təhsil sistemini digər xalqın təhsil sistemindən fərqləndirən cəhətləri üzə çıxarmaqdır. Burada bir məqamı qeyd etmək istərdik.Təhsil ideyalarının nəzəri ümumiləşdirmə səviyyəsi heç də həmişə qanunvericiyə bu sosiomədəni reallığa uyğun gələn qanunları yaratmağa imkan vermir. Belə olduqda, qanun “işləmir”. Bu, məsələn, Azərbaycan şəraitində Azərbaycanın milli-mədəni dəyərlərini nəzərə almayan və bu səbəbdən də səmərəliliyi o qədər də yüksək olmayan Avropa təhsil standartlarının tətbiq edilməsində özünü büruzə verir. Bu gün Azərbaycan təhsilinin inkişafı demək olar ki, tam olaraq Avropa mədəni kontekstində gedir ki, bu da faktiki olaraq təhsilin konkret milli-mənəvi mədəniyyət sferasından aralanmasına səbəb olur. Qərbin təhsil modeli, təhsilə Qərb yanaşması sırf müasir cəmiyyətin praktiki tələbatlarına söykənir və tətbiqi mütəxəssis hazırlığını hədəf götürür. Təlimin səviyyəvi cəhəti təlimin ixtisas təhsilinə vurğu edən praktiki yönümlülüyündədir. Azərbaycanda isə bundan fərqli ənənələr qərarlaşmışdır.

Biz sözlə, “təhsil mentaliteti” adlanan hadisə, təhsilin milli xarakteri tamamilə unudulur. Təhsil mentalitetini araşdırmadan müəyyən xalqın sosiomədəni reallığının bir elementi olan təhsilin dərin irrasional təbiətini dərk etmək mümkün deyil. Qısa müddət ərzində mentaliteti dəyişmək çətindirsə, bu və ya digər cəmiyyətə yad olan yenilikləri tətbiq etmək ondan da çətindir. Buna görə də hazırda Azərbaycanın təhsil ənənələri kəskin böhran yaşayır və onların gələcək perspektivləri tam aydın deyil. Deyilənləri ödənişsiz təhsil sisteminin dağılması, bundan da təhsil sisteminin birinci subyektinin, yəni şagird və tələblərin əziyyət çəkməsi, eyni zamanda əmək haqqının azlığından təhsil sisteminin ikinci subyektinin - pedaqoqların da əziyyət çəkməsi, təhsil müəssisələrində, ilk növbədə orta məktəblərdə yüksək ixtisaslı müəllimlərin çatışmaması, biliklərin keyfiyyətinin kəskin dərəcədə aşağı düşməsi sübut edir.

Ayrı-ayrı ali məktəblərin rektorları səviyyəsində Avropaya inteqrasiya prosesinə qarşı müqavimət izlənilir. Bu prosesin əleyhinə olan ayrı-ayrı alimlər də vardır ki, onları da qane etməyən dəyişikliklərin ənənəvi müəllim anlamından imtina edilməsi və prosesin məqsədlərinin tam aydın olmamasıdır. Azərbaycanın Təhsil Nazirliyi tərəfindən pedaqoji ictimaiyyət qarşısında qoyulan vəzifələr,tətbiq edilən texnologiyalar (elektron təlim texnologiyaları, distant təlim və s.) təhsildə cərəyan edən qlobal tendensiyalara zidd deyil. Lakin onlar inzibati işçilərdə, habelə pedaqoq və valideynlərdə çoxlu sayda suallar doğurur.Təhsil sistemində yeni dəyərləri irəlilətmək niyyəti ilə ictimaiyyətin bu dəyərləri qəbul etməyə hazır olması arasında ziddiyyətlər açıq-aşkar özünü büruzə verməkdədir. Buna görə də hesab edirik ki, Qərb təhsil ənənələrini geniş şəkildə tətbiq edən Azərbaycan təhsili konseptual, nəzəri-metodoloji böhran dövrünü yaşayır. Avropa rasionalzimi Azərbaycan təhsilinin əzəldən irrasional mənəvi başlanğıca yönəlişliyi ilə ziddiyyətə girir. Azərbaycanın sivilizasiya spesifikliyi onun təhsil sisteminə Qərbi Avropada təşəkkül tapmış prinsipləri mexaniki olaraq köçürmək imkanı vermir. Avropa dövlətlərinin özü də Boloniya prosesində öz mövqelərini ardıcıl şəkildə müdafiə edir, nəyi isə qəbul edir, nəyi isə qəbul etmirlər. Fikrmizi Prezidentin söylədiyi aşağıdakı tezisə tam müvafiqdir: “Kortəbii şəkildə orada nə var, gəlin bunu Azərbaycanda da edək - bunu etmək olmaz. Orada bəzi şeylər var ki, onların bizə heç bir xeyri olmayacaqdır.Amma müsbət nə varsa, biz onu gətirməliyik, tətbiq etməliyik”[2]. Bir daha qeyd etmək istərdik ki, Avropa özü də homogen deyil və burada konkret ölkələrdəki tarixi şəraitdən, sosio-mədəni reallıqlardan asılı olaraq təhsildə onun əsas elementləri arasında əlaqələr müxtəlifdir.Bu, hətta ümumi tarixi kökləri olan sivilizasiyaların belə plürallığına olmasına işarə edir. Misal üçün Böyük Britaniyanı göstərək. İngilis konservatizmini hətta plürallıqla səciyyələnən qloballaşma, informasiya dövrü belə aradan qaldıra bilmədi. Konservatizm qalib gəldi. Maraqlıdır ki, Avropa Birliyindən çıxmağın lehinə səs verənlər arasında gənc, tələbə seçicilərinin payı yüksək idi.

Azərbaycanın Avropada gedən inteqrasiya proseslərində iştirakını dialektik prinsip vasitəsilə reallaşdırmaq lazımdır,

yəni köhnə məhv edilməklə deyil, varislik gözlənilməklə inkar edilməlidir. Belə strategiyanı həyata keçirərkən hazır sxemlərdən uzaq olmaq lazımdır, çünki Azərbaycan ali məktəblərinin nəhəng elmi-təhsil potensialı, ölkəmizin və dünya təhslinin keçmişdə toplanmış ən gözəl ənənələrinə köklənən öz xüsusi maraqlı və çoxplanlı iş təcrübəsi var.

Sivilizasiyaların plüralizmindən çıxış etməklə bir daha qeyd etmək lazımdır ki, təhsil sahəsi universal təhsil dəyərlərinin və ideyalarının olmamasından xəbər verir. Eyni sözlər, terminlər, anlayışlar işlədilsə də, konkret hər bir mədəniyyətdə onların məzmunu müxtəlif dəyərlərlə şərtlənir. Deyilənlər onu iddia etməyə imkan verir ki, təhsil sisteminin modifikasiyası zamanı bu cəmiyyətin və xalqın tarixi inkişaf xüsusiyyətlərindən çıxış etmək həm zəruri, həm də məqsədə müvafiqdir. Bu, Azərbaycan təhsil sistemində aparılan islahatlara da aiddir. Təhsil islahatçılarımız nəzərə almalıdırlar ki, bu və ya digər sosiomədəni reallıqda daha optimal olan təhsil obrazı məhz "təhsil mentaliteti" anlayşında öz ifadəsini tapır. Bu obraz təhsilin formasında özünün adekvat ifadəsini tapa da bilər, tapmaya da bilər. Buna görə də təhsil islahatçılarımız təhsilin ruhunu tuta bilməlidir. Təhsilin ruhunu tutma prosesi də elə məhz təhsil mentalitetinin dərki prosesidir. Bu, onların qəbul etdiyi qərarları əsaslandırılmış edər, eyni zamanda insanlar tərəfindən də bəyənilməsini təmin edər. Qərb təhsil sistemi üçün klassik olan ideyaların (məsələn, fərdiçilik, şəxsiyyətin muxtarlığı və s.) Azərbaycanın təhsil gerçəkliyinə adaptasiya etdirmədən tətbiq edilməsi neqativ nəticələrə səbəb ola bilər. Azərbaycanı təhsil sistemi yalnız Azərbaycanın təhsil mentaliteti zəminində qurulmalıdır.

Bir sözlə, Azərbaycanın təhsil mentalitetini sistemli şəkildə öyrənmək zərurəti yaranmışdır. Onu bəsit bir hadisə kimi inkar etmək yox, təhlil edib yeni-yeni cəhətlərini kəşf etmək lazımdır.

Azərbaycan təhsilinin konseptual, nəzəri-metodoloji böhrandan çıxışı yolunda köməyə ilk növbədə təhsil fəlsəfəsi gəlməlidir.Bu isə o deməkdir ki,təhsil fəlsəfəsində, təhsilşünaslıqda konseptual-nəzəri işləmələrə yüksək tələblər irəli sürülür. Adekvat ideya-nəzəri əsasları olmadan təhsil cəmiyyətdə baş verən proseslərdən geri qalmağa başlayır və artıq öz funksiyalarının, ilk növbədə adaptiv funksiyasının öhdəsindən gələ bilmir.

Təhsil fəlsəfəsindən başqa, Azərbaycanın təhsil mentalitetinin durumunu öyrənmək üçün sosioloji, psixoloji tədqiqatların nəticələrindən da yararlanmaq faydalı olar.

Bu tədqiqatlara söykənməklə və Avropa İttifaqının tələbləri nəzərə alınmaqla ölkə qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində müəyyən strategiya işlənməli, strategiyanın da konseptual müddəalarından biri inteqrasiya prosesində Azərbaycan mədəniyyətinin xüsusiyyətlərinin nəzərə alınması haqqında tezis olmalıdır. Buradan belə bir nəticə hasil olur ki, Boloniya prosesinin həyata keçirilməsinin təməl prinsiplərindən biri varislik prinsipi olmalıdır. Axı təhsil sadəcə bir sahə olmayıb milli mədəniyyətin bir hissəsidir, özü də ounu sistemyaradan bir hissəsidir. Azərbaycan təhsilinin modernləşdirirlməsi dialektik prinsip əsasında həyata keçirilməlidir: köhnənin yeni tərəfindən onu məhv etməklə yox, varisliyi qoruyub saxlamaqla inkar edilməlidir. Azərbaycan sivilizasiyaların kəsişdiyi yerdə yerləşdiyindən, burada təhsilin modernləşdirilməsində hər iki sivilizsiyaya xas olan müsbət dəyərləri əlaqələndirmək zəruridir. Cəmiyyətin mental dəyərlərini lazımi səviyyədə dəstəkləməklə təhsil onların gələcəkdə daha da zənginləşməsinə və inkişafına zəmanət verir.

## ƏDƏBİYYAT


*1. Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanunu. Bakı,"Bakı Çap Evi",2012, 64s.*

*2. Prezident İlham Əliyevin Nazirlər Kabinetinin iclasında nitqindən, 22 oktyabr 2007-ci il.*

*3. Столяренко, А.М. Психология и педагогика: учеб. пособие для студентов вузов /А.М. Столяренко. - 2-е изд., перераб. и доп. - М.: ЮНИТИ-ДАНА, 2006. 544 с.*

*4. Филд Д. История менталитета в зарубежной исторической литературе // Менталитет и аграрное развитие России (XIX-XX вв.): материалы междунар. конф. (Москва, 14-15 июня 1994 г.). М, 1996. С. 7-22.*

*5.Nəzərov M, Babayeva A. Mədəniyyət və təhsilin ümumi əsasları. Dərs vəsaiti. Bakı - Mütərcum – 2016. 200s.*



***Açar sözlər:*** *təhsil, mentalitet, təhsil mentaliteti, mədəniyyət, sivilizasiya, dəyərlər, ideyalar.*

***Ключевые слова:*** *образование, менталитет, образовательный менталитет, культура, цивилизация, ценности, идеи.*

***Keywords:*** *education, mentality, mentality, education, culture, civilization, values, ideas*


## РЕЗЮМЕ


Автор, исходя из взаимосвязи образования и культуры, подходит в статье к образованию с психологической точки зрения и обосновывает мысль о том, что одним из факторов, оказывающих влияние на образование как целостный культурный феномен, является менталитет. Подчеркивается, что при анализе идей образования необходимо выйти за пределы эмпирических измерений и войти в иррациональную сферу, обратиться к понятию «образовательный менталитет». Автор подчеркивает, что без изучения образовательного менталитета невозможно понять глубокую иррациональную природу образования как социокультурной реальности определенного народа. Образование функционирует как социокультурный феномен и его содержание должно быть учтено при реформах.


## SUMMARY


The author, on the basis of the relationship between education and culture, suitable article at education from a psychological point of view and substantiates the idea that one of the factors that affect education as a holistic cultural phenomenon, is the mentality. It is emphasized that the analysis of the ideas of education need to go beyond empirical measurement and enter in the irrational sphere, to refer to the concept of "educational mentality." The author emphasizes that without studying the educational mentality is impossible to understand the deep irrational nature of education as a social and cultural reality of a people. Education functions as a social and cultural phenomenon and its contents must be taken into account in the reforms.

# Enerji siyasəti

## AMERİKA BİRLƏŞMIŞ ŞTATLARININ ENERJİ SİYASƏTİNDƏ GÜNƏŞ ENERJİSİNİN YERİ

ELVİN PAŞAYEV
Azərbaycan Milli Elmlər Akademiyası





Amerika Birləşmiş Ştatları dünyanın aparıcı enerji resursları istehsalçılarındandır və neft hasilatına görə dünyada Rusiya Federasiyası və Səudiyyə Ərəbistanından sonra 3-cü yeri tutur. Təbii qazın istehsalına görə isə ABŞ artıq neçə ildir ki, birinci yerdə durur və ikinci yerdə duran Rusiya Federasiyasını ötüb keçməsi artıq faktdır. Bununla bərabər Amerika Birləşmiş Ştatları dünya üzrə böyük enerji ehtiyatları istehlakçılarındandır. Belə ki, uzun illər ərzində ölkə çox güclü şəkildə neft və qaz idxalından asılı olmuşdur. Son illərdə "şist inqilabı" və həyata keçirilən enerji strategiyası sayəsində vəziyyət əsaslı şəkildə dəyişməyə başlamış, daxili hasilat diqqəti cəlb edən şəkildə artmış, buna paralel mütəmadi olaraq idxalın da azalması müşahidə olunur. Bununla əlaqədar olaraq belə sual yaranır ki, dəyişikliyin hansı mərhələsi ABŞ dövləti rəhbərliyinin məqsədyönlü fəaliyyətinin nəticəsidir və Birləşmiş Ştatlar iqtisadiyyatının enerji sahəsi hansı istiqamətdə inkişaf edəcəkdir.

B.Obama administrasiyası hakimiyyətə gəldiyi dövrdən etibarən Birləşmiş Ştatlar özünün dünyada texnoloji liderliyinin və qlobal rəqabətədavamlılığının möhkəmləndirilməsinə çalışaraq qeyd edirdi ki, son altı il ərzində ölkə iqtisadiyyatına qoyulmuş investisiyalar sayəsində Birləşmiş Ştatlar sürətlə günəş enerjisi sahəsində lider dövlət olmuşdur. Keçən il tariximiz ərzində günəş energetikası gücü üçün böyük il olmuşdur. Bu bir faktdır ki, günəş sənayesi bütün iqtisadiyyatdan on dəfə daha sürətlə iş yeri açmaqdadır[11]. Bugün minlərlə yenilənmiş enerji layihələri ölkənin hər yerindən olan on minllərlə işçilərin məşğulluğunun artırılmasına köməklik göstərməkdədir. Məsələn, mən burada-Nevadada olduğum müddətdən keçən dövr ərzində yenilənmiş enerji nəsli 180% qədər genişlənmişdir[12]. Birləşmiş Ştatlarda vətəndaş elmi-tətqiqat və təcrübi-konstruktor işlərinə investisiyaların ayrılması sahəsində Energetika Nazirliyi əsas həlledici rola malikdir və 2014-cü maliyyə ili ərzində nazirlik bu istiqamətdə 6,2 milyard dollar vəsait xərcləmişdir ki, bu vəsaitin əsas hissəsi olan 4,7 milyard dolları fundamental tətqiqatlar üçün nəzərdə tutulmuşdur[10,p.28]. Qeyd edək ki, daha çox maliyyə vəsaiti fiziki elmlər sahəsinə və texnologiyaların təkmilləşdirilməsinə-milli iqtisadiyyatın rəqabətə davamlılığının yüksəldilməsinə müvafiq olaraq sərf edilmişdir.

Günəş enerjisindən istifadə bərpa olunan elektrik enerjisi resursları içərisində ən prespektivli olanlardandır. Günəş elektrik stansiyaları Amerika Birləşmiş Ştatlarına bir sıra strateji üstünlüklər qazandırır ki, bu da günəş enerjisindən elektrik enerjisi istehsalı idxalı gündən günə artan təbii



qaz tələbini sadəcə azaltmayacaq, eyni zamanda elektrik enerjisi istehsal edən stansiyaların zəhərli qaz emissiyasını da azaldacaqdır. Təbii qaz və kömürdən istifadə etməklə elektrik enerjisinin istehsal olunduğu stansiyalarda təkcə enerji istehsal olunmur, eyni zamanda ətraf mühit çirkləndirilir və zəhərli qazlar da istehsal olunur. Günəşin bir enerji mənbəyi olaraq istifadə olunması ilə enerji çeşitliliyi yaradılacaq və təbii qazın artan qiymətlərinin təsirini azaldılacaqdır.

Məlumdur ki, fotoelektrik effektindən istifadənin köməkliyi ilə günəş enerjisinin birbaşa elektrik enerjisinə çevrilməsi prosesi 1839-cu ildə Edmund Bekkerel tərəfindən ixtira edilmişdir (qeyd etmək lazımdır ki, Eynşteyn 1923-cü ildə bu effekti teoretik şəkildə izah edərək Nobel mükafatına layiq görülmüşdür)[1,c.734]. Hələ 30 il bundan əvvəl Birləşmiş Ştatlar külək enerjisi gücünün 80%-i, günəş enerjisi gücünün isə 90%-nə sahib olmaqla fəxr edirdi. Dünyada ilk günəş batareyası Bell Laboratories Araşdırma Mərkəzi tərəfindən hazırlanmış, lakin bu olduqca cüzi effektə-4,5% malik olmuşdur. NASA öz məqsədləri üçün günəş batareyaları üzərində işini davam etdirmiş və 1960-cı ildə günəş işığını elektrik enerjisinə çevirmə 15% çatdırılmışdır. ABŞ-da həm birinci günəş elektrik stansiyasının, həmçinin meqavat gücünə sahib olan birinci külək turbininin quraşdırılmasına baxmayaraq hazırda Çin mübahisəsiz olaraq bərpa olunan enerji mənbələri sahəsində liderlik edir[3,p.26-27]. Lakin itirilmiş bu imkanı bərpa etmək üçün Birləşmiş Ştatlarda son illərdə alternativ eneji mənbələrindən istifadə sahəsində mühüm işlər görülmüşdür.

ABŞ prezidenti Corc Buş günəş enerjisi texnologiyalarının inkişafını təmin etmək məqsədi ilə 2006-cı ildə "SAİ"(Solar America İnitiative-Amerika Günəş Təşəbbüsü) proqramını yaratmışdır. Yeni yaradılan SAİ proqramı enerji təhlükəsizliyini, inkişafını və yeniliklərin yol xəritəsini müəyyənləşdirən "DOE 20062 (Department of Energy)nın strateji planındakı hədəfləri müdafiə edir. "SAİ" proqramı ayrıca olaraq günəş və günəşlə əlaqəli araşdırmaları, günəş enerjisi texnologiyalarının inkişafı və enerji idarəçiliyi hədəfləri çərçivəsində Beynəlxalq Enerji Siyasəti və Enerji Siyasəti Anlaşması(EPACT)nı hazırlamışdır. Məlumat üçün bildirmək lazımdır ki, ABŞ prezidentinin "SAİ" proqramı fəaliyyətinə 2007-ci ilin maliyyə ili çərçivəsində 148,4 milyon büdcə tələbi və bu büdcənin 66 milyon dollardan çoxu isə günəş enerjisi araşdırma fəaliyyəti üçün ayrılmışdır. 2007-ci ilin büdcəsindən fotovolt(PV)lə əlaqəli olaraq tələb edilən maliyyə vəsaiti 139,8 milyon dollar olmuşdur[2]. Bu proqramın əsas məqsədləri Birləşmiş Ştatların istehsal gücünün genişləndirilməsi və istehsal qiymətlərinin daha aşağı salınması üçün yeni istehsal sahələrinin yaradılması, inkişaf etmiş fotovolt sistemlərinin qiymətlərinin aşağı endirilməsi və tələb olunan avadanlıqların keyfiyyətinin artırılması üçün araşdırma və inkişaf etdirmə fəaliyyətlərinin sürətləndirilməsidir.

Günəş enerjisi artım tempinə görə dünyada təkcə digər bərpa olunan enerji resursları ilə deyil, eyni zamanda telekommunikasiya və kompüter kimi elmi istehsal məhsulları ilə də müqayisə edilə bilər. Bu sahə üzrə aparıcı liderli ənənəvi olaraq Avropa Birliyi ölkələrinə məxsus idi. Lakin son illərdə bu sahədə liderlik yüksək templə Asiya ölkələrinə keçmişdir. 2013-cü il ərzində dünyada 40 QVt gücündə Günəş Elektrik Stansiyası istifadəyə verilmişdir ki, bunun 13 QVt Çinin, 7 QVt isə Yaponiyanın payına düşmüşdür. Birləşmiş Ştatlara gəldikdə isə günəş enerjisi istehsalına görə dünya reytinqində 5-ci yeri tutur. Tətbiq olunmuş bütün cəhdlərə baxmayaraq ABŞ fotovolt sahəsində Avropanın bəzi ölkələrindən və Çindən geri qalmalarını aradan qaldıra bilməmiş və qurulmuş konsentratorların gücünə görə hətta İspaniyadan da geri qalmaqda davam edirlər.

Hökumətin yardımı sayəsində günəş energetikası tədricən müstəqil bir sahəyə çevrilmişdir ki, bu sahədə 5600 kompaniya fəaliyyət göstərir və 143 min işçi çalışır. Bütün GES-nın balans dəyəri 13,7 milyard dollar həcmində qiymətləndirilir. 2013-cü ildə ABŞ-da illik elektrik enerjisinin ümumi artımında günəş energetikası sektorunun payı yalnız təbii qaz və istilik elektrik stansiyalarından geri qalmaqla 29% olmuşdur. GES-nın gücü 2014-cü ilin avqust ayında 2008-ci illə müqayisədə 5 dəfə artaraq 15,9 QVt-a çatmışdır[4]. Qeyd etmək lazımdır ki, Birləşmiş Ştatlarda günəş enerjisinin istehsalına görə lider olaraq 5 ştat qalır ki, onların payına GES-nın bütün gücünün 81% düşür: Kaliforniya-2,6 QVt-la birinci, daha sonra Arizona, Cənubi Karolina, Masaçusets və Nyu-Cersi ştatları gəlməkdədir. 2011-ci ildən etibarən ABŞ-ın Energetika Nazirliyi tərəfindən "Sunshot İnitiative" layihəsini həyata keçirilməsi hesabına növbəti onillliyin sonuna qədər ölkədə fəaliyyət göstərən GES-nın tikinti dəyərinin 75% qədər endirilməsi nəzərdə tutulmuşdur. Nazirlik hesab edir ki, qarşıya qoyulmuş bu məqsəd imkan verəcək ki, istehsal olunan elektrik enerjisinin miqdarına görə günəş elektrik stansiyaları İES tərəfindən istehsal olunan elektrik enerjisinin miqdarına çatmış olsun. Bu isə federal subsidiyalar olmadan günəş enerjisinin geniş çərçivədə inkişaf etməsinə yol açacaqdır[5]. Layihənin

yaradıcıları fotovolt hesabına 2030-cu ilə qədər ölkənin elektrik enerjisinə olan tələbatının 14%-nin, 2050-ci ilə qədər isə 27%-nin ödəniləcəyini proqnozlaşdırır. Qlobal energetik yarışda Birləşmiş Ştatları dünya liderliyinə yüksəltmək üçün hər il ölkədə 28-34 MVt gücündə GES-nın fəaliyyətə başlaması olduqca vacibdir.

Layihə rəhbərlərinin hesablamalarına görə 2030-cü ilə qədər karbohidrogen yanacağı iqtisadiyyatının gəlirləri 34 milyard dollar, 2050-ci ilə qədər isə 41 milyard dollar həcmində olmaqla yanaşı, eyni zamanda 2030-cu ilə qədər bu sahədə yaradılacaq yeni iş yerlərinin sayı 290 min nəfər, 2050-ci ilə qədər isə 390 min nəfər olması nəzərdə tutulur. Qəbul olunmuş dövlət proqramları özəl korporasiyaların resurslarının bu sahəyə cəlb edilməsinə imkan yaratsa da, son beş il ərzində fotovolt panellərinin orta dəyəri 60%-ə qədər, günəş elektrik sisteminin ümumi dəyəri isə 50%-ə qədər azalmışdır. Bu əlbəttə ki, kifayət deyildir və göründüyü kimi günəş energetikası hələ xeyli müddət dövlət dəstəyindən asılı olaraq qalacaqdır.

Planlaşdırılmış proqrama uyğun olaraq 2050-ci ilə qədər nəhəng günəş elektrik stansiyaları ölkənin cənub-şərqində 75 min km2 ərazidə, boş torpaqlarda yerləşəcəkdir. Bu stansiyalar "Tucson Electric Power" şirkətinə məxsus olan və Arizona ştatında Sprinqvilldə yerləşən, 2000-ci ildə fəaliyyətə başlayan 4,6 MVt gücündəki elektrik stansiyasını(şəkil 1) xatırladacaqdır.

**Şəkil 1. Fotoelektrik stansiya**



*Mənbə: http://america.aljazeera.com, World's largest solar plant opens in California*

Öz aralarında əlaqələndirilmiş minlərlə fotoelektrik elementlər modulda birləşərək batareyanı əmələ gətirəcəkdir. Daimi enerji batareyadan transformatora, daha sonra isə yüksək voltlu enerji sisteminə daxil olur. Fotoelektrik elementi birində çoxlu elektron olan iki yarımkeçirici plastindən ibarətdir. İşıq fotonu bu plastindən keçərək sərbəst elektronu hərəkətə gətirir və digər plastinə daxil olur ki, bu da elektrik enerjisini yaradır.

Bəzi ABŞ ekspertləri hesab edirlər ki, "SunShot" proqramı hesabına son dövrlərə qədər "tünd qara at" hesab edilən günəş enerjisi, "partlayıcı" inkişaf dövrünə qədəm qoymuşdur. Günəş Enerjisi Şirkətləri Assosiasiyası(Solar Energy İndustries Association)nın iddiasına görə bu sahə illər ərzində multiqeqavat artım tempi və on minlərlə yeni iş yerlərinin yaradılmasına istiqamətlənmişdir. "GTM Research" kompaniyasının fikrinə görə isə Birləşmiş Ştatlar kommersiya statusu istiqamətində ilk real addımını atmaqla günəş enerjisinin "cazibə mərkəzi"nə çevrilməkdədir[6].

2013-cü ildə fotovolt modulunun dünya üzrə istehsal həcmi demək olar ki, 40 QVt çatmış, bu ümumi istehsal həcmində Çin Xalq Respublikasının payı 64% təşkil etdiyi halda, Birləşmiş Ştatların payı 2%-dən bir qədər artıq olmuşdur[7] Fotovolt modulu istehsalı üzrə dünyada liderlik edən 8 aparıcı kompaniyanın 7-si Çin Xalq Respublikası şirkəti olduğu halda, yalnız biri Birləşmiş Ştatlara məxsus şirkətdir. Bununla bərabər innovativ nazik təbəqəli modulların istehsalına görə Birləşmiş Ştatlar hələdə də irəlidədir. Belə ki, 2013-cü ildə dünya üzrə nazik təbəqəli modul istehsalı 4,2 QVt təşkil etmişdir ki, bu istehsalın 63% iki şirkətin–ABŞ kompaniyası olan "First Solar" və Yaponiya şirkəti olan "Solar Frontier"in payına düşmüşdür.

Fotovoltdan fərqli olaraq Birləşmiş Ştatlarda son illərdə təcrübədən uğurla keçdikdən sonra sənaye sahəsində günəş konsentratorlarından geniş istifadə olunmağa başlanmışdır. Teorik olaraq Birləşmiş Ştatların ərazisində ümumi gücü 7500 QVt olan konsentratorları quraşdırmaqla ölkənin cənub-qərbində olan yeddi ştatın enerji şəbəkəsinin imkanlarını bir neçə dəfə yüksəltmək mümkündür. Hesab edilir ki, ölkə ərazisindəki torpaq meydançaların cəmi 0,6%-də günəş konsentratorları quraşdırmaqla Birləşmiş Ştatların elektrik enerjisinə olan bütün tələbatını ödəmək mümkündür. Beynəlxalq Bərpa Olunan Enerji Labaratoriyasının layihəsinə görə Amerikada hər evin damina 3 kilovat gücündə fotovolt sistemi qurulmuş olsaydı, 420 milyard kilovat-saatdan çox elektrik enerjisi əldə edilmiş olacaqdı ki, bu da Birləşmiş Ştatların ümumi elektrik enerjisi tələbinin 35%-dən çoxdur[8, p.1]

**Şəkil 2. Ev günəş panelləri**




*Mənbə : http://solarenergy-usa.com, Solar energy USA Mooresville photo gallery*

Günəş enerjisi ilə bağlı son illərdə həyata keçirilən bütün iri layihələr federal hökumətin və mənafeləri uyğun gələn ştat rəhbərliklərinin dəstəyi hesabına reallaşdırılmışdır. Belə ki, 2 milyard dollar ətrafında qiymətləndirilən "İvanpah" layihəsinin reallaşdırılması üçün ABŞ tarixində bərpa olunan energetikaya

ən iri kredit zəmanəti olan 1,6 milyard dollar vəsait xərclənmişdir. Amma təcrübə göstərdi ki, bu elektrik stansiyası öz nominal gücünün yalnız yarısını vermək iqtidarındadır. 2,2 milyard dəyərində olan "Solana" layihəsinin reallaşdırılmasına isə 1,45 milyard dollar fedaral vəsait xərclənmişdir.

Eyni zamanda ABŞ-nın cənub-qərbində iri foto və termoelektrik stansiyalarının tikintisi planlaşdırılır. Onlardan biri Kaliforniya ştatında Modjav səhrasında İsrail texnologiyası əsasında tikilmiş və 1989-cu ildən fəaliyyət göstərən "Kramer Junction" stansiyasıdır. Parabola şəkilində olan metal güzgülər günəş işığını istilik qəbuledicisində toplayır, daxilində olan istilik daşıyıcısı-etilenqlikolu qızdırır. Bu güzgülər günəşin arxasınca çevilirlər. Qızdırılmış istilik daşıyıcısı istilik mübadiləedicisinə daxil olur ki, orada turbini hərlədən buxar yaranır. Gələcək prespektivdə istilik daşıyıcısı enerjisinin bir hissəsinin əridilmiş duz toplanmış rezervuara yönləndilirməsi planlaşdırılır. Bu yolla toplanmış istilikdən gecə vaxtlarında buxar əmələgətirilməsi üçün istifadə olunması mümkündür.

Amma hesablamalar göstərir ki, tətbiq olunmuş cəhdlərə baxmayaraq çətin ki, orta müddətli prespektivdə Birləşmiş Ştatlar Avropa ölkələri ilə arasında yaranmış məsafəni aradan görürə bilsin. Dünya günəş enerjisinin müəyyən olunmuş ümumi gücündə payı 26% olan Almaniya Federativ Respublikası ilə müqayisədə Birləşmiş Ştatların payı 14%-dir və bu göstəricinin yaxın beş il ərzində yalnız kiçik dərəcədə yüksəlməsi proqnozlaşdırılır[9, p.38]. Odur ki, "SunShot İnitiative" proqramında nəzərdə tutulduğunun əksinə olaraq günəş energetikası sahəsində dünya liderliyinə təyin edilmə görünür texnoloji sahədə inqilabi dəyişikliklər olmadan mümkün olmayacaqdır.

## ƏDƏBİYYAT:


*1.Зеркалов Д. В. Энергетическая безопасность, Монография, раздел 4, Проблема энергетической безопасности США и их портнеров, Киев, 04.02.2012,с.734*

*2.Web site of Solar America Initiative from http://www.eere.energy.gov/solar*

*3.Clean Tech Nation: How the U.S. Can Lead in the New Global Economy. Harper Collins Publishers. 2012, p.3; Blueprint for a Secure Energy Future. Washington DC, march 30, 2011, p.26-27*

*4.Solar Energy Facts:2Q 2014. SEİA. Washington DC, september 22, 2014*

*5.SunShot Vision Study,Washington, DC, February 2012, pf.XX, XXII, 1*

*6.U.S Solar Market İnsight: 2013 Year-in-Review. GTM Research and SEIA. Washington, DC, march 14 , 2014*

*7.Global 2013 PV Module Production Hits 39.8 GW. www.greentechmedia.com, april 23, 2014-cü il*

*8."Solar Energy Technologies Program Multi-Year Program Plan 2007-2011", Office of Energy Efficiency and Renewable Energy, United States Department of Energy, January 2006, p.1*

*9.Global Market Outlook for Photovoltaics 2014-2018. EPİA. Brussels, April 2014, p.38*

*10. 2014 Global R&D Funding Forecast. Battelle. Colombus, OH, December 2013, p.28*

*11.Remarks by the President on Energy and Climate Change, Department of Energy Washington, D.C., march 19, 2015, https://obamawhitehouse.archives.gov/the-press-office/2015/03/19/remarks-president-energy-and-climate-change*

*12.Remarks by the President at National Clean Energy Summit, Mandalay Bay Resort Convention Center Las Vegas, Nevada, august 25, 2015, https://obamawhitehouse.archives.gov/the-press-office/2015/08/25/remarks-president-national-clean-energy-summit*



***Açar sözlər:*** *enerji təhlükəsizliyi, fotoelektrik effekti, günəş elektrik stansiyası, günəş panelləri, fotovolt modulu.*

***Ключевые слова:*** *Энергетическая безопасность, фотоэлектрический эффект, солнечная электростанция, солнечная панель, фотовольтаический модуль.*

***Key words:*** *energy security, photoelectric effect, solar power plant, solar panel, photovoltaic module.*


## РЕЗЮМЕ


В статье обсуждается политика, проводимая США в целях развития технологий и увеличения производительности в области солнечной энергетики. Сегодня солнечная энергетика постепенно превращается в независимую сферу.

Общая стоимость всех солнечных электростанций оценивается в 13.7 миллиардов долларов. В 2013 году 29% всей новой выработанной электроэнергии было получено с помощью солнечных электростанций, что уступает по доле лишь природному газу и тепловым электростанциям. Также, за последние годы благодаря солнечной энергетике, Соединенным Штатам удалось уменьшить спрос на природный газ и другие загрязняющие окружающую среду виды энергии.


## SUMMARY


Azerbaijan National Academy of Sciences, doctoral candidate of the division of Institute of History named after Abbasgulu Agha Bakikhanov Elvin Pashayev Nazim, elvinpashayev@gmail.com



Change in the policy of the United States of America in the field of energy and the place of solar energy in it

The article discusses policies applied by the US government in order to stimulate the development of technologies and growth of productivity in the field of solar power. As a result of those policies, estimated total value of the solar power plants has reached around $13,7 billion. In 2013, the solar power became the third major source of new electricity generation capacity in the US, accounting for 29%, after natural gas and thermal power station. In addition, due to the solar power, the US managed to decrease demand for natural gas and other sources of energy, which pollute the environment.

# Region

## CƏNUBİ QAFQAZ RUSİYA FEDERASİYASININ GEOSİYASİ MARAQLARINDA

LƏMAN QOCAYEVA
Azərbaycan Turizm və
Menecment Universiteti




Cənubi Qafqaz regionunun geosiyasi mövqeyi həm onun potensialına, həm də coğrafi mövqeyinə görə çox əhəmiyyətlidir. Başqa sözlə desək, Cənubi Qafqaz regionu “dünyanın dördyolu” rolunu oynayır. Cənubi Qafqazın Şimal ilə Cənub, Şərq ilə Qərb arasında dəhliz rolunda çıxış etməsi bunu söyləməyə əsas verir. Belə ki, Cənubi Qafqaz iki müxtəlif qitəni – Avropa və Asiyanı, iki müxtəlif qütbü birləşdirməklə yanaşı, iki müxtəlif sivilizasiyanı da bir-birinə qovuşduran bir regiondur.[1]

Şimaldan baxdıqda köhnə sovet imperiyasının ərazisi olmuş bu region SSRİ-nin süqutundan başlayaraq artıq 20 ildir ki, siyasi, iqtisadi, hərbi və ideoloji proseslərin, mübarizənin mərkəzidir.

Cənubdan baxdıqda isə Cənubi Qafqaz müasirləşməsi və yenidən qurulması hələ də tam mümkün olmayan, dünyanın əksər güclərinin müdaxilə etdiyi Yaxın Şərqə bitişikdir. Yaxın Şərq regionunun problemləri isə birbaşa Cənubi Qafqazdakı geosiyasi vəziyyətə təsir edən amildir. Həmçinin, Cənubi Qafqazdakı proseslər də öz növbəsində Cənub-Şərqi Avropa regionundakı proseslərə təsir edir.

Qafqaz öz coğrafi vəziyyətinə görə əzəldən önəmli strateji region sayılırdı. Sovet İttifaqının süqutundan sonra onun əhəmiyyəti daha da artmışdır. Regionun hazırda çox mühüm vəziyyəti, onun strateji önəmi və çəkisi bir sıra amillərdən asılıdır:

1. Strateji ehtiyatlar - Xəzər hövzəsinin zəngin neft və qaz sərvətləri bir çoxlarını cəlb edir, Qafqaz isə bu ehtiyatların enerjiyə ehtiyacı olan (xüsusilə Avropada yerləşən) bazarlara çatdırılması üçün ən qənaətbəxş və etibarlı dəhlizdir;

2. Regional qeyri-sabitlik - regionda silahlı münaqişələr və qeyri-sabitlik baş alıb gedir, bunların daha da artması və genişlənməsi ehtimalı vardır;

3. Mütəşəkkil cinayətkarlıq - geniş yayılmış yoxsulluq və yenicə müstəqil olmuş respublikaların institusional zəifliyi regionun müxtəlif cinayətkar ticarət fəaliyyətləri üçün tranzit dəhlizinə çevrilməsinə təkan vermişdir.

Bir faktı da qeyd etmək lazımdır ki, Cənubi Qafqaz regionu ölkələri uzun müddət SSRİ-nin tərkibində olmuş vahidlər kimi öz dövlətçilik xarakterinə görə də Qərbə öz cənub qardaşlarından daha yaxındırlar. Həmçinin, SSRİ-nin tərkibində olmaq faktları regionun bir xüsusiyyətinin də formalaşmasına səbəb olmuşdur. Belə ki, dini ideologiya, dini ekstremizm bu regionda o qədər də güclü deyil və bu xarakterinə görə bu region Avropa dəyərlərinə daha yaxındır.

Şərq-Qərb əlaqələri kontekstindən baxdıqda Cənubi Qafqaz yenə də diqqət mərkəzində dayanır. Belə bir fikir də söyləmək olar ki, Cənubi Qafqaz Aralıq dənizi, Qara dəniz və Xəzər dənizi regionunda





çox böyük geosiyasi əhəmiyyətə malik bir ərazidir. Aralıq dənizi-Qara dəniz-Xəzər dənizi xəttinin problemləri Cənubi Qafqaz, Mərkəzi Asiya, Balkanlar, həmçinin, Cənub-Şərqi Avropa dövlətlərinin iştirak etdikləri beynəlxalq konfranslarda dəfələrlə müzakirə edilmişdir.[2, s. 4-12].

Cənubi Qafqaz regionunun başqa bir geosiyasi əhəmiyyəti də qeyd olunmalıdır. SSRİ süquta uğradıqdan sonra Cənubi Qafqaz müxtəlif siyasi qüvvələrin və dövlətlərin rəqabət mərkəzinə çevrildi. SSRİ-nin dağılmasından dərhal sonra Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın təhlükəsizlik mühiti dəyişdi, bu mühitə təsir edən regional və beynəlxalq aktorlararası münasibətlər kəskinləşməyə başladı. Bölgənin böyük ölkələri (Rusiya, Türkiyə, İran), regiondan kənar aparıcı dövlətlər (ABŞ, Çin və s.), regionun kiçik ölkələri (Ukrayna, Azərbaycan, Gürcüstan, Orta Asiya ölkələri, Ermənistan və s.), transmilli geosiyasi, hərbi geostrateji və geoiqtisadi aktorlar (BMT, ATƏT, Avropa Birliyi, NATO, MDB, İƏT, TDB, nəhəng neft-qaz, nəqliyyat, rabitə şirkətləri və s.) arasında maraq dairələrinə uyğun yeni münasibətlər formalaşmağa başladı.[3, s.195-196]

H.Makinderin konsepsiyasına görə, Avrasiya materiki dünyanın mərkəzində yerləşir, Avrasiyanın mərkəzində isə "dünyanın ürəyi" və yaxud "Xeartlant" durur. Makinderin "Xeartlant" konsepsiyasına Şərqi və Mərkəzi Avropadan Qərbi Sibirə, Şimal Buzlu Okeandan Fars körfəzinə qədər ərazilər daxildir. Makinderə görə "dünyanın ürəyinə hakim olan dünya adasına sahib olur (Avrasiya), dünya adasına sahib olan isə bütün dünyaya sahib olur" [4, s.3]

Məhz bu Azərbaycan uğrunda gedən geosiyasi mübarizənin konturlarını cızmağa imkan verir.

Regionun dünya dövlətlərinin maraq dairəsində olması fikrimizə aşağıdakı amillərlə bağlıdır:

- Regionun coğrafi mövqeyi;
- Regionun hərbi-siyasi əhəmiyyəti;
- Regionun geoiqtisadi əhəmiyyəti;
- Regionun karbohidrogen ehtiyatları.

Məlum olduğu kimi, XIX əsrin əvvəllərindən etibarən Rusiya Xəzərin həm qərbində həm də şərqində dominat geosiyasi qüvvəyə çevrilmiş, İngiltərə və Fransa arxa plana keçmişdi. Bu dövrdə neftlə bağlı yeni bir aforizm də yaranmışdı. "Kim cahanın petrol mənbələrinə malik olursa, mütləq zəfər onundur". [5, s.8]

Bununla yanaşı, SSRİ-nin süqutundan sonra Xəzər dənizinin bölgüsü ilə bağlı əsaslı dəyişikliklər baş verdi. Müstəqil Azərbaycanın meydana çıxması, həmçinin Qazaxıstan və Türkmənistanın da müstəqillik əldə etməsi Rusiyanı beş Xəzərsahili dövlətdən birinə çevirdi. Geosiyasi vəziyyətin belə dəyişməsi ABŞ-ı da bu istiqamətdə öz geosiyasi xəttini yenidən işləməyə vadar etdi. ABŞ bu regionu öz həyati vacib maraqları zonasına daxil etmişdir. Məhz bununla əlaqədar, gürcü müəlliflərindən biri yazırdı ki, ABŞ-ın bu regionda hər hansı formada mövcudluğu isə Rusiyanın iqtisadi maraqlarına ziddir. [6]

Problemlə bağlı müasir tədqiqatları bir neçə qrupa bölmək olar ki, bunlara Qərb dövlətləri (Avropa və ABŞ) və Rusiyanın münasibəti daxildir.

Xəzər nefti ABŞ-ın İran körfəzi ölkələri və Rusiyaya münasibətdə manevr sahəsini genişləndirir, Cənubi Qafqaz, xüsusilə də Azərbaycanda "neft diplomatiyası" vasitəsilə möhkəmlənərək, ABŞ Rusiya və İrana təzyiq göstərmək imkanı əldə edir.

P.Qobl Qafqaz regionunda Azərbaycanın əhəmiyyətini xüsusi qeyd edərək göstərirdi: "Azərbaycan heç də Qərblə Orta Asiya arasında körpü deyil, həm də xammalla zəngin Şərqlə Rusiya arasında bir səddir." [7, s.82]

Baş vermiş dəyişikliklərə baxmayaraq Rusiya yenə də Qafqaza özünün ənənəvi geostrateji nüfuz dairəsi kimi baxır. Rusiya 1992-1999-cu illərdə postsovet məkanında, əsasən də Qafqazda özünün itirilmiş nüfuzunu bərpa etməyə cəhd edirdi.

Son zamanlar SSRİ-nin varisləri olan dövlətlərə qarşı Rusiya da yeni münasibət formalaşmağa başlayır ki, bu istiqamətdə başqa meyllər özünü göstərməyə başlayır. Fransa alimlərindən Paskal Yoko və Fransua Tual yazırlar: "...hazırda Rusiyanın yeni rəhbərliyi Qafqaz, Mərkəzi Asiya hətta Balkanlar istiqamətində xarici siyasət strategiyasında yenidən formalaşma prosesini həyata keçirir".[8, s.159]

Bu mənada ABŞ dəqiq anlam verdi ki, onlar Rusiyanın bütün postsovet məkanında mövcud olmuş böyüklüyünün bərpa olunmasına imkan verməyəcəklər. Hələ 1997-ci ildə Amerika analitikləri qeyd edirdilər ki, "əgər Xəzərətrafı ölkələrin Rusiyanı qurbanına çevrilmək təhlükəsi yaranarsa, buna ABŞ-ın reaksiyası olduğca kəskin olacaqdır…"[9, s.18]

Tarixdən də bildiyimiz kimi Rusiyanın bir dünya gücü olmağa başladığı illərdən bu yana xarici siyasətində Cənubi Qafqazın önəmi mövcud olmuşdur. Bunun əsas səbəbi isə Rusiyanın "isti dənizlərə" birbaşa çıxışı mövcud deyil. Belə ki, Rusiyanın isti dənizlərə çıxışı əsas olaraq üç ana istiqamətdədir. Bunlardan birincisi, Balkanlar yolu ilə İstanbul və boğazları əldə tutmaqla Egey və Aralıq dənizlərinə hakim olmaqdır. İkinci olaraq, Qafqaz bölgəsini ələ keçirməklə və keçid bölgəsi kimi istifadə etməklə Şərqi Anadolunu ələ keçirməklə Aralıq dənizinə enmə imkanını əldə etmək. Üçüncü olaraq isə yenə Qafqaz bölgəsini ələ keçirməklə İran üzərindən Hind okeanına çıxış imkanını əldə etməkdir. Cənubi Qafqaz Rusiya üçün həm Avropa ilə Orta Asiya arasında bir körpü, həm də Qara dəniz və Xəzər dənizinə çıxışa malik olmaqla vacib geosiyasi regiondur. Bundan başqa Cənubi Qafqazın Rusiya üçün iki fərqli xüsusiyyəti də vardır. Biri, Asiyadakı rəqibləri olan Türkiyə və İranla qovuşma nöqtəsi olması, digəri isə Qafqazın Orta Asiyanın qapısı rolunu oynamasıdır.

Bir çox tədqiqatçılar Rusiyanın bölgədəki mövqeyini və maraqlarını İran və Ermənistan ilə eyni blokda təsnif edərək, onları bölgənin əsas hərbi-geostrateji qruplaşmalarından birincisinə, ABŞ, Avropa Birliyi, NATO və onların bölgədəki tərəfdaşı kimi təqdim edilən Türkiyə, Azərbaycan, Gürcüstan və Ukraynanı isə ikinci hərbi-geostrateji qrupa aid edirlər.

Azərbaycan Rusiya ilə münasibətlərdə balansı qorumağa çalışır. Hərçənd ki, hər iki dövlət arasında bir neçə məsələlərdə fikir ayrılığı mövcuddur, Azərbaycanın ehtiyatlı xarici siyasəti bu münasibətlərin gərginləşməsinə imkan yaratmır. Rusiyanın Dağlıq Qarabağda erməni separatçılarına hərtərəfli dəstək verməsi təbii olaraq Azərbaycan tərəfindən yaxşı qarşılana bilməz, hətta müstəqilliyin ilk illərində Rusiyanın erməni separatçılarına hərtərəfli yardımı iki ölkə arasında münasibətlərin gərginləşməsinə gətirib çıxarmışdı. Azərbaycanın qərbmeyilli siyasəti, Rusiyanın enerji siyasətinə qarşı yönəlmiş regional layihələrdə iştirak etməsi, hərbi mütəxəssislərin MDB-yə alternativ olaraq qiymətləndirdikləri GUAM təşkilatını təsis edən dövlətlərdən biri olması Rusiyanın Dağlıq Qarabağ münaqişəsində tutduğu mövqedən asılıdır. Rusiya Azərbaycana qarşı əsasən Qarabağ kartından təzyiq vasitəsi kimi istifadə etmişdir. Bundan başqa talış və ləzgi məsələləri də Rusiyanın zamanla əl atdığı vasitələrdəndir. Gürcüstandan fərqli olaraq Azərbaycan bu təzyiq vasitələrinin qurbanına çevrilməmişdir. Belə ki, nə Rusiya təyyarələri, nə də dəniz qüvvələri Azərbaycanı heç bir formada təhdid etməmişdir.

Azərbaycanın regional təhlükəsizlik məsələsinə yanaşması birmənalıdır: Qafqaz regionunun müxtəlif güc blokları arasında bölünməsinin qarşısını almaq. Azərbaycan bu mövqeyini 1993-cü ildən başlayaraq həyata keçirmiş, bölgə ölkələrinin ərazisində xarici qoşunların və hərbi bazaların yerləşdirilməsinin, Qafqazın militaristləşdirilməsinin əleyhinə çıxış etmiş və öz mövqeyini 1999-cu ildə ATƏT-in İstanbul sammitində bəyan etmişdir. Tədbirdə iştirak edən ümummilli lider Heydər Əliyev regionda Təhlükəsizlik və Əməkdaşlıq paktının yaradılması təşəbbüsü ilə çıxış etmişdi. Bu təşəbbüsə görə, Təhlükəsizlik paktını Azərbaycan, Türkiyə, Gürcüstan, Ermənistan, Rusiya və ABŞ imzalamalı idi. Azərbaycanın bu təklifi Rusiya, Ermənistan və İranda müəyyən qədər narazılıqla qarşılandı. Regiondan kənar dövlət olan ABŞ-ın bölgədəki proseslərə müdaxiləsini yolverilməz hesab edən Rusiya və regional təhlükəsizlik sisteminin formalaşdırılmasından kənarda qalan İran bu təşəbbüsü birmənalı şəkildə qəbul etmədi. [10, s.22-25]

Azərbaycanın regional təhlükəsizliyə dair daha bir təşəbbüsü isə 2002-ci ildə diqqət mərkəzinə gəldi. Həmin ilin aprelində Türkiyənin Trabzon şəhərində Azərbaycan, Türkiyə və Gürcüstan arasında "Trabzon razılaşması" imzalandı. Regionun enerji təhlükəsizliyi və müstəqilliyini təmin etmək üçün üç ölkənin daxili işlər nazirlərinin imzaladığı bu sənəd terrorizm və aqressiv seperatizmə qarşı mübarizədən tutmuş, çirkli pulların yuyulması və neft-qaz borularının birgə mühafizəsinədək kifayət qədər geniş sahəni əhatə edirdi. Bu saziş həm də regionun üç dövlətinin strateji tərəfdaşlığını rəsmiləşdirən sənəd hesab olunur. Bundan əvvəl 1996-cı ildə Azərbaycan və Gürcüstan arasında "Trabzon razılaşması"na oxşar "Tbilisi bəyannaməsi" adlanan sənəd imzalanmış və bu sənəd bütün region ölkələrinin daxil olması üçün açıq elan edilmişdir. Lakin regionun heç də bütün dövlətləri, xüsusilə Rusiya və İran Azərbaycanın təklif etdiyi bu təhlükəsizlik mexanizmini qəbul etmədi. [11, s.3]

Qafqazın geosiyasi vəziyyəti, tarixi, milli və etnik tərkibi, həmçinin sovet mirası və digər səbəblər üzündən ona çox önəmli bir region kimi baxılır. Sovet İttifaqının dağılmasından sonra isə bu region böhran şəraitində yaşayır. Təhlükəsizlik regiona qonşu ölkələrin və böyük dövlətlərin əsas qayğısı olub və olmaqda davam edir. Buna nəzərən regionun təhlükəsizliyində maraqlı olan tərəflər bir sıra təhlükəsizlik modellərini irəli sürüblər:

Qafqaz modeli: Cənubi Qafqazın üç ölkəsi arasında təhlükəsizlik sahəsində əməkdaşlıq;

Bir tərəfdən üç Cənubi Qafqaz ölkəsi, digər tərəfdən isə Türkiyə və Rusiya arasında regional əməkdaşlıq çərçivəsi kimi Türkiyənin təklif etdiyi "3+2 sxemi";

Azərbaycanın təklifi olan "3+3+2 planı": üç Cənubi Qafqaz ölkəsi, qonşu dövlətlər (Rusiya, İran və Türkiyə), Avropa və ABŞ arasında əməkdaşlıq;

Rəsmi Moskva Cənubi Qafqazdakı prosesləri tarixi rəqibləri olan İran və Türkiyə, həmçinin yeni rəqibləri olan ABŞ və Aİ-nin iştirakı olmadan həll etmək iddiasında olduğundan regional problemləri "3+1" (3 Cənubi Qafqaz ölkəsi + Rusiya) formulu əsasında həll etməyə çalışır. "Qafqaz dördlüyü" adlandırılan bu format daxilində indiyədək prezidentlər, təhlükəsizlik şurası sədrləri, dini liderlər səviyyəsində müxtəlif görüşlər keçirilmişdir. Bu birlik hələ ki, yalnız məsləhətləşmələr formasında davam edir.

Artıq Rusiya (İran, Ermənistan) – ABŞ (Azərbaycan, Türkiyə, Gürcüstan) bloklaşması da proqnozlaşdırılır. Son illər Ukraynanın regiondakı proseslərə fəal müdaxilə etməsi isə Rusiya-İran-Ermənistan blokuna qarşı Qərbin dəstək verdiyi Türkiyə-Ukrayna-Azərbaycan-Gürcüstan blokunun formalaşmasını şərtləndirir.

Regional təhlükəsizlik mexanizminin tələbləri barədə regionda ümumi fikrin olmaması Ermənistan və Azərbaycan arasında Dağlıq Qarabağ ətrafında davam edən münaqişədə ən aşkar şəkildə özünü büruzə verir. Buna görə təhlükəsizlik və təhlükə mənbələri kimi anlamlar barədə ortaq regional anlayışın təşviqi üzərində ciddi iş aparılmalıdır. Bu cür ortaq anlayış regionun üç ölkəsi, həmçinin digər regional və regiondankənar nüfuzlu qüvvələrin birgə səyləri nəticəsində tədricən yarana bilər. Regionda davam edən çətinlikləri və münaqişələri nəzərə alsaq, regional təhlükəsizlik çərçivəsinin ("regional təhlükəsizlik icması"nın) regionun üç ölkəsi tərəfindən yaradılması inandırıcı deyildir.

Lakin Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın regional təhlükəsizlik mühitinə bilavasitə və ciddi təsir göstərən digər amillər də mövcuddur. Bu amillər öz milli təhlükəsizliyini təmin etmək məqsədilə həm NATO və Qərblə, həm də Rusiya və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) ilə müəyyən məsafə saxlayan, yuxarıda adıçəkilən bütün "təsir qüvvələri" ilə tərəfdaşlıq və əməkdaşlıq meyli nümayiş etdirən Azərbaycan, bölgədə Rusiyaya, dünya erməni diasporuna söykənərək Cənubi Qafqazda açıq işğalçılıq siyasəti yürüdən Ermənistan və son zamanlar birmənalı şəkildə üzünü Rusiyadan Qərbə və NATO-ya çevirmiş Gürcüstanla bağlıdır.

Cənubi Qafqazın və Xəzər-Qara dəniz hövzəsinin təhlükəsizlik mühitinin növbəti həlledici amili yuxarıda adı keçən təsir dairələri və hərbi-geostrateji blokların bir-biri ilə münasibətləri, ilk növbədə isə ABŞ-Rusiya, NATO-KTMT münasibətlərinin xarakteri ilə bağlıdır. Bu müstəvidə tərəflərin ortaya qoyduğu açıq və gizli hərbi-geostrateji maraqlarla yanaşı, həmin bloklarla birbaşa və açıq formada bağlı olan müəyyən ölkələrin yürütdüyü siyasət də həlledici rol oynayır. Bölgədə hər hansı bir ölkənin yürütdüyü istənilən hərbi-strateji siyasət, təhlükəsizliklə bağlı atdığı addım, yaxud nümayiş etdirdiyi geosiyasi mövqe dərhal qarşı tərəfin ciddi reaksiyasını doğurur.

Digər tərəfdən Xəzər dənizində mövcud olan neft Azərbaycanın Rusiya üçün nə qədər əhəmiyyətli olduğunu sübut etməkdədir.

Bildiyimiz kimi, Rusiya dünya neft məhsullarının 40% nə sahibdir və dünya ölkələrini özündən asılı vəziyyətdə saxlamaq istəməkdədir. Sovetlər Birliyinin dağılmasından sonra Azərbaycan xarici siyasətində dönüş nöqtəsi olaraq Qərb dövlətləri ilə birlikdə "Əsrin müqaviləsini" imzalamışdır. Bu müqavilənin imzalanmaması üçün Rusiya Azərbaycan təsir etmiş ancaq heç bir nəticə əldə etməmişdir. Rusiyanın əsas məqsədi isə Azərbaycan neftinin Qərb bazarına daşıyacaq olan boru xətlərinin Rusiya üzərindən keçməsidir.

Rusiya imperiya iddialarından əl çəkməsə də, artıq inkarolunmaz reallıqdır ki, Sovet İttifaqı dağılandan sonra əvvəlki geosiyasi mövqeyini itirmişdir. Artıq Rusiya Federasiyası əvvəlki kimi Baltik dənizində və Qara dənizdə, cənubi Qafqazda və Mərkəzi Asiyada hegemonluq edə bilmir. Akademik Ramiz Mehdiyev Xəzər hövzəsinin ümumən və Avrasiyanın ən iri regional dövləti olan Rusiya Federasiyasının energitika siyasətini təhlil edərkən üç başlıca yanaşmaya əsaslanmağı təklif edir:

Postimperiya yanaşma (1992-1995-ci illər). Burada əsas xüsusiyyətlərə Rusiya Federasiyasının regionda nüfuzunu qoruyub saxlamaq məqsədilə Xəzəryanı dövlətlərin öz karbohidrogen ehtiyatlarının işlənməsinə başlanmasına yol verməmək; regional problemlərin həllində gün metdolarına əsaslanmaq aid edilir.

Praqmatik yanaşma (1995-1997-ci illər). Bu yanaşma güc metodlarından imtina edilməsi, mübahisəli hüquqi məsələlərdə qonşu dövlətlərlə mövqelərin yaxınlaşdırılması, Xəzərdəki yataqların işlədilməsini ləngitmək cəhdlərinin dayandırılması ilə səciyyələnir. Bu dövrdə Rusiya Federasiyasının xarici siyasətinin məqsədi Xəzərin karbohidrogen məhsullarının dünya bazarına nəqli yollarını inhisara almaq, onların mümkün qədər ancaq Rusiya Federasiyası ərazisindən keçməsinə nail olmaq idi. Bu dövr Rusiya Federasiyasının neft şirkətlərinin Xəzərdəki layihələrində iştirakının genişlənməsi dövrü kimi qiymətləndirilir.

İnterqasiya yanaşması: Rusiya Federasiyasına V.Putinin hakmiyyətə gəlməsindən sonra Rusiya Federasiyası xarici siyasətinin mahiyyətini əks etdirir. İqtisadi cəhətdən daha məqsədəuyğun marşrutların xeyrinə Xəzər neftinin nəqli yollarının inhisara alınması cəhdindən imtina olunmasını, Xəzər dənizinin milli sektorlara bölünməsinin faktiki olaraq qəbul edilməsini nəzərdə tutur. Rusiya Federasiyasının bu sahədə dövlət siyasətinin əsas istiqamətlərinin müəyyənləşdirilməsində şirkətlərin mənafeyi üstünlük təşkil etməyə başlayır. Onların regionda iştirakı nəzərəçarpacaq dərəcədə güclənmişdir.

1993-cü ildə Gürcüstan öz ərazisində Rusiyaya məxsus dörd hərbi bazanın yaradılmasına icazə vermişdi. Bunun qarşılığında isə Rusiya Abxaziya və Cənubi Osetiya seperatçı qüvvələri ilə mübarizədə Tbilisini müdafiə etməli idi. Cənubi Osetiya və Abxaziya üzərində nəzarətin bərpa olunmasında göstərilən kömək 1993-cü ildə Gürcüstanın MDB və Kollektiv Təhlükəsizlik Müqaviləsinə üzv olmasının əsas səbəbi hesab olunur. Lakin 1999-cu ildə Gürcüstan Kollektiv Təhlükəsizlik Müqaviləsini tərk etdi və Rusiyanın hərbi bazalarının çıxarılması üçün tələbləri artırdı.

1999-cu ildə ATƏT-in İstanbul sammitində Rusiya və Gürcüstan arasında 2001-ci ilin ortalarınadək Rusiya hərbi bazalarının Vaziani və Qudautada fəaliyyətinin dayandırılması barədə razılıq əldə edildi. 2000-ci ildə digər iki hərbi bazanın fəaliyyəti barədə danışıqlar başlandı. Vaziani və Qudautada hərbi bazaların fəaliyyəti dayandırıldı. Qalan iki hərbi baza isə Axalkalaki və Batumidə yerləşirdi. Rusiya on bir il müddət istədi. 2005-ci ildə razılıq əldə olundu. Bu razılıq 2008-ci ilədək bazaların fəaliyyətinin dayandırılmasını və həmin vaxta qədər onların fəaliyyət istiqamətlərini nəzərdə tuturdu. Rusiya qoşunlarının çıxarılması prosesi Rusiya-Gürcüstan münasibətlərinin kəskinləşməsi ilə müşayiət olunurdu. Rusiya öz qoşunlarının çıxarılması prosesini vaxtından əvvəl- 2007-ci il noyabrın 15-dək başa çatdırdı. Bundan sonra Gürcüstan ərazisində yalnız Cənubi Osetiya və Abxaziyada sülhməramlı qüvvələrin tərkibində rus hərbi hissələri qaldı.

Gürcüstanın qərbpərəst siyasətinin qarşısını almaq üçün Rusiya hər vasitəyə əl atır. Bu vasitələrdən biri olaraq, 1999-cu ilin qışında Rusiya heç bir səbəb göstərmədən Gürcüstana verilən qazı kəsmiş, 2001-ci ildə Gürcüstana qarşı birtərəfli viza rejimi tətbiq etməyə başlamışdır. 2002-2003-cü illərdə Gürcüstana nəql edilən qaz kəmərində baş verən partlayış Gürcüstan tərəfindən sabotaj kimi dəyərləndirilmiş və Rusiyanın maraqlarına xidmət edildiyi vurğulanmışdır. 2005-ci ildə Rusiyanın Gazprom şirkəti Gürcüstana satdığı qazın qiymətini 63 dollardan 110 dollara qaldırmış və ölkəni maliyyə cəhətdən çətin vəziyyətə salmışdır.

Gürcüstan tərəfinin iddialarına görə 2002-ci ildə Rusiya qırıcı təyyarələri Gürcüstan ərazilərini bombalamışdır. 2007-ci ildə Qara dənizdə Rusiyanın hərbi dəniz qüvvələri hərbi təlimlər keçirərək Gürcüstana göz dağı göstərməkdən çəkinməmişdir. 2008-ci ildə Gürcüstana məxsus pilotsuz kəşfiyyatçı təyyarənin Abxaziya ərazisində vurulması gərginliyi daha da artıraraq qarşılıqlı ittihamları intensivləşdirmiş, hərbi toqquşma ehtimalını artırmışdı.

Cənubi Osetiya və Abxaziya məsələləri Gürcüstanın milli təhlükəsizliyinin əsas problemi olaraq qalmaqdadır. Gürcüstandan ayrılmaq üçün mübarizə aparan Cənubi Osetiya və Abxaziya üsyançı qüvvələri ilə Tbilisi hərbi qüvvələri arasındakı genişmiqyaslı hərbi münaqişə 1990-cı illərdə sülhməramlı strukturların yaradılması və atəşkəs haqqında sazişlə başa çatdı. Bu məsələdə rusiyalı diplomat və hərbçilər fəal iştirak etmişdilər. 1992-ci ilin yayında Rusiya ilə Gürcüstan arasında Cənubi Osetiya münaqişəsinin nizamlanmasına dair Daqomys sazişi imzalandı. Bu saziş Gürcüstan, Cənubi Osetiya, Rusiya və Şimali Osetiyanın iştirakı ilə xüsusi orqanın- Birgə Nəzarət Komissiyasının yaradılmasını nəzərdə tuturdu. Öz müstəqilliyini bəyan edən əks qüvvələrin məhv edilməsi üçün Qarşılıqlı Sülhməramlı Qüvvələrin yaradılması haqqında təklif irəli sürüldü. Bu qüvvələrin tərkibinə hər biri 50 nəfərdən ibarət olmaqla rus, gürcü və osetin hərbi hissələri daxil edildi. Tərəflər arasındakı razılığa əsasən Rusiya silahlı qüvvələrinin nümayəndəsi sülhməramlı qüvvələrə rəhbərlik etməyə başladı. Sxinvaliyə isə ATƏT-in müşahidə missiyası göndərildi. 1993-cü ildə Abxaziyada atəşkəs əldə edildən sonra MDB Tbilisinin razılığı ilə bu qondarma qurumun Kollektiv Sülhməramlı Qüvvələrin təhlükəsizlik zonasına daxil edilməsi haqqında qərar qəbul etdi. Reallıqda isə burada yalnız Rusiya hərbi qüvvələri iştirak edirdi. Abxaziyada həmçinin BMT müşahidəçi missiyası da yerləşdirildi. Qeyd edilməlidir ki, beynəlxalq təşkilatlar, o cümlədən BMT münaqişələrin həllinin və Rusiya sülhməramlılarının statusunun bu qaydada müəyyənləşdirilməsinin hüquqiliyini qəbul etmişdir.

Gürcüstan tərəfi mütəmadi olaraq Rusiya sülhməramlılarını seperatçılara dəstək verməkdə təqsirləndirirdi. Lakin hər dəfə onların xidmət müddətinin uzadılması haqqında məsələ gündəmə gəldikdə Gürcüstan mandatın uzadılması ilə razılaşırdı. Nə BMT, nə də ATƏT ərazidəki sülhməramlı qüvvələrinin geri çağrılmasına hazırlıq barədə məlumat verməmişdilər. Bundan əlavə, Abxaziya və Cənubi Osetiya liderləri də mövcud sülhməramlı rejimin dəyişdirilməsinə razılıq verməmişdilər. Başqaları ilə əvəz olunmadan Rusiya sülhməramlılarının fəaliyyətinin dayandırılması münaqişənin alovlanmasına gətirib çıxara bilərdi.

Abxaziya və Cənubi Osetiya ətrafında gərginliyin artması Prezident M. Şaakaşvilinin rəhbərliyinin elan olunması, Gürcüstanın ərazi bütövlüyünün bərpası və hərbi sahədə aktiv siyasi kursun həyata keçirilməsinə təsadüf edir. 2004-cü ildə gürcü qoşunları Sxinvali ətrafında strateji yüksəkliklərdə nəzarəti bərpa etməyə çalışsa da, ziyana uğradığı üçün geri çəkilməyə məcbur oldu. 2006-cı ildə gürcü hərbi qüvvələri Abxaziyanın iddia etdiyi Kodori dərəsinin ucqar ərazilərinə yeridildi. Həmin il Gürcüstan Cənubi Osetiya üzərində nəzarəti təmin etmək üçün daha bir cəhd etdi. Sxinvali ətrafındakı strateji yüksəkliklərin tutulması və Cənubi Osetiya ilə Rusiyanı birləşdirən Roki tunelində hərəkətin məhdudlaşdırılması əməliyyatları planlaşdırılsa da, bu əməliyyatlar uğursuzluğa düçar oldu.

Gürcüstanla bağlı qeyd etmək lazımdır ki, 8 avqust 2008-ci ildə gürcü qoşunları öz ərazi bütövlüyünü bərpa etmək üçün separatçı Cənubi Osetiyanın paytaxtı Sxinvali şəhərinə hücum etdi. Qısa müddət ərzində Sxinvali şəhərini ələ keçirən gürcü ordusu tezliklə kapitulasiya haqqında müqavilənin imzalanacağına ümid etdiyi vaxt Rusiya tərəfi Gürcüstanı işğalçılıqda günahlandırdı. Müharibədən sonra regionda yeni güc balansının formalaşması Rus-Gürcü müharibəsi regiondakı güc balansının bir daha Rusiyanın tərəfində olduğunu göstərdi. Müharibənin başladığı ərəfədə Rusiyanın Gürcüstana ordu göndərməsinə etiraz bildirən ABŞ və Avropa Birliyi nəticədə bu ölkəyə qarşı konkret addımlar atmaqdan çəkindilər. İstər ABŞ, istərsə də Avropa İttifaqının yalnız atəşkəsin imzalanmasına nail olmağa gücü çatdı.

Bütün bu proseslər onu göstərdi ki, Cənubi Qafqazda 90-cı illərdə formalaşmış güc balansı hələ də öz aktuallığını saxlamaqdadır. Bu balansa əsasən bölgə Rusiyanın maraq dairəsində olmaqla yanaşı, qərbin də bu bölgədə enerji maraqları mövcuddur və Rusiya bu maraqları qəbul edir və hörmətlə yanaşır. [12, s.45-53] Bununla belə, Rusiya Federasiyası bu ərazilərdə itirdiyi mövqelərini bərpa etmək üçün ənənəvi siyasətini də inadla davam etdirir

Bu istiqamətdə Rusiya əsas istinadı Ermənistana edir.Yaranmış vəziyyətdə ortaya belə bir sual çıxır, Rusiyanın yardımı ilə Ermənistan Respublikası kimə qarşı silahlanır? Nə təbii, nə də insan ehtiyatlarına malik olmayan Ermənistan bu regionda başqasının iradəsini yerinə yetirmək rolu oynayır. İndi Rusiya Ermənistana 50-ci illərdə Amerikanın İsrailə baxdığı kimi baxır. Ermənistanın ikinci vasitəsi – bu ümumi dövlət, ümummilli terrorizimdir. İndi erməni terrorçuları dünyanın bütün terror mərkəzlərində təlim keçirlər.

Erməni terrorizmi – bu siyasi məqsədə nail olmaq üçün dövlət separatizmidir. Bu öz əksini Qarabağdan başlayaraq Abxaziyada, Cənubi Osetiyada, Çeçenistanda, Serbiyada, Kosovada, Makedoniya və b. yerlərdə tapırdı.ion

Cənubi Qafqaz Rusiyanın “xüsusi maraqları və təsir dairəsi” zonası olaraq qalmaqdadır. Antiterror kompaniyasında fəal iştirak edən Azərbaycan rəhbərliyi öz xarici siyasət fəaliyyətində Rusiyaya və Qərbə münasibətdə balanslaşdırılmış siyasi xətt yeritməli, Rusiya – İran və İran – Ermənistan yaxınlaşmasına imkan verməməli, ABŞ və Avropa ölkələrini Rusiyaya alternativ kimi qoyulmalı və bunların arasındakı ziddiyyətlərdən istifadə etməli, Rusiya ilə siyasi, iqtisadi və mədəni əlaqələri dinamik şəkildə inkişaf etdirməlidir. [13]

Yekun olaraq qeyd etmək lazımdır ki, Qafqazda bütün tərəfləri birləşdirən kollektiv, birgə təhlükəsizlik anlaşmasının yaradılması mahiyyətinə görə ləng, tədrici bir prosesdir. Bunun üçün addımbaaddım yanaşma, eləcə də region daxilində, onun qonşuluğunda və kənarında yerləşən bütün tərəflərin konkret müsbət, fəal siyasətləri və fəaliyyətləri tələb olunur. Regiondakı ümumi siyasi və psixoloji əhvali-ruhiyyənin hərbi vasitələrdən siyasi, diplomatik vasitələrə və yollara, qarşıdurmadan əməkdaşlığa dəyişməsi hələ ilkin mərhələdədir və bütün maraqlı tərəflər onu siyasi, iqtisadi və təhlükəsizlik sahələrində dəstəkləməlidirlər.

## ƏDƏBİYYAT


1. *http://newtimes.az/az/experts/344/#.UVk4JBdnqnI*
2. *Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin aylıq nəşri 2010№ 3 s.4-12*
3. *Ə.M.Həsənov. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı, 2011, 440 səh. s. 195-196*
4. *Croissant M. and Bulent A. “Oil and Geopolitics in the Caspian Sea Region” London – 1999. c.3.*
5. *Mehdizadə M. “Beynəlmiləl siyasətdə petrol” B., 1994. s.8.*
6. *Кавторадзе С.Д. Этнополитические конфликты на постсоветском пространстве, М. : Экзамен, 2005.*
7. *H.Hüseynova, “Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində”, Bakı-1998, səh.82*
8. *P/Loro/ F.Tual. Geopolitika.Paris 1997 Baki 2001.c.159*
9. *Аббасбейли А., А.Гасанов. Азербайджан в системе международных и региональных организаций.Б.1999, с.181*
10. *SAM dərgisi, oktyabr-dekabr, 2010-cu il, s.22-25*
11. *“Həftə-İçi” qəzeti, 10 fevral 2007-ci il.s.3*
12. *Journal of Qafqaz University. Number 29, 2010 s.45-53*
13. *Bakı Universitetinin Xəbərləri. №1, 2008. s.165-167*


***Açar Sözlər:*** *Cənubi Qafqaz, Rusiya Federasiyası, geosiyasət, enerji təhlükəsizliyi, terror*

***Key Words:*** *South Caucasus, Russian Federation, geopolitics, energy security, terrorism*

***Ключевые Слова:*** *Южный Кавказ, Российская Федерации, геополитика, энергетическая безопасность, терроризм*

## SUMMARY

In the article analysis the geopolitical interests of the world's leading countries in the Caspian basin and in the South Caucasus, and according to their geopolitical policy, current and future economic development of the Republic of Azerbaijan is examined. In addition, the basis of state policy ensuring national interests of Azerbaijan, the role of the explotation, and supplying Caspian energy resources to the world markets is explained.

## РЕЗЮМЕ

В статье исследуются вопросы настоящего и будущего экономического развития Азербайджанской Республики на фоне геоэкономических интересов и геополитики, осуществляемой со стороны ведущих государств мира.

Наряду с этим, осуществляется толкование основ государственной политики по обеспечению национальных интересов Азербайджана и исследуется роль эксплуатации энергетических ресурсов Каспия и их транспортировки на мировые рынки. В то же время анализируются геоэкономические отношения Азербайджана с основными центрами силы в регионе и в мире, связанные с формированием и обеспечением безопасности транспортно-коммуникационных коридоров Восток-Запад и Север-Юг.

# Tarixşünaslıq

## XX ƏSRIN OĞUZ DASTANI, "TOPXANA HARAYI"

(17 NOYABR-5 DEKABR 1988)

MƏHƏRRƏM ZÜLFÜQARLI
Tarix elmləri namizədi, dosent



XX-əsrin 80-ci illərinin ikinci yarısı keçmiş sovet məkanında millətlərarası münaqişələrin günü-gündən güclənməsi ilə müşahidə olunmuşdur. SSRİ-nin dağılması prosesində əsas amillərdən biri olan millətlərarası münaqişələr Alma-Atada (17-18 dekabr 1986-cı il), Frunzedə (fevral 1987-ci il), Tallin və Vilnüsdə (23 avqust 1987-ci il), Vıru və Tartuda (21 oktyabr 1987-ci il), Tbilisidə (9 aprel 1989-cu il), Özbəkstanın Fərqanə vilayətində (3-4 iyun 1989-cu il), Qazaxstanın Novıy Uzen şəhərində (17 iyun 1989-cu il), Tacikistanın İsfaran rayonunda (13 iyun 1989-cu il), Suxumidə (15-16 iyul 1989-cu il), Kişinyovda (7-10 noyabr 1989-cu il) və digər ərazilərdə baş vermişdir.

Millətlərarası münaqişələrin qızışdırılmasında maraqlı olan qüvvələr SSRİ-nin müxtəlif ərazilərində ekspremenlər keçirərək məkrli niyyətinin həyata keçirmək üçün Azərbaycanın Dağlıq Qarabağ ərazisini SSRİ-nin digər ərazilərindən daha münasib ərazi olduğu qənaətinə gəldilər. Bundan sonra Moskavadakı havadarlarının köməkliyi ilə erməni separatçıları vasitəsilə 1988-cı ilin fevralından başlayaraq Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağa qarşı təxribatlara başladılar.

Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) Soveti deputatlarının 20 fevral 1988-ci il tarixdə DQMV-nin Azərbaycan SSR-in tərkibindən çıxaraq Ermənistan SSR-in tərkibinə birləşməsi haqqında müraciət qəbul etməsi ilə XX əsrin əvvəllərindən qızışdırılan erməni-müsəlman, erməni-türk münaqişəsinin yeni mərhələsinin əsası qoyuldu. Bu qərardan sonra Ermənistan SSR və DQMV-də "Kurunk" və "Qarabağ" komitələrinin təşkil etdiyi mitinq, nümayiş və tətillər vasitəsilə dövlət orqanlarına təzyiq göstərilməyə, mərkəzdəki havadarların köməkliyi ilə separatçı planların tezliklə həyata keçirilməsinə cəhdlər edilməyə başlandı. Rusiya və digər böyük dövlətlərin yaxından köməkliyi ilə Azərbaycan torpaqlarına qarşı planlı surətdə növbəti erməni fitnəkarlığı həyata keçirilməyə başlayarkən, Dağlıq Qarabağ separatçılarının vəhşiliklərinə etiraz olaraq, Azərbaycanda ilk dəfə tələbələrin 1988-ci il 19 fevral mitinqi keçirildi. Azərbaycan Dövlət Universiteti, Politexnik və İnşaat Mühəndisləri İnstitutu tələbələrinin kommunist rejimi dövründə görünməmiş 3-4 minlik izdihamı "Azadlıq" meydanından Azərbaycan KP MK-nın qarşısına kimi daha da genişlənərək 10-15 min adamın iştirak etdiyi böyük mitinqə çevrildi.

Azərbaycan rəhbərliyinin göstərişi ilə müxtəlif əmək kollektivlərinin, “Qayğı”, “Vətən”, “Qarabağa Xalq Yardımı Komitəsi” və s. təşkilatların SSRİ xalq deputatlarına, SSRİ prezidenti M.S.Qarbaçova müraciətləri [11;13] təşkil olunsa da bunaların heç bir müsbət nəticəsi olmadı və vəziyyət gərginləşməkdə davam etdi.

Bakı Dövlət Univetsiteti kollektivinin Azərbaycan xalqına müraciəti digər müraciətlərdən konkret səmərəli təkliflərlə fərqlənsə də rəhbərlik bu müraciətə də digərləri kimi etinasız yanaşdı. Müraciətdə deyilirdi:“Uzun illər respublikada Qarabağ və sərhəd rayonlarının tarixinin öyrənilməsinə məsuliyyətsiz münasibət bəslənilməsi erməni ekstremistlərinin Dağlıq Qarabağ ətrafında süni problem yaratmalarında az rol oynamamışdır... Bakı Dövlət Universiteti bu işdə öz məsuliyyətini dərk edərək tarix fakultəsində “Qarabağ” adlı elmi-tədqiqat qrupu yaratmaq təşəbbüsü ilə çıxış edir və respublika hökümətini, ilk növbədə Xalq Təhsil Nazirliyini həmin qrupun fəaliyyətə başlaması üçün təsirli tədbirlər görməyə çağırır.”[5]

Moskvadan asılı olan respublika rəhbərliyi və onların xəttini müdafiə edən tarixçilərdən fərqli olaraq bu dövrdə S.Əliyarovun, V.Vahabzadənin, İ.Andronovun, G.Quluşkovun və başqalarının Azərbaycan mətbuatında, A.Buşev, S.Romanyuk, A.Vasilkov, G.Ovçarenkonun mərkəzi mətbuatda hadisələrin qarşısını almağa kömək edən obyektiv məqalələri [5; 6 №2, 1988, s.187-190, №9, 1988,s.176-188, №1,1989, s.181-189, №5, 1990,s.163-171; 7, 26iyul 1988; 8, 26 noyabr 1988, 22 sentyabr 1989; 9, 25 mart, 18 noyabr 1988, 18 avqust 1989, 22 sentyabr 1989, 23 fevral 1990; 11, 22 mart, 23 iyul, 11 noyabr 1988, 18 yanvar 1989; 16, 9 avqust 1989, 12 yanvar 1990; 17, 4 aprel 1988 ] çap olunub.

Dağlıq Qarabağ probleminə aid məqalələrlə yanaşı İ.Əliyev[2], Y.Mahmudov[3], K.Şükürov[3], Z.Sultanov[4], S.Babayev[1], R.Arakelov[14], Y.Pompeyev[15] və başqa müəlliflərin çap olunmuş kitabları obyektivliyinə görə diqqəti cəlb edir.

Robert Arakelovun rus dilində nəşr olunmuş “Faciənin müqəssirləri məlumdur” adlı kitabında [14] hadisələrə obyektiv münasibət özünü göstərir. Müəllif erməni millətinə mənsub olmasına baxmayaraq ermənilər tərəfindən təşkil olunmuş “Qarabağ hərəkatı”nın fəaliyyətini beynəlxalq hüquqa və ölkələrin konstitusiyasına zidd, avantürist bir hərəkət adlandıraraq qonşu azərbaycanlılara qarşı düşmənçilik toxumu səpən Z.Balayanın, S.Xanzidyanın, L.Arutunyanın pis əməllərini kəskin tənqid etmişdi. Müəllif həmçinin Ermənistandan azərbaycanlıların zorakılıqla qovularaq monoetnik dövlət yaradılması fikrini və bu prosesin başlanğıcında Qukar rayonunda 100-dən artıq azərbaycanlının vəhşicəsinə qətlə yetirilməsini xəstə təxəyyülün məhsulu, dəhşətli cinayət hesab etmişdi.

Y.Pompeyevin rus dilində nəşr olunmuş “Qarabağ qan girdabında” kitabında [15] Dağlıq Qarabağ probleminin əsas səbəbləri göstərilib və erməni terrorçuluğu tarixi faktlarla ifşa edilib.

Müəllif kitabda SSRİ ərazisində milli münaqişə ocaqlarının



yaranacağı haqqında qərb siyasətçilərinin proqnozları haqqında da məlumat verib. ABŞ prezidentinin köməkçisi Zbiqnev Bjezinski “Vaşinqton tayms” qəzetinə müsahibəsində demişdi: “Yaxın 20-30 il dünyada milli və etnik münaqişələrin mərkəzi Sovet İttifaqı olacaq. Millətçilik orada canlı dinamik qüvvəyə çevriləcəkdir. Sovetlər öz millətlərinin problemlərini nəzarət altına ala bilməyəcəklər. Onların sistemi öldürücü böhran qarşısındadır.” [15,s.13]

Kitabda erməni terroçululuğunun qanlı cinayətləri haqqında da çoxlu sayda məlumat var. Müəllif “Yeni Ermənistan” partiyasının terrorçu üzvlərinin 1977-ci ilin yanvarında Moskva metrosunda onlarla adamın ölümü ilə nəticələnən partlayış törətmələrini, erməni diasporunun terrorçu dəstəsinin 1991-ci ilin sentyabrında Paris şəhərinin Usman məhəlləsində 60 nəfəri girov götürməsini, ASALA (“Erməni gizli azadlıq ordusu” adlı terror təşkilatı) üzvlərinin 1991-ci ilin dekabrında Budapeştdə Türkiyənin səfiri Bədrəddin Tunabaşa sui-qəsd təşkil etməsini və digər faktları qeyd edərək erməni terrorizminin köklərini açıb göstərib. Müəllif Sumqayıt hadisəsinin də səbəblərini beynəlxalq aləmlə və erməni terrorizmi ilə əlaqələndirərək bu hadisədən sonra Ermənistanda tarixən azərbaycanlıların yaşadığı və DQMV ərazisindən 2 dəfə artıq olan 8 min kv. km ərazini əhatə edən 172 kənddən 200 minə qədər əhalinin vəhşicəsinə qovulmasını, bu qanlı cinayət zamanı 216 nəfərin, o cümlədən 57 qadının, 5 südəmər körpənin, 18 müxtəlif yaşlı uşağın qətlə yetirilməsini faktlarla göstərib. [15,s.103]

Kitabda hadisələrin baş verməsində öz qızışdırıcı fəaliyyəti ilə mühüm rol oynamış Sov.İKP MK-nın Baş Katibi M.S.Qorbaçovun məsləhətçisi A.Aqanbekyanın 1987-ci ilin noyabrında Fransanın “Humanite” qəzetinə verdiyi müsahibəsi dərc olunub. Həmin müsahibədə A.Aqanbekyan Qarabağ haqqında verilmiş suala cavab olaraq demişdir: “Bir iqtisadçı kimi mən belə hesab edirəm ki, Qarabağ Azərbaycana nisbətən Ermənistanla daha artıq bağlıdır.” Halbuki həmin dövrdə DQMV xarici mal dövriyyəsində Ermənistanın payı cəmi 1,5 faiz idi. [15,s.18]

Hadisələrin sonrakı inkişafı göstərdi ki, erməni separatçılarının 1988-ci ilin əvvəllərində fəallaşması məhz Moskvadakı bu cür havadarların himayəsi nəticəsində mümkün



olmuşdu.

Ermənilərin gündən-günə azğınlaşmasına etiraz olaraq 1988-ci ilin 16 martında Elmlər Akademiyasının qarşısında, 1988-ci ilin 16 mayında isə Azadlıq meydanında mitinqlər keçirildi. Mərkəzi hakimiyyətin 18 iyul qərarından sonra mərkəzi və yerli hökumətin məsuliyyətsizliyi, Ermənistandan azərbaycanlıların vəhşiliklə qovulmasının kütləvi hal alması xalqın səbr kasasını daşdıraraq, qərb mətbuatının "XX əsrin oğuz dastanı" adlandırdığı meydan hərəkatının (17 noyabr-5 dekabr 1988) başlanmasına gətirib çıxardı. Tarixçilər Azərbaycan tarixinin şanlı səhifələrindən olan "Meydan hərəkatına" aid ayrıca məqalələr həsr ediblər.[12]

Çağdaş Azərbaycan tarixinin şanlı səhifələrindən birini təşkil edən, 18 gün sovet imperiyasına qarşı geniş vüsət almış meydan hərəkatı 70 illik bir rejimin zaman-zaman toplanmış problemləri nəticəsində baş versə də, bunun üçün səbr kasasının daşdıran son damla Topxana meşəsində ermənilərin törətdiyi təxribat olmuşdur.

Topxanada baş verənlər barədə "Topxana harayı" adlı məqalədə [5,

7 aprel 1990-cı il] məlumat verilsə də fikrimizcə bu hadisələrin tam mahiyyətini əks etdirmir. Çox təəssüf ki, Topxanadan sonra baş vermiş yeni erməni təxribatları bu hadisəni bir qədər kölgədə qalmasına səbəb olub.

"Topxanada 16 il əvvəl nə baş vermişdi?" adlı məqalədə [10, 04 noyabr 2004-cü il] hadisə barədə geniş məlumat verilir. Məqalədə qeyd olunur ki, Azərbaycanın ərazilərinə erməni təcavüzünün başlanğıcı hesab olunan Topxana hadisəsi aşağıdakı senari əsasında baş verib: "SSRİ Əlvan Metallurgiya Nazirliyinin Ermənistan SSR-də yerləşən Kanaker alüminium zavodunun direktoru R.N.Enqonyan DQMV XDS İcraiyyə Komitəsinin sədri S.A.Babayana xalq təsərüffatı məhsulları istehsal edən kooperativin yaradılması üçün Əsgəran rayonunun Engels adına kolxozun ərazisində 10 hektar torpaq ayrılması üçün 31 avqust 1988-ci il tarixli 006-3186 saylı məktubla müraciət edib. Məktubda Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin aqrar-sənaye kompleksində istehsal sahələrinin inkişafı haqqında 22 noyabr 1987-ci il tarixli qərarı əsas kimi göstərilib. Bu müraciətin qeyri-qanuniliyi və təhlükəliyi onda idi ki, Ermənistanın hər hansı bir zavodu kooperativ yaratmaq üçün öz ərazisindən deyil, Azərbaycan ərazisindən torpaq ayrılmasını istəyirdi. Bu açıq, aydın SSRİ-nin o zamankı böhranlı vəziyyətindən sui-istifadə edilərək Azərbaycan ərazisinin zəbt olunmasına cəhddən başqa bir şey deyildi. Bu müraciət DQMV Sovetinin deputatlarının 20 fevral 1988-ci il tarixdə DQMV-nin Azərbaycan SSR-in tərkibindən çıxaraq Ermənistan SSR-in tərkibinə birləşməsi haqqında müraciətindən sonra ermənilərin növbəti təxribatı idi. Topxanaya qarşı ermənilərin qəsdi münaqişənin yeni mərhələsinin əsası qoydu. Bu kimi təxribatların həyata keçirilməsi üçün Ermənistan SSR və DQMV-də "Kurunk" və "Qarabağ" komitələri mitinq, nümayiş və tətillər həyata keçirir, dövlət orqanlarına təzyiq göstərirdilər. Bu zaman onlar mərkəzdəki havadarların köməkliyi ilə separatçı planların həyata keçirilməsinə cəhdləri daha da artırırdılar.

Ermənilər tikinti işlərini başlamaqla həm Azərbaycan torpağını zəbt etmək, həm də Azərbaycanın təbiətinə, konkret desək Topxana meşəsinə ekoloji cəhətdən ziyan vurmaq məqsədi güdür və bunula da ziddiyyətləri kəskinləşdirmək istəyirdilər.

S.A.Babayan 1988-ci il sentyabrın 3-də həmin məktubun üstünə tikinti və arxitektura şöbəsinin müdiri V.Q.Osipyana ünvanlanmış aşağıdakı dərkənarı qoymuşdu: "Xahiş edirəm, məcburi surətdə yer ayırın. Məsələ razılaşdırılıb."

Burada haqlı olaraq belə bir sual meydana çıxır. Görəsən S.A.Babayan Azərbaycan torpağının Ermənistana vermək üçün məsələni kiminlə razılaşdırıb? SSRİ qanunlarına görə bu məsələ SSRİ və Azərbaycan rəhbərliyi ilə razılaşdırılmalı idi. Lakin sənədlərdə onun bu məsələni kimlə razılışdırdığı göstərilmir. Ola bilsin ki, bu qeyri-qanuni addımı atmaq üçün ermənilərin

Moskvadakı havadarları ilə şifahi razılaşmaları olub. Lakin bunun heç bir hüquqi əsası olmadığına görə ermənilərin bu hərəkəti o zaman vəzifə səlahiyyətini aşmaq, özbaşınalıq, azığınlıq kimi qiymətləndirilməli idi.

V.Q.Osipyan isə torpaq ayrılması ilə bağlı 16 sentyabr 1988-ci ildə 01-66 nömrəli məktubla Əsgəran Rayon XDS İK-nin sədrini əvəz edən V.Köçəryana müraciət edib. Nəhayət torpaq sahəsinin ayrılması ilə bağlı A.Ağababyan və A.Əsriyanın imzası ilə 28 oktyabr 1988-ci il tarixində 32/212 saylı qərar qəbul olunub. Qərarda Topxananın adı dəyişdirilərək Xaçentapa kimi göstərilib. Topxananın adının Xaçentapa kimi göstərilməsinin düzgünlyünü sübut etmək üçün Ermənistan KP MK-nın orqanı olan "Kommunist" qəzetinin 4 dekabr 1988-ci il tarixli sayında rus dilində "Topxana yoxsa Xaçen-tapa?" adlı məqalə də çap olunub. Sonradan ermənilər Xaçınçay, Xaçbulaq və digər adlar kimi Xaçentəpənin də azərbaycan adı olduğunu görərək Topxananın adını ikinci dəfə dəyişişərək "Tsaxkasar" qoyublar. Bundan sonra A.Ağababyanın sərəncamı ilə işi sürətləndirmək üçün xüsusi komissiya yaradılıb.

Təsdiqlənmiş tikintinin baş planına görə ermənilər yeni qəsəbə salmaq üçün işləri Cıdır düzündən yaxşı görünən 3, 4 və 5-ci sahələrdə başlayaraq Xankəndi istiqamətində deyil, Şuşa tərəfə genişləndirilməyi nəzərdə tuturdular. Deməli bu planda qeyd olunduğu kimi ermənilər bu ərazidə kiçik müəssisə deyil, böyük şəhər salmağı planlaşdırırdılar ki, bu da haqlı olaraq azərbaycanlıların narazılığına səbəb oldu.

Bu məsələ ilə əlaqədar ilk dəfə Azərbaycan Dövlət Təbiəti Mühafizə Komitəsi həyacan təbili çalaraq 16 noyabr 1988-ci il tarixdə SSRİ və Ermənistan SSR rəsmilərinə tikintinin qanunsuz olduğunu və təbiətə böyük ziyan vuracağı haqda etiraz teleqramları göndərdi.

Bu hadisədə xəbər tutan Azərbaycan xalqı Bakının Azadlıq meydanına toplaşaraq respublika rəhbərliyindən iki gün ərzində bu təxribata son qoymağı tələb etdi və bununla da Azərbaycan tarixinə "Milli dirçəliş günü" kimi daxil olan meydan hərəkatı başlandı.

Faktlar göstərir ki, ermənilər Topxana meşəsinə əvvəlki illərdə də böyük ziyanlar vurublar. Azərbaycan SSR Nazirlə Sovetinin 01 fevral 1982-ci il tarixli 56 saylı qərarı ilə qırılan ağacların cərimə qiymətləri təsdiqlənsə də bu qərar kağız üzərində qalıb. Bundan başqa həmin qərarda 450 hektar qoruğun və Daşaltı dövlət yasaqlığının yaradılması nəzərdə tutulmasına baxmayaraq həyata keçirilməyib.

Hadisələrin başlanğıcında Azərbaycan SSR Mənzil Tikintisi və Sosial Bankında Topxana üçün 700075 saylı hesaba küllü miqdar pul yığılsa da demək olar ki, problemin həlli üçün heç bir əməli tədbirlər görülmədi.

Azərbaycanın o zamankı rəhbərləri hadisələrin arxasınca sürünərək Toxanada erməni təxribatını aradan qaldırmaq əvəzinə xalqın mübarizə əzmini qırmağa çalışırdılar. Xalqın tələbi ilə Azərbaycan SSR Nazirlər Soveti 24 noyabr 1988-ci il tarixdə Topxana ilə əlaqədar 466 saylı qərar versə də dekabrın 5-dən 6-sına keçən gecə meydanın dağıdılması ilə bu qərar da digərləri kimi kağız üzərində qaldı. [10] Fikrimizcə XX əsrin sonlarından erməni hərbi birləşmələri tərəfindən Azərbaycan ərazilərinin işğalının baş verdiyi ictimi-siyasi vəziyyəti obyektiv dərk etmək, Azərbaycan tarixini ağ ləkələrdən təmizləmək üçün Topxana və bu kimi digər ərazilərə qarşı ermənilərin törətdikləri təxribatların dərindən öyrənməsinə böyük ehtiyac var.

## ƏDƏBİYYAT


*1. Babayev S. Müharibə (1988-1993). Bakı,Azərbaycan,1995,120 s.*

*2. Əliyev İ. Dağlıq Qarabağ. Tarix. Faktlar. Hadisələr. Bakı, Elm,1989,117 s.*

*3. Mahmudov Y.M. , Şükürov K.K. Qarabağ: Real tarix, faktlar, sənədlər. Bakı: Təhsil, 2009,143 s.*

*4. Sultanov Z. Qarabağın qara günləri. Bakı,Yazıçı,1992,146 s.*

*5. "Azərbaycan" qəz. 5, 18 may 1990; 5 mart, 20 aprel 1990*

*6. "Azərbaycan" jur., 6 №2, 1988, s.187-190,*

*7. "Azərbaycan gəncləri" qəz. 26iyul 1988*

*8. "Bakı" qəz., 26 noyabr 1988, 22 sentyabr 1989*

*9. "Ədəbiyyat və incəsənət" qəz., №9, 1988,s.176-188, №1,1989, s.181-189, №5, 1990,s.163-171*

*9, 25 mart, 18 noyabr 1988, 18 avqust 1989, 22 sentyabr 1989, 23 fevral 1990;*

*10. "Ədalət" qəz.,04 noyabr 2004-cü il*

*11. "Kommunist" qəz. 11, 22 mart, 23 iyul, 11 noyabr 1988, 18 yanvar 1989*

*12. "Millət " , 16 noyabr 1996*

*13. "Sumqayıt" qəz., 2 sentyabr 1989 və s*

*Rus dilində*

*14. Аракелов Р. Нагорный Карабах: Виновники трагедии известны. Баку, Шарг-Гарб,1991,35 с.*

*15. Помпоев Ю.А. Кровавый омут Карабаха. Баку,издатель. Азербайджан, 1992-208с.*

*16. " Бакинский рабочий" газ., 16, 9 avqust 1989, 12 yanvar 1990*

*17. " Правда " газ., 4 aprel 1988*



**Açar sözlər:** *tarixşünaslıq, dövlət müstəqilliyinin bərpası, Dağlıq Qarabağ problemi, Sumqayıt hadisəsi, 20 yanvar faciəsi*

**Ключевые слова:** *Историография, восстановление государственной независимости, проблема Нагорного Карабаха, сумгаитские события, трагедия 20 января*



**РЕЗЮМЕ**

**Магеррам Зульфигарлы**

**Огузский дастан XX века – "Зов Топханы" (17 ноября – 5 декабря 1988 г). Историография**

В статье представлена информация о дне национального возрождения, одной из славных страниц истории современного Азербайджана. В статье также анализируется 18-дневное движение против советской империи 17 ноября - 5 декабря 1988 года. Кроме того, была затронуто событие в Топхане, ставший толчком начала протестов.

# İqtisadiyyat

# DÜNYADA MÖVCUD OLAN QLOBAL ENERJİ BÖHRANI

GÜNAY FEYZİYEVA
Azərbaycan Milli Elmlər Akademiyası



Zəngin iqtisadi enerji ehtiyatları müasir sivilizasiyaların həyat mənbəyidir. Statistikaya əsasən 2008-ci ildə neft, kömür və təbii qaz dünyanın enerji təchizatının 85%-ni təmin etmişdir. Aydındır ki, biz neft erasında yaşayırıq, lakin neft erası sona yaxınlaşır. Bəşəriyyət qlobal enerji böhranı ilə üzləşmək təhlükəsi qarşısında qalıb.
Son 100 il ərzində texnologiyanın və sənayenin sürətli inkişafını təmin etmək üçün planetimizin enerji ehtiyatları intensiv şəkildə istismar edilmişdir. Bir çox hallarda bu enerji sərfiyyatı plansız şəkildə, gələcək nəsilləri düşünmədən, həmçinin planetin ekoloji tarazlığını pozaraq enerji resurslarının istismar edilməsi hesabına aparılmışdır. Bütün bunların sayəsində XXI əsrdə bəşəriyyət növbəti dəfə taleyüklü problemlə üzbəüz qalmış, öz gələcəyini təmin etmək baxımından son dərəcə kritik vəziyyətə düşmüşdür. Tarix sübut edir ki, artıq insanlar dəfələrlə bu tipli problemlə qarşılaşmalı olmuşlar. Lakin indiyə qədər bu tip problemlər adətən lokal xarakter daşımış və qısa müddət ərzində həll edilə bilirdisə və yaxud insanlar digər vasitələrlə problemin həlli üsullarını tapırdılarsa, artıq XX əsrin ikinci yarısında problem tamam başqa xarakterdə özünü göstərməyə başladı [1]. XX əsrin 70-ci illərində baş verən enerji böhranı ilə birdəfəlik olaraq ucuz neft epoxasına son qoyuldu və Qərb ölkələri, xüsusilə də bu ölkələrin qabaqcıl və inkişaf etmiş sənayesi artıq başqa şərtlər altında fəaliyyət göstərmək məcburiyyətində qaldı. Həmin dövrdə baş verən enerji böhranı bütün dünya iqtisadiyyatına təsir edərək onu dərindən sarsıtdı və indiyə qədər enerjiylə bağlı mövcud olan təsəvvürləri kökündən dəyişdi. Düzdür, müəyyən müddətdən sonra müxtəlif faktorların birbaşa və ya dolayı təsirləri ilə neftin qiyməti bir qədər ucuzlaşdı, lakin artıq qlobal enerji böhranının nə demək olduğunu hamı dərindən anlayırdı, həmçinin nəzərə almaq lazımdır ki, qlobal səviyyədə enerji təchizatı və təminatı problemi bu gün də öz aktuallığını qoruyub saxlamaqdadır. Məhz bu səbəblərdən də bəşəriyyət indidən bu problemin qarşısını almaq, onu gələcək nəsillərin öhdəsinə vermək istəmir, davamlı, sabit və fasiləsiz enerji təchizatının təmin edilməsi yollarının tapılmasına çalışır [2]. Qlobal enerji böhranının yaranma səbəblərindən danışarkən, ilk növbədə bu enerji mənbələrinin sürətli istismarını və tükənməsini nəzərə almaq və başlıca səbəb olaraq görmək lazımdır. Mineral yanacağın sürətli, bəzi hallarda düşüncəsiz istismarı, yanacağın yer qatlarından çıxarılması nəticəsində enerji mənbələri tükənməyə başlamışdır.
Yanız bir faktı nəzərə almaq kifayətdir: təkcə XX əsrin əvvəllərində həmin əsrin 80-ci illərinə qədərki dövr ərzində hasil edilən yanacağın miqdarı, bəşəriyyətin bütün tarixi ərzində istehsal etdiyi mineral yanacağın həcmindən daha artıq olmuşdur. Bir faktı da xatırlatmaq yerinə düşər ki, 1960-1980-ci illər ərzində, əsrin əvvəlindən çıxarılan kömürün 40, neftin 75 və təbii qazın 80 faizi istehsal edilmişdir [3].

Maraqlıdır ki, həmin dövrdə enerji istehsalıyla bağlı verilən proqnozlarda enerji istehsalının gələcəkdə azala bilməsi nəzərə alınmırdı. Hesab edilirdi ki, hər 20 il ərzində enerji istehsalı 1,5-2 dəfə artacaq, beləliklə bəşəriyyətin artmaqda olan enerji ehhtiyacları tmin ediləcək. Lakin bu istehsalın hansı mənbələr hesabına təmin ediləcəyi heç kimi maraqlandırmırdı. Düzdür, sonradan bütün bu plan və proqnozların tərtib edilməsində, enerji mənbələrinin tədricən tükənməsi faktoru nəzərə alınmağa başladı, zaman keçdikcə enerji resurslarının azalmağa doğru getməsi labüd təhlükə kimi tədqiqat obyektinə çevrildi. Bu resursların düşüncəsiz formada istismarı hal-hazırda özünü büruzə verən enerji böhranının başlıca səbəbi hesab edilə bilər.

Qlobal enerji böhranının özünü göstərdiyi formalardan biri dağ-mədən işlərinin aparılmasında yaranan çətinliklər və bunun sayəsində də hasilatın xərclərinin artmasıdır. Beləliklə, getdikcə enerji istehsalı daha çətin şərtlər altında aparılır və müvafiq olaraq, daha böyük maliyyə vəsaitləri tələb edir, bu isə enerjinin qiymətindəki artımla müşayiət olunur. Xüsusilə də Avropanın, Şimali Amerikanın, Rusiyanın, Ukraynanın, o cümlədən də Azərbaycanın enerji mənbələrinin istismarı getdikcə çətinləşir, daş kömür şaxtaları, neft və qaz quyuları daha dərin qazılır və bahalı texnologiya tələb edir [4]. Bu səbəbdən də yeni enerji yataqlarının axtarılması, daha əlverişli dağ-mədən şəraitinə malik regionlarda enerji istehsalı aktuallıq kəsb etməkdədir. Qlobal istehsalçılar bu zaman yanacağın istehsal xərclərini azaltmağa çalışır, bunun üçün yeni regionların daha münasib olacağını düşünürlər. Lakin yeni regionların istismara daxil edilməsi də böyük maliyyə vəsaitləri tələb etməkdədir.

Qlobal enerji böhranının özüylə gətirdiyi problemlərdən biri də ekoloji vəziyyətin pisləşməsidir. Müasir kapitalist və sənaye inkişafının artmasına uyğun olaraq bu proses XVIII əsrdə başlamışdır. Kapitalizmin inkişafı və digər sosio-mədəni dəyişikliklər ekoloji böhranla nəticələnən böyük ekoloji problemlərin yaranmasında əsas amil hesab edilir. Həm qurudakı ənənəvi yataqlarda, həm də şelfdə faydalı qazıntı yataqlarının işlənməsi zamanı müxtəlif qəzalar baş verir, eyni zamanda istehsalın genişləndirilməsi mövcud ekosistem üçün bəzən faciəvi nəticələrə gətirib çıxarır [5].

Qlobal enerji böhranı bir çox hallarda siyasi məqsədlər üçün alət rolunu oynayır, enerji ehtiyatlarına nəzarət məsələsi iqtisadi siyasətin və geopolitikanın predmetinə çevrilir. Enerji və yanacaq resursları uğrunda qlobal rəqabət aparılır, nəhəng transmilli korporasiyalar bu resursların ədə edilməsi və bölüşdürülməsi üçün mübarizə aparırlar. Bütün bu faktorlar qlobal enerji böhranının planetimizin gələcək inkişafında nə qədər vacib rol oynadığını göstərir [6].

Nəzərə almaq lazımdır ki, hazırki enerji böhranının həm obyektiv, həm də subyektiv səbəbləri mövcuddur. Bəzi hallarda enerji resurslarını nəzarətdə saxlamaq məqsədilə böyük dövlətlər tərəfindən atılan addımlar heç də enerji böhranının aradan qaldırılmasına xidmət etmir. Zəngin karbohidrogen yataqlarına malik ölkələrlə bağlı NATO-nun apardığı siyasət, bu siyasətin nəticəsində yaranan beynəlxalq ziddiyyətlər, boru kəmərləri və onların təhlükəsizliyinin təminatı kimi müxtəlif yeni anlayışlar meydana çıxmışdır.

Müasir dövrdə neft-qaz resurslarıyla bağlı aparılan layihələrdə iştirak uğrunda qlobal mübarizə də getdikcə artmaqdadır. Enerji idxalından asılı olan dövlətlər, özlərinin siyasi və hərbi güclərindən istifadə edərək, öz korporasiyalarının belə layihələrdə daha böyük paya malik olması uğrunda rəqabət aparırlar. Beynəlxalq layihələrdə bu tipli korporasiyaların müəyyən paya malik olması üçün bütün siyasi və diplomatik resurslardan istifadə edilir. Bu məqsədlə zəngin karbohidrogen resurslarına malik olan dövlətlərə müxtəlif güzəştlər təklif edilir, belə dövlətlər üçün ucuz kredit xətləri açılır, böyük investisiyalar yatırılır. Burada yalnız bir məqsəd güdülməkdədir - rəqibləri həmin layihələrdən sıxışdırıb çıxarmaq, digər dövlətləri qabaqlamaq və neft-qaz layihələrində daha böyük paya malik olmaq.

Enerji resurslarının daşınması da kifayət qədər siyasiləşmiş məsələlərdən hesab edilə bilər. Məhz bu sahədə atılan addımlardan biri kimi 2006-cı ildə işə salınan Bakı-Tbilisi-Ceyhan boru kəməri Azərbaycanın ümummilli lideri Heydər Əliyevin əsasını qoydugu neft strategiyasının tərkib hissəsi olaraq Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində, Xəzər regionunun karbohidrogen resurslarının dünya bazarına çıxarılmasında böyük bir addım oldu [7]. Bundan sonra Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikintisi başa çatdırıldı. İndi isə Transxəzər qaz magistralı aktuallıq qazanmaq üzrədir, üstəlik TAP və TANAP boru kəmərləri layihələri uğurla icra edilir. Bütün bunların sayəsində Avropanın enerji təchizatında tamamilə yeni bir səhifə açıldı.

Müasir dünyada mənafelərin toqquşması ilə müşayiət edilən bir çox hallar enerji təhlükəsizliyindən də yan ötməmişdir. Qeyd etmək lazımdır ki, bu baxımdan Avropanın enerji siyasəti və qlobal enerji təhlükəsizliyində oynadığı rol diqqəti daha çox cəlb edir. Qitənin enerji tələbatının yüksək səviyyədə olması, eyni zamanda enerji resursları, xüsusilə də ənənəvi mineral yanacaq ehtiyatları ilə nisbətən az təmin olunması, bununla yanaşı sənaye inqilabı ərzində bu yanacaq ehtiyatlarının sərf edilərək tükənməsi Avropanın enerji təhlükəsizliyinin təminatını ön plana çıxarır [8].

XXI əsrin ilk onilliyində stabil və davamlı enerji təminatı problemi Avropa İttifaqının üzv ölkələri arasında əsas yerlərdən birini tutmuşdur. Burada biz iki başlıca səbəb göstərə bilərik. Birinci səbəb planetin resurs bazasının tükənməsi ilə izah edilə bilər, ilbəil enerji istehlakı artdığı halda, enerji resursları tükənməyə doğru gedir. Bu baxımdan alternativ enerji mənbələrinin tapılması, ənənəvi enerji resurslarının qitəyə cəlb edilməsinin diversifikasiyası kimi problemlər ön plana çıxmaqdadır. Digər tərəfdən problem siyasi çalarlara da malikdir. Belə ki, enerji faktorundan siyasi məqsədlərə nail olunması məqsədilə istifadə edilir; Rusiya Federasiyası ilə Ukrayna və Belarus respublikaları arasında baş verən konfliktlər zamanı bu özünü qabarıq şəkildə biruzə vermişdir [9].

Avropa İttifaqı dövlətlərindən yalnız 12-sinin ərazisində ənənəvi neft, təbii qaz və daş kömür ehtiyatları mövcuddur. Lakin bu ehtiyatlar da iqtisadiyyatın tələbatını ödəmək baxımından ciddi resurs bazası hesab edilə bilməz. 2004 və 2007-ci illərdə Avropa İttifaqının genişlənməsindən sonra neft və təbii qazdan asılılıq 10-17% artmışdır. Əgər 1999-cu ilə bu asılılıq neftdən 72, qazdan isə 48 faiz idisə, artıq 2009-cu ildə həmin asılılıq müvafiq olaraq 83.5 və 64.2 faiz təşkil edirdi. Bu müddət ərzində Avropa dövlətlərinin əsas enerji təminatçısı rolunda Rusiya Federasiyası çıxış edirdi. 2000-ci ildə idxal edilən təbii qazın 49, nefti isə 22.1 faizi Rusiyanın payına düşürdü ki, bu da kifayət qədər ciddi rəqəmdir. 2009-cu ildə də Rusiya enerji təmminatçıları arasında aparıcı mövqeyini qoruyub saxlayırdı, təbii qazın 34.2 və neftin 33.1 faizi yenə də bu ölkə tərəfindən təmin edilirdi. Avropa Birliyinə təbii qaz idxalçıları arasında ikinci və üçüncü yerləri isə müvafiq olaraq Norveç (30.7 faiz) və Əlcəzair (14.1 faiz) tuturdular. Bu rəqəmlər enerji daşıyıcılarının diversifikasiyasının Avropanın enerji siyasətinin əsas məsələlərindən biri olduğunu əyani surətdə göstərir.

2000-ci illərin ilk onilliyinin ikinci yarısından etibarən enerji

təhlükəsizliyi məsələsi daha da aktuallaşdı və artıq nəinki Avropa İttifaqı, eləcə də ABŞ bu məsələnin həlli üçün səylərini artırdı. Həmin müddətə qədər Avropa Komissiyası, Avropa Parlamenti və Avropa Şurası üzv ölkələrin enerji təminatı ilə bağlı müəyyən məsələlərin tənzimlənməsini həyata keçirən sənədlər qəbul etmişdilər. Avropa Parlamentinin və Avropa Şurasının 26 iyun 2003-cü il tarixli qərarına əsasən vahid elektrik enerjisi bazarı yaradılmalı, üçüncü ölkələrin bu bazarda iştirak qaydaları işlənib hazırlanmalı idi. Həmçinin vahid qaz bazarı və onun qaydaları, təbii qazın idxalının təhlükəsizliyinin təmin edilməsi qaydaları da işlənib hazırlanmışdı [10].

Bundan başqa, 2003-cü ilin dekabrında Avropa Şurası özünün Brüssel sammitində Avropanın təhlükəsizlik strategiyasını qəbul etdi. Bu sənəddə göstərilən hərbi münaqişələr, aclıq, xəstəliklər kimi təhlükəli tendensiyalarla yanaşı, dünya yanacaq - energetika kompleksinin vəziyyəti və inkişafı da öz əksini tapmışdr. Çünki dünya yanacaq-energetika kompleski nəinki regional, hətta ümumdünya miqyasında hadisələrə təsir etmək iqtidarında olan faktorlardan hesab edilir. 2007-ci ildə Avropa Komissiyası "Avropa üçün energetika siyasəti" adlı sənəd işləyib hazırladı, burada Birlik üzvlərinin hamısının inteqrasiyası ilə bağlı qısamüddətli və uzunmüddətli perspektivdə görüləcək tədbirlər öz əksini tapmışdır. Həmçinin Avropa İttifaqının enerji siyasətinin məqsədləri də bu sənəddə əks olunmuşdur. Sənədin müəllifləri qeyd edirlər ki, enerji təhlükəsizliyinə nail olmaq üçün kompleks tədbirlərin görülməsi zəruridir; bura iqlim dəyişikliyi ilə mübarizə, Avropa İttifaqının idxal edilən karbohidrogen mənbələrindən asılılığının azaldılması, iqtisadi inkişafın təmin edilməsi və yeni iş yerlərinin yaradılması daxildir. Avropa İttifaqının enerji təhlükəsizliyinin təminatına yönəldilmiş tədbirləri özündə əks etdirən "Avropa üçün energetika siyasəti" proqramı tövsiyyə xarakteri daşıyır və dəyişən beynəlxalq vəziyyətlə bağlı müəyyən düzəlişlərin edilməsini də istisna etmir.

2010-cu ilin noyabrında dərc edilmiş "Energetika-2020" strategiyası ilk dəfə olaraq Avropanın enerji təhlükəsizliyinə həsr edilmişdir, burada Avropanın enerji siyasətinin başlıca istiqamətləri öz əksini tapmışdır: "bazarda bütün istehlakçılar (şəxsi istifadəçilər və müəssisələr) üçün əlverişli qiymətə enerji məhsullarının daimi və fasiləsiz təchizatının təmin edilməsi" [11].

**Nəticə**

Enerji böhranı tələb artdıqca sənaye cəmiyyətini gücləndirmək üçün istifadə edilən məhdud təbii enerji ehtiyatlarının azalmasına dair dünyada yaranan narahatlıqdır. Bu təbii ehtiyatlar məhdud təchizatlıdır. Dövlətlər və əlaqəli şəxslər bərpaolunan ehtiyatların istifadəsini prioritetə çevirməyə və bu ehtiyatların məsuliyyətsiz şəkildə istifadəsini azaltmağa çalışırlar. Lakin global enerji böhranının həll olunmasına yönəlmiş səbəblər və həll yolları üçün kompleks yanaşma mövcud deyildir. Fasiləsiz istismar nəticəsində neft, qaz və kömür kimi fossil yataqlarında gərginlik yaranmışdır ki, bu da kirliliyə səbəb olaraq su və oksigen qaynaqlarımızda təzyiqə səbəb ola bilər. Böhranın digər səbəbi dünya əhalisinin və onun yanacaq və məhsula olan ehtiyacının sürətlə artması olmuşdur. Bərpaolunan enerji hələ də çox ölkələrdə istifadə olunmur. Neft, qaz və kömür kimi tükənən ehtiyatlar enerji istehsalı üçün hələ də ən yaxşı seçim kimi qiymətləndirilir. Tükənməz enerji qaynaqlarından istifadəyə ciddi yanaşılmazsa enerji böhranının həlli çətin proses kimi görünür.

**ƏDƏBİYYAT:**


1. Аттали Ж. На пороге нового тысячелетия: Пер. с англ. — М.: Международные отношения, 1993.
2. Антропов П.Я. Топливно-энергетический потенциал Земли. М., 1994.
3. Одум Г., Одум Е. Энергетический базис человека и природы. М., 1998.
4. Энергетика и ТЭК: Официальный сайт. - Режим доступа: <http://www.energetika.by/>
5. Will Steffen et al., "The Anthropocene: Conceptual and Historical Perspectives," Philosophical Transactions of the Royal Society 369, no. 1938 (2011): 842–67.
6. Energy security: economics, politics, strategies, and implications / Carlos Pascual and Jonathan Elkind, editors. Brookings Institution Press. – Washington, D.C., 2010, pg. 279.
7. Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəməri: Faktlar və rəqəmlər //Dirçəliş-XXI əsr. 2006. № 100-101. s. 71-75.
8. Антропов П.Я. Топливно-энергетический потенциал Земли. М., 1994.
9. Безопасная Европа в мире, который должен стать лучше. Европейская стратегия безопасности// Совет Европейского союза - Режим доступа: <http://www.consilium.europa.eu/uedocs/cmsUpload/031208ESSIIRU.pdf>
10. Conclusions of the European Council: Doc. EUCO 2/1/11 REV 1, Brussels, 8 March 2011// Council of the European Union: <http://www.consilium.europa.eu/uedocs/cms_data/docs/pressdata/en/ec/119175.pdf
11. Energy 2020. A strategy for competitive, sustainable and secure energy: Communication from the Commission to the European Parliament, the Council, the European Economic and Social Committee and the Committee of the Regions: Doc. COM (2010) 639 final. Brussels, 10.11.2010 // EUR-Lex. Access to European Union law: <http://eur-lex.europa.eu/LexUriServ/LexUriServ.do?uri=COM:2010:0639:FIN:EN:PDF>



***Açar sözlər:*** *enerji böhranı, iqlim dəyişikliyi, neft böhranı, enerji təminatı*

***Keywords:*** *energy crisis, climate change, oil crisis, energy supply*

***Ключевые слова:*** *энергетический кризис, изменение климата, нефтяной кризис, энергоснабжение*


**SUMMARY**


The global energy crisis means primarily a reliable and uninterrupted supply of humanity with energy and fuel resources. Abundant and economical energy is the life blood of modern civilizations. Over the last 100 years, energy resources have been intensively exploited to ensure rapid development of technology and industry. All these causes lead to destabilizing problem that mankind has faced which has become extremely critical for its future in the 21st century.


**РЕЗЮМЕ**


Глобальный энергетический кризис означает прежде всего надежное и бесперебойное снабжение человечества энергетическими и топливными ресурсами. Обильная и экономичная энергия - это жизненная кровь современных цивилизаций. За последние 100 лет энергетические ресурсы интенсивно эксплуатируются для обеспечения быстрого развития технологий и промышленности. Все эти причины приводят к дестабилизирующей проблеме, с которой столкнулось человечество, которая стала чрезвычайно важной для ее будущего в XXI веке.

# Международные отношения

## АЗЕРБАЙДЖАН-ВЕЛИКОБРИТАНИЯ: ПЕРВЫЕ ШАГИ СОТРУДНИЧЕСТВА

ГЮНЕЛЬ МУСАЕВА
Заведующая отделом перевода, печати и информации Института Кавказоведения Национальной Академии Наук Азербайджана





18 октября 1991 года Азербайджанская Республика вновь приобрела свою независимость. Великобритания 26 декабря 1991 года признала государственную независимость Азербайджана и объявила о готовности развития отношений. С целью обсуждения вопросов по установлению отношений между двумя государствами в марте 1992 года госминистр Дуглас Хогг приехал в Баку, который стал первым официальным визитом и началом установления дипломатических отношений между двумя странами. В ходе визита он отметил что, с большим одобрением отнесся к превращению Азербайджана в субъект международного сообщества и с удовлетворением воспринял активное вовлечение его в работу Совещания по Безопасности и Сотрудничеству в Европу. [1]

Заинтересованность Великобритании в развитии отношений определялся также выгодным политико-географическим и стратегическим расположением, а также богатыми природными ресурсами, которыми обладал Азербайджан. Разработка нефтегазовых месторождений и получение крупных прибылей было еще давним желанием Англии, которая на протяжении истории всячески старалась воплотить это в жизнь. Применяя новейшие технологии, Великобритания имела возможность вывозить энергетические ресурсы Азербайджана на мировые рынки.

Придававшая особое значение развитию отношений Великобритания назначила своего первого посла в Азербайджан. 15 июля 1992 года посол Великобритании в России Брайан Фолл вручил верительную грамоту.[2]

7 сентября 1992 года бывший премьер министр Соединенного Королевства Маргарет Тэтчер по приглашению президента Азербайджана Абульфаза Эльчибея приехала в Баку. Она присутствовала в церемонии подписания договоров между Азербайджанским правительством и компаниями «Бритиш Петролиум» Великобритании и «Статойл» Норвегии об уточнении запасов в месторождении «Чираг» и в перспективной области «Шахдениз», а также в проведении подготовительных работ.[3] Этот визит послужил к учреждению Милли Меджлисом азербайджанского посла в Великобританию.[4]

В том же году Азербайджан посетил госсекретарь Великобритании по промышленности и торговле Майкл Хезелтайн. После этих походов отношения между двумя странами расширились. Руководитель Бакинского отделения министерства Торговли и Промышленности Гарольд Формстоун начал дипломатическую деятельность в Азербайджане.[5] В рамках указанного визита между Азербайджанской Государственной компанией и компаниями Великобритании – Джон Браун Инджиниринг энд Констракшн Лимитед, Саймон–Карвз Лимитед и Ипеско Интертейшнл Лимитед – были подписаны документы относительно химической и нефтехимической комплексов Азербайджанской Республики. Эти документы имели большое значение для обеспечения Азербайджана технологией Запада. [6] Это было связано с расширением экономических отношений и открытием в столице за последние годы представительств различных английских компаний.

В начале 1993 года английское правительство распространило заявление об открытии посольств в бывших советских республиках. В мае 1993 года президент Азербайджана Эльчибей был приглашен официальным визитом в Лондон, но ввиду осложнения обстановки и смены власти этот визит не удался.

Великобритания, входящая в восьмерку самых развитых стран мира и обладающая особым приоритетом в решении проблем международных отношений, являлась для Азербайджана первым звеном в успешном устройстве

внешней политики и развитии экономического положения страны. Все эти факторы обуславливали создание тесных взаимосвязей между странами, что предпринял Гейдар Алиев сразу после прихода к власти. 21 июля 1993 года исполняющий обязанности президента Азербайджанской Республики председатель Высшего Совета Гейдар Алиев принял нового назначенного посла Томаса Янга. [7] Необходимо отметить, что в это время из бывших советских стран только в России и Украине функционировали посольства Великобритании. Это событие еще раз показывало какое важное значение придавал официальный Лондон Азербайджану. Вскоре после этого в Баку был проведен семинар с участием 24-х английских компаний, посвященный технологии нефтегазовой промышленности Великобритании. Интерес со стороны английских компаний все более разрастал.

12 октября 1993 года на посту нового провозглашенного президента, первое официальное лицо, которого встретил Гейдар Алиев являлся госминистр Великобритании Дуглас Хогг.[8] Во время встречи министр отметил что, ВВ заинтересована в создании дружеских, и укреплении экономико-торговых отношений, в проведении интенсивных обсуждений касательно международно-политических вопросов. В ходе визита были подписаны два документа - межправительственный меморандум и декларация об отношениях между управлениями внешней политики двух стран.[9] Официальный визит в Лондон не заставил себя долго ждать.

22-25 февраля 1994 года состоялся первый официальный визит президента независимого Азербайджана Гейдара Алиева в Великобританию. Этот визит был осуществлен с целью создания и развития отношений между двумя странами. Накануне визита в интервью журналистам Гейдар Алиев говорил: «…визит президента Азербайджана в Великобританию имеет целью установление и развитие связей между нашей республикой и Великобританией… Англия является одной из крупных государств мира. Она – одна из пяти постоянных членов Совета Безопасности ООН, одна из семи самых развитых государств мира. Англия и прошлой историей, и нынешним состоянием оказывает очень сильное влияние на мировую политику и экономику. Поэтому создание тесных связей между Азербайджанской Республикой и Англией, прежде всего, очень важно для национальных интересов нашей страны».[10]

В Лондоне состоялась встреча с Премьер-министром Джоном Мейджором, министром иностранных дел и по делам содружества Дугласом Хердом, министром торговли Майклом Хезлтайном, министрами энергетики и сельского хозяйства, с руководителями компаний «Бритиш Петролеум», «Си-Пи-Ти», «Джон Браун» и т.д. Во время встречи с президентом компании «Бритиш Петролеум» Г.Алиев отметил что, еще с начала века Би-Пи проявлял большой интерес к Азербайджану и ее нефти. И являясь одной из самых авторитетных компаний Запада, она дает сильный толчок развитию нефтяной промышленности и социальной сферы в Азербайджане.

22 февраля была организована встреча Гейдара Алиева с Конфедерацией Промышленников Великобритании. Президент отметил, что экономические интересы составляют основу отношений между двумя государствами и учитывая богатство Азербайджана запасами подземных и наземных ресурсов создаются хорошие условия для капиталовложения в экономику Азербайджана со стороны английских промышленников.[11]

Премьер-министр Джон Мейджор 23 февраля встретился с Гейдар Алиевым. Были обсуждены вопросы касательно дальнейшего развития отношений в сфере торговли, экономики. В результате переговоров были подписаны договоры и меморандумы: «Соглашение о дружбе и сотрудничестве», «Договор о ликвидации двукратного налогообложения», «Меморандум о сотрудничестве в области энергетики», «Договор о сотрудничестве в области воздушных перевозок», «Договор о защите и поощрении капиталовложений».[12] В целом были подписаны 8 документов, 6 из которых были подписаны между Г.Алиевым и Д. Мейджором.

**Заключение**

Визит и подписанные документы имели большое значение. Это был первый визит Президента независимого Азербайджана в Великобританию, который заложил основу будущих отношений. Подписанными документами была заложена основа новой эры в отношениях между двумя странами. Благодаря дальновидной политике, которая основывалась на взаимовыгодной, равноправной и дружественной внешней политике как на региональном уровне, а также с ведущими мировыми державами, Гейдар Алиев сумел убедить в лице Великобритании весь мир, что Азербайджан ведет независимую политику, отказавшись от коммунистической идеологии, социалистической системы государственного устройства и экономики. Тем самым он также привлек английский капитал в Азербайджан, что сильно повлияло на развитие экономики страны. Ибо «Нефтяная стратегия», разработанная Гейдар Алиевым, которая легла в основу энергетической политики и дипломатии Азербайджана, вывела страну из экономического кризиса и способствовала динамичному развитию ее экономики. Благодаря нефтяной дипломатии удалось привлечь в регион крупные зарубежные инвестиции и подписать «Контракт Века». Этот визит Президента в Великобританию и стал первым шагом в подписании крупного проекта, который ввиду своей значимости получил название «Контракта Века».

**ЛИТЕРАТУРА**


1. *Duqlas Hoqqun sülh məramı, Xalq qəzeti, Bakı, 1992, 12 mart.*

2. *Böyük Britaniyanın Azərbaycandakı səfiri etimadnaməsini təqdim etmişdir. – "Xalq qəzeti", Bakı, 1992, 16 iyul; Гасымлы М. Внешняя политика Азербайджана (1993-2003). Ч.2.Москва, 2016, с.34.*

3. *Azərbaycan-Böyük Britaniya: əməkdaşlıq və tərəfdaşlıq*




(1991-2001). ....Azərbaycan-Böyük Britaniya Gənclər Cəmiyyəti 2001, s.10-11.

4. Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İrlandiya Krallığında (London şəhərində) səfirliyinin açıl¬ma¬sı haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı. 23 sentyabr 1992-ci il. – Azərbaycan Respublikası Ali Sovetinin məlumatı, 30 sentyabr 1992-ci il. № 18 (871), s. 43; М.Гасымлы Внешняя политика Азербайджана (1993-2003), часть II, М.2016, с.35

5. Xalq qəzeti, 1992, 9 oktyabr; E. Məmmədli Azərbaycan-Böyük Britaniya münasibətləri (1991-2003), s. 23.

1. М.Гасымлы Внешняя политика Азербайджана (1993-2003), часть II, М.2016, с.35-36

2. Məmmədli E. Azərbaycan-Böyük Britaniya münasibətləri (1991-2003-cü illər), B.2003, s.25

3. Nəcəfov V., Rüfətoğlu Z. D.Hoqq prezidentin qəbul etdiyi ilk rəsmi qonaq oldu, Azərbaycan, 1993, 13 oktyabr

4. Дуглас Хогг: «С вами можно вступать в диалог», Бакинский рабочий, 1993, 14 октября

5. Əliyev H.Ə. Böyük Britaniyaya rəsmi səfərə yola düşməzdən əvvəl Binə hava limanında jurnalistlərə müsahibə. 22 fevral 1994-cü il. – Müstəqilliyimiz əbədidir. I kitab, s. 414.; М.Гасымлы Внешняя политика Азербайджана (1993-2003), часть II с.38

6. Prezidentin Böyük Britaniya səfəri, Azərbaycan qəzeti, 23 fevral 1994

7. Prezidentin Böyük Britaniya səfəri, Azərbaycan qəzeti, 26 fevral 1994

***Ключевые слова:*** *сотрудничество, Великобритания, Азербайджан, дипломатические отношения, визит, нефтегазовые месторождения*

***Açar sözlər:*** *əməkdaşlıq, Böyük Britaniya, Azərbaycan, diplomatik əlaqələr, ziyarət, neft-qaz yataqları*

***Keywords:*** *co-operation, Great Britain, Azerbaijan, diplomatic relations, visit, oil-gas fields*

**XÜLASƏ**

Dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan Respublikası ilə ikitərəfli münasibətlərin yaradılması və inkişafına maraq göstərən ilk dövlətlərdən biri Böyük Britaniya olmuşdur. Ancaq ilk müstəqillik dövründə Azərbaycanda yaranmış daxili ictimai-siyasi şərait bu münasibətlərin genişlənməsinə imkan verməmişdir. 1994-cü ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Londona rəsmi səfəri gələcək münasibətlərin taleyini həll etdi və iqtisadi, eləcə də siyasi sahədə əməkdaşlıq öz bəhrəsini verdi. Münasibətlərin müqavilə-hüquq bazası yaradıldı. İmzalanan sənədlərin böyük tarixi əhəmiyyəti olmuşdur.

**SUMMARY**

The United Kingdom became one of the first countries to establish bilateral relations with Azerbaijan after gaining its independence. But the internal political situation of Azerbaijan at first time of independence did not allow expanding these relations. The official visit to London of Heydar Aliyev in 1994 predetermined the fate of further relations and created the first fruits of cooperation in both economic and political spheres. The treaty and legal basis of bilateral relations was created. Signed treaties had historic importance.

# İqtisadiyyat

## SƏNAYE MÜƏSSİSƏSİNİN İSTEHSAL PLANININ OPTİMALLIĞINDA STRATEJİ ANALİZ VƏ PLANLAŞDIRMANIN MÜASİR ASPEKTLƏRİ

ŞƏLALƏ MƏMMƏDOVA
Sumqayıt Dövlət Universiteti




Hər bir müəssisəsnin uğur formulunun və sabit fəaliyyətinin kökündə istehsal planlarının mükəmməlliyi və optimallığı dayanır. İstehsal planının bazar iqtisadiyyatının tələblərinə uyğun və bazar konyunkturasına adekvat formalaşdırılması və həyata keçirilməsi kompleks və sistemli yanaşmanı şərtləndirir. Bundan əlavə, istehsalın təşkili və planlaşdırılması ilə bağlı bütün məsələlər xırda detallarına kimi diqqətlə və dərindən öyrənilməli, mühüm amillər nəzərə alınmalı, hesabatlar aparılmalı və proqnozlar tərtib olunmalıdır. Ümumiyyətlə, sənaye müəssisəsinin istehsal planlarının qurulması müəyyən ardıcıllığa riayət etməyi şərtləndirir. Y.Yequpov belə hesab edir ki, istehsalın optimal təşkili onun planlaşdırılmasının optimallığından bilavasitə asılıdır. İstehsalın plnalaşdırılması zamanı bazar seqmentləri və resurs təminatı başlıça şərtlər kimi nəzərə alınmalı və istehsalın rəqabətqabiliyyətliliyi təmin olunmalıdır[1]. Sənaye müəssisəsnin istehsal planının daha adekvat və düşünülmüş məqsədlərə uyğun olaraq formalaşdırılması, hazırlanması və reallaşdırılması tədbirlərinə strateji yanaşma təmin edilməlidir. Bu məqsədlə, müəssisənin fəaliyyəti ilə bağlı əsas məqamlar, ilk növbədə istehsalın təşkili və fasiləsiz fəaliyyətinin təmin edilməsi ilə bağlı mühüm xammal növlərinin və materialların axınının səmərəliliyinin təmin edilməsi, istehsalın müxtəlif həlledici həlqələrində etibarlı idarəetmə və nəzarət sistemlərinin yaradılması, istehsalat və texnoloji standartların və tələblərin nəzərə alınması, normativlərin işlənib hazırlanması, əməyin mühafizəsi və digər texniki təhlükəsizlik tədbirlərinin görülməsi, istehsalat mədəniyyətinin formalaşdıdırlması, istehsal proseslərinin reqlamentlərinin və digər mühüm texniki tələblərin qorunması, bunlarla bağlı prosedurlara əməl olunması, istehsalın məhsuldarlığının və keyfiyyət göstəricilərinin təmin edilməsi və s. məsələlər ciddi baxılmalı, sistemli ardıcıllıqla həyata keçirilməlidir. T. Reutovaya görə, bütün istehsal prosesləri və istehsalın təşkil ilə bağlı idarəetmə və icra mexanizmləri strateji və operativ yanaşmalar təmin edilməklə baxılmalı və nəzarətdə saxlanılmaıdır. İstehsal planlarının hazırlanması və onun adekvatlığının obyektiv qiymətləndirilməsi məsələsinə xüsusi diqqət göstərilməlidir[2]. Bir çox hallarda istehsalın planlaşdırılmasına məsul olan şəxslər strateji analiz və planlaşdırmaının mühüm meyarları nəzərə alınmadan qısamüddətli səmərəlilik və mənfəət dalınca qaçmaq əsas götürülməklə planlaşdırma prinsipinə üstünlük verillər, amma bu cür müvəffəqiyyətin ömrü uzun olmur, istehsal olunan məhsullar bazarlarda öz mövqelərini tez itirillər, istehsal prosesləri isə səmərəsizlik səbəbindən vaxtından əvvəl bağlanma təhlükəsi ilə üzləşir. İstehsalın planlaşdırılması və təşkili üzrə mütəxəssis M.Altuxova qeyd edir ki, müəssisənin fəaliyyətinin səmərəli olması üçün onun təsərrüfat mexanizmlərinin etibarlı olması, gəlir və rentabeillik proqnozlarının ciddi əsaslar üzərində formalaşdırılmasıdır. Mühüm məsələlərdən bir də tələb və təklif nəzərə alınmaqla müəssisənin istehsal planının hər bir amil üzrə diqqətlə baxılması və hazırlanmasından ibarətdir[3]. Bu məqsədlə, müəssisənin ən azı yaxın bir hesabat ili ərzində

fəaliyyət istiqamətləri araşdırılmalı, öyrənilməli, obyektiv reallıqlardan və bazardakı rəqiblərin fəaliyyət prinsiplərindən, xüsusiyyətlərindən, bazar seqmentlərindən, bu sahədəki tendensiyalardan və proqnozlardan çıxış etməklə müəssisəsinin istehsal planı tərtib olunmalı və təsdiq edilməlidir. Artıq təsdiq olunmuş istehsal planının hər bir elementinin icra və nəzarət mexanizmi müəyyənləşdirilməli və maksimum səmərəli şəkildə reallaşdırılmalıdır.

Sənaye müəssisəsnin istehsal planı mərhələli şəkildə müəyyən mühüm vəzifələrin yerinə yetirilməsindən və bütövlükdə istehsal tsikilinin formalaşdırılmasından ibarət olmalıdır. İstehsal planı, ilk növbədə müəssisənin istehsal inkişafı ilə əlaqəli və qarşılıqlı amillər nəzərə alınmaqla formalaşdırılmalıdır. Bundan əlavə, istehsal proseslərinin texnoloji və innovasiya təminatı, əvvəldə qeyd etdiriyimiz kimi, əsas xammaları və material resurları ilə tələb oluna səviyyədə təminatı məsələləri kompleks olaraq həll edilməlidir. Bunlarla bərabər, istehsalın idarəetmə mexanizmləri və kadrlarla təminatı probelmləri də diqqət mərkəzində saxnalımalıdır. Sənaye müəssisəsinin istehsal planının formalaşdırılması və reallaşdırılması mərhələləri və təbdirlərinin mühüm bir qrupunun təxmini sxemi Şəkil 1.-də öz əksini tapmışdır.

**Şəkil 1. Müəssisənin istehsal planının formalaşdırılması və reallaşdırılmasının təxmini sxemi (müəllif tərəfindən hazırlanmışdır).**




Şəkil 1.-ə əsasən demək olar ki, müasir dövrdə, bazar iqtisadiyyatının dərinləşdiyi bir vaxtda, eyni zamanda qlobal iqtisadi təhlükələrin artdığı və iqtisadi proseslərin transformasiyalarının genişləndiyi şəraitdə müəssisəsinin istehsal planının formalaşdırılması və reallaşdırılması tədbirlərinə əsasən müəssisənin fəaliyyəti ilə bağlı bazarın öyrənilməsi, bazardakı tələb və təklifin nəzərə alınması, istehsal olunacaq məhsulların həcmi və çeşidinin müəyyənləşdirilməsi, istehsal nomenklaturasının dəqiqləşdirilməsi, əsas məhsul növləri üzrə istehsal pnalarının ciddi amillərlə baxılması, xammal və materiallarla təminatın həll olunması, mühüm xammal və materiallar üzrə sərf normalarının müəyyənləşdirilməsi, texnoloji reqlamentlərin hazırlanması, enerjidaşıyıcılarla təminatın modelləşdirilməsi, marketinq konsepsiyasının hazırlanması, marketinq konsepsiyasının hazırlanması, məhsulların maya dəyərinin və rentabeillik səviyyəsinin müəyyənləşdirilməsi, müəssisənin gəlirlik səviyyəsinin proqnozlaşdırılması, istehsalın nəqliyyat və logistika təminatının təşkili, kommersiya əməliyyatlarının modelləşdirilməsi, strateji-innovatik inkişafın proqnozlaşdırılması, xarici-iqtisadi fəaliyyətin təşkili və s. adiddirlər. Bütün bunlarla bərabər, müəssisənin kömkəçi xidmət sahələrinin və istehsal həlqələrinin səmərəliliyi obyektiv olaraq qiymətləndirilməli, istehsalın modernizasiya olunması və diversfikasiyalaşdırılmasına imkan verən ehtiyat mənbələrinin üzə çıxarlması, istehsal prosesləri ilə bağlı əmək və texnoloji intizamın yüksəldilməsi, müəssisənin kommersiya fəaliyyətinin səmərəliliyinin artırılıması vacib şərtlərdəndir[4]. Müəssisənin istehsal planı elmi-praktiki əsaslarla baxılmalı, istehsal-kommersiya fəaliyyətinin bütün komponentlərinin qarşılıqlı təsir dairəsi və fəaliyyət əhatəsi müəyyənləşdirilməli, uzlaşıdrılmalı, istehsalın səmərəli olması ilə bağlı müəssisənin bütün fəaliyyət sahələrinin nizamlanması, tənzimlənməsi və praktik mexanizmlərin müəyyənləşdirilməsi əsasında təmin edilməlidir.

Bazar münasibətləri müəssisənin istehsal planlarının mobilliyini və adekvatlığını şərtləndirir. Buna görə də müəssisənin istehsal planını formalaşdırarkən digər fəaliyyət sahələri ilə əlaqəli məsələlər xüsusi diqqətdə saxlanılmalıdır. İstehsalın planlaşdırılması zamanı xammal və material təminatı ilə bərabər, hazır məhsul satışının həcminin proqnozlaşdırılması, müəssisənin biznes planının əsas hədəfləri də qarşılıqlı şəkildə baxılmalıdır. Müəssisənin planlaşdırılması funksiyaları özündə uzun müddətə istehsal planının əsas prinsiplərini, etibarlı xammal təminatını və hesabatını, həmçinin digər mühüm məsələlərin kompleks şəkildə baxılmasını birləşdiri[5]. Bunlarla bərabər, sənaye müəssisəsnin istehsal planının optimallığında adekvat metodların və alətlərin seçilməsində prinsipial xarakter daşıyır. Professor V.Qayduk müəssisənin istehsal planının formalaşdırılması və təşkili zamanı strateji yanaşma təmin olunmaqla, portfel təhlilinin aparılmasını vacib sayır[6]. Bu zaman, müəssisənin istehsal strukturnun geniş təhlili ilə bərabər, digər mühüm amillərin də obyektiv baxılması və qiymətləndirilməsi daha dolğun təmin olunur. Digər tərəfədən, müəssisənin istehsal planının formalaşdırılması zamanı, müəssisənin iqtisadi artımı və onun gələcək perspektivdə strateji inkişaf hədəfləri ciddi olaraq uzlaşdırılmalıdır[7]. Qlobal təhdidlərin artıdığı və təhlükələrin təsirinin gücləndiyi bir şəraitdə müəssisənin istehsal və digər fəaliyyət mexanizmləri güclü rəqabətqabiliyyətlilik xüsusiyyətlərinə malik olmalı və komplekslilik xarakter daşımalıdır. Bu baxımdan, müəssisənin istehsal planının təsdiqi zamanı, müəssisənin istehsal və resurs potensialı əsas götürülməli, rəqabət mühiti və son istehlakçıların-alıcıların potensial dairəi müəyyənləşdirilməlidir[8]. Bundan əlavə, müəssisənin bir qrup mühüm göstəricilərinin təsir imkanları istehsalın planlaşdırılması zamanı nəzərə alınalıdır. Bunlara əsas fondların və müəssisənin likvidlik səviyyəsinin, dövriyyə vəsatiləri və gəlirlik səviyyəsinin qiymətləndirilməsi, xərclərin strukturnun təhlili, investisiya portfelinin adekvatlığı, hazır məhsulların satış bazarlarının əldə edilməsi və marketinq strategiyasının adekvatlığı və s. aiddirlər. Müasir dövrdə müəssisələrin istehsal planının əsas komponentlərinin optimallığının təmin edilməsi üçün müəssisənin marketinq strategiyasının mükəmməlliyi də mühüm şərtlərdəndir[9]. Tətbiq olunan strategiya müəssisənin maliyyə-

təsərrüfat fəaliyyətinin əsas nəticələrinin uğurlu olmasına adekvat olaraq hazırlanmalıdır. Digər tərəfdən, sənaye müəssisəsinin əsas məhsul buraxılışnın planlaşdırılması və sifarişçiləri razı salacaq səviyyədə proqnozlaşdırılması məqsədilə riyazi metodlardan və mütərəqqi modellərdən istifadə etməklə istehsal planının formalaşdırılması da müsbət nəticələr verməyə əsaslı zəmin yaradır[10]. İstehsal planının formalaşdırılması ilə bərabər, onun yerinə yetirilməsi mexanizmləri, o cümlədən optimal maliyyə mexanizmləri olmalıdır[11].

Qeyd edək ki, müəssisə və təşkilatlarda istehsal planlarının optimallığının yüksəldilməsində idarəetmə problemlərinin baxılması və nəzər alınması həlledici şərtlərdən biri hesab olunur. Müəssisə və təşkilatlarda istehsalın planlaşdırılması, onun təşkili, istehsal proseslərinin səmərəliliyinin təmin edilməsinə adekvat olan kadr təminatı siyasəti həyata keçirilməli və idarəetmə mexanizmləri formalaşdırılmalıdır[12]. Praktiki alətlərdən asılı olaraq, sənaye müəssisəsinin istehsal planının optimallığı istehsal-texniki tədbirlərin reallaşdırılması və icra edilməsi ilə bilavasitə bağlıdır. İstehsal planı funksional baxımdan istehsal prosesləri ilə bağlı bütün problemləri nəzərə almalı və verilmiş proqnozların əsasında ciddi arqumentlər dayanmalıdır. İstehsal müəssisəsinin planlaşdırılması strateji, taktiki və operativ növlərə də bölünə bilər. İstehsal planının hazırlanması ilə bağlı prosesləri özündə brilə şdirən planlaşdırma – müəssisənin idarəetmə sisteminin mühüm funksiyalarından biri olmaqla yanaşı, həm də təsərrüfata rəhbərliyin mahiyyət tərkibində ən önəmli, ən məsulliyyətli həlqələrindən biridir[13, s.263].

Beləliklə sənaye müəssisəsinin istehsal planının müasir aspektləri strateji təhlil və planlaşdırma ilə bağlı mühüm vəzifələrə komplekslilik və sistemlilik prinsipləri əsasında yanaşmanı şərtləndirir. Bu məqsədlə sənaye müəssisəsnin stratej hədəfləri yaxın və uzaq perspektiv fəaliyyət istiqamətləri nəzərə alınmaqla müəyyənləşdirilməli, istehsal sahəsinin strukturunun genişləndirilməsi və rəqabətqabiliyyətli istehsal tsikilinin təşkilinə imkan verən planlaşdırmanın aparılması, onun reallaşdırılması ilə bağlı tədbirlərin görülməsi təmin olunmalıdır və s.

## ƏDƏBİYYAT:


1. *Егупов Ю.А. Этапы формирования производственной программы промышленного предприятия. Одесский государственный экономический университет. http://www.dspace.oneu.edu.ua.*
2. *Реутова Т.И. Механизм формирования плана производства предприятия // Динамика систем, механизмов и машин. Том 4, №1, 2016.-С.227-231.*
3. *Алтухов М.В. Разработка готового плана производства продукции // Справочник экономиста, 32, 2012. http://www.profiz.ru.*
4. *Куликов В. Развитие производственного предприятия: поэтапная стратегия // Генеральный Директор – персональный журнал руководителя. http://www.gd.ru.*
5. *Составление основного производственного плана. http://wwwgroup27.narod.ru.*
6. *Гайдук В.И. Методы и инструменты стратегического планирования // Научный журнал КубГАУ, №103(09), 2014. http://www.cyberleninka.ru.*
7. *Левицких О.О. Формирование стратегии управления эффективности деятельности промышленного предприятия // Журнал Фундаментальные исследования, 2011.- №8(часть 2).-С. 435-440.*
8. *Баженов О.В. Структура и содержание стратегического плана развития предприятия медной промышленности // Журнал Российское Предпринимательство, №11(233), 2013.-С.74-84.*
9. *Трешевский Ю.И., Гусаров И.В. Формирование системы внутрифирменного планирования промышленного предприятия // Вестник ВГУ, Серия: экономика и управления, 2009.-№2.-77-85.*
10. *Косицын Д.П. Математические методы и модели формирования производственной программы промышленных предприятий с выпуском продукции на заказ. Дисс. канд. тех. наук. Петрозаводск, 2007.-167 с.*
11. *Петрова Е.С. Основные аспекты формирования производственного бюджета // Молодой учёный.-2011-№4 Том 1.-С. 175-178.*
12. *Rzayev P.Q., Rzayev Z.H. Müəssisə və təşkilatlarda heyətin idarə edlməsnin aktual provlemləri // Azərbaycan Vergi Jurnalı, №3 (117), 2014.-S. 103-122.*
13. *Hüseynov T.Ə. Firmanın iqtisadiyyatı. Bakı, 2009.-600 s.*


***Açar sözlər:*** *sənaye müəssisəsi, istehsal planı, optimallıq, strateji analız, planlaşdırma.*

***Ключевые слова:*** *промышленные предприятия, производственный план, оптимальность, стратегический анализ, планирование.*

***Key words:*** *industrial enterprises, production plan, optimality, strategic analysis, planning.*

## РЕЗЮМЕ

В статье исследованы современные аспекты планирования и стратегического анализа в оптимальности производственного плана промышленного предприятия. С этой целью анализированы основные этапы, критерии и прочие элементы формирования производственного плана и его реализации. Раскрыта важность стратегического анализа в обеспечении оптимальности производственного плана и повышение его эффективности.

В конце статьи обобщены научные и практические взгляды по современным аспектам планирования и стратегического анализа в оптимальности производственного плана промышленного предприятия.

## SUMMARY

The modern aspects of planning and strategic analysis in the optimality of the production plan of an industrial enterprise the article examined. The main steps, criteria and other elements of the production plan formation and its implementation are analyzed with this purpose. The importance of strategic analysis in ensuring the optimality of the production plan and increasing its effectiveness are disclosed.

The scientific and practical views on modern aspects of planning and strategic analysis in the optimality of the production plan of an industrial enterprise are summarized at the end of the article.

# İqtisadiyyat

## QLOBAL TƏHLÜKƏLƏİRN ARTDIĞI ŞƏRAİTDƏ EKOLOJİ-İQTİSADİ SİSTEMİN DAYANIQLI İNKİŞAFININ MÜASİR ASPEKTLƏRİ

ATA BABAYEV
Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin dosenti





Son onilliklərdə dünya iqtisadi prosesləri kifayət qədər transformasiyalara uğramışdır və getdikcə qlobal təhlükələr, o cümlədən qlobal-iqtisadi təhlükələr dünya iqtisadiyyatının illərlə formalaşmış əsas mexanizmlərinə, eyni zamanda milli iqtisadiyyatların inkişafının modelləşdirilməsinə əhəmiyyətli təsir göstərməkdədir. Təsadüfi deyildir ki, son illərdə dünya iqtisadi proseslərinin artım tempinin təmin edilməsi və ayrı-ayrl güclü iqtisadiyyata malik ölkələrin iqtisadi inkişafının dayanıqlılığının təmin olunması istiqamətində atılan iri miqyaslı addımlar heç də əhəmiyyətli irəliləyişlərə gətirib çıxarmamışdır. Məsələ bundadır ki, dünyanın inkişaf etmiş ölkələrinin hələ də qlobal məsələlərdə tam həmrəyliyi sıx deyildir və bir çox məsələlərdə dünyanın aparıcı ölkələri arasında fikir ayrılığı mövcuddur. Məsələn, qlobal iqlim dəyişiklikləri üzrə və bununla əlaqədar olaarq qlobal tədbirlərin görülməsi, o cümlədən dünyanın əsas ölkələri arasında bu istiqamətdə koordinasiyanın daha da genişləndirilməsi üzrə əməkdaşlıqda dünyanın ən güclü iqtisadiyyatına malik ABŞ-la, digər bir güclü iqtisadi mərkəz olan Avropa Birliyi arasında ki, fikir ayrılığı buna bariz nümunədir. Bunlarla bərabər, heç də sir deyildir ki, dünya iqtisadiyyatının davamlı və dayanıqlı inkişafı üçün ilk növbədə təbii resurslardan və milli sərvətlərdən maksimum səmərəli istifadə təmin olunmalıdır. Tükənməkdə olan faydalı qazıntılardan, xüsusi ilə iqtisadiyyatın inkişafında mühüm əhəmiyyət kəsb edən enerji resurslarından səmərəli istrifadənin təşkili, ətraf mühitin qorunması, yerin təkinin, meşə massivlərinin, ekoloji varlıqların qorunmasının yüksək səviyyədə təmin edilməsi müasir dövrün əsas problemlərindəndir. Bu baxımdan, qlobal iqtisadi təhlükələrin artdığı bir şəraitdə ekoloji-iqtisadi sistemin dayanıqlı inkişafının təhlili və qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir və bu məsələlərə kompleks, sistemli yanaşmanı şərtləndirir.

İlk növbədə, qeyd etmək lazımdır ki, qlobal təhlükələrin artdığı şəraitdə ekoloji-iqtisadi sistemin dayanıqlı inkişafının əsas prinsiplərindən biri xammal və resurslardan səmərəli və ətraf mühitə zərər yetirmədən istifadənin təmin edilməsindən ibarətdir. Bu heç də yeni məsələ deyildir. Hələ klassik iqtisadi nəzəriyyələrin yaradıcısı olan görkəmli iqtisadçı alimlər təbii resurslardan və milli sərvətlərdən səmərəli istifadənin vacibliyinə, millətlərin tərəqqisi və inkişafı naminə bu resurslardan qənaətlə və maksimum səmərəli isitifadənin təmin edilməsinə xüsusi önəm vermişlər. Adam Smit haqlı olaraq belə hesab edirdi ki, milli sərvətlər millətlərin inkişafı

və tərəqqisinə xidmət etməlidir[1]. Digər görkəmli iqtisadçı Alfred Marşall milli və iqtisadi resurslardan istehsal proseslərinin təşkilindən bəhrələnməyin yollarının tapılmasının vacib olduğunu göstərmişdir[2]. Maraqlıdır ki, bu prinsiplər və yanaşmalar müasir dövrdə də kifayət qədər aktualdır.Yenə dünya ölkələri resursların bölüşdürlməsində və ondan səmərəli istifadə olunmasında axtarışdadırlar, dünya iqtisadiyyatı daha təhlükəli tendensiyaların axarına düşdükcə, təbii və milli resurslar, milli sərvətlər, xüsusilə yerin təkindən çıxarılan karbohidrogenlər və faydalı qazıntılar, bir sözlə təbiətin bəxş etdiyi bütün nemətlərin ekoloji-iqtisadi baxımından səmərəliliyi probelmləri diqqət mərkəzinə düşmüşdür. Təbii ehtiyatlardan ekoloji təhlükəsizlik prinspləri təmin edilməklə iqtisadi səmərə naminə istifadəsinin genişləndirilməsinin özü tələbolunan bir prosesdir. Dünya inkişaf etdikcə, dünyada yeni texnologiyalar yaransa belə, təbii ehtiyatlar və resursları əvəz edən maddələr və komponentlər hələlik kəşf olunmamşdır. Buna görə də, bəşəriyyət təbii ehtiyatlardan ekoloji-iqtisadi komponetnlərin qarşılıqlı vəhdəti çərçivəsində maksimum səmərəli istifadəni davam etdirməkdə maraqlıdır və konkret desək buna məcburdur. Bizə görə, iqtisadi fəaliyyətin hər bir yeni istiqaməti insanların ehtiyaclarından yaranır və formalaşır. Təbiətdən istifadə, təbii resursların iqtisadi dövriyyəyə cəlb edilməsi bütün dövrlərdə və elə indinin özündə də zərurətdən ortaya çıxır. Bu qlobal problemlər hələ XX əsrin 60-70-ci illərindən başlayaraq, alimlərin ciddi diskusiyalarının mərkəzinə çevrilmişdir. 1970-ci illərin əvvəllərindn başlayaraq beynəlxalq aləmdə yeni termin, yeni anlayış "davamlı inkişaf" konsepsiyası anlayışı artıq sosial-iqtisadi inkişaf proseslərində tez-tez işlədilən ifadəyə çevrilməkdə idi. Qeyd edək ki, bu anlayışın mənası ingliscədən "sustainable development" sözündən formalaşmışdır. "Davamlı inkişaf" anlayışının əsasında isə "tarazlı vəziyyət" mənası işlədilir[3, s.254]. Bu səpkidə inkişaf problemləri iqtisadiyyatın yeni istiqamətdə, özü də ənənəvi iqtisadi yanaşmalardan əhəmiyyətli şəkildə fərqlənən istiqamətdə yönəlməsini şərtləndirmilşdir və bu istiqamətdə əsas prioritetlər cəmiyyətin və istehsalçıların təbii resurslara münasibətinin dəyişdirilməsi, onların tükənə bilməsinin hər kəs tərəfindən ciddi qəbul edilməsini anlamaqdan və təbii resurslardan iqtisadi proseslərində maksimum səmərəli istifadəni təmin etməkdən ibarətdir. Bəşəriyyət özünün davamlı və dayanıqlı inkişafı problemlərini dərk etməli, ona hər cür nemətlər və sərvətlər verən təbiətlə davranışda diqqətli və qənaətçil olmalıdır[4]. Dünya ölkələri və dövlətlər təbii resurslardan səmərəli istifadənin müasir dövrdə adekvatlığı ilə fərqlənən modellərinin işlənib hazırlanmasını və reallaşdırılmasını təmin etməlidirlər. Bu strateji tədbirlərin əsasında bərpa olunmayan təbii ehtiyatların kompleks istifadəsinin təmin edilməsi, qənaət rejiminin hər bir xırda detalının belə imkanlarından istifadə olunması, artıq məsrəflərin və itkilərin qarşısın alınması dayanmalıdır. Əgər söhbət davamlı və dayanıqlı inkişafdan gedirsə, bunlar da bəs etmir, belə ki, bəşəriyyətə və insanlara sağlam həyat tərzi, sağlam qida, təhlükəsiz su mənbələri, faydalı və həmişəyaşıl flora və faunalar, təbii rəngarəglik, canlı aləmin ahəngdarığı, bioloji varlıqların davamlılığı və s. mütləq şəkildə lazımdır. Ölkələr və dövlətlər təbii resurslardan istifadə edərəkən bu varlıqları qorumalı, dəyərləndirməli və ekoloji təhlükəsizliyi tam mənada təmin etməlidirlər. Qeyd edək ki, 1992-ci ildə 3-14 iyun tarixində Rio-de-Janeyroda davamlı inkişaf problemləri üzrə BMT-nin Konferensiyasında dünya ölkələrinin qarşısında duran mühüm vəzifələr, bunlarla bərabər qlobal problemlər müzakirə edilmişdir[5, s. 4]. Bu ali məclisdə davamlı inkişaf problemləri üzrə 27 prinsip müəyyənləşdirilmişdir və dünya ölkələrin əksəriyyəti bu istiqamətdə davamlı və ardıcıl tədbirlər görməkdədirlər. Yeri gəlmişkən, Azərbaycan da bu prinsiplərə qoşulmuşdur və son 10-15 ildə milli iqtisadiyyatın iqtisadi inkişaf modelinin formalaşdırılması və təkilləşdirilməsi proseslərində bu prinsplərlə bağlı əhəmiyyətli tədbirlərin görülməsi təmin olunmuşdur və bunlarla bağlı irəlidə tədqiqat materiallarını verəcəyik.

Qeyd edək ki, ekoloji-iqtisadi sistem, ilk növbədə iqtisadiyyatın fəaliyyət mexanizmləri ilə təbii resurslar və sərvətlər arasındakı fəal və səmərəli inteqrasiyanı özündə birləşdirir. Bu inteqrasiya proseslərinin mərkəzində milli iqtisadiyyatın davamlı və dayanıqlı inkişafının təmin edilməsi üçün ölkənin bütün ərazilərində, o cümlədən ucqar regionlarında mövcud resurslardan və milli sərvətlərdən maksimum səmərəli istifadənin təşkili, ümumölkə səviyyəsindəki inkişafdan geri qalmış ərazilərin reabilitasiyası və bütün bunlarla yanaşı ekoloji təhlükəsizliyin ciddi şəkildə qorunması, təbiətə zərər vurulmaması dayanırlar. Təbiətdən və təbii resurslardan səmərəli istifadəyə nail olunması milli iqtisadiyyatln rəqabət qabiliyyətini artırmağa imkan verir, ölkənin davamlı və dayanıqlı inkişafı üçün əlavə potensial formalaşdırır. Bunlarla bərabər, ölkədə işsizliyin aradan qaldırılması və kasıbçılığın səviyyəsinin aşağı salınmasına da əlavə töhvələr verir. Təsadüfi deyidir ki, dünya səviyyəsində 2000-2015-ci illər ərzində minilliyin əsas prioritet inkişaf istiamətləri sırasında başlıca problemlərdən biri kimi mütləq kasıbçılıq və aclıq göstərilmişdir[6]. Amma, təəssüf ki, dünya ölkələrinin bir çoxunda hələ də insanlar aclıqdan əziyyət çəkirlər, məcburi miqrasiya problemləri artmaqdadır, insanlar yaxşı yaşamaq üçün digər ölkələrə can atarkən həyatlarını belə itirirlər və s. Avropadakı miqrant böhranı kontekstindən yanaşsaq, on minlərlə insanlar aclıqdan və səfalətdən, vətəndaş müharibəsindən, ixtişaşlardan qaçaraq bu qitədə nicat tapmaq arzusunda ikən, həyatlarını itirməli olurlar. Ümumiyyətlə, Birləşmiş Millətlər Təşkilatı səviyyəsində, Avropa Birliyi səviyyəsində, dünya ölkələrinin əsas məşvərət formaları olan "Yeddilik" və "İyirmilik"lərin sammitlərində, beynəlxalq qlobal forumlarda bu kimi problemlərin həlli ilə bağlı iqtisadi aspektlər də az əhəmiyyət kəsb etmir. Əgər dünya ölkələrində milli resurslardan və sərvətlərdən ekoloji-iqtisadi kontekstdə optimal istifadəyə nail olunarsa, dünya ölkələrində, qeyd etdiyimiz kimi kasıbçılığın və aclığın səviyyəsi əhəmiyyətli səviyyədə aşağı düşərdi. Bu narahatlığı əsas götürərək BMT-nin İşçi qrupunun məruzəsində göstərilir ki, 2030-cu ilədək olan dövr ücün dövlətlər təbii resurslardan və milli sərvətlərdən istifadənin ən səmərəli və məhsuldar yollarını tapmalı, insanların həyat səviyyəsini yaxşılaşdırmalı və yoxulluğun azaldılması üçün investisiyaların yatırılmasını artırmalıdırlar[7]. Davamlı və dayanıqlı inkişafdan danışarkən və bu kimi problemlərin həlli üçün ekoloji-iqtisadi sistemin müasir məhsuldar mexanizmlərinin və komponentlərinin vacibliyini bildirərkən, digər tərəfdən təəssüf hissi ilə qeyd etmək lazım gəlir ki, BMT mütəxəssislərinin apardığı araşdırmalara görə dünyada 150-dən çox ölkənin milli iqtisadiyyatlarının davamlı və dayanıqlı inkişafında ciddi problemlər vardır. Acınacaqlısı isə ondan ibarətdir ki, həmin ölkələrin əlli faizindən çoxunun yerləşdiyi ərazilərdə bir milyarddan artıq insan ifrat yoxsulluq və ağır şəraitdə yaşamaqda davam edirlər[8, s.154]. Bu baxımdan ekoloji-iqtsadi sistemin dayanıqlı inkişafının təhlili və qiymətləndirilməsi, bununla əlaqədar inkişaf indikatorlarının



müəyyənləşdirilməsi, dayanıqlı inkişafın səviyyəsinin obyektiv qiymətləndirilməsində optimal metodlardan istifadə edilməsi xüsusi diqqət mərkəzində saxlanılmalıdır. Dövlət və dövlət orqanları, korporasiyalar və müəssisələr bazar münasibətləri şəraitdə təbiətdən və təbii resurslardan istifadənin hüquqi və təsərrüfat mexanzimlərinin optimallığına kompleks və sistemli yanaşmalı, iqtisadiyyatın inkişafının modelləşdirilməsi ilə yanaşı, ətraf mühitə təsir edən zərərli təsirlərin minimuma endirilməsi və təbii resurslardan istifadənin səmərəliliynin artırılması tədbirlərini ardıcıl və məhsuldarlıqla həyata keçirilməlidirlər. Bu məqsədlə hər bir ölkənin milli iqtisadi inkişaf təmayülləri və milli iqtisadi maraqları nəzərə alınmaqla iqtisadi-ekoloji sistemin formalaşdırılması və inkişafı konsepsiyası olmalıdır. Tədqiqatçı A.Nurtdinov qeyd edir ki, iqtisadi, sosial və ekoloji problemlərin kompleks baxılması və həlli üçün optimal variantların seçilməsi məqsədilə ölkənin iqtisadi sistemində dərin institusional islahatlar aparılmalı və iqtisadiyyatın diversifikasiyalaşıdırlmasına, rəqabət qabiliyyətin güclənməsinə imkan verən sosial-iqtisadi inkişaf modeli formalaşdırılmalı, milli iqtisadiyyatın davamlı və dayanıqlı inkişafı təmin olunmalıdır[9, s. 34]. Bunun üçün ölkədəki təbii və iqtisadi resursların potensialı fundamental olaraq öyrənilməli, potensialın həcmi ölçülməli, iqtisadi sistemin hər bir komponentinin fəaliyyəti obyektiv olaraq qiymətləndirilməli və adekvat strateji məqsədlər müəyyənləşdirilərək arıdıcıl formada tədbirlərin görülməsi təmin edilməlidir. Bu tədbirlər içərisində önəmli yerləri ekoloji təhlükəsilik probelmlərini həll etməyə imkan verən infrastruktura və texnologiyalara malik olan rəqabət qabiliyyətli istehsal müəssisələrinin yaradılmasına üstünlük verilməsi tutmalıdır. Davamlı inkişaf təkcə özündə iqtisadi inkişafın yeni mərhələsi kimi baxılmır, həm də özündə ekoloji-iqtisadi münasibətləri birləşdirir. Digər tərəfdən, ekoloji-iqtisadi münasibətlərin və bununla əlaqədər formalaşdırılmış sistemin tənzimlənməsi mühüm məsələ kimi diqqət çəkir. Belə ki, ekoloji seqment milli iqtisadiyyatın bu və ya digər sahələrinin inkişafına, ekoloji-iqtisadi institutların formalaşdırılmasına, struktur dəyişikliklərinin və iqtisadi islahatların səmərəli təşkilinə ciddi təsir göstərmək iqtidarındadır. Bu baxımdan dövlət ekoloji-iqtisadi münasibətlərin qarşılıqlı təsir dairəsini tam müəyyənləşdirilməli və tənzimləyici mexanizmləri hazırlayaraq fəal olaraq tətbiq etməlidir [10, s. 127]. Bu məqsədələ, milli iqtisadiyyatın davamlı inkişafına təsir edən bütün təsərrüfat mexanizmləri ekoloji-iqtisadi meyarlar əsasında qiymətləndirilməli və təkmilləşdirilməlidir. Ekoloji-iqtisadi sistemin əsas komponentlərindən olan enerji resurslarından səmərəli istifadənin qiymətləndirilməsi proseslərində çoxukladlı yanaşma təmin edilməlidir. Bu məqsədlə bir çox parametrlərin, o cümlədən istehsal şəbəkəsinin formalaşdırılması, ekoloji, iqtisadi, konstruktiv, texnoloji və təşkilati parametrlərin adekvat olaraq qiymətləndirilməsi vacib şərtlərdəndir [11]. Eyni zamanda, ekoloji-iqtisadi sistemin dayanıqlı inkişafının əsas mexanizmlərinin, o cümlədən idarəetmə mexanizmlərinin optimal hazırlanması və tətbiq edilməsi mühüm əhəmiyyət kəsb edir. Ekoloji-iqtisadi sistemin təkmilləşdirilməsi və davamlı inkişafın təmin edilməsi proseslərində əsas altsistemlər kimi – iqtisadi davamlılıq, ekoloji davamlılıq, sosial davamlılıq və institusional davamlılıq iştirak edirlər [12]. Bu sistemlərin üzvi şəkildə və qarşılıqlı fəaliyyət sistemi formasında baxılması istifadə olunmayan resursların aşkarlanmasına və ekoloji-iqtisadi meyarlar nəzərə alınmaqla onların təsərrüfat-istehsal dövriyyəsinə cəlb olunmasına, təbii sərvətlərin və iqtisadi resursların milli iqtisadiyyatın inkişafının modelləşdirilməsində real iştirakına imkan verir. Bunlarla bərabər, ekoloji-iqtisadi sistemin davamlı inkişafı nəticəsində makroiqtisadi səviyyədə ekoloji-iqtisadi təhlükəsizlik təmin olunur və milli iqtisadiyyatın daha sabit inkişaf etdirilməsi potensialı formalaşdırılır [13]. Problemə bu cür yanaşma, eyni zamanda təbii resurslardan istifadə məsələlərinə təsərrüfat-kommersiya maraqları ilə bərabər, cəmiyyətin mənafeyinin qorunması prioritetinin nəzərə alınmasına imkan verir, nəticədə cəmiyyətlə istehsalçı şəbəkə arasında, cəmiyyətlə iqtisadi sistem arasında harmonik atmosfer formalaşdırılır, ekoloji problemlərin həllinə və ekoloji təhlükəsizliyin təmin edilməsinə tarazlaşdırılmış baxışlar yaranır, cəmiyyətin və milli iqtisadiyyatın davamlı inkiaşfına əlavə imkanlar ortaya çıxır.

Müasir dövrdə Azərbaycan iqtisadiyyatı da tarixi sınaq qarşısındadır. Dünya bazarında neftin qiymətinin bir neçə dəfə düşməsi ölkəmizdə qeyri-neft sektorunun inkişafının yenidən modelləşdirilməsini şərtləndirmişdir. Milli iqtisadiyyatın davamlı və dayanıqlı inkişafı əlavə dəyər yaradan iqtisadiyyat sahələrinin inkişaf etdirilməsini tələb edir. Bu baxımdan emal və istehsal şəbəkəsinin genişləndirilməsi üçün təbii resurslar və faydalı qazıntılar emal və istehsal proseslərinə cəlb olunmalı, yeni texnologiyalar əsaslı rəqabət qabiliyyətli müəssisələr yaradılmalıdır. Bu məqsədlə strateji hədəflər müəyyənləşdirilmiş və artıq onların icrasına başlanılmışdır [14]. Ölkəmizdə kifayət qədər faydalı qazıntılar və xammal resursları, həmçinin enerji resursları mövcuddur. Müasir şəraitdə əsas vəzifə bu resurslardan ölkə təbiətinə və landşafta zərər vurmadan yeni emal və istehsal şəbəkəsinin təşkilindən ibarətdir. Təbiət ölkəmizə hər cür yeraltı və yerüstü sərvətlər vermişdir. Bizim vəzifəmiz bu sərvətlərdən milli iqtisadiyyatın inkişafın naminə səmərəli istifadəni fəal olaraq təmin etməkdir [15, s. 9]. Son illərdə bu istqamətdə, xüsusilə təbiətdən istifadənin səmərəliliyinin artırılması, ekoloji təhlükəsizlik mexanizmlərinin təkmilləşdirilməsi şərtilə təbii resursların iqtisadi dövriyyəyə cəlb edilməsinin intensivləşdirilməsi tədbirləri genişlənməkdədir. Bununla əlaqədər olaraq, ölkəmizdə ekoloji-iqtisadi sistemin optimal modelinin işlənib hazırlanması və konseptual yanaşma təmin edilməklə tətbiqinin reallaşdırılması vaxtı çatmışdır. Professor E.Hacızadə bildirir ki, dayanıqlı inkişaf konsepsiyası yalnız qlobal hadisələri təcəssüm etdirmir. Onun məğzini daha çox normativ iqtisadiyyat aspektində lokal ekoloji mədəniyyətin inkişafı və tam bərqərar olması təşkil edir. Bu baxımdan bizim respublikamızda da sosial-iqtisadi tərəqqi dayanıqlı iqtisadi inkişaf prinsiplərini nəzərə almadan yetkinləşə

bilməz. İqtisadi quruculuq təbiət təmasları ilə qarşılıqlı münasibətdə əks olunur. Buna görə də, iqtisadiyyatın ətraf mühitə ciddi təsiri danılmaz fakta çevrilir [16]. Buna görə də, ölkəmizdə iqtisadiyyatın manevrləşdirilməsi və modelləşdirilməsi proseslərində ekoloji amil kompleks şəkildə baxılmalı və nəzərə alınmalıdır. Ölkəmizdə təbiətdən istifadə və ekoloji təhlükəsizlik istiqamətlərində daha təsirli təşkilati, texniki-texnoloji xarakterli təxirəsalınmaz tədbirlərin həyata keçirilməsinə, bazar münasibətlərinin kəskin tələblərinə uyğun ekoloji-iqtisadi vəziyyətin təhlil edilib qiymətləndirilməsinə, ehtiyat imkanlarının aşkara çıxarılmasına, ətraf mühitin mühitin mühafizəsi üzrə təsirli stimullaşdırıcı tədbirlərin həyata keçirilməsinə ciddi ehtiyac duyulur [17, s. 4].

Beləliklə, qlobal təhlükələrin artdığı şəraitdə ekoloji-iqtisadi sistemin dayanıqlı inkişafının təmin edilməsi və möhkəmləndirilməsi üçün milli iqtisadiyyatın inkişafının müasir dövrün tələblərinə uyğun modelləşdirilməsi, mövcud mexanizmlərin yenilənməsi və təkmilləşdirilməsi, bazar münasibətlərinin dərinləşdiyi şəraitdə təbii resurslardan və milli sərvətlərdən istifadənin səmərəliliyinin artırılması tədbirlərnin aktuallığı artmaqdadır. Bunlarla əlaqədar olaraq görülən tədbirlərin strateji əhəmiyyətini nəzərə alaraq, mövcud problemlərə, potensiala və inkişaf determinantlarına müasir, mütərəqqi və metodoloji baxımdan optimal elmi-praktiki baxışlar formalaşdırılmalı, qeyd olunanlar dövlətin iqtisadi siyasətində, ekoloji-iqtisadi sistemin təşkili mexanizmlərində və reallaşdırılmasında nəzərə alınmalıdır və s.



## ƏDƏBİYYAT:


1. *Smith, Adam. Wealth of Nations, edited by C. J. Bullock. Vol. X. The Harvard Classics. New York: P.F. Collier & Son, 1909–14; Bartleby.com, 2001.*

2. *Alfred Marshall. Principles of Economics, 1890—1891.*

3. *Мельник Л.Г. Основы устойчивого развития: Сумы, ИДТ «Университетская книга», 2005.-654 с..*

4. *Поздняков А.В. Проблемы цивилизации и устойчивое развитии. http://www.ihst.ru.*

5. *Рио-де-Жанейрская Декларация по окружающей среде и развитию. 3-4 июня 1992 год. Конференция ООН//A/CONF.151/26/Rev.1(Vol.1).-P. 3-7 http://www.un.org.*

6. *Тоганова Н.В. Новые цели ООН в области устойчивого развития. ИМЭМО РАН, 2016. http://www.imemo.ru.*

7. *Повестка дня в области Устойчивого Развития на период до 2030 года. Программа развития ООН. http://www.by.undp.org.*

8. *World Economic and Social Survey 2013. Sustainable Development Challenges. United Nations publication. Sales No. E.13.II.C.1. United Nations, 2013.-216 p. http://www.sustainabledevelopment.un.org.*

9. *Нуртдинов А.Р. Институциональное обеспечение устойчивого развития в условиях эколого-экономического неравновесия. Дисс. канд. экон. наук. Казань, 2011.- 195 с.*

10. *Матюгина Э.Г. Институционализация как упорядочение эколого-экономических отношений национальной экономики. Дисс. д-ра экон. наук. Томск, 2009.- 443 с.*

11. *Ануфриев В.П. Эколого-экономическая оценка рационального использования энергетических ресурсов в системе Киотского протокола. Дисс. д-ра экон. наук. Новосибирск, 2006.- 320 с.*

12. *Малышев А.А. Механизмы управления устойчивостью эколого-экономической системы. Дисс. канд. экон. наук. Пенза, 2011.- 186 с.*

13. *Губайдуллина Т.Н. Устойчивое развитие эколого-экономической системы: Вопросы теории и методологии. Дисс. д-ра экон. наук. Казань, 2000.- 350 с.*

14. *Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.*

15. *Nadirov A.A. və digərləri. Azərbaycan iqtisadiyyatı. Bakı, "Elm", 2003.-344 s.*

16. *Hacızadə E.M. Davamlı inkişaf konsepsiyasının sosial-iqtisadi aspektləri. http://www.elshenhajizadeh.com.*

17. *Hüseynov A.G. Azərbaycanda təbiətdən istifadənin səmərəlilik və ekoloji təhlükəsizlik mexanizmlərinin təkmilləşdirilməsi. İ.e.d. dissertasiyasının Avtoreferatı. Gəncə, 2014.-44 s.*



***Açar sözlər:*** *ekologiya, təbiət, iqtisadiyyat, ekoloji-iqtisadi sistem, dayanıqlı inkişaf, milli iqtisadiyyat, səmərəlilik.*

***Ключевые слова:*** *экология, природа, экономика, эколого-экономический систем, устойчивое развитие, национальная экономика, рациональность.*

***Key words:*** *ecology, nature, economy, ecology-economic systems, sustainable development, national economy, rationality.*



**РЕЗЮМЕ**

В статье исследованы современные аспекты устойчивого развития эколого-экономической системы в условиях роста глобальных угроз. С этой целью анализированы тенденции мировых экономических процессов в условиях углубления влияния глобальных угроз, важность рационального использования природных ресурсов и национальных богатств стран мира. Раскрыта сущность и значимость эколого-экономической системы, которая способствует комплексному рассматриванию обеспечения устойчивого развития экономики и общества.

В конце статьи обобщенно научно-практические взгляды по интенсификации развития эколого-экономической системы и его современных аспектов.



**SUMMARY**

The economic approach to the problem modern aspects of sustainable development of ecology-economic system in the conditions of growth of global threats the article examines. Tendencies of world economic processes in the conditions of deepening of influence of global threats, importance of rational use of natural resources and a national wealth of the countries of the world are for this purpose analyzed. The entity and the significance of ecology-economic system which promotes complex examining of support of sustainable development of economy and society are opened.

A number of suggestions and recommendations the scientific and practical views on an intensification of development of ecology-economic system and his modern aspects are given in the end of the article.

# Region



ŞƏFƏQ MUSTAFAYEVA
Azərbaycan Milli Elmlər Akademiyası

## AVROPA İTTİFAQI ÇƏRÇİVƏSİNDƏ FRANSANIN GÜRCÜSTAN DAXİLİ MÜNAQİŞƏNİN TƏNZİMLƏNMƏSİNDƏ ROLU



Cənubi Qafqaz ölkələrində mövcud olan münaqişələr regionda təhlükəsizliklə bağlı vəziyyətin həmin ölkələrin uzun müddət müəyyən strategiya üzərində işləməsinə mane olmasıdır. Nəticədə regionda vahid təhlükəsizlik sistemi formalaşmayıb. Cənubi Qafqaz ölkələri üçün başlıca hədə kimi Ermənistanın təcavüzkar siyasəti, İran ətrafında yaranmış vəziyyət, Rusiya- Gürcüstan arasındakı gərginliyin mövcud olmasıdır.

Gürcüstan Respublikasının ərazisi Rusiyanın Ermənistanla, Türkiyənin Azərbaycanla quru əlaqəsini təmin edən, cənubi Qafqaz ölkələri içərisində dənizə birbaşa çıxışı olan yeganə ölkədir.

Cənubi Osetiya problemində üz-üzə gələn tərəflər Sxinvali və Tiflis görsənsə də əslində bu münaqişəyə Cənubi Qafqaz regionunda Gürcüstan üzərində təsirini artırmaqda böyük səy göstərən Rusiya və ABŞ-ın maraqlarının toqquşması kimi baxılmalıdır. Rusiya və Gürcüstan arasında şimal və cənub hissələrə bölünən Osetya əhalisinin çoxunu təşkil edən etnik osetinlərin birləşmək istəyi də nəzərdən yayınmamalıdır.

Medvedev- Sarkozi razılaşmasında müxtəlif formatlarda və səviyyələrdə aparılan danışıqlara baxmayaraq, münaqişə hələ də həll edilməmiş qalır. Bu məqalədə bizim məqsədimiz Rusiya-Gürcüstan arasında yaranan gərginliyin aradan qaldırılmasında böyük rol oynayan, Ai-nın dövri sədrliyini həyata keçirən Fransanın münaqişənin tənzimləməsindəki maraqlarını araşdırmaq, münaqişənin həlli prespektivlərinə dair mülahizələr və mühakimələr irəli sürməkdən ibarətdir.

Problemə ilk növbədə tarixi aspektdən yanaşaq görmək olar ki, Osetinlər Şimali və Cənubi Qafqazda yaşayan Hind-Avropa irqinə mənsub olan iran əsilli qafqaz xalqıdır (6; 77). Gürcüstanda yaşayan osetinlər XII- XIII əsrdə Monqol ordularının Qafqazı işğal etdiyi vaxt Qafqaz dağlarını aşaraq Gürcüstana gəldiklərini təsdiq edən tarixi fakta baxmayaraq (5; 201,202), gürcü tarixçiləri osetinlərin son iki əsr ərzində şimaldan köç etdiklərini bildirirlər (6;77).

1801-ci ildən Gürcüstanın nəzarətində olan Cənubi Osetiya 1918- ci ildə Gürcüstan müstəqillik əldə etdikdə belə Gürcüstanın nəzarətində qaldı. 1921-ci Qırmızı Ordu Gürcüstanı işğal etdi və 1922-ci ildə Gürcüstan Sovet Sosialist Respublikası tərkibində Cənubi Osetiya Muxtar Vilayəti yaradıldı. Osetinlərin yalnız 14%-i gürcü dilini bilməsinə baxmayaraq, 1989-cu ildə Gürcüstan Ali sovetində gürcü dili Gürcüstan ərazində yeganə rəsmi dil elan olunması osetinlər tərəfindən narazılıqla qarşılandı (6;77).

1992-ci sentyabrın 20-də Gürcüstan Sovet Sosialist Respublikasının tərkibində Cənubi Osetiya Muxtar əyaləti yaradıldı. 1925-ci il iyulun 7-də Şimali Osetiya Rusiya Federasiyasının tərkibində Muxtar əyalət elan olundu. 1936-cı ildə Şimali Osetiyaya

Muxtar Respublika statusu verildi.

Cənubi Osetiya əhalisinin çoxunu təşkil edən etnik osetinlər beynəlxalq arenada bipolyar sistemin dağılma ərəfəsində özlərinə belə bir sual ilə müraciət etdilər : "Almaniya kimi bir dövlət olaraq bizim birləşməyə haqqımız yoxdurmu ?". (4; 8.) Lakin, Gürcüstan Ali Soveti bu tələbin konstitusiyada öz hüququ əsasını tapmaması səbəbindən qəbul etmədi. Bu addım tərəflər arasında münasibətlərin daha da gərginləşməsinə səbəb oldu.

1990-cı ilin noyabrında öz müstəqilliyini elan edən Gürcüstan Respublikasının ilk prezidenti olmuş milliyətçi Zviad Qamsaxurdiya dekabr ayında Cənubi Osetiyada keçirilən parlament seçkilərini qanunsuz elan etdi və Gürcüstan gürcülərindir şüarına sadiq qalaraq Cənubi Osetiyaya qoşun göndərdi (1;131). 1991-ci ildə gürcü ordusunun Sxinvaliyə daxil olması ilə daxili qarşıdurma başladı. Lakin, 1992-ci ilin yanvarında hakimiyyətə gələn Eduard Şvardnadze bu qarşıdurmanı davam etdirmək istəmədiyini bildirdi. 1992-ci ilin iyun ayının 24-də Şverdnadze və Rusiyanın prezidenti Boris Yeltsin atəşkəs haqqda razılığ əldə etmişdilər (3;14). Soçi şəhərində imzalanan anlaşmaya əsasən Ortaq Nəzarət komissiyası yaradıldı. Bu komisiyanın yaradılmasında məqsəd atəşkəsə nəzarət, müdafiə rejimini təmin etmək idi.

Cənubi Osetiya ərazisi 1995-ci ildə Gürcüstan konstitutsiyasında edilən dəyişiliklər nəticəsində Sxinvali adlandırıldı. 1996-cı ildə Gürcüstanın Rusiya ilə razılaşması nəticəsində Moskvada Gürcüstan-Cənubi Osetiya tərəfləri arasında qarşılıqlı inamı təmin etməyə və gücləndirməyə istiqamətlənən memorandum imzalandı(5;201,202). 1997-ci ildən Moskvada bölgənin statusu ilə əlaqədar müzakirələr başlasa da heç bir irəliləmə əldə olunmadı.

1996-cı ilin noyabr ayında Cənubi Osetiya keçirilən prezident seçkilərində Gürcüstana münasibətdə daha praqmatik və balanslı siyasətin tərəfdarı olan Ludviq Cibirov Cənubi Osetiya Respublikasının prezidenti seçildi. Bu dövrü Gürcüstan- Cənubi Osetiya münasibətlərinin inkişaf dövrü kimi xarakterizə edə bilərik. Hər iki tərəfdə mülayim prezidentlerin hakimiyyətdə olması münasibətlərin yumşalmasına yol açdı. Lakin, Ciburivdən sonra hakimiyyətə gələn Eduard Kokoev Cənubi Osetiya- Gürcüstan arasında münasibətlərin yenidən sərtləşməsinə səbəb oldu (4;8 ).

Aİ- nin bu bölgə ilə maraqlanması nəticəsində 1997- ci ildə 3.5 mln. avro yardım ayırmışdır. Aİ–nin ayırdığı bu məbləğ iqtisadiyyatın bərpası üçün xərclənmişdir. 1.5 mln. avro məbləğində ikinci yardım Qori- Sxinvali dəmir yoluna və Sxinvali dəmiryol inşasına sərf edilmişdir. 2003-cü ildə 2.5 mln. dəyərində ayrılan məbləğin Gürcü-Cənubi Osetiya gömrük mexanizminin və Şimal-Cənub ana yolunun yenidən inşa olunmasına ayrılmışdırsada, iki tərəfin gömrük ərazisini təyin etməkdə göstərdikləri qeyri konstruktiv mövqe səbəbindən nəticəsiz qaldı. 2004-cü ilin yanvar ayında Aİ növbəti bərpa proqramı imzalanmışdır (4;8).

Nəticə olaraq qeyd etmək olar ki, göstərilən dövrə qədər Aİ münaqişənin həll olunması istiqamətindən daha çox bu bölgədəki bərpa ilə maraqlanmışdır .

2001-ci ildə Gürcüstanın ərazi bütövlüyünü dəstəkləyən Aİ-nın Nazirlər Şurasında Cənubi Qafqazda mövcud olan münaqişələrin həllində gələcəkdə daha aktiv olacağı haqqında qərar qəbul etmişdir (8).

Gürcüstan Respublikasının ərazi bütövlüyünü siyasətinin prioriteti hesab edən Mixayıl Saakaşvili 2003-cü ilin oktyabr ayında qızılgül inqilabı nəticəsində hakimiyyətə gəldi.



**Gürcüstanın Cənubi Osetiya probleminin həllində Avropa İttifaqının dəstəyindən istifadə etməsi**

Regionda özünün təhlükəsizliyini və sabitliyin yeganə qarantı hesab edən Rusiya üçün Gürcüstan ərazisi strateji əhəmiyyət kəsb edir. Bununla Azərbaycana təzyiq etmək və bu regionda blokadaya məruz qalmış Ermənistanla birbaşa quru sərhəd əlaqələrin qurmaq, enerji xətlərinə nəzarət etmək üçün çox vacib bölgədir. Bu dövlətin ərazisinin Rusiya üçün siyasi-hərbi əhəmiyyəti NATO-nu Qafqazdan kənarlaşdırmağa nail olmaq kimi də qiymətləndirə bilərik. Şübhəsiz, bu torpaqlar Rusiya ilə müqayisədə Gürcüstan üçün daha vacibdir. Gürcüstan müstəqillik əldə etdikdən bəri bu torpaq səbəbindən Rusiyanın təsiri altında olmuşdur. M.Saakaşivilinin Cənubi Osetiyaya qarşı hərbi əməliyyata başlamasının səbəbi kimi Rusiyanın "əsarətindən" bir dəfəlik çıxmaq istəyini göstərə bilərik. Gürcüstanın Cənubi Osetiyada hərbi əməliyyatlara başlamasına Rusiya dərhal müdaxilə etməklə Gürcüstan kimi NATO ya üzv olmaq istəyən Ukrayna, Moldova kimi dövlətlərə bu regionda sabitliyin və təhlükəsizliyin yeganə təminatçısının Rusiya olduğunu bir daha bildirdi. Aİ-a dövrü sədrlik edən Fransa müharibə edən tərəflər arasında sülhün yaramasına nail olmaqla region dövlətləri arasında imicinin artmasına səbəb oldu (7).

Medvedev-Sarkozi planı 6 bənddən ibarət idi. Planda bunlar nəzərdə tutulurdu:

1. İxtilafda olan tərəflərin güc tətbiq etməməsi
2. Bütün hərbi əməliyyatları tamamilə bitirmək
3. Humanitar yardımı sərbəst qəbul etmək imkanı
4. Gürcüstan silahlı qüvvələrinin daimi dislokasiya yerlərinə qayıtması
5. RF silahlı qüvvələri daimi dislokasiya yerlərinə qayıtması
6. Abxaziyada və Cənubi Osetiyada sabitliyin və təhlükəsizliyin təminatının beyənəlxalq zəmanətin yaradılması

M.Saakaşvili Gürcüstan ərazi bütünlüyünün pozulması mülahizəsindən çıxış edərərək planın Cənubi Osetiya və Abxaziyanın beynəlxalq müzakirə statusuna dair olan 6-cı bəndinə etirazını bildirmişdi. 6-cı bəndin ilkin mətni belə idi: " Cənubi Osetiyanın və Abxaziyanın gələcək statusu məsələsinin beynəlxalq müzakirəsinin başlanması." RF DİN başçısı Sergey Lavrov aydınlıq gətirdi: " Fransa Prezident Sarkozi Medvedyevə ( Tiflisdən) zəng vurdu və etirazı ona

çatdırdı ”. Medvedev bu maddənin çıxarılmasını qəbul etdi. Beləliklə, 6 maddədən ibarət olan plan 5 maddəyə endirildi.

Proseslerin bu cür inkişafı yeni bir sualın doğmasına səbəb oldu.

**Avropa İttifaqının Fransanın sədrliyi dövründə həyata keçirən Gürcüstan-Cənubi Osetiya münaqişəsinin tənzimlənməsində maraqları nədən ibarət idi ?**

**1. Avropa İttifaqının Rusiyadan enerji aslılığı hələ də davam edəcəkmi ?**

Gürcüstan həm Avropa dövləti olan Fransa, həm də Türkiyə üçün enerji sahəsində önəmli tranzit ölkədir. Bakı-Tibilisi-Ceyhan neft və Bakı-Tibilisi- Ərzurum təbii qaz kəmərlərinin Qərb-Şərq yönündə Rusiyanın nəzarətindən kənarda qalan bu xətlərin hər ikisi Gürcüstan ərazisindən keçir. Bu məqam geosiayasi oyunların səhnəsinə çevrilmiş Cənubi Qafqazda Gürcüstanın "daha baxımlı" olmasına səbəb oldu. Əgər bu kəmərlər təxribatlara və Rusiyanın açıq müdaxiləsinə məruz qalarsa onda Avropanın enerji şaxələndirmə siyasətindən və enerji təhlükəsizliyindən söz gedə bilməz. Türkiyə üçün isə Qafqazdan Mərkəzi Asiyaya uzanmaq ideyasının boşa çıxmasına səbəb olardı. Fransa Rusiyanın enerji mənbəyinə nəzarət edən vacib fiqur olduğunu nəzərə alaraq bu problemin həllində Rusiyanın prioritetlərinə önəm verməsi təbii idi.

**2. Soyuq müharibə qayıdırmı?**

Avropa, Yaxın Şərq və Asiya qovşaginda yerləşən Cənubi Qafqaz kimi həssas regionda baş verən Cənubi Osetiya problemində qarşı-qarşıya duran tərəflərin əslində ABŞ və Rusiyanın olduğunu doğru olaraq fərqində olan Fransanın münaqişənin tənzimləmə siyasətində oynadığı rol tarixi siyasətinin təkrarı idi. C.Buş (oğul) administrasiyasının Moskvaya qarşı sərt tənqidi, Sakit okeanda birgə rus-amerikan manevrinin ləğvi, dünyaya soyuq müharibədə məlum olan gərginliyin dönüşünə bir işarə idi. Fransa Moskva və Gürcüstan arasında baş verən separatçı bölgədə gərginliyin yatırılmasında böyük rol oynaya bilərdi. İraqda, Əfqanıstanda, Pakistanda baş verən hadisələr və İran böhranı Moskva ilə dialoqu tələb edən faktordarda idi. Aİ- Fransa bu supergüclər arasında hələ də vasitəçi ola bilərdi.

Aİ (Fransa) Cənubi Qafqazda enerji sektorundada öz starateji məqsədlərini açıq surətdə irəli sürmərkdən həmişə çəkinir. Aİ (Fransa) üçün Cənubi Qafqazda ən böyük çətinlik Aİ-Rusiya əlaqələrini uzlaşdırmaq və eləcədə Türkiyənin bu regionda potensial siyasi aktor olduğunu nəzərə alaraq Cənubi Qafqazda öz rolunu müəyyənləşdirməkdir. Yeni müstəqillik qazanmış Cənubi Qafqaz dövlətlərində - Azərbaycan, Gürcüstan, Ermənistan- iqtisadi, sosial, siyasi problemlər ilə böhranlı vəziyyət yarandı. 2003-cü ildə Gürcüstanda qızılgül inqilabı ilə hakimiyyətə gələn demokratik qüvvələr sayəsində Gürcüstan dövlətinin bütün sektorunda müasirləşmə və demokratikləşmə müşahidə olundu. Azərbaycanın böyük enerji lahiyələrini uğurlu reallaşdırması, ABŞ və Fransa kimi Avropa dövlətlərinin buradakı nüfuzu rəsmi Kremldən Qərbə qarşı reaksiyaları doğurdu. Gürcüstan və Rusiya arasında baş verən 5 günlük müharibədən öncə Rusiaya Gürcüstanın NATO ya qoşulmasına və Cənubi Qafqazda təsiri olmadığı enerji lahiyələrinə qəti şəkildə etirazını bildirdi.

3. Geosiayasi oyunların səhnəsinə çevrilən Cənubi Qafqazda Fransanın maraqları digər dövlətlərin buradakı maraqlarından fərqli olaraq, geosiyasi rəqabətə meyillənmir, əksinə qarşılıqlı surətdə mənfəətli əməkdaşlıq ilə xarakterizə olunur.

Nəticədə, Cənubi Osetiya problemi Gürcüstan daxili münaqişə formasından çıxaraq, daha çox beynəlxalq məzmun kəsb etmişdir. Bir təfərdən Rusiya, digər tərəfdan ABŞ münaqişəyə qoşulmaqla Cənubi Qafqaz problemi Rusiya və ABŞ-ıın regionda nüfuz üzərində münaqişəsinə çevrilmişdir.

İlk dəfə idi ki, Aİ böhranın mərkəzində idi. Bu, 1990-cı ildə olan Balkan müharibəsinin pis xatirələrini unutdurmağa kömək etdi. Gürcüstanda baş verən münaqişəyə Fransanın müdaxilə edə bilmə ehtimalının sıfıra bərabər olduğunu nəzərə alsaq, regionda öz strategiyasını yarada bilməsi fransız diplomatiyasının uğuru kimi qiymətləndirilməlidir. Mədəniyyətlərin və dinlərin müxtəlif olduğu və bunun da toqquşmalara səbəb olduğu bu bölgədə əsl bacarıq lazım idi.

Aİ Şurasının 2008-ci il 1 sentyabr qərarına uyğun olaraq 2008-ci il sentyabr ayının 15- dən 2012-ci il 14 sentyabra qədər Gürcüstanda silahsız mülki müşahidə missiyasına başlanması qərara alındı. Bu missiyanın əsas vəzifəsi Gürcüstanda və regionda sabitliyə xidmət etmək, qısa müddətdə vəziyyəti sabitləşdirməyə, razılaşmaya uyğun olaraq 6 maddənin və tədbirlərin həyata keçilməsinə kömək etmək idi (10).

Hal-hazırda zəbt olunmuş ərazilərdə vəziyyət qeyri-stabil olaraq qalır. Rusiya tərəfi Gürcüstan ərazisindən qanunsuz hərbi əməliyyatlarda iştiak etməklə və ölkənin iki əyalətini birtərəfli de-fakto tanımaqla razılaşmanın əsas bəndlərini pozur. Təxminən Abxaziyanın və Cənubi Osetiyanın əhalisinin 3/4 hissəsi qaçqındır. Rusiya hərbi qoşunları isə müqavilənin şərtlərinə əsasən geri çəkilməkdənsə, orada yeni hərbi bazalar yerləşdirirlər.

2012-ci ilin fevral ayında prezident Medvedyev Rusiyanın Gürcüstana qarşı hücuma keçməsinə səbəb kimi Gürcüstanın NATO-ya meyllənməsi ilə regioda Rusiya üçün təhlükəli vəziyyətin yaranmasını göstərmişdi (9).

Gürcüstanın Rusiya hədələrinə səmərəli cavabı Avropa və Avro-Atlantik istiqamətdə davam etdirdiyi siyasətdir . Gürcüstan başa düşür ki, bu yol ölkədə demokratik institutların təsis edilməsindən, əhaliin həyat səviyyəsini yüksəltməkdən, bu sahədə beynəlxalq praktikda əldə edilmiş təcrübənin tətbiq edilməsindən keçir. Gürcüstanın bu təcrübəsini məhv etməyi nəzərdə tutan Rusiya 2008-ci ildəki hərbi əməliyyatları ilə niyyətini həyata keçirə bilmədi.

Medvedev-Sarkozi planına əsasən Rusiyanın Gürcüstandan qoşunların çıxarılması bəndinə Rusiyanın riayət etməməsinə Fransa hər hansı bir etiraz etmədi.

**Aİ və ATƏT-in MİInsk qrupu çərçivəsində Fransanın Cənubi Osetiya və Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində mövqeyi**

Cənubi Osetiya probleminin həlli Dağlıq Qarabağ münaqişəsində olduğu kimi təsiredici mexanizmin yoxluğu səbəbindən tam həll edilməmiş qalır. Bu vəziyyət digər aktorların regiona müdaxiləsinə şərait yaradır. Lakin, maraq doğuran məqamlardan biri AB-nin Dağlıq Qarabağ və Cənubi Osetiya probleminin həllində eyni dərəcədə iştirak etməməsidir. Cənubi Osetiyaya AB tərəfindən verilən maliyyə dəstəyi və reabilitasiya tədbirləri Dağlıq Qarabağa tətbiq olunmamışdır.
Bu məsələyə iki maddədə aydınlıq gətirə bilərik: Birincisi, Cənubi Osetiya münaqişəsi Dağlıq Qarabağ münaqişəsinə nisbətən daha kiçik həcimlidir. İkincisi, Cənubi Osetiya probleminin müzakirə mexanizmaları Dağıq Qarabağa nisbətən daha zəifdir. Ümumi prizmadan nəzər salsaq görərik ki, AB Cənubi Osetiya və Dağlıq Qarabağ münaqişələrnə münasibətdə əsas çatışmamazlıqlar bunlardır: Birincisi, Aİ-nın regiona münasibətdə formalaşan xarici siyasi




kursunda üzv dövlətlərin hər birinin öz maraqlarını müdafiə etdiyindən ortaq məxrəcə gələ bilmirlər.(2;112) İkincisi, "Yaxın Qonşuluq Siyasəti" region dövlətlərində demokratiyanın inkişaf problemlərinin həllinə kömək edəcəyini nəzərdə tutsa da, konkret olaraq bu istiqamətdə əsaslı addımlar atılmamışdır. AB-nin regional siyasətinin formalaşmasında üzv dövlətlərinin maraqlarnı nəzərə aldığına görə onun münaqişə tərəfləri arasında neytral mövqeyi tutmasını şübhə altına alır. Məsələn, Avropa ittifaqının əsas qurucusu və idarəedicisi iki dövlətindən biri olan Fransanın Erməni tərəfdarı olması faktı İttifaqın tərəfsiz siyasət kursu müəyyənləşdirmək prinsipini boşa çıxarır.

Son dövrlərdə Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi istiqamətində əsas vasitəçi qurum olan ATƏT-in Minsk qrupunun fəaliyyətsizliyi AB-nin bu missiyanı üzərinə götürməsi üçün şərait yaradır. ATƏT-in Minsk qrupunun üç həmsədr ölkəsindən biri olan Fransanın, Aİ çərçivəsində də bu regionda təmsil olunmaq istəyi Cənubi Qafqaz regionun Fransa üçün böyük əhəmiyyət kəsb edir fikrini bir daha təsdiqləyir. Minsk qrupunun fəaliyyətsizliyinin səbəbləri kimi bunları göstərə bilərik Birinci, Lissabon sammitindən sonra Minsk qrupunun təklifləri ilə bağlı qərarların verilmə ərəfəsində Ermənistanda hakimiyyət dəyişilikləri baş verdi. Müstəqillik əldə edən Ermənistanın ilk prezidenti olan qərb ermənilərinin namizədi olan Levon Ter-Petrosyan Lissabon sammitindən sonra söylədiyi Bu gün ermənilər anlamalıdırlar ki, Rusiya Qarabağın müstəqilliyini tanımıyacaq. Görəsən erməni xalqı Rusiyanın oyuncağı olaraq nə vaxta qədər qalacaq fikri onun istefasının əsas səbəbi idi. Petrosyanın dövründə Dağlıq Qarabağ məsələsində ortaq fikrə gəlmək, Rusiya ilə münasibətlərin pozulması qərb və Rusiya ermənilərini qarşı qarşıya qoydu. Nəticədə 1997-ildə Ermənistan prezidenti istefaya getdi. Bu isə Minsk qrupunun vasitəçilik missiyasına zərbə vurdu. İkinci, ATƏM-in Xarici İşlər Şurası 1992-ci mart ayında keçirilən görüşdə daölıq Qarabağda vəziyyət müzakirə edilərək, bu sahədə səmərəliyi təmin etmək üçün ATƏM-in Dağlıq Qarabağa dair sülh konfransının çağrılmas haqqında qərar qəbul etdi. Lakin 1992-ci ilin may ayında Erməni silahlı qüvvələri tərəfindən Şuşa və Laçının işğalı münaqişənin mahiyyətini dəyişərək yeni siyasi problem yaratdı və Minsk konfrasının keçirilməsinədə maneə oldu. Üçüncü, Minsk qrupu çərçivəsində danışıqlarda qarşı tərəflər arasında ziddiyyətlərin qalması. Dördüncü, Ermənistanın qeyri konstuktiv mövqeyi. Beşinci, Minsk qrupunun üzvü olan böyük dövlətlər arasında yekdil fikrin olmaması. Altıncısı, Ermənistanın Rusiyaya meyl etməsi. Minsk qrupunun yaradılması təşəbbüsünü Rusiya dəstəkləmişdirsə, əslində qısqanclıq mövqeyindən yanaşırdıar. Çünki, o bu problemin həllində birbaşa vasiəçilik rolunu itirmək istəmirdi. Bununla , Rusiya regionda zəifləmiş mövqeyini gücləndirmək istəyirdi. 2007-ci il Sank-Peterburq prosesində buna nail oldu və vasitəçiliyi ələ aldı. Yeddinci, Rusiyanın gizli və ya aşkar surətdə Ermənistanı silahlandırması. Səkkizinci, Həmsədr ölkələrin xristian təriqətə mənsub olmaları. Bəzi məsələlərdə bitərəfliyi.

Aİ-nin Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində vasitəçilik missiyası təşəbbüsü razı və narazı qruplar tərəfindən ikili mövqe ilə qarşılandı. ATƏT-in Minsk qrupunun üç həmsədr ölkəsindən biri olan Fransa bu münaqişənin tənzimlənməsində öz yerini Aİ-na verməyi münasib görən təşəbbüsü narazılıqla qarşılayır.

Nəticə olaraq qeyd edə bilərik ki, Fransa Cənubi Osetiya münaqişəsinin Aİ- çərçivəsində həllinə üstünlük verdiyi halda, Dağlıq Qarabağ münaqişəsinin isə ATƏT-in Minsk qrupu çərçivəsində həllinə üstünlük verir.

Dağlıq Qarabağ münaqişəsi tərəflərindən Azərbaycan Respublikası münaqişənin həliində AI- na önəm verir. Ermənistan tərəfi isə ATƏT-in Minsk qrupu çərçivəsində həllinə ümid bəsləyir. Münaqişənin həlində Ermənistanın mövqeyini ATƏT-in Minsk qrupunu üç həmsədr ölkələrdən ikisi Rusiya və Fransanın münaqişənin tənzimlənməsində tutduğu mövqe ilə üst-üstə düşməsi ilə izah olunur.

Beləliklə, Aİ Dağlıq Qarabağ və Cənubi Osetiya münaqişələrinə fərqli aspektlərdən yanaşır. Cənubi osetiya problemində sülhün yaranmasında aktiv iştirakçı olan və münaqişə nəticəsində dağıntıya məruz qalmış ərazilərdə yenidən qurma işlərinə maliyyə yardımı edən Aİ, Dağlıq Qarabağ münaqişəsində sülh əldə edildikdən sonra region dövlətlərinə yenidən qurma işlərində köməklik göstərmək öhdəliyni üzərinə götürür.

İnidki şərait Aİ-nın Cənubi Qafqaz regionunda baş verən münaqişələrin həllində vasitəçi olması üçün əlverişli zəmin hazırlayıb. Lakin, Avropa İttifaqının vasitəçilik missiyasına münasibəti "Aİ- nın regionda Rusiya ilə rəqibidi, yoxsa strateji tərəfdaş" sualina necə cavab verməsindən aslıdır.

Bütn deyilənləri nəzərə alaraq qeyd etmək olar ki, regionda baş verən münaqişələrin tənzimlənməsi üçün münaqişə tərəflərinə ədalətli davranacaq aktora ehtiyac var.

**ƏDƏBİYYAT:**


*1. Chepurin, Aleksandr "Seven Subjects on Russian-Georgian Agenda", International Affairs , volume: 50, No 3, Moscow 2004.*

*2. Damien Helly, "EU's Influence in Its Eastern Neighbourhood: The Case of Crisis Management in the Southern Caucasus", European Political Economy Review, No.7, Summer 2007.*

*3. Dennis Sammut and Nikola Cvetkovski, "The Georgia—South Ossetia Conflict, Confidence Building Matters", Vertic No 6, London, March 1996. http://aei.pitt.edu/8362/1/helly.pdf*

*4. International Crises Group (ICG), "Georgia: Avoiding War in South Ossetia". Europe Report N°159 Tbilisi/Brussels , 26 november 2004*

*5. Savaş Yanar, "Türk-Rus ilişlkilerinde Gizil Güç Kafkasya", 2002.*

*6. Tavkul, Ufuk, "Etnik Çatışlmaların Gölgesinde Kafkasya", 2002.*

*7. Assembler nationale. Enregistré à la Présidence de l'Assemblée national. le 26 mai 2010.*

*8. http://www.consilium.europa.eu/en/policies/eastern-partnership/*

*9. http://www.liberation.fr/monde/2012/08/15/quatre-ans-apres-la-guerre-russo-georgienne_839915*

*10. www.rpfrance.eu/Les-operations-PSDC-dans-le-monde.html*

# İqtisadiyyat

## MÜƏSSİSƏNİN MARKETİNQ FƏALİYYƏTİNİN METODOLOJİ YANAŞMALARININ SƏMƏRƏLİLİYİ MƏSƏLƏLƏRİ

GÜLBƏS RÜSTƏMOVA
Sumqayıt Dövlət Universiteti






Müasir bazar iqtisadiyyatı şəraitində müəssisələrin istehsal proseslərinin təşkili və səmərəliliyinin təmin edilməsi, müəssisənin təsərrüfat fəaliyyətinin modelləşdirilməsi və proqnozlaşdırılması, satış və marketinq strategiyasının hazırlanması və reallaşdırılması, satış bazarlarında ciddi mövqeyin əldə edilməsi vacib şərtlərdəndir. Bu baxımdan hər bir müəssisə özünün məhsul istehsalının planlaşdırılması və proqnozlaşdırılması ilə bərabər, müəssisənin marketinq strategiyasını hazırlamalı, onun praktiki fəaliyyətinin mühüm metodoloji yanaşmalarını müəyyənləşdirilməli, seçilmiş metodların xüsusiyyətlərinin və yanaşmalarının müasir aspektləri öyrənilməli, onların səmərəliliyi obyektiv meyarlar əsasında qiymətləndirilməlidir. Marketinq fəaliyyətinin optimal təşkili və reallaşdırılması, ilk növbədə marketinqin idarəetmə konsepsiyasının adekvat hazırlanmasını və reallaşdırılmasını şərtləndirir. Bu konsepsiyada məhsulun istehsal tsiklindən satış bazarlarına çıxarılması, orada möhkəmlənməsi və alıcılara çatdırılması ilə bağlı bütün məsələlər, tələb və təklifin adekvatlığı, müxtəlif bazar seqmentlərinin təsiri, rəqiblərin davranışı ilə bağlı məsələlər ətraflı yer almalıdır. Digər tərəfdən, marketinq strategiyasının reallaşdırılması və marketinq fəaliyyətinin təşkili ilə bağlı məsələlərdə əsas metodoloji yanaşmalar və tədbirlər kimi ilk növbədə ilkin təhlillərin aparılması, bazarın öyrənilməsi, mal və məhsullarla bağlı obyektiv vəziyyətin araşdırılması, analoji istehsalçıların və dilerlərin bazardakı davranışları, alınmış və əldə olunmuş informasiyaların emal olunması, obyektiv qərarların qəbul edilməsi və nəhayət, marketinq strategiyasının reallaşdırılması

yer alır[1, s. 76]. Müasir dövrdə əksər müəssisələr istehsal proseslərinin fasiləsiz xammal təminatında çətinlik çəkirlər və analoji vəziyyəti əmtəə bazarlarına da aid etmək mümkündür. Buna görə də, müəssisənin marketinq fəaliyyəti kompleks və sistemli mexanizmlərə söykənməli, metodiki baxımdan seçilmiş strateji yanaşmalar müəssisənin istehsal xüsusiyyətlərinə və istehsal olunan malların satış bazarlaraına adekvat olaraq müəyyənləşdirilməlidir. Seçilən hər bir marketinq yanaşması və marketinq komponenti ciddi elmi və praktiki dəlilərlə əsaslandırılmalı və yalnız bundan sonra müəssisənin marketinq fəaliyyəti üzrə strategiyasına daxil edilməlidr[2, s. 37]. Bazar iqtisadiyyatının dərinləşdiyi, iqtisadi tendensiyaların mürəkkəbləşdiyi və qlobal iqtisadi təsirlərin nəticəsində istehsal proseslərinin səmərəli təşkilinin çətinləşməsindən çıxış etməklə, müəssisədə marketinq fəaliyyətinin adekvat metodoloji yanaşamalrını və onların xüsusiyyətlərini dərindən öyrənilməli, hər bir detal üzrə araşdırmalar aparılmalı, strateji planlaşdırma və marketinq tədqiqatlarının səmərəliliyi gücləndirilməli, marketinq planlaşdırılmasında kompleks yanaşmalar təmin edilməli, marketinq fəaliyyətinin idarəetmə strukturu və təşkili prinsipləri hazırlanmalı və reallaşdırılmalı, marketinq tədbirlərinin icrası proseslərinə nəzarətin təşkil olunması və marketinq fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi vacib şərtlərdəndir. Marketinq fəaliyyətinin geniş formada təşkili və metodoloji yanaşmalarının daha geniş modelləşdirilməsi müəssisənin istehsal imkanlarının və bütövlükdə iqtisadiyyatın inkişafının səviyyəsindən asılıdır. Marketinq fəaliyyətinə təsir edən əsas daxili amillər kimi - müəssisənin istehsal proseslərinin təşkilinin səviyyəsi, kommersiya fəaliyyəinin adekvatlığı, maliyyə vəziyyəti, texniki-iqtisadi tərəqqinin səviyyəsi, idarəetmənin təşkili səviyyəsi, müəssisənin strateji inkişaf planının olması və yüksək hazırlıqlı kadr potensialı səviyyəsi daha çox diqqət çəkirlər[3, s. 17]. Bundan əlavə, müəssisənin güclü informasiya və idarəetmə sisteminin olması da marketinq fəaliyyətinin səmərəli təşkilnə əlavə münbit şərait yaradan amillərdəndir. Müəssisənin marketinq fəaliyyətinin əsas vəzifəsi bazarın tədqiqidir və bu tədqiqatda istehsalçılar, bazarda məhsulların satışı prosesləri, məhsulun bazara şıxarılması ilə bağlı problemlər və onların həlli yolları, bazardakı rəqiblərin davranışları, müxtəlif bazar seqmentləri və bazar konyunkturası və bazar iştirakçılarının bütövlükdə davranışı, material və maliyyə axınlarının intensivliyi və s. aiddirlər. Y.Qorqola və bir qrup tədqiqatçı belə hesab edirlər ki, müəssisədə marketinq fəaliyyətinin optimal metodoloji yanaşmalarının müəyyənləşdirilməsi və seçilməsi, bu yanaşamaların obyektiv olaraq qiymətləndirilməsi mühüm şərtlərdəndir[4]. Marketinq fəaliyyətinin əsasında yeni məhsulların hazırlanması və istehsalı, həmçinin onların uğurlu şəkildə bazara çıxarılması, reklam tədbirlərinin həyata keçirilməsi və alıcılarla sistemli işin aparılması dayanmalıdır. Bundan əlavə, marketinq fəaliyyətinin adekvatlığı ciddi meyarlar əsasında baxılmalı, marketinq fəaliyyətinin metodoloji yanaşmalarının xüsusiyyətlərinin müasir aspektləri diqqətlə öyrənilməli və adekvat marketinq tədbirləri ardıcıl sürətdə yerinə yetirilməlidir. Müəssisənin marketinq fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsində biznes mühitinin mürəkkəbliyi, marketinq fəaliyyininin idarə edilməsi sisteminin neçə səviyyədən ibarət olması, marketinq informasiya sisteminin vəziyyəti və marketinqin səmərəliliyinin reytinqinin hansı səviyyədə olması gösəticiləri əsas kimi götürülə bilər[5]. Müəssisənin marketinq fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsinin metodoloji yanaşmalarının bir qrupu Şəkil 1–də verilmişdir.

**Şəkil 1. Müəssisənin marketinq fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsinin metodoloji yanaşmalarının təxmini sxemi (müəllif tərəfindən hazırlanmışdır).**




Əgər Şəkil 1-ə baxsaq görərik ki, müəssisənin marketinq fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsində əsas metodoloji yanaşmalar kimi marketinq strategiyasının adekvatlığı, bazarın və rəqiblərin öyrənilmə səviyyəsinin dərinliyi, marketinq planlarının optimal hazırlanması və təsdiqlənməsi, alıcılarla aparılan işlərin səviyyəsi, bazarda yeni məhsullara olan tələbatın operaitv və optimal proqnozlaşdırılması, müəssisə heyətinin peşakarlıq səviyyəsi, marketinq mexanizmlərinin yenilənməsi və s. daha çox diqqət çəkirlər. Y.Martyanova qeyd edir ki, marketinq xidməti müəssisənin mühüm struktur bölmələrindən biri olmaqla bərabər, digər struktur vahidləri ilə birlikdə bazarın tələblərinə uyğun fəaliyyətin təşkili və yüksək gəlirin alınması üçün tədbirlərin görülməsi proseslərinin idarə edilməsi funksiyalarını həyata keçirir. Müasir dövrdə marketinq fəaliyyəti hər bir müəssisə üçün vacib fəaliyyət sahələrindən biri kimi qiymətləndirilməlidir[6]. Marketinq fəaliyyəti müəssisədə hər hansı bir məhsulun istehsalının planlaşdırlması, layihələşdirilməsi proseslərindən başlayaraq, istehsal proseslərinin təşkili, hazır məhsulun bazara çıxarılması və əmtəə bazarında uğurlu hərəkətinin təmin edilməsi, həmçinin



servis xidmətinin göstərilməsinə qədər olan proseslərdə tələb olunan fəaliyyət sahələrindən biri kimi xarakterizə olunur. Bu proseslərdə marketinqin əsas vəzifələrinə bazarın öyrənilməsi ilə bərabər, həm də qiymətlərin formalaşdırılması, satış strategiyasının hazırlanması, real və potensial alıcı dairəsinin müəyyənləşdirilməsi kimi mühüm məsələlər də daxildir. Bundan əlavə, marketinq fəaliyyətinə və marketinq proseslərinə müəssisədə idarəetmə mexanizmlərindən biri kimi yanaşma təmin olunmalı, marketinq fəaliyyətinin praktiki reallaşdırılması mexanizmləri və alətləri müəyyənləşdirilməlidir.

Marketinq fəaliyyətinin təşkili üçün müəssisədə standartlar müəyyənləşdirilməli, qaydalar və təlimatlar hazırlanmalıdır[7]. Digər tərəfdən müəssisədə marketinq fəaliyyəti sahibkarlıq funksiyalarının reallaşdırlması mexanizmləri formasında həyata keçirilir və bir qrup xüsusi fəaliyyət istiqamətlərindən ibarət olaraq vahid kompleks fəaliyyət çərçivəsində reallaşdırılır. Marketinq fəaliyyətinin digər fəaliyyət sahələrindən əsas fərqləndirici xüsusiyyəti, bu fəaliyyətin bütünlüklə alıcıların tələblərinin ödənilməsinə yönəldilməsi və daha çox gəlirin əldə edilməsi ilə bağlı olmasıdır[8]. Bunlarla bərabər, müəssisənin marketinq sistemi eyni zamanda idarəetmə və nəzarət funksiyalarını da həyata keçirir. Bu kimi funksiyalara müəssisədə strateji və operativ planlaşdırmanın təşkili, marketinqin idarə edilməsi üzrə informasiya təminatı, risklərin idarə olunması, müəssisədə kommunikasiya sisteminin təşkili, marketinqə nəzarət təşkili və s. daxildirlər. Müəssisənin idarəetmə sistemi və onun bazar konyukturasına, iqtisadi proseslərdə başverən transformasiyalar operativ adaptivliyi, ilk növbədə marketinq fəaliyyətinin təşkilini və metodoloji baxımdan optimallığını zəruri edir[9]. Müəssisənin marketinq fəaliyyətinin səmərəliliyinin müəyyənləşdirilməsində mühüm göstəricilərdən biri də müəssisənin gəlir səviyyəsi üzrə proqnozların özünü doğrultmasıdır. Bu baxımdan, marketinq fəaliyyəti müəssisənin uzunmüddətli satış strategiyasının əsas mexanizmlərini hazırlamalı, hər bir brendin dünya bazarlarında möhkəmlənməsini təmin etməli, müəssisənin maliyyə göstəricilərinin yaxşılaşdırılmasına töhfə verməlidir[10, s. 845]. Bundan əlavə, müəssisənin marketinq fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi məqsədi ilə əsas göstəricilər kimi müəssisənin əmtəə bazarlarında rəqabətqabiliyyətlilik səviyyəsi, onun marketinq inteqrasiyasının dərinliyi, alıcıların sayı, satış və gəlir həcmi, maliyyə təsərrüfat nəticələri götürülür. Müəssisədə marketinq fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi metodologiyasında üç əsas suala – bu metod hansı məqsədlə istifadə olunur, onun nəticələri hansı fayda gətirəcək və nəhayət, bu metoda zərurət varmı? – suallarına cavab tapılması vacıbdir[11]. Bunlarla bərabər, marketinq fəaliyyətinin innovatik metodları və yanaşmalarına üstünlük verilməlidir[12].

Beləliklə, müasir dövrdə qlobal iqtisadi proseslərin dərinləşdiri bir şəraitdə müəssisənin marketinq fəaliyyətinin optimal təşkili və səmərəliliyinin yüksəldilməsi məqsədi ilə

adekvat metodoloji yanaşmaların və üslübların seçilməsi, tətbiqi və reallaşdırlması mühüm əhəmiyyət kəsb edir, müəssisənin uğurlu və gəlirli işləməsinə əlavə potensial formalaşdırır, alıcıların tələblərinin ödənilməsi istiqamətində zəruri tədbirlərin görülməsini, müəssisənin bazarda möhkəmlənməsini, rəqabət qabiliyyətinin yüksəldilməsini təmin edir və s.

## ƏDƏBİYYAT:

*1. Багиев Г.Л., Тарасевич В.М. Маркетинг: учебник для вузов. 4-е издание. Стандарт третьего поколения. Санкт-Петербург, 2012.-560 с.*

*2. Калинин И.Б. Методы проектного управления маркетинговой деятельностью предприятия. Дисс. канд. экон. наук. Санкт-Петербург, 2008.-168 с.*

*3. Маркетинг: теория и практические исследования. Учебное пособие в 3 частях. /О.М.Ольшанская, Е.М.Лобачева, В.В.Живетин, М.Б.Кузьмичева. / Российский заочный институт текстильной и легкой промышленности. Москва, 2008, ч.3-97с.*

*4. Горгола Е.В., Голобородько И.В., Мужецкий А.В. маркетинг: организация и особенности маркетинговой деятельности. Учебное пособие – Ярославль: ЯВФЭА, 2007.-217 с.*

*5. Высочина М.В. Оценка эффективности маркетинговой деятельности предприятия // Проблемы материальной культуры - экономические науки.-С. 27-30. http://www.dspace.nbuv.yov.ua.*

*6. Мартьянова Ю.И. Система управления маркетинговой деятельностью на предприятии (на примере ОАО «Самарский хлебозавод №9») // Вестник Самарского государственного экономического университета, №5(67), 2010.-С.53-59.*

*7. Петрович Л.В. Проблемы организации и управления маркетинговой деятельностью на предприятиях с учётом требований системы менеджмента качества // Управление общественными и экономическими системами, №2, 2009.-12 с.*

*8. Управление и сущность маркетинговой деятельности предприятия. http://www.xn----7sbkdfim2b1j.xn--p1ai/catalog/marketing-i-logistika/641/*

*9. Шинкаренко В.Г. Разработка и развитие системы управления маркетинговой деятельностью предприятия // Економіка транспортного комплексу, вип.16, 2010.-С. 7-16.*

*10. Шиманская А.А. Эффективность управления маркетинговой деятельностью промышленного предприятия и её оценка // Научни трудове на университет по хранителни технологии – Пловдив, том LXII, 2015.-С. 844-848.*

*11. Методы оценки эффективности маркетинговой деятельности. http://www.be5.biz.*

*12. Толстяков Р.Р., Гаврилов А.А. Инновационные методы конкурентной разведки в управлении маркетинговой деятельностью предприятия // Современная экономика: проблемы и решения, №2(50), 2014.-С.18-30.*

***Açar sözlər:*** *müəssisə, marketinq fəaliyyəti, marketinq fəaliyyətinin metodoloji yanaşmaları, müəssisənin marketinq startegiyası, marketinq fəaliyyətinin səmərəliliyi.*

***Ключевые слова:*** *предприятия, маркетинговая деятельность, методологические подходы маркетинговой деятельности, маркетинговая стратегия предприятия, эффективность маркетинговой деятельности.*

***Key words:*** *enterprises, marketing activity, methodological approaches of marketing activity, marketing strategy of the enterprise, efficiency of marketing activity.*

## РЕЗЮМЕ

В статье исследованы вопросы эффективности методологических подходов маркетинговой деятельности предприятия. С этой целью анализированы основные проблемы эффективности организации маркетинговой деятельности, определение методологических подходов по повышению роли маркетинговой службы в деятельности предприятия. Раскрыта сущность методологических подходов и критерий по определению эффективности маркетинговой деятельности в предприятие.

В конце статьи обобщено авторское мнение по вопросом эффективности методологических подходов маркетинговой деятельности предприятия в современных условиях.

## SUMMARY

The effectiveness of the methodological approaches of the marketing activity of enterprise the article examines. The main problems of efficiency of the organization of marketing activity, definition of methodological approaches on increase in a role of marketing service in activity of the enterprise are analyzed. The entity of methodological approaches and criterion by determination of efficiency of marketing activities in the enterprise is opened.

The author's opinion on a question of efficiency of methodological approaches of marketing activity of the enterprise in modern conditions is generalized at the end of article.

# Beynəlxalq münasibətlər

## AVROPA İTTİFAQININ "ŞƏRQ TƏRƏFDAŞLIĞI" PROQRAMI. BU PROQRAMIN ZƏIFLƏMƏSİNİN SƏBƏB VƏ NƏTİCƏLƏRİ

GÜNEL MUSAYEVA
Azərbaycan Respublikasının Prezidenti yanında
Strateji Araşdırmalar Mərkəzinin
aparıcı məsləhətçisi



SSRİ süquta uğradıqdan sonra Avropa İttifaqı Cənub Qafqaza sərbəst çıxış imkanlarını əldə etmiş oldu. Lakin həmin dövrdə bu regionda olan yeni müstəqil dövlətlərdən Azərbaycan, Gürcüstan və Ermənistan Avropa strukturlarının hazırkı qədər diqqət mərkəzində deyildi.

2004-cü ildən etibarən Avropa İttifaqı genişlənmə dövrünü yaşasa da bu proses müəyyən çətinliklərlə müşayiət olunmuşdu. Avropa İttifaqından kənarda olan ölkələrlə üzv ölkələr arasında ayırıcı xətlərin aradan qaldırılması məqsədi daşıyan AQS, Avropa İttifaqının 2004-cü ildəki tarixi genişlənməsindən sonra irəli sürülmüşdü. (1) Avropa Qonşuluq Siyasəti (AQS) ilk dəfə 2003-cü ilin martında Avropa Komissiyasının "Daha geniş Avropa" adlı rəsmi məlumatında təxmini və qısa şəkildə, sonra isə 2004-cü ilin mayında dərc edilmiş və daha dəqiq işlənmiş Avropa Qonşuluq Siyasəti barədə Strateji Sənəddə öz əksini tapmışdır. (2) Beləliklə, Avropa Qonşuluq Siyasəti Avropa İttifaqının Cənubi Qafqaz dövlətləri ilə münasibətlərinin inkişafında yeni bir səhifə açdı. Cənubi Qafqaz artıq kənar region deyil, inkişafı və stabilliyi Avropa üçün həyati əhəmiyyətli bir region statusu qazanmış oldu.

2008-ci il 8 avqust tarixində Gürcü qoşunlarının öz ərazi bütövlüyünün bərpasına görə Cənubi Osetiyanın paytaxtı Sxinvali şəhərinə hücumu həm iki dövlət arasındakı münasibətə, eyni zamanda Cənubi Qafqazda yeni geosiyasi vəziyyət yaratdı. (3) Belə bir vəziyyətdən çıxmaq üçün Avropa İttifaqı Rusiya və Gürcüstan rəsmiləri arasında vasitəçilik missiyası həyata keçirərək "Şərq Tərəfdaşlığı" proqramını irəli sürmüş oldu. Bu layihə, Avropa İttifaqının Şərqində sabitliyin və tərəqqinin bərqərar olmasını hədəfləyən bir proqram kimi nəzərdə tutulmuşdu. Hal-hazırki dövr üçün isə "Şərq Tərəfdaşlığı"

proqramı öz aktuallığını itirib. Bu zaman belə bir sual ortaya çıxır. Bəs onda, görəsən bu cür düşünülmüş bir proqram nə üçün öz əvvəlki əhəmiyyətini və aktuallığını qoruyub saxlaya bilməmişdir?

"Şərq Tərəfdaşlığı" təşəbbüsü 2008-ci ilin mayın 26-da Avropa İttifaqının Ümumi Məsələlər və Xarici Əlaqələr Şurasında Polşa və İsveç tərəfindən irəli sürülmüş, əsası isə 7 may 2009-cu ildə Praqa (Çexiya) şəhərində keçirilən sammitdə qoyulmuşdur. Bu tərəfdaşlığa Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Moldova Respublikası və Ukrayna daxil idi. (4)"Şərq Tərəfdaşlığı" proqramı çərçivəsində dövlətlərə 4 istiqamətdə əməkdaşlıq imkanları təqdim edilmişdir. Bu əməkdaşlıq imkanları, demokratiya və hüquqi institutların inkişafı, iqtisadi inteqrasiya, enerji təhlükəsizliyi və insanlar arasında əlaqələr – viza rejiminin sadələşdirilməsi və ləğvi məsələləri idi. Burada dövlət və hökumət başçılarının toplantıları iki ildən bir, xarici işlər nazirliyinin görüşləri ildə 1 dəfə, tərəfdaşlığın tematik platformaları çərçivəsində mütəmadi sessiyalar isə 6 aydan bir baş tutur. "Şərq Tərəfdaşlığı" 2 yanaşmadan ibarət olan bir prosesdir. Bir yanaşma ikitərəfli əməkdaşlıq xətti ilə Avropa İttifaqı son nəticə kimi onunla Assosiasiya Sazişinin imzalanmasına yönəlmiş yeni müqaviləyə əsaslanan münasibətlərin qurulmasını təklif edir. Digər yanaşma isə çoxtərəfli əməkdaşlıq xətti ilə "Şərq Tərəfdaşlığı"proqramına Avropa İttifaqı qanunvericilik və standartlarını təqdim etmək, islahatlar sahəsində təcrübə və ən uğurlu praktika mübadiləsi aparmaq məqsədilə yeni forum təqdim edir.(5)

"Şərq Tərəfdaşlığı" nın əsas məqsədi 6 üzv ölkənin iqtisadi, sosial və siyasi proseslərilə bağlı həyata keçirdiyi islahatlara dəstək vermək və bunları Avropa Şurası və Avropa İttifaqı standartlarına uyğunlaşdırmaqdır.

"Şərq Tərəfdaşlığı"nın əsas hədəfləri isə aşağıdakılardır:

• Tərəfdaş ölkələrin Avropa İttifaqına iqtisadi və siyasi cəhətdən yaxınlaşmasına təkan vermək;

• Təhlükəsizlik, stabillik və yaxşı idarəçiliyi təmin etmək;

• Vətəndaş cəmiyyəti təşkilatları və tərəfdaş dövlətlər arasında tərəfdaşlığın əsasının qoyulmasını asanlaşdırmaq;

• Uzunmüddətli perspektivdə fərdi qayda və müəyyən edilmiş müvafiq şərtlər daxilində viza rejiminin sadələşdirilməsi yolu ilə insanlar arasında əlaqələri genişləndirmək;

• Enerji təhlükəsizliyini təmin etmək;

• Müxtəlif sahələrdə aparılan islahatları dəstəkləmək və ətraf mühiti qorumaq.

"Şərq Tərəfdaşlığı" proqramı Rusiya ilə Avropa İttifaqı arasında toqquşma nöqtəsinə çevrilib. Çünki Avropa İttifaqının şərqə doğru genişlənməsini, yaxın qonşuları ilə münasibətlər yaratmasını Rusiya özünə qarşı təhdid hesab edir. Avropa rəsmiləri bu proqramın Rusiyaya qarşı olmadığını desələr də, Rusiya bu fikirlə razılaşmayaraq bu proqrama qatılan ölkələri hədələməkdən belə çəkinmir. Ermənistanın ardınca gözlənilmədən Ukraynanın da Avropa Birliyi ilə Assosiasiya Sazişi imzalamayacağını bəyan etməsi Rusiyanın təzyiqlərinin ciddiliyindən xəbər vermiş oldu. 2008-ci ildən etibarən postsovet ölkələrinin Avropaya meyl etməsi Rusiyanı narahat edən problemlərdən biri olmuşdur və buna görə də Rusiya bu proqrama hələ də ehtiyat ilə yanaşır. Bu səbəbdən Rusiya Qərbin dəstəklədiyi və Rusiyanı regionda gedən siyasi oyunlardan kənar qoya biləcək həyata keçirilən və keçirilə biləcək hər cür proyektə qarşı çıxır. Avrasiyaçılıq ideyası isə Rusiyanın Qərbə qarşı həyata keçirmək və genişləndirmək istədiyi layihələrdən biridir. Digər problem isə artıq enerji ilə bağlı Avropa İttifaqının yeni layihələr hazırlaması Rusiyaya olan marağın azalmasına gətirib çıxarmışdır.

Rusiya XİN-in rəsmi nümayəndəsi Aleksandr Lukaşeviç hələ Avropa Birliyinin 21-22 may tarixində Riqada keçiriləcək "Şərq Tərəfdaşlığı" sammitindən danışarkən sərt bəyanatla çıxış etmişdir. Əlavə etmişdir ki, Moskva bu sammitə "olduqca mənfi" yanaşır, bununla belə XİN-in rəsmi nümayəndəsi gedişatı izləyəcəyini bildirib. (6)

1993-cü ildən etibarən Azərbaycan dövlətinin xarici siyasətində Avropaya inteqrasiya prioritet istiqamətə çevrilmiş və bu kontekstdə beynəlxalq təşkilat kimi Avropa İttifaqı ilə fəal əməkdaşlığa başlanmışdır. (7) Avropa və Asiyanın kəsişmə nöqtəsində yerləşən Azərbaycanın strateji mövqeyi Avropa İttifaqına üzv dövlətlərin, ölkəmizlə siyasi və iqtisadi münasibətləri inkişaf etdirmək marağını daha da artırmışdır. Azərbaycanın Avropa İttifaqı ilə əlaqələri əsas etibarilə müxtəlif proqramlar çərçivəsində həyata keçirilir. Bunlara TASİS, TRASEKA, İNOGEYT kimi proqramları misal göstərə bilərik. (8) Şərq Tərəfdaşlığına gəldikdə isə hər iki tərəfin marağını qeyd etmək lazımdır. Azərbaycanın Avropa İttifaqı üçün önəmini aşağıdakı amillərlə göstərmək olar:

1) Ölkəmizin geostrateji baxımdan mühüm nöqtədə yerləşməsi;

2) Azərbaycanın Avropa İttifaqı üçün alternativ enerji mənbəyi olması.

Azərbaycan isə Avropa İttifaqı ilə əsasən enerji təhlükəsizliyini təmin etmək və Dağlıq Qarabağ probleminin həlli üçün münasibətlərini davam etdirir. Rusiya Avropanın təbii qaza olan tələbatını ödəməklə yanaşı, böyük enerji resurslarına malik olan dövlət olaraq beynəlxalq arenada təsiredici gücə malik ölkədir. Əsasən qaz ehtiyatına (23%) görə dünyada birinci yer tutur və həmçinin illik neft ixracına görə dünyanın 25% ticarətini təşkil etməklə həm Avropada, həm də MDB-də dominantlıq edir. (9) Bu səbəbdən də Rusiya zaman-zaman bu üstünlüyündən istifadə edərək Avropa ölkələrinə siyasi təzyiqlər göstərir. Siyasi təzyiqin açıq-aşkar nümayişinə bir nümunə 2008-ci ildə Rusiya ilə Ukrayna arasında yenidən mavi yanacaq nəqli ilə bağlı yeni sazişin imzalanmayacağını bildirməsi oldu. (10) Buna görə də Avropa Birliyi özünün Rusiyadan enerji asılılığının aradan qaldırılmasında Azərbaycanı əsas oyunçulardan biri hesab edir. Avropaya inteqrasiya Azərbaycanın könüllü və məntiqi olaraq seçdiyi yoldur. Lakin Avropa İttifaqı üçün Azərbaycanın da rolu danılmazdır. Müasir dövrdə ölkəmiz Avropa İttifaqı ilə münasibətlərində öz xarici prioritetlərinə uyğun olaraq daha çox ikitərəfli əlaqələrə üstünlük verir. Avropa İttifaqının regional layihələrində iştirak etməklə yanaşı, Cənubi Qafqazdakı ümumi iqtisadi tərəqqidəki payına görə lider dövlət olan Azərbaycan İttifaqın xarici əlaqələrində müəyyən mövqe tutmağa çalışır. Odur ki, Azərbaycan dövləti Avropa İtifaqı ilə ikitərəfli əlaqələrin yeni formatlarını yaradır, onunla yaxınlaşmaq üçün zəruri olan bütün təsisatları inkişaf etdirərək İttifaqın ümumavropa iqtisadi, siyasi və təhlükəsizlik məkanına inteqrasiya olunmaq istəyini




nümayiş etdirir. Azərbaycan hökuməti Rusiya və Avropadan asılı olmayan müstəqil xarici siyasət yürütdüyünü bəyan edir.

2015-ci il may ayının 21-22-də baş tutmuş "Şərq Tərəfdaşlığı" sammiti beynəlxalq aləmin diqqət mərkəzində idi. Buna səbəb Riqa Sammitində "Şərq Tərəfdaşlığı" proqramında iirak edəcək ölkələrin bu qurumla münasibətlərinə daha yüksək səviyyədə aydınlıq gətiriləcəyi, həmçinin Rusiya ilə münasibətlərin əsas müzakirə hədəfi olacağı idi. Bundan əlavə Avropa Birliyinin "Şərq Tərəfdaşlığı" proqramında iirak edən 6 ölkədən üçünün, o cümlədən Azərbaycan, Belarus və Ermənistanla reallığı nəzərə alan yeni sənədi imzalayacağı gözlənilirdi.

Avropa Birliyi "Şərq Tərəfdaşlığı" proqramı çərçivəsində adıçəkilən qurumla assosiativ üzvlük haqqında sənədi bu günə kimi proqramda iirak edən 6 ölkədən yalnız üçü - Ukrayna, Moldova və Gürcüstan imzalayıb. Ermənistan ötən il Rusiyanın təzyiqlərinə tab gətirməyərək assosiativ üzvlük haqqında sənədi imzalamadı və Avrasiya İqtisadi İttifaqına üzv olmağı daha məqsədəuyğun hesab etdi. Halbuki Avropa Birliyi "Şərq Tərəfdaşlığı" proqramı üzrə assosiativ sənədi imzalamaq Ermənistana çox şeylər verəcəkdi və onlar bununla da Rusiyanın asılılığından xilas olaraq Qərblə inteqrasiya yolunda addım atacaqdılar. Lakin faktiki olaraq Rusiyanın adi bir quberniyasına çevrilən Ermənistan rəhbərliyi Avropa Birliyi ilə belə bir sənədi imzalamağa cəsarət etmədi. Belarusa gəlincə, bu ölkə Rusiya və Qazaxıstanla birgə Avrasiya İqtisadi İttifaqının yaradılmasının fəal iştirakçılarından biridir. Belə bir vəziyyətdə isə Belarusun "Şərq Tərəfdaşığı" proqramı çərçivəsində hər hansı assosiativ üzvlük haqqında sazişi imzalamasının öncədən mümkün olmayacağı aydın idi. Bu müstəvidə də hələ ötən il Azərbaycanın Avropa İttifaqı "Şərq Tərəfdaşlığı" proqramı çərçivəsində assosiativ sazişi imzalaması daha məntiqli görünürdü. Lakin Azərbaycan, belə demək mümkünsə, Qərbin assosiativ saziş oyununa getmədi. Buna da səbəb Bakının Avropa Birliyindən olan gözləntilərinin özünü doğrultmaması oldu.

Riqa Sammitində Azərbaycanı Prezident Administrasiyası rəhbərinin müavini, Xarici Əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov və Xarici İşlər naziri Elmar Məmmədyarov təmsil edib. Riqa sammitində Azərbaycanla Avropa İttifaqı arasında gərginlik yaranıb. Xarici İşlər naziri Elmar Məmmədyarov yekun bəyannaməyə dair müzakirələri yarımçıq tərk edib. O, sammitdəki çıxışında sənədin mətni, xüsusilə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı hissəyə qəti narazılığını bildirib. Gərginliyin səbəbini isə məhz bəyannamənin mətni ilə izah edib. Nəticə etibarı ilə isə Azərbaycan Riqa sammitinin yekun bəyannaməsini xüsusi şərtlərlə imzalayıb. (11)

Azərbaycanı Qərbdən narazı salan Avropa Birliyinin bu günə kimi Ermənistanın Azərbaycan ərazilərinin 20 faizini işğal etməsi ilə bağlı təcavüzkar dövlətə münasibətdə hər hansı bir sərt addım atmamasıdır. Hətta Ermənistanın faktiki olaraq Avropa Birliyinə arxa çevirərək Rusiyanın həlledici rol oynadığı Avrasiya İqtisadi Birliyini seçməsinə belə olduqca yumşaq yanaşaraq ermənilərə müxtəlif yollarla maliyyə, hərbi və siyasi dəstək verməkdə davam edirlər.

Digər bir məsələ isə Ukrayna ərazilərini işğal edən Rusiyaya münasibətdə sərt addımlar atan və bu ölkəyə qarşı sanksiyalar tətbiq edən Qərbin Ermənistanın təcavüzkarlıq siyasətinə göz yummasıdır. Azərbaycan bunları dilə gətirsə də Qərbin ikili standartlarını davam etdirməsi və təcavüzkar Ermənistanın nazı ilə oynaması, təbii ki, Azərbaycan - Qərb münasibətlərinin inkişaf etdirilməsi yolunda ciddi əngələ çevrilib.

Xarici İşlər nazirinin müavini Mahmud Məmmədquliyev də, Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin soyumasının əsas səbəbi kimi, İttifaqın indiyə qədər Dağlıq Qarabağ münaqişəsinə vahid mövqe ortaya qoymaması ilə izah edib. O bildirib ki, Moldova, Gürcüstan, Ukrayna münaqişəsinin bu və ya digər prinsiplər əsasında həll olunmasını deyirlər, amma Azərbaycana gəldikdə isə bildirirlər ki, ATƏT-in Minsk Qrupu var və hansı qərar qəbul edilsə, onu dəstəkləyəcəyik. Bu münaqişə ilə bağlı bir münasibət bildirmirlər. (12) Hətta 1993-cü il ərzində BMT-nin TŞ Ermənistan - Azərbaycan münaqişəsinə dair 822, 853, 874, 884 saylı qətnamələr qəbul etmişdir. Bu qətnamələr Azərbaycanın ərazi toxunulmazlığını yenidən təsdiq edərək, dərhal atəşkəs elan olunması, hərbi əməliyyatlara son qoyulması və işğalçı qüvvələrin Azərbaycan Respublikası ərazisindən çıxarılması tələblərini irəli sürmüşdür. Təəssüf ki, məlum qətnamələrin müddəaları indiyə kimi yerinə yetirilməmişdir. (13)

Avropa Birliyi tərəfindən ikili standartların davam etməsi, iki eyni təcavüzkara münasibətdə fərqli mövqe nümayiş etdirilməsi bu qurumun səmimiliyini şübhə altına alıb.

"Şərq Tərəfdaşlığı" Proqramına daxil olan dövlətlərin hər birində olan problemlərdən belə nəticəyə gəlmək olar ki, bu tərəfdaşlıq layihəsi öz aktuallığını itirməyə başlayıb. Əslində proyekt doğru düşünülsə də, həyata keçirilməsi məsələsində həddən artıq problemlər var. Avropanın ən azından beşinin tərkibində ya münaqişə ocağı var, yada ki, qonşu dövlətlə müharibə şəraitindədir. Üstəlik Rusiyanın bu ölkələrə təsir imkanlarının zəiflədilməsinə heç bir şəraitin yaradılmaması, onların müdafiəsinə zəmanətin verilməməsi artıq bu layihənin təsir imkanlarını aşağı salıb.

Avropa İttifaqı bu tərəfdaşlığın heç kimə qarşı olmadığını ifadə etsə də Rusiya köhnə coğrafiyasında meydana gələn bu əməkdaşlıqdan narahat olmaqdadır. Bunun üçün Avropa İttifaqı bu proqrama daxil olan ölkələri "Avropa İttifaqı və ya Rusiya" seçimi qarşısında qoymamalıdır. Nəticədə, Avropa İttifaqı bu ölkələrə "mərhələli inteqrasiya" müstəvisindən yanaşmalıdır. Beləki, Avropa İttifaqı buna nail ola bilərsə, bu ölkələrlə daim səmimi və davamlı münasibətləri təmin edə bilər. Yəni

ölkənin özünə xas xüsusiyyətlərini diqqətə alan bir siyasət izləməlidir. Bu səbəbdən ötəri Avropa İttifaqı "Şərq Tərəfdaşlığı" çərçivəsində gündəmləri, priotetləri və mövzulara yanaşmaları bir-birindən çox fərqli olan ölkələri eyni statusda qoymamalıdır. Ən vacib addım isə Cənubi Qafqazdakı "donmuş münaqişələrin" dövlətlərin ərazi bütövlüyü və regional əməkdaşlıq yönündən həll edilməsi olacaqdır. Digər əsas məsələ isə Avropa İttifaqı Cənubi Qafqaz regionuna mənfəət prizmasından baxmamalıdır.

Sonda isə bunu qeyd etmək lazımdır ki, əgər Avropa İttifaqı yaxın müddətdə yanına çəkmək istədiyi ölkələrlə bağlı yanaşmasını dəyişməsə, onları tamamilə itirəcək.

## ƏDƏBİYYAT


1. *Avropa Qonşuluq Siyasətində Azərbaycan: əməkdaşlıq və onun yeni üfüqləri, 27.10.2014, http://www.xalqqazeti.com/az/news/politics/49902*
2. *Avropa Qonşuluq Siyasəti nədir?, 16.07.2008, http://3view.az/articles/407/1/*
3. *Son Qafqaz savaşından 8 il keçdi, 08.08.2016, http://axar.az/news/104328*
4. *EU Eastern Partnership summit to be held in 2017, 12 .11.2016 , https://www.azernews.az/business/105007.html*
5. *http://eeas.europa.eu/delegations/azerbaijan/eu_azerbaijan/political_relations/eastern_partnership/index_az.htm*
6. *Moskva Azərbaycanı və daha 5 ölkəni hədələdi , http://virtualaz.org/bugun/45637 .*
7. *Azərbaycan beynəlxalq arenada, Səhifə 11, http://files.preslib.az/projects/republic/az/azr2_4.pdf*
8. *Azərbaycanın Avropa İttifaqı İlə əməkdaşlığı avroatlantik institutlara inteqrasiya kontekstində uğurla inkişaf edir, http://www.karabakh.az/news/?lang=az&i=172*
9. *Энергетическая стратегия россии на период до 2030 года, Səhifə 8, http://www.infobio.ru/sites/default/files/Energostrategiya-2030.pdf*
10. *Rusiya ilə Ukrayna arasında qaz nəqlinə dair danışıqlar uğursuzluqla başa çatıb, 30.12.2008, http://apa.az/dunya-xeberleri/mdb-olkeleri/rusiya-ile-ukrayna-arasinda-qaz-neqline-dair-danisiqlar-ugursuzluqla-basa-catib.html*
11. *Riqa sammiti niyə uğursuz oldu? - ŞƏRH - Bao.az , 25.05.2015 , http://bao.az/categories_Siyaset/subcategories_Siyasetparent/product_8080055800*
12. *Azərbaycanla Avropa İttifaqı arasında soyuqluğun səbəbi açıqlandı, 03.12.2015, http://qaynarxeber.az/siyaset/2614-azerbaycanla-avropa-ttifaqi-arasinda-soyuqlugun-sebebi-achiqlandi.html*
13. *Azərbaycan beynəlxalq aləmdə, Səhifə 32, http://files.preslib.az/projects/azerbaijan/gl9.pdf*



***Açar sözlər:*** *Avropa İttifaqı, "Şərq Tərəfdaşlığı", Avropaya inteqrasiya, Rusiya, Azərbaycan.*

***Key words:*** *European Union, "Eastern Partnership", integration to Europe, Russia, Azerbaijan.*

***Ключевые слова:*** *Европейский союз, «Восточное партнерство», интеграция в Европу, Россия, Азербайджан.*


## SUMMARY


It can be concluded that, the problems, in each of the countries includes "Eastern Partnership" Program, this partnership project has begun to lose its urgency. In fact, the project is thought right, but it has problems in implementation. There are at least five conflicts within Europe or it is at war with the neighboring country. In addition, there is no condition for them to ease Russian influence, so that factor decrease project's key of influence.

EU said that this partnership is not directed against anyone, but Russia is concerned about the cooperation that took place in its old geography. So, EU should not force the countries, included this program, to choose between "EU and Russia". Therefore, EU should approach to these countries in "gradual integration" plane. Thus, if EU achieves this, it can provide friendly and sustainable relations with these countries. It should follow a policy that takes account the unique feature of the country. In conclusion, we have to notice that if European Union doesn't change their concern towards associate, EU will lose them at all. The most important step is that "frozen conflicts" in the South Caucasus will be resolved in terms of territorial integrity of states and regional cooperation.

Another key issue is that EU should not look South Caucasus through the prism of profit.


## РЕЗЮМЕ


В работе исследуются проблемы, связанные с проблемой программы «Восточного партнерства» Европейского союза (ЕС). В ходе ее реализации наблюдалось множество проблем. Рассматриваются вопросы

Хотя США утверждает, что партнерство не склонно против кого-либо, Россия переживает за свое былое географическое положение. Для этого, ЕС не должен ставить перед выбором «ЕС-Россия» стран-членов. И так, ЕС должен вести «поэтапную интеграцию». В случае такого подхода, ЕС сумеет обеспечить искренние и крепкие отношения с ними. То есть должен учитывать специфические особенности каждого государства. Именно по этим причинам США стоит не ставить на одну планку страны с разными приоритетами и с различным подходом к вопросам. Главным шагом же будет разрешение «замороженных конфликтов» путем поддержки территориальной целостности и регионального партнерства. Еще одной причиной является, что взгляд ЕС на Южный Кавказ не должен быть с призмы получения доходов.

И в конце надо отметить, что если ЕС в ближайший период не изменит свой подход к странам, которых желает видеть в рядах партнерства, то полностью потеряет их.